AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL PROBLEMLƏRİ İNSTİTUTU

# *ELMİ ƏSƏRLƏR*
# *НАУЧНЫЕ ТРУДЫ*
# *RESEARCH PAPERS*

**2014, №1**

**BAKI – 2014**

*Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu Elmi Şurasının 20 fevral 2014-cü il tarixli iclasının (protokol № 1) qərarı ilə nəşr edilir.*

***Təsisçi: Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu***

***"Elmi əsərlər" məcmuəsi Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır***

***Məcmuə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə tövsiyə edilən nəşrlər siyahısına daxil edilmişdir***

***Baş redaktor:*** Qulu Novruzov

***Redaksiya heyəti:***
Yəhya Kərimov (*baş redaktorun müavini*), Akif Abbasov (*baş redaktorun müavini*), Əjdər Ağayev (*baş redaktorun müavini*), Zahid Qaralov, Gültəkin Hüseynova, Şəmistan Mikayılov, Ənvər Abbasov, Rəfiq Qəndilov, Mirzəli Murquzov, Fərahim Sadıqov, Camal Mustafayev, Seyidağa Həmidov, Talıb Paşayev, Müdafiə Mahmudov *(məsul katib).*

© ARTPİ, 2014

# ÜMUMPEDAQOJİ PROBLEMLƏR

## TƏHSİL FƏLSƏFƏSİ ÜMUMİ FƏLSƏFƏNİN TƏRKİB HİSSƏSİDİR

**Arif Bəşirov,**
*fəlsəfə elmləri üzrə fəlsəfə doktoru,*
*ARTPİ-nin aparıcı elmi işçisi*
E-mail: arif.beşirov.44@mail.ru

**Rəyçilər:** *prof.* **İ. Cəbrayılov,**
*dos.* **M. İbadova**

***Açar sözlər:*** *təhsil fəlsəfəsi, ümumi fəlsəfə, fəlsəfi kateqoriyalar, pedaqoji fikir və təhsil fəlsəfəsi, təhsil sistemi*

***Ключевые слова:*** *философия образования, общая философия, категории философии, педагогигеская мысль и философия образования, образовательная система*

***Key words:*** *philosophy of education, general philosophy, cateqories of philosophy, pedagogical thonght and philosophy education, educational system*

XX əsrin ortalarından başlayaraq təhsil fəlsəfəsi yeni elm sahəsi kimi ümumi fəlsəfədən ayrılmağa başladı. Belə bir proses, əsasən, aşağıdakı amillərlə bağlı idi:

1) fəlsəfi fikrin təkamülü prosesində baş verən meyllərlə;

2) təhsilin qarşısında duran mühüm problemlərin məhz fəlsəfi təfəkkür baxımından həllinə konstruktiv yanaşmaqla Sovetlər İttifaqında təhsil fəlsəfəsinə kifayət dərəcədə tələbat olmasına baxmayaraq, bu elm sahəsi XX əsrin son onilliklərinə qədər diqqətdən kənarda qalaraq inkişaf etdirilmədi. Təhsil fəlsəfəsinin xüsusi elmi istiqamət kimi formalaşmağa başladığı bir dövrdə isə Sovetlər birliyi dağıldı.

Təhsil fəlsəfəsi nədir? Təhsil fəlsəfəsi ilə ümumi fəlsəfə arasında nə kimi qarşılıqlı əlaqələr mövcuddur, yaxud mövcud olmalıdır. Şübhəsiz, təhsil fəlsəfəsi ilə ümumi fəlsəfə arasında olan qarşılıqlı əlaqələr konstruktiv mahiyyət kəsb edir, həm də bu əlaqələr ideya baxımından qarşılıqlı zənginləşməyə əsaslanır. Odur ki, hazırda mühüm elmi əhəmiyyət kəsb edən məsələlərdən biri təhsil fəlsəfəsinin əhatə etdiyi problemlərin ümumi fəlsəfədən başlıca fərqli xüsusiyyətlərini müəyyənləşdirməkdən ibarətdir.

İstər Rusiyada istərsə də Azərbaycanda, təhsil fəlsəfəsi xüsusi elmi istiqamət sahəsi kimi Sovetlər birliyi dağıldığı zamandan başlayaraq tədqiq olunmağa başlamışdır.

Tanınmış tədqiqatçı M.U. Fişerin fikrincə, təhsil fəlsəfəsinin bütün əlamətləri və formalaşması onun gözləri önündə baş vermişdir: Müəllif qeyd edir ki, bəzi tədqiqatçılar təhsil sahəsini tədqiq edərkən ümumi fəlsəfənin kateqoriyalarını və prinsiplərini bu sahəyə tətbiq etməyə cəhd göstərmişlər. Bu qəbildən olan müəlliflər problemə ciddi elmi dəlillərə əsaslanmadan yanaşır, sistemli yanaşma metodunu nəzərdən qaçırırlar. Odur ki, bir çox kateqoriyalar bir mövzu çərçivəsində tətbiq olunduqda belə müxtəlif mənalar və çalarlar kəsb edir. Deməli, təhsil fəlsəfəsinin obyekt və predmetinin düzgün müəyyən edilməsi mühüm elmi əhəmiyyətə malikdir. Bu məsələləri ətraflı tədqiq edərək öyrənmədən təhsil fəlsəfəsinin, ümumi fəlsəfə, pedaqogika, sosiologiya, psixologiya, məntiq, tarix, mədəniyyətşünaslıq kimi elmlərlə oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək qeyri mümkündür. Təhsil fəlsəfəsi fənlərarası xüsusiyyətlərə malikdir.

Təhsil fəlsəfəsinin xüsusiyyətləri tədqiqatçılara bu elmin biliklər sistemində yerini, tədqiqat obyektini müəyyən etməyə və səmərəli elmi axtarışlara yol açır. İndiyədək təhsil sahəsində bu və ya digər obyektlər tədqiq olunarkən hamı tərəfindən təsdiq olunmuş yanaşmalar mövcud olmadığından təhsil problemləri sabitləşmir və daim dəyişməyə məruz qalır. Belə bir vəziyyət təhsil sahəsində

elmi araşdırmalara, ənənəvi olmayan metod və priyomların tapılmasına və təşəbbüslərə, yeni ideyaların meydana gəlməsinə yol açır.

Təhsil fəlsəfəsi ümumi fəlsəfəyə inteqrasiya olunmaqla, onun nəzəri-metodoloji aparatını məzmununa uyğun dəqiqləşdirərək, xüsusi elmlərin topladığı biliklərdən istifadə etməklə, pedaqoji gerçəkliklərə, pedaqogikanın problemlərinə və pedaqogikada mövcud ziddiyyətlərin aradan qaldırılmasına dair təkliflər işləyib hazırlayır. Təhsil fəlsəfəsi pedaqogikanın mövcud problemlərinə dair faydalı təkliflər işləyib hazırlayaraq, təkliflər irəli sürərək, pedaqogikanın problemlərinə şərik çıxır və pedaqogikada islahatlar aparmaq üçün mümkün konseptual variantlar irəli sürür.

Təhsil fəlsəfəsi konsepsiyasına münasibət bildirən tanınmış alım V.M. Rozin qeyd edir ki, təhsil fəlsəfəsi nə fəlsəfədir, nə də elmdir. Təhsil fəlsəfəsi eyni zamanda metodologiya, fəlsəfə, aksiologiya, tarix, mədəniyyətşünaslıq kimi bütün reflektiv fənlərin yanaşma metodlarından və topladığı biliklərdən istifadə edir.

Təhsil fəlsəfəsinin başlıca məqsədi pedaqogika və təhsil olduğu üçün digər fənlərdən qəbul etdiyi bilikləri məna baxımından yenidən qiymətləndirir, pedaqoji fəaliyyətin hüdudlarını əsaslı şəkildə müəyyən etməyə, pedaqogikanın yeni binasının layihələndirilməsi yollarını müzakirə edərək müəyyən nəticəyə gəlməyə yol açır.

Tədqiqatçı P.Q. Şedroviçski pedaqogika ilə təhsil fəlsəfəsinin qarşılıqlı əlaqəsindən bəhs edərkən qeyd edir ki, pedaqogika həmişə müəyyən fəlsəfənin praktikası olmuşdur. A.P. Oqurçov təhsil fəlsəfəsinə münasibətini açıqlayarkən, həm Rozinin, həm də P.O. Şedroviçskinin təhsil fəlsəfəsinə dair ideyalarına qarşı çıxır. O qeyd edir ki, adları çəkilən tədqiqatçılar həm təhsil fəlsəfəsini, həm də pedaqogikanın onlara məxsus dəyərlərdən və müstəqillikdən məhrum etməyə cəhd göstərirlər. Oqurçov hesab edir ki, ümumiyyətlə, təhsil fəlsəfəsinin təhsil sistemi və təhsil mədəniyyəti üzərində mühüm rol oynamaması ideyası onun imkanlarının məhdudlaşdırılması deməkdir. O, hesab edir ki, təhsilin fəlsəfəsi indiyə qədər mövcud olmayan, hazırda formalaşmaqda olan, gələcəkdə təsdiq edilə biləcək məsələləri aşkar etməlidir. Əgər bu layihələri gerçəkləşdirməyə qadir sosial qüvvələr formalaşmasa, təhsil fəlsəfəsi qarşısında duran məsələləri həyata keçirmək mümkün olmayacaq.

Əlbəttə, təhsil fəlsəfəsi ümumi fəlsəfə kimi müəyyən layihələr, təhsil proyekti, təhsilin yenidən təşkili, gələcək dövrün məktəblərinin qurulması və s. məsələləri işləyib hazırlayaraq təkliflər şəklində irəli sürür. Təhsil fəlsəfəsinin irəli sürdüyü proyektləri həmişə sosiomədəni resurslarla əlaqələndirmək mümkün olmur. Təhsil fəlsəfəsinin işləyib hazırladığı layihələr zamanı qabaqlamaqla yanaşı, təhsil sisteminin və pedaqoji fikrin inkişaf perspektivlərini əvvəlcədən müəyyənləşdirir.

Təhsil fəlsəfəsi əsrlər boyu görkəmli filosofların sistemli təfəkkürünün tərkib hissəsi kimi mühüm əhəmiyyət kəsb etmişdir. Odur ki, təhsil fəlsəfəsi filosofların başlıca konsepsiyalarının tərkib hissəsi kimi inkişaf etdirilərək, sosiokultur gerçəkliyin xüsusi sahəsi olan təhsil sisteminə tətbiq olunmuşdur. Təhsil fəlsəfəsi həm qədim dövrdə, həm yeni dövrdə, həm də XX əsrdə də bu yolla inkişaf etdirilmişdir. XX əsrin birinci yarısında formalaşan təhsil fəlsəfəsi əsaslı fəlsəfi prinsipləri, gerçəklikdə, gündəmdə olan təhsil sisteminə və təhsilin yenidən qiymətləndirilməsinə tətbiq edərkən yuxarıda qeyd etdiyimiz prinsiplərdən çıxış etmişdir.

XX əsrin ortalarından başlayaraq vəziyyət dəyişməyə başladı. Belə ki, təhsil sahəsində ixtisaslaşmış filosofların və fəlsəfəyə pedaqogikanın problemləri baxımından maraq göstərən pedaqoqların ittifaqları və cəmiyyətləri yaradıldı. Odur ki, müasir fəlsəfədə təhsil fəlsəfəsinin ümumi fəlsəfədən ayrılması prosesini birtərəfli, yaxud neqativ hal kimi qiymətləndirmək elmi baxımdan düzgün hesab oluna bilməz. Bu prosesdə həm təhsil fəlsəfəsi, həm pedaqogika, həm də ümumi fəlsəfənin inkişafı üçün yeni yollar açılır.

Bununla belə, bir çox tədqiqatçılar “Təhsil fəlsəfəsi nədir?” yaxud “Təhsil fəlsəfəsinə münasibətiniz necədir?” kimi suallara fərqli cavab verirlər. Yeri gəlmişkən, bəzi tədqiqatçıların fikirlərini açıqlayaq:

A.Q. Asmolov hesab edir ki, təhsil fəlsəfəsi mədəniyyətin inkişaf etdirilməsi institutu olub, təhsilin prioritetləri (qabaqcıl yenilikləri A.B.) və təhsilin mahiyyəti haqda düşüncədir. Təhsil fəlsəfəsi öz imkanları daxilində müasir sivilizasiyanın təhsil strategiyasına təsir göstərir.

B.A. Karakovskiyə görə, təhsil fəlsəfəsi müasir çox ölçülü dünyanın fəlsəfəsinin bir sahəsidir.

Akad. İ.Y.Zerner iddia edir ki, təhsil fəlsəfəsi xüsusilə təhsilin ən ümumi məsələlərini araşdıraraq, təhsilin əsaslı məsələlərinə yanaşmağın paradiqmalarını şərtləndirir.

Akad. V.İ.Zaqvyazinski digər müəlliflərlə müqayisədə təhsil fəlsəfəsinin əhatə dairəsini daha geniş mənada şərh etmişdir. Onun fikrincə, təhsil fəlsəfəsi insan şəxsiyyətinin və fərdiyyətin formalaşmasına strategiyanın təsiri imkanları, istiqamətləri, insanın bacarıq və qabiliyyətinin gerçəkləşməsində əlverişli mühitin yaradılması üçün zəmindir. Təhsil fəlsəfəsi həm də qeyd olunan məsələlərə müvafiq baxışlar sistemi, qiymətləndirmə və dünya anlamı üçün ilk şərtdir.

Təhsil fəlsəfəsinə münasibət bildirən Rusiya Təhsil Akademiyasının müxbir üzvü Y.Q. Osovskinin gəldiyi qənaətə görə, təhsil fəlsəfəsi insanın mənəvi və təhsil məkanında yeri, genezisi, təhsilin qabaqcadan müəyyən edilməsi və əhəmiyyəti, şəxsiyyətin, cəmiyyətin, dövlətin taleyinə təsiri, təhsil sahəsində ziddiyyətli ideyaların qarşılıqlı əlaqəsi, təhsilin məqsəd və vəzifələri, təhsilin paradiqmaları haqda elmdir. Görünür, təhsil fəlsəfəsi və pedaqogikanın metodologiyası qarşılıqlı əlaqədə olub, ideya mübadiləsi etmək yolu ilə bir-birini zənginləşdirirlər.

Təhsil fəlsəfəsinin Cənubi Afrika Respublikasından olan tədqiqatçı alim Yoxann Roys hesab edir ki, təhsil fəlsəfəsi avtonom elm sahəsi olub, həm də təhsil haqda təfəkkür metodudur. Xüsusi elm sahəsi kimi təhsil fəlsəfəsi, təhsilin psixologiyasına, didaktikaya, müqayisəli psixologiyaya yaxın olub, bu elm sahələri ilə yan-yana durur. Pedaqoji faktların, proseslərin başlıca, ən ümumi xüsusiyyətlərini təsvir və dərk etməyə cəhd göstərir. Təhsil fəlsəfəsinin təhsil sahəsinə tətbiqi ümumi fəlsəfədən qaynaqlanır, başqa sözlə, ümumi fəlsəfənin təhsil sahəsinə tətbiq olunan müəyyən prinsiplər sisteminin məcmusudur.

ABŞ-ın Nyu-York şəhərindən olan tədqiqatçı alim Tomas Corc Kimni təhsil fəlsəfəsinin predmeti haqda belə fikirdədir ki, təhsil məsələlərinin həllinə dair hər hansı təşəbbüs və fəaliyyət, fəlsəfi düşüncə baxımından müəyyən edilməsə, bütün görülən işlər pedaqogikanın predmetindən və idarəedici funksiyasından kənarda qalacaq.

**Məqalənin elmi əhəmiyyəti.** Ümumi fəlsəfədən qaynaqlanan təhsil fəlsəfəsi ilə təhsil qarşılıqlı əlaqədə olub bir-birindən asılıdır və ümumi kökə malikdir. **Məqalənin praktik əhəmiyyəti.** Məqalədən bu sahə ilə maraqlananlar, (dissertantlar və doktorantlar) faydalana bilərlər.

## ƏDƏBİYYAT

1. Алексеев Н.Г. Философия образования и технология образования // Вопросы философии, 1995, №-11.

2. Зеленина Л.М. Философия образования и определение целей образования // Вопросы философии, 1995, №-11

3. Лосев А.Ф. История античной философии.М.: Мысль, 1989.

4. Mehrabov A. Müasir təhsil axtarışlar və prespektivlər. Bakı: Mütərcim, 2013.

5. Михайлов Ф.Т. Образование как философская проблема // Вопросы философии, 1995, №-11.

6. Cəbrayılov İ. Müasir təhsil: axtarışlar və prespektivlər. Bakı, 2013.

7. Смирнов С.Д. Педагогика и психология высшего образования. М.: Аспект-пресс, 1995.

8. Швырев В.С. Философия и стратегия образования // Вопросы философии, 1995, №-11

9. Xəlilov S. Elm haqqında elm. Bakı, 2011.

10. Xəlilov S. Elmşünaslığa giriş. Bakı, 2010.

**А. Баширов**

**ФИЛОСОФИЯ ОБРАЗОВАНИЯ КАК
СОСТАВНАЯ ЧАСТЬ ОБЩЕЙ ФИЛОСОФИИ**

**РЕЗЮМЕ**

В статье рассматриваются обособления философии образования от общей философии. Раскрываются тесная взаимосвязь и взаимозависимость общей философии и философии образования, а также их общие корни. Автор поддерживает мысли о том что, образование имеет философскую природу.

**A. Başirov**

**PHILOSOPLIY OF EDUCATION IS A COMPOSITE
PART OF GENERAL PHILOSOPLIY**

**SUMMARY**

The article reveals the philosoplıy of education isolated from general philosoplıy, discovers tight interconnected and interdependpendence general philosoplıy and of philosoplıy education and their general roots. Author supports the view that education has philosophical nature.

*Redaksiyaya daxil olub: 17.10.2013*

# PEDAQOJİ ANLAMDA ŞƏXSİYYƏT VƏ ZAMANIN TƏLƏBLƏRİ

**Mirhəsən Eminov,**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*Naxçıvan Dövlət Universiteti*
E-mail: mirhesenemin@yahoo.com

**Rəyçilər:** *dos.* **T.Paşayev,**
*dos.* **A. Hacıyev**

***Açar sözlər***: *şəxsiyyət, insan xarakteri, intellekt, əxlaq tərzi, əqli qabiliyyət, emosional aspektlər*
***Ключевые слова:*** *личность, человеческий характер, интеллект, моральное отношение, умственные способности, эмоциональные аспекты*
***Key words:*** *personality, human character, intellect, moral attitude, mental capacity, emotional aspects*

*Təbii sərvətlər tükənən dəyərlərdir, ancaq təhsil, bilik, elm əbədi,*
*hər bir ölkənin gücləndirilməsinə töhfə verən amildir.*
**İlham Əliyev**

Müasir dünyada şəxsiyyət anlayışı ilə bağlı problemlərin tədqiqi aktuallıq kəsb edir. Respublikamızda da bu problem diqqət mərkəzindədir. Azərbaycan Respubikasının Prezidenti cənab İlham Əliyevin neft kapitalını insan kapitalı ilə əvəzləndirmək ideyası, fikrimizcə, gənclərin şəxsiyyətcə düzgün formalaşmalarına hədəflənib. Ulu öndərimiz Heydər Əliyev məhz bu məsələlər barəsində dəfələrlə çox dəyərli fikirlər söyləmiş və təhsil işçiləri qarşısında böyük vəzifələr qoyulmuşdur: "Biz keçmişlərdən fərqli olaraq indi müstəqil Azərbaycanın gələcəyini, müstəqil Azərbaycanın vətəndaşlarını formalaşdırırıq və məktəbdə, universitetdə formalaşan gənc Azərbaycanın gələcək fəal vətəndaşı gərək mənəviyyatca saf olsun, mənəvi saflıq ali məktəblərdə, orta məktəblərdə hökm sürsün. Gərək gənc nəsil vətənpərvərlik hissi ilə yaşasın, vətənpərvərlik hissi ilə tərbiyə olunsun. Bunun üçün Azərbaycan müəllimləri, tərbiyəçiləri özləri vətənpərvər olsunlar, vətənpərvərliyi gənclərə aşılaya bilsinlər" [2]. Göründüyü kimi, dahi rəhbərimiz təhsil müəssisələrində gənclərin təliminə, tərbiyəsinə, mənəvi saflığına, eləcə də vətənpərvər olmalarına böyük önəm vermiş, bu sahədə görüləcək işlərin məzmun və istiqamətini müəyyənləşdirmişdir.

Bu gün ən müasir metod və texnologiyalardan istifadə etməklə uşaqları, yeniyetmələri və gəncləri fiziki cəhətdən sağlam, sosial və mənəvi cəhətdən yetkin şəxsiyyət kimi həyata hazırlamaq mühüm bir vəzifə kimi qarşımızda durur. Mütəxəssislərin fikrincə şəxsiyyət haqqında nəzəriyyələrin sayı 100-ü ötüb keçmişdir. Düşünürük ki, gələcəyimiz olan uşaqları, yeniyetmələri və gəncləri dəyərli şəxsiyyət kimi yetişdirmək üçün biz əvvəlcə onlarla əlaqədar nəzəriyyələrə dair, müasir dövrün tələblərini dərindən öyrənməli, uyğun təlim-tərbiyə işlərimizi o tələblərə sağlam təməllər üzərində qurmalıyıq. Şəxsiyyət termininin nələri ehtiva etdiyinə bir daha nəzər salaq. Şəxsiyyət anlayışına verilən təriflərdən biri belədir: "Şəxsiyyət idrakın, hisslərin və davranışın insanları fərqləndirən xarakterik xüsusiyyətləri ilə səciyyələnir" [7]. Tədqiqatçıların fikrincə, şəxsiyyət anlayışına baxış zaman etibarilə dəyişir. Amerika futuroloqları Con Nesbitt və Patrisiya Eburdinin nöqteyi-nəzərincə, XXI yüzillikdə çox böyük kəşflər elm və texnika tərəfindən deyil, "insan" anlayışına yeni baxış sayəsində həyata keçiriləcəkdir. Yəni insan barəsində təsəvvürlər daim dəyişməkdədir. Bir vaxtlar insanı ifadə edən "homo sapiens" (ağıllı adam) anlayışı geniş yer tuturdu. İllər keçdi, "homo habilis" (bacarıqlı adam) anlayışı yarandı. İndi də insanın yaradıcılıq imkanlarının genişliyinə diqqət yetirilir, "homo libens" və "homo piktor" (sənətkar, yaradıcı adam) yüksək qiymətləndirilir.

Araşdırdığımız ədəbiyyatlarda da şəxsiyyət anlayışına yanaşma zaman keç-dikcə fərqlənir. Azərbaycan dilində işlətdiyimiz "şəxsiyyət " sözü öz əsasını ərəb sözü olan "şəxs" sözündən götürmüşdür. İngilis dilində şəxsiyyət mənasını ifadə edən "personality" sözü isə öz əsasını iki latın sözündən - "per" və "sona" sözlərindən götürmüşdür. Bu sözlər Qədim Yunanıstanda və Roma imperiyasında

teatr tamaşasında aktyorun istifadə etdiyi “maskanı“ bildirirdi. Sonralar persona sözü “personality“ - “şəxsiyyət“ mənasında işlənmişdir. Bəzi tədqiqatçılara görə, qədim yunan fəlsəfəsində “şəxsiyyət” anlayışının fəlsəfi təhlilinin əsasında Sokratın insana müraciətlə dediyi “Özünü dərk et” ideyası dayanır. İnsanlıq tarixində dəyərli bir filosof kimi tanınan Sokrat Afinada anadan olmuş (b.e.ə. 470-399) və orada dəfn olunmuşdur. O, yaxşı təhsil almış, çox sadə bir tərzdə yaşamışdır. Sokratın heç bir yazılı əsəri yoxdur. Dünya onu iki şagirdi, Platon ve Ksenofanın yazdıqlarından tanıyır. Sokrat ardıcıl bir təhsil verməz, şagirdlərindən də təhsil haqqı almazmış. Sokrat “Özünü dərk et” ideyası ilə insanı fəlsəfi təhlil obyektinə çevirmişdir. Sokrata görə, insan kainatı dərk etməzdən əvvəl özünü dərk etməli və “Biz kimik?” sualının cavabını verməlidir.

Digər tədqiqatçıların fikrinə görə, şəxsiyyətin öyrənilməsi tibb elminin atası sayılan Hippokratın dörd humor (ünsür) ideyası ilə başlanmışdır. Dörd ünsür ideyası qədim Misirdə və Mesopotamiyada da mövcud olmuş, lakin bu ideyanı tibbi nöqteyi-nəzərindən əsaslandıran Hippokrat olmuşdur. Bu ideya Hippokratın ardıcılı Qalen tərəfindən inkişaf etdirilmişdir. Dörd humor nəzəriyyəsinə görə, insanın şəxsiyyəti onun bədənində olan dörd “humor”un, yəni sarı öd, qara öd, bəlğəm və qanın nisbətinə əsaslanır. Xolerik insanlar tez özündən çıxan olub sarı ödün ifratlığı ilə səciyyələndirilir. Qara ödün artıqlığı melonxoliya və pessimistliyin göstəricisidir. Fleqmatik insanlar bəlğəmin artıqlığı ilə seçilir və bu onları tənbəl, sakit təbiətli edir. Sonda yüksək səviyyədə qana malik olan insanlara sanqvinik deyilir və onlar şən, çılğın xasiyyətləri ilə seçilirlər. İnsan bədəninin dörd əsas humor adlanan maddədən ibarət olduğunu göstərən bu nəzəriyyə tərəfdarlarının fikrincə, sağlam insanda bu maddələr öz tarazlığını saxlayır. Bütün xəstəliklər bu maddələrin az və ya çox olmasından meydana çıxır. Yunanlar və romalılar sonralar müsəlmanlar və Qərbi Avropanın klassik tibbi fəlsəfə nümayəndələri qeyd edirdilər ki, bu dörd maddənin azalması və artması qidadan və fəaliyyətdən asılıdır. Antik yunan alimlərinin fikrinə görə, insan xarakterinin formalaşmasında yuxarıda qeyd edilən dörd ünsürün rolu böyükdür. Qeyd etmək lazımdır ki, Əbu Əli əl-Hussein bin Abdullah İbn-i Sina (bizim eramızın 983-1037 illəri) özünün “Tibb elminin qanunu” əsərində bu dörd humor nəzəriyyəsini təqdir etməklə yanaşı, insan şəxsiyyətinin formalaşmasında emosional aspektlərin, əqli qabiliyyətin, əxlaq tərbiyəsinin, mənlik şüurunun, insanın fəaliyyətinin və təxəyyülünün də rolunu qeyd etmişdir.

Göründüyü kimi, insan şəxsiyyətinin formalaşmasının tədqiqi məsələsi həmişə aktual olmuşdur. Zaman keçdikcə insan şəxsiyyətinin formalaşmasına aid bir sıra fərqli nəzəriyyələr meydana gəlmişdir. Şəxsiyyəti, hər şeyden əvvəl, cəmiyyətin bir üzvü kimi sosial keyfiyyətlər sistemini mənimsəmiş fərd kimi nəzərdə tutan K.Marksa görə, şəxsiyyətin mahiyyətini nə onun saqqalı, nə qanı, nə mücərrəd fiziki təbiəti deyil, sosial keyfiyyətləri təşkil edir. Bu fikrin tərəfdarlarına görə, hər bir insan bir fərd kimi dünyaya gələn bioloji varlıqdır, yəni o, heç kəsə oxşama-yan, özünəməxsus psixoloji xüsusiyyətləri olan təbii varlıqdır, eyni zamanda bu fərd şəxsiyyətə aid olan psixoloji xüsusiyyətləri özündə ehtiva edən sosial varlıqdır. Fərdin öz “mən”ini dərk etməsi səxsiyyətin formalaşması prosesində ilkin mərhələ hesab olunur. Mütəxəssislərin fikrincə, fərdin “mən”inin dərk edilməsi ilkin uşaqlıq dövründə bas verir. Beləliklə, insan öz inkişafında müxtəlif yaş dövrlərindən keçdikcə onun şəxsiyyətinin inkişafında müəyyən dəyişikliklər baş verir.

Z. Freydə görə, şəxsiyyət 3 əsas sistemdən ibarətdir: id, eqo və super-eqo. İD – şəxsiyyətin başlanğıc sistemi hesab olunur. İd instinktlər də daxil olmaqla, özündə bütün anadangəlmə psixi olanları birləşdirir. EQO – (latınca “eqo” mən deməkdir) bu tapşırığın həllinə cavab verən psixi aparatdır. Eqo orqanizmin təhlükəsizliyini və özünümüdafiəsini təmin edir. SUPER EQO – (latınca “super” ideal, “eqo” mən deməkdir) inkişaf edən şəxsiyyətin sonuncu komponentidir. Freydə görə, insan orqanizmi super eqo ilə doğulmur. Hər şeydən əvvəl uşaqlar valideynlərin, müəllim və formalaşdıran fiqurların köməyi ilə eqoya malik olmalıdırlar. Şəxsiyyətin mənəvi-etik gücü olan super eqo uşağın öz valideynlərindən normal asılılığı kimi başa düşülür. Buradan belə bir qənaətə gəlmək olur ki, insan bir fərd kimi doğulur, cəmiyyət içərisində yaşadıqca, yaş dövrlərinə uyğun olaraq müəyyən sosial keyfiyyətlər kəsb edərək şəxsiyyətə çevrilir. Araşdırılan ədəbiyyatlara istinadən demək olar ki, insan şəxsiyyətinin fomalaşmasında Hippokratın, İbn-Sinanın K. Marksın, Z.

Freydin və digər mütəxəssislərin fikirlərinə müsbət yanaşılır. Tədqiqatçılara görə, şəxsiyyətin formalaşması bir sıra digər amillərə də əsaslanır. Bu amilləri xarakterizə etmək üçün görkəmli Azərbaycan pedaqoqlarına istinad edəcəyik. Professor Nurəddin Kazımov qeyd edir ki, adamlarda xarakterik xüsusiyyətlər müxtəlif olur: birində əməksevərlik, digərində tənbəllik, birində səliqəlilik, başqasında səliqəsizlik, birində yaşlılara qayğı, o birində yaşlılara biganəlik və s. İnsan xarakterini səciyyələndirən bu cür əlamətlərin formalaşmasına təsir göstərən nədir? Bu sual çoxlarını düşündürmüş və indi də düşündürür. Nurəddin Kazımov şəxsiyyətin formalaşmasında irsiyyətin, mühitin, pedaqoji prosesin və şəxsi əməyin rolunu geniş izah edir və belə nəticəyə gəlir ki, adamın irsi imkanları, onu əhatə edən mühit, aparılan tərbiyə və şəxsi fəaliyyət əsasında yaranmış qarşılıqlı əlaqələr; bir-birinə təsir göstərir, bir-birini şərtləndirir. Məsələ şəxsiyyətin formalaşmasında hansı amil və ya amillərin həlledici əhəmiyyət kəsb etdiyini müəyyənləşdirməkdədir [8, s. 84]. Müasir filosofların çoxu belə hesab edirlər ki, şəxsiyyət onu təşkil edən üç cəhətin məcmusudur: biogenetik qabiliyyət (imkan), sosial amillərin təsiri (mühit, şərait, normalar, tənzim edicilər) və onun psixo – sosial nüvəsi – "mən" i. [3, s. 277]. Maarifçi filosoflar şəxsiyyətin əsasında mənəvi mahiyyət olaraq zəkanı qoymuşlar. XIX əsr filosofları da şəxsiyyətin əsasında mənəvi başlanğıcı şəxsiyyətin formalaşmasının əsası saymışlar [3, s. 278].

Ə.X. Paşayev və F.A. Rüstəmova görə, pedaqogika və psixologiyada şəxsiyyətin inkişafı ilə bağlı üç əsas: bioloji, sosioloji, biososioloji istiqaət vardır. Bioloji istiqamətin nümayəndələri şəxsiyyəti sırf təbii varlıq hesab etməklə onun bütün davranışını anadan olarkən özü ilə gətirdiyi, ona xas olan tələbatların, maraqların, instinktlərin təsiri ilə izah edirlər.

Sosioloji istiqamətin nümayəndələri insanın bioloji varlıq kimi doğulmasını qəbul etməklə yanaşı, ünsiyyətdə olduğu sosial qrupların təsiri ilə tədricən sosiallaşması fikrini müdafiə edirlər. İnsanın sosial inkişafı onun cəmiyyət həyatına daxil olması ilə başlayır.

Biososial istiqamətin nümayəndələrinin fikrincə, psixi proseslərin (duyğu, qavrayış, təfəkkür və s.) bioloji təbiəti (xassəsi) olsa da, şəxsiyyətin təcrübəsi, siyasi, əxlaqi-mənəvi baxışları, maraqları, qabiliyyətləri və s. sosial hadisələr kimi formalaşır[6, s.78]. Ə.X. Paşayev və F.A. Rüstəmov qeyd edirlər ki, insan şəxsiyyət kimi doğulmur. İnsan ancaq sosiallaşma prosesində, yəni ünsiyyət prosesində, başqa insanlarla qarşılıqlı əlaqədə şəxsiyyət olur. İnsanın inkişafının baş verdiyi reallıq mühit adlanır. İnsan şəxsiyyətinin inkişafına təsir göstərən amillər təbii və sosial mühit anlayışına daxildir. Sosial mühit dedikdə insanın həyat fəaliyyətini, inkişafını əhatə edən şərait nəzərdə tutulur. Sosial mühit anlayışı ictimai quruluşu, istehsal münasibətləri sistemini, maddi həyat şəraitini, istehsal və sosial proseslərin başvermə xarakterini əhatə edir.

Sosial mühit əlverişli qurulduqda şəxsiyyətin təbii imkanlarının inkişaf etməsinə şərait yaranır. Şərait əlverişli olmadıqda rəssamlıq, memarlıq, musiqi və s. qabiliyyəti olan insanlar adi ömür yaşayır, onlardakı istedad, qabiliyyət sosial şərait (geniş və işıqlı mənzil, uşaqlar üçün xüsusi guşə, pulsuz təhsil almaq üçün məktəb, tədris və yazı ləvazimatı, asudə vaxtın düzgün təşkili üçün şərait, qabiliyyət və istedadı inkişaf etdirəcək stadion, dərnək, klub və s.) tapmadığından qapalı qalır. Sosial şəraitin təmin olunması insanın normal inkişafına, tərbiyənin düzgün qurulmasına böyük təsir göstərir. [9, s. 84]. Yusif Rüstəmov "Fəlsəfənin əsasları" kitabında qeyd edir ki, cəmiyyətə münasibətdə insanın rolunu mütləqləşdirmək hiperindividualizm adlanır. İnkişaf etmiş Qərb ölkələrində indiki zamanda sinif, yaxud hər hansı sosial təbəqə deyil, məhz fərd (individ) diqqət mərkəzində durur. İlk növbədə fiziki-bioloji şəxsiyyət, yaxud "mən" adlanan insan anlayışı irəli sürülür. Bu, şəxsiyyətin ən dayanıqlı cismani xassələrə və özünü hiss etməyə əsaslanan komponentidir. Sosial şəxsiyyət cəmiyyətdə başqaları ilə ünsiyyətdə formalaşan şəxsiyyətdir. Şəxsiyyətin mənəviyyatı insan mənliyinin üzərində hər şeyin dayandığı görünməz təməldir, onun nüvəsidir. Şəxsiyyətin bütün bu tərəfləri sistem təşkil edir və bu sistemin hər bir elementi insan həyatının müxtəlif mərhələlərində müəyyənedici əhəmiyyət qazana bilər [10, s. 411].

Dünya sürətlə dəyişir və qloballaşır. Qloballaşan dünyada ölkə əhalisinin həyat səviyyəsinin yüksəldilməsi onun rəqabət qabiliyyətliyinin göstərcisi ilə bağlıdır. Bu zaman ölkə əhalisinin təhsil səviyyəsi, intellektual potensialı, siyasi iradəsi və milli birliyi mühüm rol oynayır . Biliklər, innovasiyalar və onların tətbiqi dəyər mənbəyi hesab edilir. Belə olan təqdirdə, biz təhsilimizin keyfiyyətini yüksəltməklə yalnız bilik, bacarıq, vərdişləri və dünyagörüşünü inkişaf etdirmirik, həm

də öyrətdiyimiz şagird və tələbələrin həyat səviyyəsini yüksəltmiş oluruq. Bu baxımdan görkəmli Amerika pedaqoqu Fillip Şlextinin fikirləri çox maraqlıdır. Fillip Şlexti özünün "XXI əsrin məktəbi. Təhsil islahatının prioritetləri" əsərində yazır ki, o, sahibkarlarla, iş adamları və məktəb funksionerləri ilə çoxsaylı sorğular aparmış və belə bir suala cavab istəmişdir? "Siz məktəbdən nə istəyirsiniz? " Cavab isə belə olmuşdur: "Bizə elə insanlar lazımdır ki, onlar müstəqil, sərbəst öyrənməyi bacarsınlar". Müəllif bununla demək istəyir ki, əgər şagird müstəqil öyrənməyi, məqsədinə çatmaq üçün yollar tapmağı, bu və ya digər problemləri həll etməyi və problemin həlli üçün müxtəlif informasiya mənbələrindən istifadə etməyi bacararsa, peşəkarlıq səviyyəsini yüksəltmək onun üçün çox asan olacaqdır.

Aparılmış təcrübələrin nəticəsi kimi belə bir fikir formalaşmışdır ki, təhsil sisteminin inkişaf istiqamətlərinin baş strategiyası şagird şəxsiyyətinin pedaqoqun, psixoloqun diqqət mərkəzində durmasından, tədris prosesində müəllimin şagirdə münasibətinin dəyişməsindən, şagirdi şəxsiyyət kimi görməsindən ibarətdir. Elə bu səbəbdən də inkişaf etmiş ölkələrdə təhsil şagird-dərslik-müəllim sistemində qurulmuşdur.

A. Həsənov və Ə. Ağayevin "Pedaqogika" dərsliyində qeyd olunur ki, müəllim professioqramında əsas yeri onun şəxsiyyət olması tutur. Buna görə də müəllim şəxsiyyətinin əsasında sosial-mənəvi, peşəkar-pedaqoji və elmi idrak səviyyəsi durmalıdır. Müəllim vətəndaş olmaqla öz xalqını və dövlətini təmsil edir. Onun vəzifəsi xalqın milli-mənəvi dəyərləri əsasında vətəninə sədaqətli, möhkəm əqidəli, yüksək ideyalı və mükəmməl bilikli vətəndaş tərbiyə etməkdir. Müəllim işinin mahiyyəti yalnız biliyə yiyələndirmə deyil, eyni zamanda şəxsiyyət yetişdirmək kimi, ali məqsədi yerinə yetirməkdir. Bu səbəbdən müasir müəllimlərdən yüksək vətəndaşlıq mədəniyyəti, ictimai fəallıq, uşaqlara doğma məhəbbət, şəxsi nümunə, əsl ziyalılıq, mənəvi mədəniyyət, başqaları ilə birlikdə işləmək, fiziki və psixi sağlamlıq tələb olunur [6, s.293].

**Məqalənin elmi yeniliyi:** Ənənəvi təhsil anlayışının transformasiyaya uğradığı bir dövrdə müəllim təlim və tərbiyənin köməyi ilə tədris materialının şüurlu mənimsənilməsi üçün innovativ yanaşmalardan səmərəli istifadə edə bilər.

**Məqalənin praktik əhəmiyyəti:** Məqalədən öyrədənlərə öyrənənlərin hər birinin imkanlarını fərdi qaydada nəzərə alaraq, onların vətən üçün dəyərli bir şəxsiyyət kimi yetişmələrində istifadə oluna bilər.

## ƏDƏBİYYAT


1. AMEA-nın Xəbərləri, 2010, №1
2. "Azərbaycan" qəzeti, 2011, 13 yanvar
3. Cəlilov M.F. Fəlsəfənin əsasları. Bakı: Maarif, 1996.
4. Dəmirov A.H. Məmmədov S.M.İsmayılov Ş.N. Yeni təlim texnologiyaları və müasir dərs. Bakı, 2007.
5. Eminov M.S. Təlimdə fəallıq. Naxçıvan: Məktəb, 2009, 166 s.
6. Həsənov A., Ağayev Ə. Pedaqogika, Bakı: Nasir, 2007, 496 s.
7. Holder, M. D., Klassen, A. (2010). Temperament and happiness in children. J Happiness Stud, 11, 419-439.
8. Kazımov N.M. Məktəb pedaqogikası. Bakı: Çaşıoğlu, 2005.
9. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika. Bakı: Caşıoğlu, 2002.
10. Rüstəmov Y. Fəlsəfənin əsasları Bakı: Nurlan, 2007.
11. Sadiqov F.B. Pedaqogika. Bakı: Adiloğlu 2009.
12. Təhsildə Qloballaşma və İKT Mövzusunda Beynəlxalq Konfransın Materialları, 17-19 May 2008
13. http://azerdict.com

**M. Эминов**

## ЛИЧНОСТЬ КАК ПЕДАГОГИЧЕСКОЕ ПОНЯТИЕ И ТРЕБОВАНИЯ ВРЕМЕНИ


### РЕЗЮМЕ

В статье рассказывается о четырех телесных элементах Гиппократа. Эта идея усовершенствовалась его преемником Галеном во втором столетии до нашей эры. Считалось, что человеческая личность основывается на четырех телесных элементах: жёлтая желчь, чёрная желчь, слизь и кровь. В статье даётся краткое определение личности человека. Основное внимание в статье уделяется развитию личности студента и учителя. Отмечается, что ценность, вера, решительность и поступки людей во многом зависят от человеческой личности. В статье также уделяется внимание воспитательным возможностям психологических сил в процессе обучения.


**M. Eminov**

## PERSONALITY, IN A PEDAGOGICAL SENSE AND DEMANDS OF THE TIME


### SUMMARY

While there are many different theories of personality, the first step is to understand exactly what is meant by the term personality. Student's and teacher's personality types was the main focus in the article. However, the findings were not clear-cut and need further investigation. People's values, beliefs, decisions, and actions will be greatly influenced by dimensions in their typology. In the article the place is given to the ways which are used both to reveal the opportunities of training and amendment of psychological forces.


*Redaksiyaya daxil olub: 23.09.2013*

# TƏHSİL MENECERLƏRİNİN HAZIRLANMASINDA TƏLİM KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNƏ NƏZARƏT

**Məmməd Kazımov,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent,*
*ARTPİ-nin aparıcı elmi işçisi*
E-mail: memmedkazim @mail.ru

**Rəyçilər:** *ped.elm.dok.* **P.Əliyev,**
*dos.* **A.Hacıyev**

***Açar sözlər:*** *təhsil meneceri, ixtisas artırma, pedaqoji ustalıq, keyfiyyət, yerli idarəetmə orqanları, nəzarət mexanizmi*

***Ключевые слова:*** *менеджер образования, повышение квалификации, педагогическое мастерство, качество, местные органы власти, механизм контроля*

***Key words:*** *manager of education, improving skills, pedagogical skill, quality, local authorities, the control mechanism*

Təhsilin keyfiyyəti cəmiyyətin inkişafının təkanverici göstəricisi olub fəlsəfi kateqoriyaya daxildir. Ona görə də təhsil alanların bilik səviyyəsinə təsir edən göstəricilər təlim prosesində formalaşmanın yekun nəticəsi kimi qiymətləndirilir.Təhsilin keyfiyyəti səmərəli təlim prosesini təmin edən təhsil standartları (təhsil normaları) elmi cəhətdən əsaslandırılmalı və müasir elmi təcrübəyə söykənməlidir.Təlim prosesinin nəticələrini belə standartlarla müqayisə etməklə onun istənilən nəticədə əldə edə biləcək və uyğun olmasını bilmək və vaxtında gedişini lazımi istiqamətə yönəltmək olar.Səmərəli təlim prosesi normativlərini ixtisasartırma və yenidən hazırlanma ilə məşğul olan təhsil müəssisələrində, yerli idarəetmə orqanları rəhbərləri və təhsil müəssisələri rəhbərləri üçün təşkil edilən təlim kurslarında çalışan müəllimlər bilməlidirlər ki, bu iş pedaqoji şüurun əsas hissəsinə çevrilməlidir.Bu halda təlimin keyfiyyətini iki faktorla aydınlaşdırmaq olar:

- müəllimlərin pedaqoji şüurunun pedaqogikanın müasir prinsipləri və kurikulum tələbləri səviyyəsində formalaşdırılmasını təmin etmək;
- müəllimlərin bacarığını, pedaqoji ustalığını, təlim keçənlərə təlim şəraitinin yaradılmasını və təlim şəraitinə uyğunlaşdırılmasını təmin etmək.

Yerli idarəetmə orqanları və təhsil müəssisəsi rəhbərlərinin ixtisasartırma və yenidən hazırlanma təliminin keyfiyyəti çoxsahəli və mürəkkəb funksiya ilə xarakterizə olunduğundan nəticələrin qiymətləndirilməsi üçün variantlar yaradılarkən sistemli yanaşmalardan istifadə edilməsi ən vacib şərtlərdən biri hesab olunur. İxtisasartırma, yenidən hazırlama və təlim kursları fəaliyyət göstərən təhsili müəssisələrində müdavimlərin nailiyyətlərinin və ixtisas üzrə qazandıqları biliklərin qiymətləndirilməsinin təhlili göstərir ki, eyni qrupda ixtisasını artıran müdavimlərin fəaliyyətinin müxtəlif öyrədənlər tərəfindən ölçülməsi və qazanılan biliklərə verilən qiymətlər bir-biri ilə ziddiyyət təşkil edir, bu prosesdə subyektivlik özünü göstərir.Öyrədənin bacarığı ondan ibarət olmalıdır ki, nəzarət və qiymətləndirmə zamanı araşdırmalar apararaq subyektivliyi aradan qaldırmağa nail ola bilsin.

Ümumiyyətlə, pedaqoji kadrların rəhbər işçilərin yenidən hazırlanması və ixtisasının artırılması ilə məşğul olan təhsil müəssisələrinin fəaliyyətinə nəzarət edilməsi əsas məsələlərdən biridir. Bu məsələ həm nəzarət və həm də monitorinq yolu ilə həyata keçirilir. Belə monitorinqin həyata keçirilməsi üçün obyektlər müəyyən edilməli , materiallar seçilməli və mərhələlər müəyyənləşdirilməlidir. Ən əsası isə dinləyicilərin səviyyəsi və ixtisasına görə hazırlığı nəzərə alınmaqla qiymətləndirmə vasitələri (testlər, suallar və s.) hazırlanmalıdır. Monitorinq üç mərhələ üzrə təşkil olunur və həyata keçirilir.Bunlara əsasən hazırlıq mərhələsi, əsas mərhələ, analitik təhlil mərhələsi aiddir. Təlim kurslarına nəzarətin təşkili dörd səviyyədə həyata keçirilməlidir.

1. dinləyicilərin (təlim kurslarında iştirak edənlərin)biliyinin səviyyəsinin monitorinqinin keçirilməsi;

2. öyrədənin (metodist müəllimin) biliyinin səviyyəsinin monitorinqi və onun hesabatının dinlənilməsi;

3. qrup rəhbərlərinin fəaliyyətinin monitorinqi və onların nəticəyönümlülüyünün səviyyəsi;

4. təhsilin idarə olunmasında iştirak edən şəxslərin \fəaliyyətinin kurikulum tələblərinə uyğun yerinə yetirilməsinin monitorinqi.

Yerli idarəetmə orqanları rəhbərlərinin və tədris müəssisələri direktorlarının ixtisasartırma və yenidən hazırlanma təhsilinə nəzarətin monitorinqinin keçirilməsi və qiymətləndirilməsi yenilikdir. Təlim kurslarına nəzarət və aparılan monitorinqlər həm daxili, həm də xarici olmaqla iki mərhələyə bölünür:

1-ci mərhələ. Bu mərhələdə nəzarət və monitorinqlər əlavə təhsil aparan təhsil müəssisələri və təlim kursları tərəfindən həyata keçirilir.

2-ci mərhələ. Bu mərhələdə nəzarət və monitorinqlər Təhsil Nazirliyinin yaratdığı xüsusi komssiyalar, akkreditasiya şöbələri tərəfindən həyata keçirilir.

Monitorinqlər zamanı təlim kurslarının fəaliyyəti və həyata keçirdikləri tədbirlər diaqnostik və summativ qiymətləndirmələr aparılır. Summativ qiymətləndirmə başa çatdıqdan sonra yekun olaraq dinləyicilərə sertifikatlar verilir. Bu srrtifikatların dərəcəsinə uyğun stimullaşdırıcı tədbirlər zamanı təlim kursunun dinləyicilərinin xeyrinə olaraq nəzərə alına bilər.

İxtisasartırma və yenidən hazırlanma təhsili ilə məşğul olan təhsil müəssisələrində və təlim kurslarında nəzarət, monitorinq və qiymətləndirmə sahəsində hər hansı yenilikçi tədbir tətbiq edərkən, tədris keyfiyyətinin yüksəldilməsi və müasirləşdirilməsi üçün tədbir həyata keçirərkən beynəlxaq təcrübədən geniş istifadə edilməlidir.Bu zaman inkişaf etmiş dünya və Avropa dövlətlərinin o cümlədən, Türkiyənin, Almaniyanın, İngiltərənin, Yaponiyanın, Rusiyanın, Fransanın, bu kimi digər döylətlərin modellərindən istifadə edilməsi daha məqsədəuyğun hesab olunur.

Respublikada təhsilin keyfiyyətinin monitorinqinin keçirilməsini koordinasiya və nəzarət edən əsas orqan Təhsil Nazirliyidir. Təhsil Nazirliyinin əmr və sərəncamları vasitəsilə monitorinqin və qiymətləndirmənin tənzimlənməsi idarə olunur. Bu idarəetmədə monitorinqə təhsilin keyfiyyətinə nəzarət mexanizmi kimi baxılır.Həmin proses ixtisasartırma və yenidən hazırlanma təhsilinə və menecer hazırlığında iştirak edən yerli idarəetmə orqanları rəhbərlərinə və təhsil müəssisəsi direktorlarına da şamil edilməlidir. İxtisasartırma və yenidən hazırlanma təsilinin keyfiyyəti onun əvvəldən müəyyən edilmiş tələblərə uyğun gəlməsi, ixtisasına uyğun olaraq dinləyicinin, ixtisasartırma təhsili müəssisəsinin və dövlətin müəyyən tədbirlərini təmin edən xüsusiyyətlər toplusudur.

Nəzarət həyata keçirərkən müəyyən vaxt ərzində təhsil sisteminin inkişaf mərhələləri və qəbul olunmuş qərarlardan alınan nəticələr müəyyən edilir. Daha doğrusu ixtisasartırma təhsilində aparılan monitorinq həyata krçirilmiş pedaqoji fəaliyyətin müəyyənləşdirilməsi və qiymətləndirilməsi prosesi olduğu aydınlaşdırılır. Bu zaman pedaqoji fəaliyyətin və əldə edilən nəticələrin son məqsədi ilə uyğunluğu arasında qarşılıqlı əlaqəni təmin edir. Göstərilənlərdən belə nəticə çıxarmaq olar ki, monitorinq əsl mənada hər hansı hadisələrə müdaxilə onların inkişafının dinamikası haqqında məlumatların toplanması, təhlili sistemə salınması, inkişafı haqqında proqnozların verilməsi və müvafiq qərarların qəbul olunması müəyyənləşdirən prosesdir.

Monitorinq və nəzarətin aparılması bütün tədris sahələrində olduğu kimi, ixtisaartırma və yenidən hazırlanma kurslarında aparılması metodikasına müşahidə, təhlil, özünütəhlil, testləşdirmə, anketləşdirmə, yoxlama, nəzarət və ekspert qiymətləndirməsi aiddir. Bu metodlardan istifadə edərək monitorinq aşağıdakı ardıcıllıqla həyata keçirilsə, problem baş verməz:

- monitorinq zamanı istifadə olunacaq məlumatların toplanması;
- nəzarət olunacaq təhsil müəssisələri monitorinqinin müəyyən edilməsi və parametrlər üzrə əsaslandırılması;
- alınan informasiyalarn saxlanması və onun tətbiqinin təmin edən məlumatlar bazasının yaradılması;
- monitorinqin nəticələrinə dair əldə olunan məlumatların yenidən emal edilməsi;
- nəzarət və monitorinq apararkən alınan məlumatların təhlili və izahlı şərhi;

- monitorinq zamanı aparılan təhlilin nəticələrinə uyğun olaraq nəticə sənədlərinin hazırlanması;
- monitorinqdən alınan nəticələrin istifadə edənlər arasında paylanması.

İxtisasartırma və yenidən hazırlanma ilə məşğul olan təhsil müəssisələrnin

tədrisin keyfiyyətinin yüksəldilməsinə yeni mövqedən yanaşmalarından biri də burada çalışan metodistlərin kurikulum tələblərinə uyğun hazırlığı və ixtisası üzrə kryfiyyətin yüksəldilməsindən ibarətdir. Bu məqsədlə pedaqoji kadrların ixtisasartırma və yenidən hazırlanmalarında fəaliyyət göstərən metodist-müəllimlərin vaxtaşırı (hər 5 ildən bir) attestasiyalarının keçirilməsi, onların əmək və pedaqoji stajını nəzərə almaqla işə qəbul edilməsi müsabiqə yolu ilə həyata keçirilməsi və ixtisasartırma təhsili müəssisələrində çalışan metodist-müəllimlərin özlərinin ixtisaslarının artırılması və müəyyən sertifikat verən kurslarda iştirak edərək kurslarda keçmələri zəruri hal kimi ön plana çəkilməlidir. Yerli idarəetmə orqanları rəhbərlərinin və təhsil müəssisəsi direktorlarının, digər pedaqoji işçilərin ixtisasının artırılması və yenidən hazırlanması təhsilindən sonra keyfiyyət göstəricilərinin səviyyəsinin yoxlanılması və bu işə nəzarətin vaxtında aparılması vacib məsələ kimi həmişə diqqət mərkəzində olmalıdır. Bu proses təkcə dinləyicilərin deyil, həm də ixtisasartırma aparan və əlavə təhsil verən tədris müəssisələrinin məsuliyyətinin artmasına və ixtisasartırma üzrə təhsilin keyfiyyətli təşkil edilməsinə əsaslı zəmin yaradar.

İxtisasartırma və yenidən hazırlanma təhsilini müasır tələblər baxımından təşkil etmək üçün başqa təhsil sahələrində (ümumorta, orta ixtisas və ali təhsil) olduğu kimi dövlət təhsil standartları və kurikulumun tələblərini tətbiq etmək lazımdır.Belə ki, kurs dinləyiciləri ilə dərs apararkən ayrı – ayrı fənlər üzrə məzmun standartlarının tələblərini ön plana çəkmək məqsədəuyğyn olardı, çünki, bu fənlər üzrə məzmun standartları dinıəyicilərin bilik və bacarıqlarına qoyulan ümumi dövlət tələbidir. Məzmun standartları inteqrativ təlim nəticələri olub müəyyən mərhələdə şagirdin əldə etməli olduğu bilik, bacarıq və vərdişlərin ümumi şəkildə ifadə etdiyi üçün dinləyicilər (müdavimlər) məzmun standartlarını dərindən öyrənməlidirlər ki, onlar da çalışdığı tədris müəssisələrində həmin məzmun standartlarını həm fənn müəllimlərinə və həm də dərs dediyi şagirdlərə öyrədə bilsinlər. Məzmun standartlarının funksiyaları aşağıdakılardan ibarətdir.

- hər hansı fənn üzrə müəyyən olunmuş təlim nəticələrini məzmun xətləri üzrə ümumi şəkildə ifadə etməsi mümkün olsun;
- dinləyicilər ixtisas fənləri daxil olmaqla bütün fənlər üzrə summativ qiymətləndirmənin aparılmasında istifadə edə bilsinlər;
- bu zaman alt standartların funksiyaları əsasən, aşağıdakılardan ibarət ola bilər:
- təlimin məqsədlərini müəyyən olunması üçün məqsədli zəmin yaradır;
- fənlər üzrə təlim strategiyasının düzgün keçirilməsində mühüm rol oynayır;
- bütün təlim növlərində inteqrativ təlim metodlarının tətbiqini təmin edir;
- təlim zamanı məzmunun ardıcıllığının və davamlılığının inkişafında yardımçı və təminatçı rolunu oynayır.

Qiymətləndirmə standartlarının mahiyyətinə müasir tələblər baxımından yanaşsaq onun aşağıdakılardan ibarət olduğunu aydın görərik:

- təhsilin müəyyən mərhələsində menecer hazırlığı və digər kurslarda təhsil alanların ixtisasının artırdığı fənn üzrə əldə etdiyi nailiyyətin səviyyəsinə qoyulan dövlət tələbi hesab edilir;
- təhsil alanların hər hansı mərhələsində müəyyən olunmuş səviyyələr üzrə əldə etməli olduğu bilik və bacarıqların kəmiyyət və keyfiyyət göstəricisi olduğu görünür;
- məzmun standartlarının hansı səviyyədə reallaşdığını yoxlamaq üçün istifadə edilir;
- kurs dinləyiciləri ilə təlim apararkən onlar elə öyrədilməlidir ki, dərs apardığı dinləyicilərin bilik və bacarıqlarında hər hansı inkişaf dəyişiklikləri baş verərsə onun dərəcəsini müəyyən etmək mümkün olsun.

Göstərilənlərə əsasən qimətləndirmə standartları 4 səviyyə üzrə həyata keçirilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Azərbaycan Respublikasının təhsil sistemində Qiymətləndirmə Konsepsiyasında" qeyd olunur ki, yuxarıda göstərilən birinci səviyyəni bütün

təhsil alanlara dördüncü səviyyəni isə daha istedadlı şagirdlər mənimsəyə bilərlər. Fənn kurikulumlarının əsas prinsiplərindən çıxış edərək bu qiymətləndirməyə düzgün yanaşma forması olur, həm də dövlət təhsil standartlarının qoyduğu tələbləri yerinə yetirir.

**Məqalənin aktuallığı.** Təhsil menecerlərinin hazırlanması və ixtisasının artırılması zamanı dinləyicilərlə aparılan təlimin keyfiyyətinin artırılmasında müasir təlim texnolgiyalarından istifadənin vacibliyi, keyfiyyətin yüksəlməsinə təsir göstərən bəzi tədbirlərin həyata keçirilməsi və keyfiyyətə müasir nəzarət mexanizminin tətbiqi göstərilir.

**Məqalənin elmi əhəmiyyəti.** Məqalədə təhsil menecerlərinin hazırlanması və onların ixtisasının artırılmasında təlimin keyfiyyətinin yüksəldilməsində istifadə olunan təlim vasitələrindən istifadənin elmi əsasları verilmiş və keyfiyyətə nəzarətin təhsil standartları tələblərinə uyğun tətbiq edilməsi üçün elmi təkliflər irəli sürülmüşdür.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə irəli sürülən fikirlər, təkliflər təhsil menecerlərinin hazırlanma kurslarında təlimçilərin təhsilin keyfiyyətinə nəzarətinin yüksəldilməsinə zəmin yaradacaqdır.

## ƏDƏBİYYAT

1. Abbasov A.N.Pedaqogika. Bakı: Mütərcim, 2010.
2. Kərimov Y.Ş. Pedaqoji tədqiqat metodları. Bakı: "RS Proqress" MMC 2009.
3. Mehrabov A.O. Əlavə təhsil sisteminin modernləşdirilməsinin əsas istiqamətləri // ARTPİ-nin Elmi əsərləri, 2008, №4
4. Əzizov R.H. Babayev X.A. İxtisasartırma təhsilində yeni mexanizmlərin tətbiqi, forma və üsulları. Bakı: Müəllim, 2007.
5. Никитина Э.Модернизация системы повышения квалификации // Народное образование, 2008, №4.

**М. Казымов**

## КОНТРОЛЬ И ПОВЫШЕНИЕ КАЧЕСТВА ПРЕПОДАВАНИЯ ПО ПОДГОТОВКЕ МЕНЕДЖЕРОВ ОБРАЗОВАНИЯ

### РЕЗЮМЕ

В статье комментируются факторы контроля за подготовкой и повышением качества квалификации менеджеров образования, показаны научные основы используемых в обучении методов обучения и в виде отдельных пунктов даны методические рекомендации и предложения. В тоже время в статье дана модель претворения в жизнь контроля и раскрыты механизмы контроля за качеством обучения. Добавлены предложения и рекомендации по всестороннему проведению контроля.

**M.Kazimov**

## IMPROVING THE QUALITY OF TRAINING IN THE DEVELOPMENT OF EDUCATION MANAGERS AND ITS CONTROL

### SUMMARY

The article commented on control factors for improving the quality of training and qualification of managers of education, showing the scientific basis used in teaching and learning methods as separate items are given methodological recommendations and suggestions. At the same time in the article is presented the control mechanisms for the quality of education and is given the model of implementation of the monitoring. Also is added suggestions and recommendations to the full implementation of control.

*Redaksiyaya daxil olub: 07.01.2014*

## ***FƏNLƏRİN TƏDRİSİ METODİKASI***

# TEXNİKİ ALİ MƏKTƏBLƏRDƏ ALİ RİYAZİYYAT VƏ ÜMUMİ FİZİKA KURSLARININ TƏDRİSİNDƏ QARŞIYA ÇIXAN PROBLEMLƏR VƏ ONLARIN ARADAN QALDIRILMASI YOLLARI

**Abdulla Mehrabov,**
*Rusiya Dövlət Təhsil Akademiyasının xarici üzvü,*
*texnika üzrə elmlər doktoru, professor,*
**Müdafiə Mahmudov,**
*pedaqogika üzrə elmlər doktoru, professor*

***Açar sözlər:*** *texniki ali məktəblər, riyaziyyat və fizika, metodika, problemlər*
***Ключевые слова:*** *технические вузы, математика и физика, методика, проблемы*
***Key words****: technical higher schools, mathematics and physics, methods, problems*

Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında” 13 iyun 2000-ci il tarixli fərmanına müvafiq olaraq ali texniki məktəblərin ali riyaziyyat və fizika kurslarında da təlim sahəsində dəyişikliklər aparılmışdır. Bu fərman, eyni zamanda ölkəmizdə təhsil sahəsində aparılan islahatların, həmçinin riyaziyyat və fizika kurslarının tədrisinin məqsəd və vəzifələrini müəyyən edir.

Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra bütün sahələrdə olduğu kimi, texniki ali məktəblərdə də ali riyaziyyat və fizika kursunun tədrisinin məqsəd və vəzifələri müəyyən edilmişdir. Ali texniki məktəblərdə fundamental elmlərin, o cümlədən ali riyaziyyat və ümumi fizikanın tədrisində məqsəd ikipilləli təhsil sistemində istiqamətlər üzrə yüksək ixtisaslı kadr hazırlığının təmin edilməsindən ibarətdir. Yəni bakalavr və magistr təhsil pillələrini bitirən məzunlar müasir sənayenin, xalq təsərrüfatının və sair mühüm sahələrin tələbləri səviyyəsində hazırlanmalıdır.

Ali texniki məktəblərdə ali riyaziyyat və ümumi fizika kursunun tədrisində əsas məqsəd tələbələrdə müasir dünyagörüşü formalaşdırmaq, riyaziyyat və fizikanın tətbiqi bölmələrindən biliklərin əsasını vermək, müxtəlif tətbiqi məsələlərin həllində bu biliklərdən istifadə etmək bacarığı və vərdişləri aşılamaqdan ibarətdir. Bu kursların tədrisində didaktikanın əsas prinsiplərinə düzgün əməl olunması da əsas şərtlərdən biridir. Yüksək təlim metodlarından istifadə etmək tələbələrin biliklərə yiyələnmə bacarığını inkişaf etdirir. Bu halda təhsil praktik əhəmiyyət kəsb edir və təhsil prosesinin təkmilləşdirilməsi aktual problemlərdən birinə çevrilir.

Bakalavr və magistr təhsil pillələrində yüksək səviyyəli mühəndis kadrları hazırlamaq üçün tədris prosesinin təşkili zamanı səmərəli metodların tətbiq edilməsi nəticəsində ali riyaziyyat və ümumi fizika kurslarının öyrədilməsi tələbələrdə yeni stimul oyadır, onlara bir sıra müsbət əxlaqi keyfiyyətlər aşılayır. Bu mənada ali riyaziyyat və fizika kursunun nə üçün öyrənilməsi, nəyi öyrətmək, necə öyrətmək suallarının aydınlaşdırılması mühüm əhəmiyyət kəsb edir. Məhz bu suallara cavab vermək üçün pedaqogikanın, psixologiyanın əsaslarına, riyaziyyat və fizikanın tədrisi metodikasına əsaslanmaq lazımdır. Riyaziyyat və fizika kurslarının tədrisi metodikasının əsaslarının öyrənilməsi, bu fənlərin texniki ali məktəblərdə tədrisinin səviyyəsinin yüksəldilməsinə, tədris prosesinin mükəmməl qurulmasına səbəb olur.

Ali riyaziyyat və ümumi fizika kurslarının öyrənilməsində pedaqogika və psixologiya elmlərinə əsaslanmaq başlıca vəzifələrdən biridir. Bu kurslar pedaqogika və psixologiya elmləri ilə və tədris prosesində meydana çıxan psixi hadisələrlə, təlim və tərbiyənin psixoloji əsasları ilə sıx əlaqəlidir. Digər tərəfdən bu kursların tədrisində tərbiyə və təlim psixologiyasının rolu əvəz olunmazdır. Yəni şəxsiyyətin formalaşmasında şüur və davranışın əlaqə problemləri, tələbələrin bilik, bacarıq və

vərdişlərə yiyələnmələri, qazanılmış biliklərin bacarıqlara çevrilməsi, elmi dünya görüşünün formalaşması tərbiyə və təlim psixologiyasının köməyi ilə həyata keçirilir.

Bir çox fənlərin tədrisində riyazi və fiziki metodlar mühüm rol oynadığı kimi, bu metodlar, yanaşmalar pedaqogika və psixologiyada da öz tətbiqini tapır. Yəni ali riyaziyyat və ümumi fizika kurslarının tədrisi metodikası özü ayrılıqda elmi-pedaqoji istiqamət kimi dəyərləndirilməlidir, çünki ali texniki məktəblərdə yüksək ixtisaslı kadr hazırlanmasının əsası məhz bu fənlərin keyfiyyətli tədrisindən asılıdır. Bu proses, eyni zamanda müəllimlərin pedaqoji bacarığından və auditoriyanı psixoloji cəhətdən bu prosesə hazırlama qabiliyyətindən asılıdır. Ona görə də tələbələrlə təmasda olan müəllimlər, ümumiyyətlə, pedaqoji fəaliyyətlə məşğul olan bütün müəllimlər pedaqogika və psixologiya elmlərinin incəliklərinə bələd olmalıdırlar.

Pedaqogika və pedaqoji psixologiyanın əsaslarından müəllimin tədrisdə istifadə etməsi, ali riyaziyyat və ümumi fizika kurslarının tədrisinin priyom və formalarının müəyyən edilməsində mühüm rol oynayır. Deməli, ali riyaziyyat və ümumi fizika kurslarının tədrisi metodikası bir elm kimi psixologiya və pedaqogikanın əsasları ilə birbaşa əlaqədardır.

Psixologiyanın tədrisində tələbələrdə qavrayışın, təfəkkürün, iradənin diqqətin və s. psixi proseslərin xüsusiyyətlərinə baxılırsa, pedaqogikada bu deyilənləri nəzərə alaraq nəyi öyrətmək və necə öyrətmək suallarına cavab axtarılır. Ali texniki məktəblərdə yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasında ali riyaziyyat və ümumi fizika kurslarının tədrisi metodikasını hazırkı dövrün tələblərinə uyğun qurulması ən mühüm məsələlərdən biridir. Kursların tədrisi metodikalarının səmərəli işlənib hazırlanması, nəzəri və eksperimental surətdə əsaslandırılması mühüm əhəmiyyət kəsb edir.

Bu baxımdan, hazırda ali texniki məktəblərdə digər kurslarla yanaşı, ali riyaziyyat və ümumi fizika kurslarının tədrisi metodikasının işlənib hazırlanmasına böyük ehtiyac var. Elə yanaşmalar, priyomlar müəyyən etmək lazımdır ki, konsepsiyanın elmi problemlərinin həlli hazırkı dövrə uyğun və optimal olsun. Müəllimin tələbələrlə səmərəli fəaliyyəti nəticəsində meydana çıxan faydalı cəhətlər daha da təkmilləşdirilir, aşkar edilən nöqsanların aradan qaldırılması istiqamətində fəaliyyət intensivləşdirilir.

Fənnin tədrisi prosesində metodik qanunauyğunluqların müəyyən edilməsində əsas amillərdən biri də müşahidə və eksperimentlə bağlıdır. Təlimin elə qanunauyğunluqları var ki, aparılan müşahidə və təcrübələr onun aşkar edilməsi üçün kifayət etmir. Ona görə də ali riyaziyyat və ümumi fizika kurslarının tədrisi zamanı mühazirə, məşğələ və laboratoriya işləri müəllimlər, kafedra müdirləri, fakültə rəhbərləri, metodistlər, elmi işçilər tərəfindən müşahidə edilməlidir. Onlar həmçinin müəllimlərin tələbələri necə öyrətmələrinə və tələbələrin öyrənmə qabiliyyətlərinə, fəallıqlarına, yaradıcılıqlarına, müstəqilliklərinə diqqət yetirməlidirlər. Empirik tədqiqatın əsas formalarından biri olan müşahidə təcrübi məlumatların bilavasitə toplanması yoludur. Digər tərəfdən müşahidə tələbələrin bilik və bacarıqlarından, elmə maraqlarından və münasibətlərindən asılıdır.

Ali riyaziyyat və ümumi fizika kurslarının tədrisində müşahidə dedikdə, kursu əhatə edən müxtəlif nəzəriyyələrin planlı və məqsədəuyğun qavranılmasına xidmət edən proses başa düşülür. Müşahidə prosesinə təfəkkürün fəaliyyəti də qoşulur, nəticədə biliklər daha dərin dərk edilir. Tədris zamanı müşahidə tələbələrin əqli və iradi keyfiyyətləri, əmək fəaliyyətləri ilə birbaşa əlaqədardır.

Müşahidə ali riyaziyyat və ümumi fizika kursunun bütün sahələrində elmi-tədqiqat metodu kimi tətbiq olunur, bir təlim metodu kimi obyektiv gerçəkliyin tələbələr tərəfindən qavranılmasını təşkil etməyə istiqamətləndirilir. Tələbələr tərəfindən çətin qavranılan, mühüm ali riyaziyyat və ümumi fizika kurslarının müxtəlif sahələrini, daha tam və dəqiq qavramaq qabiliyyəti müşahidəçiliklə bağlıdır. Müşahidəçilik bilavasitə tələbələr tərəfindən qavranılan elmi biliklərin dərindən təhlili ilə xarakterizə olunur və onların qavrayışının təkmilləşməsi sayəsində inkişaf edir. Müşahidəçilikdən istifadə tələbələrin şəxsiyyət kimi yetişmələrini göstərdiyindən hərtərəfli formalaşmaları üçün zəruri şərtdir. Müşahidə hər hansı mövzu üzrə öyrədənin əldə etdiyi məlumatın bir daha təhlil olunaraq müəyyən nəticənin çıxarılmasına kömək müəllim öz fəaliyyətində ondan istifadə etməlidir. Əldə olunmuş faktların öyrənilməsi və təhlili ümumiləşdirilərək təcrübədə tətbiq edilir.

Ali riyaziyyat və ümumi fizika kurslarının tədrisi prosesində nəzərdə tutulmuş bilik, bacarıq və vərdişlərin aşılanması öyrədənlərin rəhbərliyi ilə mühazirə, seminar, praktik məşğələ, laboratoriya dərslərində təmin edilir. Bu məşğələlərin təşkili əlavə olaraq sərbəst işləmək üçün verilən tapşırıqların yerinə yetirilməsini də tələb edir. Kursların möhkəmləndirilməsi və sistemləşdirilməsində müntəzəm təkrarın aparılması mühüm rol oynayır. Tələbələrin semestr boyu bilik, bacarıq və vərdişlərinin hansı səviyyədə mənimsənilməsi məqbul və imtahanların nəticəsi ilə müəyyənləşdirilir. Tələbələrin bilik, bacarıq və vərdişlər yiyələnmələrində mühazirə, məşğələ dərsləri, laborator məşğələlərlə yanaşı, yoxlama işləri, kollokviumlar, nümunəvi hesabat və hesablama işlərinin aparılması əsas məsələlərdən biridir.

Ali riyaziyyat və ümumi fizika kurslarının mənimsənilmə səviyyəsinin nəticəsinin səmərəliliyi üçün yoxlama işlərinə, laborator məşğələlərə, kollokviumlara sistematik nəzarət edilməsinin böyük əhəmiyyəti vardır. Bu, tələbələrin biliklərinin obyektiv qiymətləndirilməsində və imtahanlarda müvəffəqiyyət qazanmalarında mühüm rol oynayır. Ən başlıca və əsas məsələlərdən biri də ali riyaziyyat və ümumi fizika kurslarının ali texniki məktəblərdə tədrisi metodlarını seçərkən, qabaqcıl müəllimlərin iş təcrübəsi və müasir eksperimental tədqiqatların nəzərə alınmasıdır.

Riyazi anlayışlar subyektiv fikirdən asılı deyil, son dərəcə mükəmməldir. Bu sahədə mühakimələr ciddi və dəqiqdir. Riyaziyyatın bu xüsusiyyətləri digər dəqiq elmlərə də xasdır. Hər hansı elmdə riyazi mühakimə kifayət qədər yüksək səviyyədədirsə, müvəffəqiyyət də yüksək olur. Fizika, biologiya, astronomiya və sair elmlər real aləmin qanunauyğunluqlarını öyrənir, lakin riyaziyyat ilk andan ideallaşdırılmış və mücərrəd obyektlərlə əlaqədardır. Buna baxmayaraq, bir çox hallarda bunların həqiqi aləmdə düzgün analoqu olmur, (məsələn, **n**-ölçüsü fəza). Bu mənada riyaziyyat elmi fəlsəfə, dilçilik, psixologiya elmləri ilə bir qrupa daxil edilir. Riyaziyyatın bir xüsusiyyəti də xüsusi öyrənmə metodlarına malik olmasıdır. Bu, o deməkdir ki, riyazi metodların özləri də riyazi yanaşmalarla araşdırılır. Riyaziyyat özü üçün müəyyən problemlər qoymasına baxmayaraq, real aləm özü də riyaziyyat üçün çox problem qoyan inkişaf mənbəyidir. Riyaziyyatı başqa elmlərdən fərqləndirən bir xüsusiyyət də odur ki, bir çox hallarda tətbiq düz istiqamətdə deyil, əks istiqamətdə baş verir, yəni başqa elmlər daxilində müəyyən praktik məsələni ona rast gələndən əvvəl həll edir.

Son 20-30 il müddətində riyaziyyat və ümumi fizika sürətlə inkişaf edir. Bir çox bölmələr mümkün qədər tam riyaziləşdirilmişdır. Müasir riyaziyyatın inkişaf və tətbiqinin genişlənməsi dilçilik, psixologiya, iqtisadiyyat, biologiya və sair elmlərdə görünür. Deməli, riyaziyyat öz tədris sferasını genişləndirir. Ali riyaziyyat və ümumi fizika kurslarının tədrisi metodikası, həm elmi ideyalarla, həm də pedaqoji elmlərlə bağlı olub, müxtəlif elmlərlə əlaqədardır. Elmlərin yaranması, ayrılması və müstəqil sahələrə çevrilməsi, ayrı-ayrı fənlərdə elmlərin əsaslarının qarşılıqlı təsiri, öyrənilən fənlər arasında əlaqə böyük əhəmiyyət kəsb edir.

Ali texniki məktəblərdə öyrənilən fundamental elmlər və texniki fənlər arasında ali riyaziyyat kursunun xüsusi əhəmiyyəti var. Hazırda təbiət, texniki, sosial və humanitar elmlərin müxtəlif sahələrinə riyazi metodlar tətbiq olunur. Təlimin politexnikləşdirilməsində fənlərarası əlaqə böyük əhəmiyyət kəsb edir. Riyaziyyat, fizika, kimya, sosiologiya, nəzəri mexanika, tərsimi həndəsə, linqvistika və s. fənlərin və onların qarşılıqlı əlaqələrinin öyrənilməsi tələbələrin kənd təsərrüfatı, sənaye, təhsil və s. sahələr üçün mütəxəssis kimi hazırlanmalarında mühüm rol oynayır.

Fənlərarası əlaqə tələbələrin əldə etdikləri bilikləri daha da dəqiqləşdirir və təlim zamanı meydana çıxan formalizmin aradan qaldırmasında böyük rol oynayır. Digər tərəfdən fənlərarası əlaqə ayrı-ayrı fənlərin daha mükəmməl öyrənilməsində, vaxta qənaət edilməsində mühüm əhəmiyyətə malikdir. Fənlərarası əlaqə didaktik prinsiplərin həyata keçirilməsi, ayrı-ayrı elmi anlayışların və onların sisteminin mənimsənilməsi, politexnik təlimin həyata keçirilməsi tələblərinə riayət etməklə tələbələri bilik, bacarıq və vərdişlərlə silahlandırır. Təlimin didaktik prinsipləri əyanilik, fərdi yanaşma, elmilik, sistematiklik, nəzəriyyə ilə təcrübənin vəhdəti, şüurluluq və fəallıq, möhkəmlik, müvafiqlik prinsiplərinin həyata keçirilməsində fənlərarası əlaqə böyük əhəmiyyətə malikdir.

Elmlərin və onlara müvafiq tədris fənlərinin inteqrasiyası tələbələrin bilik, bacarıq və vərdişlərə yiyələnmələrində, mənimsəmə prosesinin sürətlənməsində mühüm rol oynayır. Ali

riyaziyyatın tədrisi metodikasının əsasını təşkil edən ümumu və xüsusi metodikalar tədrisin düzgün təşkilinin əsasını qoyur. Ümumi metodika dedikdə riyaziyyat tədrisinin ümumi məsələləri, xüsusi metodikada isə pedaqoji və psixoloji qanunauyğunluqlara istinad edərək, mühazirə və ya məşğələlərdə ayrı-ayrı mövzuların tədrisi məsələlərinə baxılır.

Ali riyaziyyatın tədrisinin xüsusi metodikasında ən başlıca vəzifələrdən biri didaktikaya düzgün riayət edilməsidir. Ali riyaziyyatın tədrisinin xüsusi metodikasında riyaziyyat elminin inkişafında iki istiqamətə yer verilməlidir:

1. Diferensiasiya zamanı riyaziyyat elminin yeni sahələri yaranır.
2. Riyaziyyatın başqa elm sahələrinə tətbiqi və başqa elmlərlə əlaqəsi genişlənir.

Ali riyaziyyat ilə ümumi fizika arasındakı əlaqələr təbii olmalıdır. Ali riyaziyyat və ümumi fizika tədrisinin əsasını orta məktəb riyaziyyat və fizikası təşkil edir. Aparılan araşdırmalar göstərir ki, yeni proqram və dərsliklərin tətbiqi ilə əlaqədar orta məktəb şagirdlərinin riyaziyyat və fizikadan bilik səviyyələri və dünyagörüşləri keyfiyyətcə xeyli yüksəlmişdir. Tələbələrin bir qismi bakalavr təhsil pilləsi üçün hazırlanmış proqramda nəzərdə tutulmuş nəzəri materialları şüurlu dərk etməklə yanaşı, əldə etdikləri bilikləri texnika məsələlərinin həllində tətbiq etməyi bacarırlar.

Bir çox tələbələrin ali riyaziyyat və ümumi fizika fənlərini çətin mənimsəmələrinin səbəbi nədir? Səbəb çoxdur, lakin əsas səbəblərdən biri bəzi müəllimlərin proqram və dərsliklərin tələb və xüsusiyyətlərini düzgün başa düşməmələridir. Bakalavr təhsil pilləsi üçün ali riyaziyyat və ümumi fizikadan hazırlanmış proqramın tətbiqi zamanı müəllimlərin bir qismi bu proqramlarla işləmək qaydalarına dərindən yiyələnmiş, bir qrup müəllimlər hələ də dərk etmirlər ki, bu proqramlardakı dəyişikliklər bir və ya bir neçə mövzunun proqrama əlavə edilməsi və ya mövzuların sadəcə yerdəyişməsindən ibarət olmayıb, ali texniki məktəb proqramına daxil edilmiş anlayışların şərhinin elmin müasir səviyyəsinə uyğunluğundan ibarətdir.

Riyazi biliklərdən istifadə etmədən ümumi fizika kursunun nəzəri bölmələrini və məsələləri müvəffəqiyyətlə həll etmək mümkün deyil. Ali riyaziyyatın tədris prosesində ümumi fizika kursu üçün lazım olan anlayışlar heç də vaxtında formalaşmır. Bir çox hallarda ümumi fizika kursu irəli qaçır və mövcud imkanlardan istifadə olunmur. Ali riyaziyyat və ümumi fizikanın tədrisində işlədilən əsas anlayışlar lazımı şəkildə əks olunmur. Ali riyaziyyat və ümumi fizika arasındakı əlaqələrin vaxtında müəyyən edilməsinin tədris prosesində mühüm rolu vardır.

XX əsrin ortalarında İngiltərə, ABŞ və bir sıra qabaqcıl ölkələrin alimləri tədris fənlərinin inteqrasiyası məsələlərinə baxmış və bu məsələ bir neçə dəfə beynəlxalq konfranslarda, konqreslərdə və s. müzakirə olunmuşdur. Ali riyaziyyat və ümumi fizika arasında əlaqə zəif olduqda, tələbələr anlayışları səthi, bəzən isə təhrif olunmuş şəkildə qavrayırlar. Təlimin başlıca prinsiplərindən biri də kurslar arasındakı əlaqə və nəzəriyyə ilə təcrübənin vəhdətidir. İstər ali riyaziyyat, istərsə də ümumi fizikada texnikaya aid tətbiqi məsələlər həll edildikdə çoxpilləli həlli olan problemin hər sonrakı mərhələsi əvvəlkini inkişaf etdirir və tamamlaya bilir. Texnikaya aid məsələlər həll edildikdə tələbələr texnikanın bir sıra elementləri ilə tanış olurlar.

Ali riyaziyyat və ümumi fizika proqramlarının və tədris metodik ədəbiyyatların təhlili bu fənlər arasındakı əlaqələrin həyata keçirilməsində bir sıra çətinliklər aşkar etmişdir. Həmin çətinliklərdən bəzilərini şərh edək.

Aydındır ki, riyaziyyat və fizika arasındakı ikitərəfli, qarşılıqlı əlaqələr, bu fənlərin əsaslarının öyrənilməsində öz əksini tapır. Məhz bu əlaqənin didaktik aspektlərindən biri, fənlərarası qarşılıqlı əlaqənin öyrənilməsi zamanı yaranan effektli cəhətlərin qiymətləndirilməsidir. Ali riyaziyyat və ümumi fizikanın ortaq ümumi cəhətləri çoxdur. Bu ümumi cəhətlərdən ibarət olan məsələlərdən bəzilərini nəzərdən keçirək: fizika kursunda qanunların əksəriyyəti funksional asılılığın köməyi ilə verilir, məsələn, gedilən yolun zamanından asılılığı, bərabər dəyişən sürətli düzxətli hərəkətdə başlanğıc sürət məlum olduqda sürətin zamandan asılılığı, sabit həcmdə ideal qazın həcminin temperaturdan asılılığı, dalğa uzunluğunun perioddan asılılığı və s.

Fizikanın bir sıra məsələlərinin həlli törəmə ilə əlaqədardır, məsələn, nöqtənin ani sürəti törəmə vasitəsilə ifadə olunur. Düzxətli hərəkət edən nöqtənin müəyyən andakı ani sürəti ədədi qiymət-

cə həmin anda gedilən yolun zamana görə birinci törəməsinə bərabərdir. Bu şəkildə göstərilən məsələlərdə həmin sürətlər mücərrəd riyazi obyektin konkret interpretasiyasını ifadə edir. Ali riyaziyyatın bölmələrindən biri olan inteqral anlayışı fiziki proseslərin modelləşdirilməsi, istilikkeçirmə, sürtünmə, diffuziya kimi qərarlaşmamış proseslərin öyrənilməsində, qabarıq oblastın öyrənilməsinə, həndəsi optika, şüalanma və s. məsələlərə tətbiq olunur. Dəyişən qurğunun cərəyan dövrəsinin əsas elementlərindən biri olan kondensatorun lövhələri arasındakı gərginlik, ondan axan cərəyanın inteqralı ilə mütənasibdir. Digər tərəfdən inteqral anlayışı ikinci kosmik sürətin hesablanması, maddədə şüanın udulması radiaktiv parçalanma qanunlarının çıxarılmasına imkan verir.

Riyaziyyatın istər adi diferensial tənliklər, istərsə də xüsusi törəməli diferensial tənliklər bölməsi fiziki hadisələrin riyazi modelinin qurulmasında və başqa sahələrin öyrənilməsində mühüm rol oynayır. Digər tərəfdən elektrodinamikada, akustikada, hidrodinamikada, aerodinamikada və sair sahələrdə fiziki sahə və dalğa funksiyası ilə bağlı hadisələrin riyazi modellərini öyrənmək üçün tətbiq edilir. Bu mənada xüsusi törəməli diferensial tənliklər nəzəriyyəsinin bölməsi olan riyazi fizika, fiziki hadisələrin modelinin öyrənilməsi, yəni araşdırılan məsələnin qoyuluşu fiziki hadisələr sinfinin əsas qanunauyğunluqlarını təsvir edən riyazi modellərin qurulmasına gətirilir.

Fiziki hadisənin riyazi modeli də başqa modellər kimi hadisənin bütün əlamətlərini aşkar etmir. Riyazi fizikada elə riyazi modellər qurulur ki, bunlar öyrənilən hadisələrin nəinki fiziki qanunauyğunluqlarını təsvir və izah edir, hətta hadisə ilə bağlı kəşf edilməmiş qanunauyğunluqları da əvvəlcədən söyləməyə imkan verir.

Ali riyaziyyat və fizikada geniş istifadə olunan bəzi anlayışlarla tanış olaq. Bu anlayışların ən çox rast gəlinən və öyrənilməsi zəruri olan bölmələrindən biri də vektorlar hesabıdır. Elektrotexnika, akustika, optika və başqa sahələrdə periodik dəyişən kəmiyyətlərin qiymətləri və onlar arasındakı asılılıq vektor vasitəsilə qrafik təsvir olunur (vektor diaqramı). Vektor diaqramı üzərində iki və daha çox rəqsin cəmi və ya fərqi toplanan vektorların cəmi və ya fərqi kimi göstərilir. Axtarılan kəmiyyətin qiyməti isə cəm vektorların ordinant oxu üzərindəki proyeksiyası ilə təyin olunur.

Təbiətdə baş verən fiziki proseslərin məkan və zaman xassələrinin fundamental nəzəriyyəsi nisbilik nəzəriyyəsidir. Nisbilik nəzəriyyəsindən alınan qanunauyğunluqlar fiziki proseslərin ümumi xassələrini ifadə edir, ümumiyyətlə, o, məkan və zaman arasındakı əlaqəni müəyyənləşdirir. Qrafitasiya sahələrində məkan və zaman xassələri münasibətləri nisbilik nəzəriyyəsində yəni Eynşteynin cazibə (qravitisiya) nəzəriyyəsinin köməyi ilə tətqiq edilir. Xüsusi nisbilik nəzəriyyəsinin əsasında Eynşteynin iki postulatı durur:

1. Fiziki proseslər (işıq, elektromaqnit, istilik və s.) bütün ətalət sistemlərində özlərini eyni cür aparır. Yəni bu prosesləri ifadə edən diferensial tənliklər bütün ətalət sistemlərində eyni şəklə malikdir (tənliklər invariant, kovariant qalır). Bu postulat Eynşteynin nisbilik prinsipi adlanır. Q.Qalilyey ondan mexaniki hadisələr üçün ifadə etmişdir.

2. İşıq (və ya elektromaqnit dalğası) vakumda, ətalət sistemlərində və bütün istiqamətlərdə eyni sürətlə yayılır.

İndi isə ümumi fizikanın tədrisində ali riyaziyyatın anlayışları ilə əlaqədar bəzi məsələlərə baxaq, məsələn, ümumi fizikada fırlanma sahələri nəzəriyyəsində elektronların trayektoriyası üçün adi diferensial tənliyə baxılır, yaxud adiobatik olaraq genişlənən ideal qazın həcmi ilə təzyiqi arasındakı münasibəti müəyyən edərkən dəyişənlərə ayrıla bilən adi diferensial tənlik alınır. Yüklərin qarşılıqlı təsir qüvvəsi mövzusunda hər hansı elektrik yükünü eyni işarəli digər elektrik yükünə yaxınlaşdırdıqda Kulon qüvvəsi müəyyən iş görür. Aydındır ki, yüklərdən birini sonsuzluqdan verilmiş nöqtəyə gətirdikdə elementar yolda iş görülür və bu iş adı diferensial tənliyə gətirilir. Sonsuzluqdan verilmiş nöqtəyə həmin yükü gətirərkən görülən iş qeyri-məxsusi inteqrala gətirilir.

Əgər q1 yükü sahənin M nöqtəsindən C nöqtəsinə aparılmışsa və bu nöqtələrin q1 yükündən olan məsafəsi uyğun olaraq r1 və r2–dirsə, onda MC yolunda görülən işi hesablamaq üçün bu yolu elementar hissələrə ayırırlar. Onda MC yolunda görülən iş həmin hissələrdəki işlərin cəminə bərabərdir. Elektrik hərəkət qüvvəsinə analoji olan və maqnit qüvvələrini hesablamaq üçün istifadə olunan kəmiyyət maqnit hərəkət qüvvəsidir. Maqnit hərəkət qüvvəsi, intensivlik vektorunun qapalı

kontur üzrə xətti inteqralı kimi təyin edilir və konturun əhatə etdiyi cərəyanların cəbri cəminə bərabərdir.

Klassik statistika qanunlarına tabe olan termodinamik tarazlıqdakı sistemdə molekulların sürətə (impulsa) görə paylanmasını təyin edən ehtimal funksiyası olan Maksvell paylanmasına baxılır, burada əsasən, molekulların sürətinin mütləq qiymətinin intervala düşmə ehtimalı təyin olunur. Fizikada mürəkkəb rəqsi təşkil edən sadə rəqslər toplusu spektri harmonik olmayan və j tezliyi ilə dəyişən periodik funksiya ilə təsvir olunur. Bu funksiya spektrə ayrılır. Qarşıya çıxan məsələnin həlli üçün sıralar nəzəriyyəsi mühüm əhəmiyyət kəsb edir. Yəni bu periodik funksiya harmonik funksiyalar sırası kimi göstərilir.

Sonda araşdırmaların nəticəsində ali riyaziyyat və ümumi fizikanın tədrisinin səmərəliliyini artırmaq və kadr hazırlığının keyfiyyətini yüksəltmək məqsədilə fənlərin tədrisindəki ziddiyyətlərin aradan qaldırılmasını məqsədə müvafiq hesab edirik:

1. Ümumi fizika kursunun tədrisində birinci semestrdə klassik mexanikanın fiziki əsasları bölməsində adi diferensial tənliyə baxılır. Ali riyaziyyat kursunda isə adi diferensial tənliklər nəzəriyyəsi ikinci semestrdə keçilir.

2. Molekulyar fizika və termodinamika bölməsində adiobatik olaraq genişlənən ideal qazın həcmi ilə təzyiqi arasındakı münasibəti təyin edərkən dəyişənlərə ayrıla bilən adi diferensial tənlik alınır. Ali riyaziyyat kursunun tədris proqramında isə bu bölmə ikinci semestrdə tədris olunur.

3. Birinci semestrdə ümumi fizikanın elektrodinamika bölməsində yüklərin qarşılıqlı təsir qüvvəsi müəyyən iş görür. Sonsuzluqdan verilmiş nöqtəyə həmin yükü gətirərkən görülən iş qeyri-məxsus inteqrala gətirilir. Bu bölmədə həm də görülən işi hesablamaq üçün məsələnin həlli əyri xətli inteqrala gətirilir. Bunlar isə ali riyaziyyatın tədrisində ikinci və üçüncü semestrlərdə keçirilir.

4. Molekulyar fizika və termodinamika bölməsində termodinamik tarazlıqdakı sistemdə molekulların surətə (implusa) görə paylanmasını təyin edən ehtimal funksiyası Maksvell paylanması əsasında təyin edilir. Ali riyaziyyat kursunun tədrisində ehtimal nəzəriyyəsi üçüncü semestrdə keçilir.

5. İkinci semestrdə rəqslər və dalğalar bölməsində periodik funksiya harmonik funksiyalar sırası kimi göstərilir, lakin sıralar nəzəriyyəsi ali riyaziyyat kursunun tədrisində üçüncü semestrdə keçilir.

6. Kvant mexanikası və atom fizikası elementləri bölməsində birölçülü, ikiölçülü və üçölçülü fəzada Şredengir tənliyinə və sərhəd məsələsinə baxılır, lakin bu anlayışlar ali məktəblərin ikinci və üçüncü semestrlərində tədris olunur və s.

Ortaya çıxan belə problemlərin həlli üçün, texniki ali məktəblərdə ümumi fizikanın tədrisi, birinci semestrdən deyil, ikinci semestrdən başlanmalıdır. Ali texniki və bəzi ali məktəblərdə ali riyaziyyat və ümumi fizika arasındakı bu ziddiyyətlər birbaşa göstərir ki, tələbələrin fizika kursundan aldıqları biliklər və onların qiymətləndirməsi kortəbii aparılır, səriştəli kadr hazırlığında çoxlu problemlər yaradır.

Bu problemlərin təklif olan tərzdə həlli tələbələrin elmi biliklərə yiyələnmələrində həlledici rol oynayacaq və müasir tələblərə cavab verən mühəndis kadrların hazırlanmasında yeni imkanlar açacaqdır.

Texniki ali məktəblərdə ali riyaziyyat və ümumi fizika kurslarının qarşısında duran əsas məsələlərdən biri bakalavr təhsil pilləsində fundamental elmlərin əsaslarına yiyələnmiş, yüksək səviyyəli mütəxəssislərin hazırlığına nail olmaqdır. Ali texniki məktəblərdə müxtəlif fənlərin tədrisində hər bir ixtisasın özünəməxsus fərqləndirici xüsusiyyətləri vardır. Buna görə də xalq təsərrüfatı, kənd təsərrüfatı, səhiyyə, iqtisadiyyat, sənaye və s. sahələrdə müasir texnologiyaların tələbləri səviyyəsində mühəndislərin hazırlanması qarşıya əsas məqsəd kimi qoyulur. Son illərdə təhsil sistemində aparılan islahatlar və Avropa, Amerika təhsil sistemlərinə inteqrasiya ali texniki məktəblərdə ali riyaziyyat və ümumi fizika kurslarının yeniləşməsinə, təlimin məzmun və metodlarının təkmilləşdirilməsinə, müasir texnologiyaların tətbiqinə və praktik reallığa uyğunlaşmasına səbəb olmuşdur. Bakalavr təhsil pilləsində təhsil alan tələbələrin gələcəkdə yüksəkixtisaslı mütəxəssis kimi hazırlanmalarında ilk çətinliklərdən biri tələblərin düzgün və aydın yaradıcılığa cəlb olunmamalarıdır.

Ali texniki məktəblərdə müxtəlif istiqamətlər və ixtisaslar üzrə bakalavr, magistr, fəlsəfə və elmlər doktorları hazırlanır. Müasir tələblərə cavab verən yeni mühəndis kadr hazırlığında və bu sahədə elmin inkişafında bütövlükdə ali məktəblərin böyük rolu vardır. Bu baxımdan ali təhsil müəssisəsi bakalavr, magistr, fəsəfə və elmlər doktoru sxemi üzrə fasiləsiz təhsil forması kimi inkişaf edir və fəaliyyəti cəmiyyət tərəfindən yüksək dəyərləndirilir.

Tələbələrin bilik səviyyəsi ilə müasir istehsalın və elmin tələbləri arasında yaranan çatışmamazlıqları aradan qaldırmaq üçün fundamental elmlərin məzmununa yenidən baxmaq, orta ümumtəhsil məktəb proqramının təkrarlanan bəzi bölmələrini qısaltmaqla, tələb olunan materialların elementlərini hissə-hissə ali riyaziyyat kursuna daxil etmək tələb olunur. Ali riyaziyyat və ümumi fizika kursunun öyrənilməsi tələbələri ancaq biliklə silahlandırmır, həm də mürəkkəb məsələlərin qoyuluşunu, təhlilini və araşdırılmasını, eyni zamanda istehsalatda qarşıya çıxan mürəkkəb məsələlərin həlli bacarığını inkişaf etdirir. Ali texniki məktəblərdə ali riyaziyyatla təbiət elmlərinin əlaqəli tədrisi gələcək mütəxəssislərin elmi, nəzəri səviyyəsinin yüksəlməsinə imkan yaradır və dar çərçivədə bilik əldə etmənin qarşısı alınır.

Gələcək mühəndislərin müasir texnologiyaların tələblərinə uyğun yüksək səviyyəli hazırlığı üçün tədris prosesində elə addımlar atılmalıdır ki, tələbələr qazandıqları bilikləri yeni yanaşmalar əsasında zənginləşdirə bilsinlər. Hazırda müasir sənaye və istehsal sahələrinin sürətlə dəyişilməsi və yeniləşməsi prosesi gedir. Yeni metod və yanaşmalar, modelləşmə, tədris prosesində müəllimin qarşısına çıxan problemlərin həlli və ən optimal üsulların tətbiqi informasiya texnologiyalarının, tədris-təlim prosesinə gətirilməsi ilə sıx əlaqəlidir. Bu halda bir çox problemlərin həllində kompyuterin rolu əvəzsizdir.

Müxtəlif peşə sahələrində mütəxəssis kimi hazırlanan tələbələr həm də hərtərəfli dünyagörüşə malik olmalıdır. Tələbələrin elm və texnikanın sürətlə inkişafına uyğun hazırlığını elə qurmaq lazımdır ki, yaranan problemlərin həlli üçün tələb olunan modellər haqqında mükəmməl və dərin biliyə malik olsunlar. Sözsüz bakalavr təhsil pilləsində yüksək səviyyəli peşəkarların hazırlanmasında ixtisas fənlərinin tədrisi də elmi baza təşkil edir. Buna görə də ali texniki məktəblərdə təhsilin tətbiqi istiqamətlərinin genişləndirilməsi, vacibdir. Deməli, tələbələrin biliklərinin genişləndirilməsi, tədris prosesində proqramlaşdırmanın öyrədilməsi, müəyyən bir məsələnin modelini qurmaq bacarığının formalaşdırılması önəmli rol oynayır.

Ali texniki məktəblərdə bəzi hallarda tələbələrin bilik səviyyələrinin aşağı olmasının səbəblərindən biri də qeyri ixtisasçıların ali riyaziyyat və ümumi fizika kurslarının tədrisini öz əllərinə almaq cəhdləridir. Belə bir addım heç vaxt müsbət nəticə verə bilməz. Müşahidələr göstərir ki, bir çox çətin və mürəkkəb mövzuların tədrisində xüsusilə diqqətli olmaq lazımdır. Öz ixtisasını yüksək səviyyədə bilən, tətbiqi məsələlərin həllində səriştəli mütəxəssisləri tədrisə cəlb etmək lazımdır. Müəyyən edilmişdir ki, qavranılan mövzuların tədrisində kompyuterdən geniş istifadə əhəmiyyətli nəticələrin alınması üçün riyazi modellərin qurulması elmin inkişafına təkan verən aktual problem kimi dəyərləndirilir.

Ali riyaziyyat və ümumi fizikanın tədrisində qarşıya çıxan çətinlikləri tədris prosesində daim araşdırmaq lazımdır. Elm və texnikanın sürətlə inkişaf etməsi nəticəsində müxtəlif elmlərin qovşağında yeni elm sahələri onların əsasında isə yeni istehsalat sahələri yaranır. Buna görə də birinci növbədə ali məktəblərdə konkret iş şəraiti üçün keyfiyyətli biliyə malik olan müəllimlər hazırlamaq tələbatı yaranır. Yeni iş şəraitində texnologiyanın dəyişilməsi ilə bağlı müasir tələblərə uyğunlaşmağı bacaran, baş verən dəyişiklikləri düzgün qiymətləndirən mütəxəssislərə də böyük ehtiyacın olduğunu da nəzərə almaq lazımdır.

Ali riyaziyyat və ümumi fizika kurslarının tədrisinin məzmun və metodları ilə bağlı məsələlər araşdırılarkən pedaqoji psixologiyanın hansı istiqamətlərinin tədqiq edilməsi və hansı prinsiplərə əsaslanaraq idarə olunması müəyyənləşməlidir. Aydındır ki, bu məsələlərin həllində əsas yük müəllimlərin üzərinə düşür. Bu kursları tədris edən müəllimlərin fənni mükəmməl bilmələri təlim prosesinin keyfiyyətli təşkilinin başlıca şərtidir. Ali riyaziyyat və ümumi fizikanın tədrisində yeni ideyaları tətbiq edərkən elə etmək lazımdır ki, tələbələr bu ideyalardan faydalana bilsinlər. Kuriku-

lum islahatı əsasında orta məktəblərdə riyaziyyat və fizika kurslarının yeniləşdirilməsi amili, ali riyaziyyat və ümumu fizika kurslarının məzmununda mütləq nəzərə alınmalı və tədris-təlim prosesinə yeni yanaşmaların və texnologiyaların gətirilməsi gücləndirilməlidir.

Hazırkı dövrdə tələbələrin hazırlıq səviyyəsi ilə müasir elm və texnikanın tələbləri arasındakı uyğunsuzluğun əsas səbəblərindən bəzilərini aşağıdakı kimi qruplaşdırmaq olar:

-ali texniki məktəblərdə ali riyaziyyat və fizika kurslarının məzmununun XXI əsrin elmi nailiyyətlərini özündə tam əks etdirə bilməməsi;

-bakalavriat təhsil pilləsində yeni tədris proqramlarının tamlıq təşkil etməməsi, bəzi uyğun olmayan bölmə və mövzuların hələ də proqramlarda saxlanılması;

-ali texniki məktəblərdə ali riyaziyyat və ümumi fizika kurslarının tədrisi metodikasının elmi şəkildə işlənilməməsi və müasir istehsalatın tələblərinə uyğun məsələlərin həllində müvafiq təlim metodlarından düzgün istifadə edilməməsi;

-ali riyaziyyat və ümumi fizika kurslarının tədrisində istehsal sahələrinin tələblərinə cavab verən təlim mühitinin yaradılması;

-texniki ali məktəblərdə ali riyaziyyat və ümumi fizika kurslarının tədrisi prosesində yeni pedaqoji və təlim texnologiyalarının imkanlarından zəif istifadə olunması və ya heç istifadə olunmaması və s.

Hazırda ali texniki məktəblərdə ali riyaziyyat və ümumi fizika kurslarının tədrisində meydana çıxan əsas səbəblərdən biri də fənlərin pedaqogikası pedaqogika və psixologiyanın əsas prinsiplərinin hazırlanmaması məsələsidir. Fundamental fənlərin tədrisi ilə bağlı pedaqogikanın qanunauyğunluqları başqa pedaqoji sahələrdə olduğu kimi tələbə şəxsiyyətinə müxtəlif prizmalardan nəzər salmağa imkan verir. Belə yanaşmalardan biri də öyrənməyə istiqamətləndirilmiş təhsil ilə bağlı modelin qurulması zərurətinin meydana çıxmasıdır. Həmin kursların tədrisində tələbə şəxsiyyətinin formalaşmasında həyata keçiriləcək model yeni sosial-iqtisadi şərait nəticəsində yaranan düşüncə tərzini əks etdirməlidir. Tələbə şəxsiyyətinin formalaşması təhsil sisteminin yeni hazırlanacaq modeli ilə sıx bağlıdır. Şəxsə istiqamətlənmiş təhsilin mahiyyəti və özünəməxsusluğu onun ənənəvi təhsillə müqayisədə özünü daha parlaq şəkildə göstərir, bu halda təfəkkürün rolu əhəmiyyətli dərəcədə artır. Göstərilən fənlərin pedaqogikası əsasında təhsil modelinin hazırlanması əqli inkişafın və tələbələrdə yaradıcı təfəkkürün formalaşması məsələlərini ön plana çəkir. Ali texniki məktəblərdə müasir istehsalın tələblərinə uyğun ali riyaziyyat və ümumi fizika kurslarının tədrisinin keyfiyyətinin yüksəldilməsi, tələbə şəxsiyyətinin formalaşmasında və şəxsə istiqamətlənmiş təhsil sisteminin qurulmasında böyük rol oynayır.

Tədris prosesinin layihələndirilməsi zamanı əsas problemlərdən biri də istiqamətlənmiş təhsildə ali riyaziyyat və ümumi fizika kurslarının tədrisində irəli sürülən tələblərin araşdırılmasıdır. Müasir pedaqogikada şəxsə istiqamətlənmiş təhsil dedikdə hər şeydən əvvəl öyrənənin həyat fəaliyyəti zamanı fəal, məsuliyyətli mövqe tutmasına kömək edəcək keyfiyyətlərin inkişafının təmin olunması başa düşülür. Ölkəmizdə ali və orta təhsilin modernləşdirilməsində təhsilin informasiyalaşdırılması təcrübəsi də həlledici rol oynayır. Kompyuterləşmənin son illərdə tədris prosesində möhkəm yer tutması təhsilin hərtərəfli inkişafında təkanverici qüvvə kimi öz həllini tapması təlim prosesinin keyfiyyət təminatında həlledici rol oynamasıdır.

Araşdırmalar göstərir ki, texniki ali məktəblərdə nəinki ali riyaziyyat və ümumi fizika fənlərinin pedaqogikası, hətta ixtisas fənlərinin tədrisi metodikası və pedaqogikası da yox dərəcəsindədir. Texniki imkanlar pedaqoji imkanları üstələyir və texniki fənlərin pedaqogikasında müasirləşmə prosesi ləng həyata keçirilir. Ali məktəb cəmiyyətdə, elmdə baş verən proqressiv inkişafı diqqətlə izləməli, bütün mütərəqqi nailiyyətləri əks etdirməlidir. Cəmiyyətdə gedən dəyişikliklərə bu və ya digər formada təhsil sistemi çox həssas reaksiya verməlidir. Bu isə yeni əldə olunan nailiyyətlərdən doğan tələbatları təhsil sistemi qarşısında qoymalı, müəllimlərin (öyrədənlərin) müasir tələblər səviyyəsində təkmilləşdirilməsinin sistemli şəkildə, mərhələ-mərhələ həyata keçirilməsi təmin olunmalıdır. Bu şəkildə yeniləşmə aşağıdakı nəticələrin əldə olunmasına geniş imkanlar açır:

-təhsilin müasirləşməsi yeniləşmələrə uyğunlaşması təbii proses kimi baş verir və həyata keçirilir;

-cəmiyyətdə müəyyən ənənəvi təhsil səviyyəsinə malik olan nəsil yeni ideya və dünyagörüşə malik olan gənc nəsillə əvəz olunur.

Keçmiş sovetlər birliyində bərqərar olmuş qapalı cəmiyyətdən fərdi olaraq, demokratik prinsiplər əsasında idarə olunan açıq cəmiyyətdə gələcək mühəndisləri yüksək səviyyəli peşəkar kimi elə hazırlamaq lazımdır ki, onlar istənilən ölkədə müasir texnologiyaların tələblərinə cavab verə bilsinlər və müasir istehsalatın yeniləşməsi (dəyişilməsi) ilə bağlı əldə etdikləri bilik, bacarıq və vərdişləri təkmilləşdirə bilsinlər. Ümumiyyətlə, ali texniki məktəblərin bakalavr təhsil pilləsində bir çox fənlərin tədrisi müasir dövrün tələblərinə cavab vermir. Bilik səviyyəsi aşağı olan müəllimlər tərəfindən meydana çıxan bir çox problemlərin həll edilməsi mümkün deyil. Bu acı həqiqətin nəticəsi müasir dövrün tələblərinə uyğun yeniləşmə fəaliyyətinə sarsıdıcı zərbə vurur. İstər mühazirə, istərsə də seminar məşğələlərini yüksək səviyyədə keçilməsi üçün müəllimlər bilik və bacarıqlarını artırmalıdırlar. Qeyd olunan məqsədlərə nail olmaq üçün fundamental dəyişikliklər etmək və kadr islahatı aparmaq lazımdır. Yüksək məqsədlərin yerinə yetirilməsi müəllim kadrlarının keyfiyyəti və təlim şəraiti ilə bilavasitə bağlıdır. İstənilən konkret məqsədə nail olmaq üçün müəyyən fəaliyyət strategiyası hazırlanmalı, onun kim tərəfindən və necə həyata keçilməsi araşdırılmalıdır. Məhz buna görə də aşağıdakı təkliflərə diqqət yetirmək lazımdır:

- ali texniki məktəblərdə ali riyaziyyat və ümumi fizika kurslarının keyfiyyətinin yüksəldilməsinin yeni sxemi qurulmalı;
- texniki ali məktəblərdə tələbələrin sayı əhəmiyyətli dərəcədə artırılmalı, onların elmi-metodiki hazırlığının keyfiyyəti yüksəldilməli;
- təhsil müəssisələrinin maddi-texniki bazası müasirləşdirilməli, təlim şəraiti yaxşılaşdırmalı, ölkənin müasir texniki inqilabın tələblərinə müvafiq inkişaf istiqamətlərinə uyğun yeni ixtisaslar üzrə kadr hazırlığı həyata keçirilməlidir.

Ali texniki məktəblərdə ali riyaziyyat kursu ilə ümumi fizika kurslarının qarşılıqlı əlaqəsində müxtəlif yanaşmalara baxmayaraq, onların tədrisində ortaq məqamlar özünü göstərir. Tədris prosesində fəndaxili və fənlərarası əlaqələrin yaradılması mühüm məsələlərdən biridir. Ali texniki məktəblərdə ümumi fizikadan məsələ həll edərkən yeni riyazi ideyalardan, metodlardan geniş istifadə imkanları yaranır. Yeni elmi-nəzəri əlaqələrin yaranması tələbələrdə müasir texnologiyaların tələblərinə uyğun keyfiyyətli bilik və bacarıqların formalaşmasında mühüm rol oynayır.

Ali riyaziyyat və ümumi fizika kursları arasındakı əlaqə gələcək mütəxəssislərin əldə etdikləri bilikləri daha da dəqiqləşdirir, tədris zamanı meydana çıxan formalizmin aradan qaldırılmasında, fənlərin dərindən mənimsənilməsində və vaxta qənaət edilməsində önəmli əhəmiyyət kəsb edir.

Ali texniki məktəblərdə ali riyaziyyat və ümumi fizika kurslarının məzmununu dərindən öyrənmək üçün hər bir yeni bölmənin nəzəri hissəsinə keçməzdən əvvəl, ixtisasa uyğun (məsələn, energetika, radiotexnika, maşınqayırma, nəqliyyat, inşaat, hidrotexnika və s. fakültələrdə) fənlərə dair müvafiq problemlərin şərhinə ehtiyac yaranarsa, hökmən tətbiqi məsələlərə geniş yer vermək lazımdır. Belə yanaşma tələbələrin marağına, keyfiyyətli bilik qazanmalarına geniş imkanlar açır. Təəssüf ki, gələcək mütəxəssislərin keyfiyyətli bilik əldə etmələri üçün fənlərarası əlaqələrin tam şəkildə həyata keçilməsi bir aktual problem kimi hələlik öz həllini tapmamışdır.

Ali riyaziyyat və ümumi fizikanın tədrisi zamanı kompyuter texnologiyasının tətbiqi fənlərin keyfiyyətli öyrənilməsi üçün imkan yaratmaqla bərabər, həm də konkret məsələlərin həllində yeni bacarıq və vərdişlərin yaranmasına səbəb olur. İnformasiya texnologiyaları vasitəsilə qazanılan bacarıq və vərdişlər tələbələrin daha çevik düşünmələrinə, məntiqi təfəkkürün inkişafına təkan verir, öyrənməni yaradıcı şəxsiyyət kimi formalaşdırır. Tədris prosesində tətbiq edilən bu metodla gələcək mütəxəssislərin informasiyanı yüksək səviyyədə qəbul etmələrinə və lazımı məqamda ondan səmərəli istifadə etmələrinə geniş imkanlar açır.

Ali texniki məktəblərdə fənlərarası əlaqələrdən istifadə etdikdə qarşıya çıxan çətinliklərin aradan qaldırılması üçün, təlim prosesində fəaliyyət növlərini, təlimin formalarını dəyişməklə

tələbələrin sərbəstliyi və tədqiqat aparmaq qabiliyyətləri təmin olunur. Həm də öyrənənlər tərəfindən müasir texnologiyanın tələblərinə uyğun məsələləri həll etmək üçün şərait yaranır.

Fənlərarası əlaqələrdə yeni anlayışın mənasını açmaq, öyrənənlər tərəfindən onların mahiyyətinin araşdırılmasına nail olmaq əsas məsələlərdən biridir. Belə anlayışların təhsil alanlarda formalaşdırılmasında yeni materiallar əsasında onların əhəmiyyətli əlamətlərini genişləndirmək və dərinləşdirmək vacib məsələlərdən biridir. Riyaziyyat və fizikada ümumi anlayışlar dedikdə funksiya; vektor; simmetriya; qravitasiya, elektrik, elektromaqnit sahələri; fiziki kəmiyyətlər və onların ölçülməsi; elementar hissəciklər; postulatlar; stasionar energetik səviyyələr; qeyri-müəyyənlik prinsipi və s. göstərmək olar. Bu anlayışlardan riyazi və fiziki məsələlərin həllində, düstur və teoremlərin isbatında da geniş istifadə olunur. Ona görə də tələbələrin keyfiyyətli bilik qazanmaları üçün ali riyaziyyatın və ümumi fizikanın müxtəlif bölmələri ilə ümumi texniki fənlərin arasında geniş əlaqələr yaratmaq tələb olunur.

Ali riyaziyyat və ümumi fizika kursları arasındakı əlaqələrdə yaranan ziddiyyətlərin aradan qaldırılması gələcək mühəndislərin hazırlığında böyük rol oynayır. Bu ziddiyyətlərin aradan qaldırılmaması, anlayışların səthi və ya təhrif olunmuş şəkildə mənimsənilməsində özünü göstərir. İstər ali riyaziyyat və istərsə də ümumi fizika kursunda texniki fənlərə aid məsələlərin həlli sistemləşdirilərsə onda çoxpilləli təhsil sistemində həll olunan problemin hər sonrakı mərhələsi əvvəlkini inkişaf etdirir və tamamlayır. Bu zaman gələcək mühəndislər texnikanın bir çox anlayışları ilə tanış olur və hər iki elm arasında ikitərəfli əlaqələrin yaradılması öz əksini tapır. Göstərilənlərin həlli təlim texnologiyalarında riyazi və fiziki metodların perspektiv imkanlarını genişləndirir.

Ali texniki məktəblərdə təlim prosesinin bütün komponentlərinin rolu və yeri məsələsinə yenidən baxılması zərurəti qarşıda durur, çünki ilk növbədə həm müasir, həm də klassik tədris metodlarından istifadə, mühazirə və məşğələ dərslərinin yeni növlərinin işlənib hazırlanmasını aktual problem kimi önə çəkir. Müasir dərsin tələblərinə uyğun təhsil mühitinin təmin edilməsi, təlim zamanı yaranan problemin müəllimlər tərəfindən birgə həlli edilməsi, mühazirədə tələbə qrupunun fəallaşdırılması üçün müxtəlif xarakterli yazılı suallardan istifadə yolu ilə təlim fəaliyyətinin tədricən genişləndirilməsi, planlaşdırılmış mühazirələrdə tələbələrin yüklənməsinin qarşısının alınması və s. məsələlərin xüsusiyyətləri nəzərə alınmalıdır.

Müasirliyi ilə seçilən konkret problemlərdən biri ali texniki təhsilin modernləşməsidir. XX əsrin sonlarından başlayaraq hazırkı dövrə kimi Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının nəticələri göstərir ki, riyaziyyat və təbiət fənlərinin, eyni zamanda humanitar fənlərin tədrisinin səviyyəsi aşağı düşmüşdür. Orta ümumtəhsil məktəbləri ali məktəblər üçün bilikli, fundamental hazırlıqlı, təhsilini uğurla davam etdirə bilən tələbə hazırlaya bilmir. Müşahidələr göstərir ki, orta ümumtəhsil məktəblərində aparılan islahatların, həm də ali məktəblərdə həyata keçirilməsi çətin problem olmaqla bərabər, bu prosesin işlək mexanizminin modelinin qurulması aktual bir problem olaraq öz həllini gözləyir.

Təhsil sferasında həyata keçirilən islahatlar ölkə rəhbərliyinin və ictimaiyyətin diqqətində olmasına baxmayaraq ləng gedir. Onu da qeyd etmək lazımdır ki, təhsil ölkənin əsas strateji məqsədli və ən vacib sahəsi olub, eyni zamanda ölkənin iqtisadi, texnoloji və hərbi təhlükəsizliyinin əsasında durur. Aparılan islahatlarla bağlı meydana çıxan "yenilik", "yeniləşmə", "modernləşmə" kimi terminlər müxtəlif xarakterli anlayışlardır. Orta ümumtəhsil məktəblərinin inkişafında başlıca məsələlərdən biri onun demokratik prinsiplərə əsaslanaraq ölkədə həyata keçirilən yeniləşmələrə, sosial iqtisadi islahatlara uyğunlaşdırılmasıdır. Bu halda tədris-təlim prosesinin fərdiləşdirilməsi, humanistləşdirilməsi, humanitarlaşdırılması, təhsil müəssisələrinin müxtəlifliyinin nəzərə alınması, tədris proqramlarının dövlət standartlarına uyğunlaşdırılması, çoxvariantlı tədris-metodik ədəbiyyatın hazırlanması və tətbiqi, tədris-təlim prosesinin maddi-texniki bazasının və kadr potensialının gücləndirilməsi həyata keçirilməlidir.

Ali texniki məktəblərdə və orta məktəblərdə həyata keçirilən modernləşdirilmənin konkret problemlərinə nəzər saldıqda deyə bilərik ki, son illərdə təhsilin məzmunu ilə bağlı problemlərin həlli siyasi, iqtisadi, sosial dəyişikliklərə məruz qalan müasir insanların tələblərinə uyğun şəkildə qurulması və təhsilin keyfiyyəti ilə bağlıdır. Həyata keçirilən təhsil islahatlarında orta ümumtəhsil

məktəblərin modernləşdirilməsinin mahiyyəti nədən ibarət olmalıdır? Aydındır ki, birinci növbədə təhsil sistemində yaxşı nə varsa, yəni nəinki onilliklər, həm də yüz illər ərzində təcrübədə özünü doğruldan yararlı hər şey saxlanmalıdır. Həm də müasir insanların bilik səviyyəsinin yüksəlməsi üçün vacib olan yeni fənlər tədris planına daxil edilməlidir. Təbii ki, onda indiki dövr üçün əhəmiyyət kəsb etməyən fənlərin tədris proqramından çıxarılması vacib məsələ kimi qarşıda durur. Əldə olunmuş bütün təcrübələr göstərir ki, təhsil sistemindəki dəyişikliklər çox ehtiyatla və ardıcıllıqla, inqilabı yolla deyil, təkamül yolu ilə həyata keçirilməlidir.

Sonda ali riyaziyyat və ümumi fizikanın tədrisinin səmərəliyini artırmaq və kadr hazırlığının keyfiyyətini yüksəltmək məqsədilə fənlərin tədrisində olan aşağıdakı bəzi çatışmazlıqların aradan qaldırılmasını məqsədəmüvafiq hesab edirik:

-ali texniki məktəblərin riyaziyyat və fizika kafedralarının müəllimləri orta ümumtəhsil məktəb müəllimlərinə metodik kömək göstərməli, onlara müvafiq məsləhətlər verməli;

-ali təhsil müəssisələrinin həm də ali texniki məktəblərinin ümumi elmi, fundamental və təbiət elmləri kafedralarının professor müəllim heyəti abituriyentlərin biliklərindəki çatışmamazlıqla bağlı problemlərin həllində yaxından köməyin göstərilməsi;

-ümumtəhsil məktəb məzunlarının orta məktəblərdə tədris olunan bütün fənlərdən bilik səviyyələrinin yüksəlməsinə metodik köməkliyin göstərilməsi;

-orta məktəb məzunlarının elementar həndəsə üzrə zəif bilikləri ali texniki məktəblərdə texniki fənlərin tədrisində qabarıq şəkildə özünü göstərir. Şagirdlərdə fəza təsəvvürlərinin inkişafı və nəzəri (tənqidi) təfəkkürün formalaşdırılması üçün elementar həndəsənin tədrisinin yaxşılaşdırılması üçün metodiki işin gücləndirilməsi;

-ali riyaziyyat və ümumi fizika kurslarının tədris saatlarının kəskin azalması və fizika kursunun iki semestr, ali riyaziyyat kursunu üç semestr müddətində tədris olunması kursun tədrisinin keyfiyyətini aşağı salır, tədris prosesinə mənfi təsir göstərir (Beynəlxalq miqyasda əksər texniki ali məktəblərdə ali riyaziyyat kursuna dörd və ya beş semestr, ümumi fizika kursuna isə üç semestr ayrılır). Bakalavr hazırlığı müəyyən peşə ixtisasları üzrə fundamental hazırlıq olduğundan, dəqiq elmlərin, yeni riyaziyyatın, fizikanın, ixtisas yönümlü fənlərin tədrisi gücləndirilməli və mütəxəssis hazırlığının keyfiyyəti yüksəldilməlidir. Magistr hazırlığında isə müəyyən ixtisaslaşmalar üzrə, ixtisaslaşmanın tələblərinə müvafiq kadr hazırlığı həyata keçirilməlidir. Yalnız bu halda Azərbaycan təhsil sistemində keyfiyyətli mütəxəssis hazırlığı təmin oluna bilər.

**ƏDƏBİYYAT**

1.Б.П. Демидович, В.А. Кудрявцев. Краткий курс высшей математики. М.: Астрель, 2001.

2.И.Д. Зверев, В.Н. Максимова. Межпредметные связи в современной школе. М., 1981.

3.E.M.Qocayev, R.S.Rəhimov. Fizika kursu I-hissə-2000, II-hissə-2001.

4.M. Mahmudov. Riyaziyyatın tədrisi metodikası: Ali texniki məktəblər üçün. Bakı: ADPU, 2006.

5.A.C.Adıgözəlov, T.M.Əliyeva. Riyaziyyatın tədrisi prosesində fənlərarası əlaqələrin tətbiqi. Bakı: Maarif, 1993.

**A. Mehrabov, M. Mahmudov**

**PROBLEMS ENCOUNTERED IN TEACHING OF HIGHER MATHEMATICS AND GENERAL PHYSICS COURSES AND WAYS OF THEIR ELIMINATION**

**SUMMARY**

The aim is to provide directions in two-tired education system for the preparation of qualified personnel in teaching of fundamental sciences, including teaching of higher mathematics and physics in higher technical schools.

The article deals with the connection between higher mathematics and general physics courses and shows the problems encountered in teaching of these courses and the ways of their elimination.

**А. Мехрабов, М. Махмудов**

# ПРОБЛЕМЫ, ВОЗНИКАЮЩИЕ В ПРОЦЕССЕ ПРЕПОДАВАНИЯ КУРСОВ ВЫСШЕЙ МАТЕМАТИКИ И ОБЩЕЙ ФИЗИКИ В ТЕХНИЧЕСКИХ ВЫСШИХ ШКОЛАХ И ПУТИ ИХ РЕШЕНИЯ

## РЕЗЮМЕ

Цель преподавания фундаментальных наук, в том числе преподавания высшей математики и физики обеспечить подготовку высококвалифицированных кадров по направлениям в двухуровневой системе образования в высших технических школах.

В статье рассматриваются связи между курсами высшей математики и общей физики, показаны проблемы, возникающие при преподавании этих курсов, а так же пути их решения.

*Redaksiyaya daxil olub: 25.07.2013*

# ƏDƏBİYYATDA KOMPOZİSİYA VƏ SÜJET ANLAYIŞLARI BƏDİİ VASİTƏ KİMİ

**Şəmistan Mikayılov,**
*pedaqogika üzrə elmlər doktoru, professor*
E-mail: semistanmikayilov@rambler.ru

***Açar sözlər:*** *bədiilik, obrazlılıq, kompozisiya, süjet, bədii vasitə*
***Ключевые слова:*** *художественность, образность, композиция, сюжет*
***Key words:*** *artistry, figurativeness, composition, plot, art means*

Təlim zamanı ədəbi əsər üzərində iş apararkən kompozisiya təhlili, demək olar ki, açar rolunu oynayır. Bədii əsərin məzmununun başa düşülməsində, yazıçı ideyasının dərk olunmasında kompozisiya mühüm əhəmiyyətə malikdir. Kompozisiya əsərdə təsvir olunan hadisənin inkişaf dinamikası ilə bağlıdır. Bədii əsərdə həyat hadisəsinin təsviri gəlişi gözəl səciyyə daşımır, sənətkar hadisəni danışmaqla oxucuya nəyisə təlqin edir, müəyyən ideyanın təbliğini qarşıya məqsəd qoyur. Təsviri nəzərdə tutulan hadisə müəyyən şəraitdə baş verir, müxtəlif insanlarla bağlı olur. Əlbəttə, yazıçı hadisəni olduğu kimi, pərakəndə halda qələmə almır, onunla əlaqədar olan hadisələrin, insanların bir-biri ilə əlaqələrinin təsvirini verəcəyi hadisə ilə bağlılığını öyrənir, qruplaşdırır, təfəkküründə bir sənət əsəri kimi sistemə salır və sonra qələmə alır. Əlbəttə, orta məktəbin bu və digər sinfində təhsil alan şagird ilk nəzərdə sənətkarın bu çətinliyini, fikri gərginliyini təsəvvür edə bilmir. Təlim prosesində müəllimin vəzifəsi bu çətinliyi dərk etdirməkdən ibarətdir, lakin yuxarıda qeyd edilən ikişaxəliliyin, pərakəndəliliyin, bir süjet xətti ətrafında qruplaşdırmağın çətinliyini sənət əsərini başa düşməkdə müəyyən təcrübəsi olmayan şagirdlərin dərk etmələri o qədər də asan iş deyil. Bunun üçün müəllimdən zəngin təcrübə və ustalıq tələb olunur.

Hər hansı bədii əsərin kompozisiyası üzərində iş aparmaq üçün onun oxunması gərəkdir. Hadisənin məzmunu, necə başlayıb, necə sona çatması ilə tanış olmadan, həmin əsərin kompozisiyası haqqında danışmaq, onun haqqında müəyyən təsəvvürə malik olmaq mümkün deyil. Belə təsəvvür olmadan onun bədii təhlilindən söhbət gedə bilməz.

Başqa anlayışlar kimi bədii əsərin kompozisiyası üzərində işə də aşağı siniflərdən başlamaq metodik baxımdan daha səmərəli hesab edilir. Hazırda başqa təlim fənləri kimi, ədəbiyyatdan da kurikulum layihəsi üzərində ciddi iş gedir. Şagirdlərin hansı bədii əsərlər üzərində işlədiləcəkləri hələlik məlum deyil, lakin məlumdur ki, onlar bədii əsərin kompozisiyası haqqında müəyyən biliyə malik olmalıdırlar. Bu bilik həyat hadisələrinə münasibət bildirməkdə onların köməyinə gələcək. Bu cəhətdən də fikrimizi ədəbiyyatdan mövcud proqram materiallarına əsasən söyləməli oluruq . Nizami Gəncəvinin “Xosrov və Şirin” əsərinin mövzusu məhəbbət mövzusudur. Şairin məqsədi məhəbbətin gücünü oxucunun nəzərinə çatdırmaqdır. Xosrov Şirini sevir, Şirin də Xosrova meyil göstərir, hadisələrin gedişində Fərhad Şirinə aşiq olur. Xosrov Fərhadı Şirinə olan məhəbbətindən çəkindirmək istəyir, Fərhad çəkinmir. Xosrov onun qarşısına insan gücünə uyğun olmayan şərt qoyur, Fərhad şərti qəbul edir və məhəbbətin gücünə Bisütun dağını yarır. Bu, Nizaminin sənətkar fantaziyasıdır, şair bununla demək istəyir ki, saf məhəbbətin gücü hər şeyə qadirdir.

Yaxud, “Yeddi gözəl” poemasında Fitnə obrazına nəzər salmaq olar. Əlbəttə, bir adamın, xüsusilə qadının altı yaşlı öküzü çiyninə götürüb, altmış pilləli eyvana çıxarması inandırıcı görünmür. Bu, şairin fantaziyasının məhsuludur, lakin şair fantaziyadan istifadəni də müəyyən əsasa görə deyir. Fitnə öküzü doğulan gündən etibarən hər gün qaldırır. Bu epizodun təhlili müəllimdən çox ciddi bilik və ustalıq tələb edir. Fitnə əhvalatının poemanın məzmununa daxil edilməsinə və fantaziyanın məhsulu kimi bu şəkildə qurulmasına laqeyd münasibət göstərmək olmaz. Şair həmin əhvalatı əsərin məzmununa daxil etməklə oxucuya müəyyən ideyalar təlqin edir. Şagirdlərin nəzərinə ən azı aşağıdakıların çatdırılması vacibdir:

a) Şairin yaşadığı feodal dünyasında qadına mənfi münasibəti görən müəllif qadının hər şeyə qadir olduğunu düşünür və fikrini əsaslandırmaq üçün Fitnə obrazını yaradır. Fitnə öz ağılı, bacarığı ilə Bəhram şahın ədalətsizliyini üzünə çırpır;

b)Fitnə 6 yaşlı öküzü məşq nəticəsində təsəvvür edilməsi çətin olan yüksəkliyə qaldırmaqla idmanın əhəmiyyətini oxucunun nəzərinə çatdırır və təlqin edir.

Deyilənlər onu göstərir ki, bədii əsər həyat hadisəsinin inikası olsa da, onun fotosurəti deyil, yazıçı tərəfindən işlənmiş incəsənət nümunəsidir. Həyatda bu və ya digər şəkildə təzahür edən əhvalatı sənət əsəri səviyyəsinə qaldırmaq yazıçıdan böyük ustalıq tələb edir. Sənət əsərini isə olduğu kimi başa düşmək lazımi bilik tələb edir. Bir daha qeyd etmək lazım gəlir ki, bədii əsərin quruluşu – kompozisiyası və onun daxili qaydaları haqqında birdən-birə məlumat verilməsi, əsərin, eləcə də yazıçının sənətkarlıq xüsusiyyətinin mənimsənilməsi və lazım gəldikdə izah edilməsi şagirdlər üçün çətindir. Bu bilik tədricən və konkret material əsasında verilməlidir.

Ədəbiyyatdan təlim materialları arasında kompozisiyanın izahı üçün səciyyəvi olan əsərlərin adları yuxarıda göstərilmişdir. Sadə kompozisiyaya malik nümunə (məsələn, A. Şaiqin "Köç" hekayəsi) üzərində müsahibə aparılır, hansı obrazlar təsvir edilən hadisə ilə onların əlaqəsi soruşulur, hər bir detalın əsas məzmunda tutduğu yer, bir-biri ilə əlaqəsi müəyyənləşdirilir, şagirdlərin diqqəti onların üzərinə yönəldilir. Bu iş sonrakı siniflərdə davam etdirilir. Verilən bilik getdikcə dərinləşdirilir.

Doğrudur, kompozisiya bir qayda olaraq epik janra daxil olan əsərlər ilə əlaqədar yada düşür, lakin dramatik əsərdə də müəyyən hadisə canlandırılır. Bu quruluşu səhnə avadanlığında aydın görmək olur, hətta bəzən süjetli şeirlərə rast gəlmək olur.

Bədii əsərin kompozisiyası ilə əlaqədar "süjet" anlayışı da var ki, buna əsərin *süjet xətti* deyilir. Hadisələr həmin xətt ətrafında cərəyan edir. Analogiya şəklində deyilsə, süjet xətti arxitektura cəhətdən diqqət cəlb edən binanın karkasıdır, tikinti materialı həmin karkaza yerləşdirildiyi kimi, bədii əsərdə təsvir olunan hadisələr də süjet xətti ətrafında qurulur. Ədəbiyyat nəzəriyyəsində "süjet" anlayışı ilə yanaşı,*"fabula"* anlayışı da işlədilir. Bəzən müəllimlər bunları eynimənalı, bi-birini əvəz edən söz kimi başa düşür və izahı lazım gəldikdə şagirdlərə də həmin sözləri sinonim kimi təqdim edirlər.

Doğrudur, "süjet","fabula" bir-birinə yaxın anlayışlardır, lakin ədəbiyyatşünaslıq baxımından – elmi cəhətdən onları eyniləşdirmək olmaz. "Fabula" anlayışı hadisənin həyatda baş verməsini, olduğu kimi inkişafını bildirirsə, "süjet" onun yazıçı tərəfindən necə işləndiyini bildirir. Həmin sözləri eyni söz kimi işlətmək, başqa sözlə, süjeti şagirdlərə fabula kimi təqdim etmək yazıçı, yaxud şairin sənətkarlığını nəzərə almamaqdır. Belə olduqda, hər hansı əsərin bədii dəyərini düzgün müəyyənləşdirmək mümkün deyil. Hətta bəzən eyni mövzu ayrı-ayrı sənətkarlar tərəfindən fərqli şəkildə işlənir. Bunu şagirdlərə tanış olan Nizami Gəncəvinin "Leyli və Məcnun"u ilə Məhəmməd Füzulinin "Leyli və Məcnun"unun müqayisəsində aydın görmək olur. Eyni mövzu iki nəhəng sənətkar tərəfindən fərqli işlənmişdir, lakin hər ikisi gözəl sənət əsəridir. Hər iki sənətkar Qeysin (Məcnunun) ömür yolunu anadan olandan həyatının sonuna qədər əks etdirir, lakin onların hər biri əsəri istədiyi kimi qurub. Nizaminin "Leyli və Məcnun"u epik , Füzulinin "Leyli və Məcnun"u isəepik-lirik əsərdir. Füzuli qəhrəmanların dili ilə 23 qəzəl vermişdir ki, bu da əsərə lirik ruh gətirmişdir. Nizamidə Qeys anadan olanda təbəssümlü olduğu deyilir. Füzulinin Qeysi aramsız ağlayır, dayələr onu sakit edə bilmirlər, gözəl bir qadın onu əlinə götürdükdə sakitləşir. Nizaminin Leylisi daha fəaldır, cəsarətlidir, ismətini qoruyur, İbn Səlama şillə vurmaqdan çəkinmir. Füzulinin Leylisi də ismətini qoruyur, lakin aldatma yolu ilə. Nizaminin "Leyli və Məcnun"unda olan bəzi hissələr (epizodlar) Füzulinin "Leyli və Məcnun"unda yoxdur. "Bağdadlı Səlamın iki dəfə Məcnunun görüşünə getməsi", "Məcnunun dayısı Səlim Amirinin Məcnunu görməyə getməsi", "Zeydlə Zeynəbin sevgisi haqqında" və s. kimi hissələr M. Füzulinin "Leyli və Məcnun"unda yoxdur.

Hər iki əsərdə Məcnunla Nofəlin tanışolma epizoduna nəzər salmaq olar. Onların hər ikisində Məcnun qüvvətli şairdir, bədahətən şeir demək qabiliyyətinə malikdir, lakin Nofəlin onunla tanışlığını söz sənətkarları başqa yollarla verirlər: Nizamidə Nofəl çöldə ov edərkən Məcnunun səsini eşidir. Yoldaşları onun divanə olduğunu deyirlər. Nofəl onu tapıb söhbət edir. Füzuli "Leyli və

Məcnun"unda isə musiqi məclisində oxunan bir qəzəldən Nofəlin xoşu gəlir. O, bu şeirin kimin olduğunu soruşur. Qəzəlin müəllifinin bir dəli-Məcnun olduğunu deyirlər. Bundan sonra Nofəl Məcnunu axtarıb vəhşilər arasında tapır. Buradan aydın olur ki, Nofəl şeiri dinlədikdən sonra Məcnunla tanış olur. Bu, fabulaya daxildir, lakin Nizami onu ov səhnəsi ilə, Füzuli isə musiqi məclisi ilə əlaqələndirir ki, bu, süjetdir.

Bütün bunlar onu deməyə imkan verir ki, müxtəsər müqayisə edilən iki "Leyli və Məcnun"un mövzusu eyni həyat hadisəsi olsa da, süjeti fərqlidir. Bu da bir-birinə yaxın olan iki anlayışın süjet və fabulanın eyni olmadığını göstərir. Başqa sözlə, eyni mövzu ayrı-ayrı sənətkarlar tərəfindən müxtəlif şəkildə qurulur.

Əsərdə təsvir olunan hadisənin zənginliyindən asılı olaraq, quruluşu sadə, yaxud mürəkkəb süjetli olur. Bəzi əsərlər obrazın həyatından götürülmüş kiçik bir dövrü əhatə edir, hadisələr, əsasən, eyni xətlə inkişaf etdirilir. Hekayə adlanan sadə sujetli nəsr əsərlərin də süjet xəttini izləmək o qədər də çətin deyil.

Məktəb təcrübəsi göstərir ki, şagirdlər mürəkkəb süjetli əsərlərin kompozisiyası üzərində işləməkdə çətinlik çəkirlər. Bu çətinliyi yaradan əsərin şagirdlər tərəfindən bütövlükdə oxunmamasıdır. Əlbəttə, müşahidə olunan çətinlik təbiidir, şagird əsərdə təsvir olunan hadisələrlə tanış deyilsə, onun inkişaf xətti, hadisələr arasındakı əlaqə haqqında nə deyə bilər və həmin əsəri sənət nümunəsi kimi necə qiymətləndirər. Kompozisiya və süjet haqqında qazanılmış bilik təkcə təlim materialı kimi öyrədilən bu və ya digər əsərin quruluşunu müəyyənləşdirmək üçün olmayıb, bütövlükdə incəsənət növlərini başa düşməyə və qiymətləndirməyə yardım edən bilikdir. Yeri gəlmişkən xatırlatmaq lazım gəlir ki, musiqişünaslıqda işlədilən "kompozitor" anlayışı da həmin sözdəndir. Odur ki, müəllim belə həyati anlayışların dərindən mənimsədilməsini diqqət mərkəzində saxlamalıdır. Bu da əsərin bütövlükdə oxunmasını tələb edir.

İrihəcmli əsərlərin "kompozisiya və süjet"i haqqında məktəbin tam orta təhsil pilləsində daha ətraflı söhbət açmaq tövsiyə olunur. Belə ki, məktəbin bu mərhələsində şagirdlərin bilik səviyyəsi, qavrama dərəcəsi irihəcmli, mürəkkəb kompozisiyalı əsərləri oxumağa imkan verir.Bu mərhələdə "kompozisiya və süjet" anlayışını Nizaminin "Xosrov və Şirin" əsəri üzərində aparılan işlə əlaqələndirmək daha faydalı hesab edilir. "Xosrov və Şirin" əsəri uzun müddət tədris materialı olduğundan, onun tədrisi haqqında lazımi təcrübə toplanıb. Buna baxmayaraq, müəllim şagirdlərin "Xosrov və Şirin"in kompozisiyası üzərində işlədilməsi ilə əlaqədar müəyyən hazırlıq işi aparmalıdır. Bu məqsədlə əsəri bütövlükdə şagirdlərin oxumaları haqqında ciddi tapşırıq verməli, əsərdə hadisələrin süjet xətti ətrafında yerləşdirilməsinə dair sxem hazırlayıb, kompyuterin yaddaşına ötürməlidir. Bununla yanaşı, əsərdə hadisələrin inkişafı üzrə müsahibə aparmaq üçün plan hazırlamaq üzərində fikirləşməlidir.

Aydın olur ki, Nizami Gəncəvinin "Xəmsə"yə daxil olan ikinci poemasında Hürmüz, Məhin Banu, Xosrov, Məryəm, Şirin, Şəkər, Şiruyyə, Şapur, Fərhad, Barbəd, Nikisa, Bəhram Çubin kimi surətlər var. Suallara verilən cavablardan aydın olur ki, əsərdə təsvir olunan hadisələrin mərkəzində Xosrov surəti durur. Xosrovla Şirinin arasında cərəyan edən məhəbbət macərası əsərin ana xəttini təşkil edir. Qalan surətlərlə əlaqədar danışılan əhvalatlar əsas xətlə məntiqi şəkildə bağlanır, başqa sözlə deyilsə, əsərdə əsas xətlə əlaqəsi olmayan yersiz fikir söylənmir, şair, yaxud yazıçı yuxarıda deyildiyi kimi, əsəri qurur, həyatdakı hadisənin fotosurətini yaratmır, onu sənət əsəri səviyyəsinə qaldırır. O da aydın olur ki, hər bir əsərdə təsviri verilən hadisələrin dinamik inkişafı düz xətlə inkişaf etmir, bəzən obrazların mənafeləri, fikirləri toqquşur, ciddi gərginlik yaranır, daha dəqiq deyilsə, hadisələr yüksələn və enən xətlə inkişaf etdirilir. Əsərdə təsvir olunan hadisələrin başlanğıcı və sonu arasındakı təbii xətt *"fabula"* adlanırsa, yazıçının təxəyyülü ilə qurulan inkişaf xətti *süjet* adlanır. Süjet xətti müəyyənləşdirilmiş mərhələlərdən ibarətdir: ekspozisiya (bədii müqəddimə – hadisənin başlanması), zavyazka (hadisələrin mürəkkəbləşməsi, düyünlənməsi, gərginliyin getdikcə artması), kulminasiya - zirvə (gərginliyin ən yüksək nöqtəsi), razvyazka – düyünün tədricən açılması , final – hadisələrin sona çatması. Bu mərhələlər Nizami Gəncəvinin "Xosrov və Şirin" əsərinə tətbiq edilsə, təxminən aşağıdakı kimi müəyyənləşər:

Kəsranilər sülaləsindən olan Hürmüz şahlıq taxtına sahib olandan sonra ədaləti hərəkət edir. Qoca dünyada nəsli itməsin deyə, nəzir-niyaz verib, tanrıdan övlad istəyir. Diləyi qəbul olunur, oğlu olur. Uşağa Xosrov Pərviz adı verirlər, dayələr onu gümrah böyüdürlər. Xosrov qüvvətli cavan olur. Bu hissə əsərin bədii müqəddiməsi-*ekspozisiyası*dır. Bundan sonra hadisələr tədricən mürəkkəbləşir;

Cavan şahzadə Xosrov dəcəllik edir, atasının qoyduğu qanunu pozur, atası (Hürmüz) onu cəzalandırır, Xosrov yuxuda babasını görür. Müəllim yuxunun məzmununu şagirdlərin hafizəsində möhkəmləndirmək məqsədilə onlara bir daha təkrar etdirir, Şapur Xosrovla söhbət zamanı Şirini tərifləyir, həmin söhbətə əsasən Xosrov Şirinə vurulur, Şapurdan kömək istəyir. Şapur bacarıqlı sənətkardır – rəssamdır. Şapur Şirini axtarmaq üçün Ərmənə gedir, Xosrovun şəklini çəkib üç dəfə ağacdan asır, özü gizlənir. Nəhayət, Şapur özünü göstərir və Xosrovun kim olduğu və harada yaşadığını deyir. Şirin də Xosrova vurulur və onu görmək fikrinə düşür, Şirin ova çıxır, oradan Mədainə qaçır, Xosrov da Ərmənə gedir. Şirin Xosrovun atasından qorxub qaçmasından xəbər tutur. Xosrov Ərməndə məclis qurur, Şapur gəlir. Xosrov Şirin əhvalatını Şirinin bibisi Məhin Banuya bildirir. Xosrovun atası ölür. Xosrov Mədainə qayıdır. Şapur Şirini yenidən Ərmənə gətirir. Xosrov Ərmənə gəlir Şirinlə ovlaqda görüşürlər, Məhin Banu Şirinə nəsihət verir. Xosrov Şirinlə əylənir, Şirin Xosrovun arzusunu yerinə yetirmir. Xosrov Şirindən küsüb, Ruma gedir. Rum Qeysərinin qızı Məryəmlə evlənir. Qeysərin köməyi ilə Bəhramla müharibə edir və qalib gəlir. Şirin Xosrovun ayrılığından ah-zar edir. Məhin Banu vəsiyyət edib ölür. Şirin taxta çıxır və ölkəni ədalətlə idarə edir, lakin bir müddətdən sonra ölkəni bir nəfərə tapşırıb, Xosrovu görmək uçün Mədainə gedir. Xosrov Şirini gətirmək üçün Məryəmdən icazə istəyir. Şapur Xosrovun sözünü Şirinə yetirir. Şirinə süd arxı çəkdirmək üçün Fərhadı dəvət edir, Şirin arxı görməyə gedir. Hadisə daha da gərginləşir. Bunlar münaqişənin düyünlənməsidir. Şirini Fərhad da sevir. Bütün bunlar əsərin zavyazkasına daxildir, bağlanmasıdır. Xosrov bundan xəbər tutur, Fərhadı çağırtdırıb hədə - qorxu ilə çəkindirməyə çalışır, Fərhad fikrindən dönmür. Xosrov ağır bir şərt qoyur: Bisütun dağını yarıb yol çəkə bilsə, Şirinin onun olacağını deyir. Bunlar hadisələrin, əsərin zirvə - kulminasiya nöqtəsidir. Fərhad şərti qəbul edir. Fərhad Bisütunu çapıb qurtarmağa az qaldığı xəbərini Xosrova yetirirlər. Xosrov xəyanətə əl atır, Fərhad ölür. Beləliklə, Xosrovun Şirinə çatması yolundakı maneənin biri də aradan qalxmış olur. Hadisələr tədricən açılmağa başlayır. Xosrov İsfahanlı Şəkəri alır. Xosrov ova gedir, oradan Şirinin qəsri tərəfə at çapır, onunla söhbət edir, qəsrdən məyus qayıdır. Onun qayıtmasından Şirin peşman olur və qərargaha yollanır. Xosrov Şirini qəsrdən Mədainə gətirir və toy edir. Hadisələrin tədricən açılması əsərin zavyaskası-düyünün açılmasıdır. Şirin Xosrova bilik kəsb etməsi üçün öyüd verir. Xosrov atəşgahda oturur. Atası yuxuda olarkən Şiruyyə ona xəyanət edir, Xosrov ölür, Şiruyyə Şirinə məktub göndərir. Xosrovun dəfn mərasimində Şirin özünü öldürür. Bunlar finaldır, hadisələr sona çatır.

Məktəb təcrübəsi göstərir ki, əsərin süjet xəttinin kompyuter vasitəsilə nümayiş etdirilməsi bir neçə cəhətdən əhəmiyyətlidir:

1. Sxemin kompyuter vasitəsilə nümayiş etdirilməsi şagirdlərin böyük marağına səbəb olur, onların diqqətini bilavasitə təhlil olunan problemə yönəldir.

2. Sxem əsərdə danışılan əhvalatlar arasında məntiqi əlaqəni anlamanı asanlaşdırır ki, bu yazıçının sənətkarlıq qüdrətini, əsərin keyfiyyətini – bədii dəyərini dərk etməyə imkan yaradır.

3. Süjet xəttinin görmə orqanı vasitəsilə qavranılması əsərin məzmununu mənimsəməni və sonradan xatırlamanı asanlaşdırır. Bunu təcrübədə yoxlamaq qarşıya məqsəd qoyuldu. Süjetin qrafik şəkildə göstərilməsinin məzmunun yadda qalmasına təsirini yoxlamaq məqsədilə nəticə digər siniflərdə oxuyan şagirdlərin əsər haqqında bilikləri ilə müqayisə edildi.

Əsərin təhlilindən bir müddət sonra təkrar zamanı şagirdlərə aşağıdakı suallarla müraciət edildi:

1) Xosrovun gördüyü yuxunun məzmunu nə idi?

2) Məhin Banu Şirini nə üçün məzəmmət edirdi?

3) Şapur Fərhadla harada tanış olmuşdu?

4) Şirin Fərhadın sənətini necə qiymətləndirdi, Fərhad ona necə cavab verdi?

5) Büzürgumid Xosrova danışdığı nağıllar hansı məhşur əsərdən götürülmüşdür?

6) Şirüyyənin anası kim idi?
7) Nizami Şirinin ölümünü necə qiymətləndirir?
Müqayisənin nəticəsini aşağıdakı kimi göstərmək olar:

*Şagirdlərin suallara cavablarının sayı (faizi)*

| *Məktəb / Sinif* | *Sinifdə şagirdlərin sayı* | *I sual* | | *II sual* | | *III sual* | | *IV sual* | | *V sual* | | *VI sual* | | *VII sual* | | *mənimsəmədə orta %* |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | *qənaətbəxş* | *q/qənaətbəxş* | *qənaətbəxş* | *q/qənaətbəxş* | *qənaətbəxş* | *q/qənaətbəxş* | *qənaətbəxş* | *q/qənaətbəxş* | *qənaətbəxş* | *q/qənaətbəxş* | *qənaətbəxş* | *q/qənaətbəxş* | *qənaətbəxş* | *q/qənaətbəxş* | |
| *Bakı 190 nömrəli məktəb $X^b$ eksp* | *29* | *25* | *4* | *25* | *4* | *22* | *7* | *26* | *3* | *24* | *5* | *21* | *8* | *27* | *2* | *84%* |
| | | *86%* | *14%* | *86%* | *14%* | *76%* | *24%* | *90%* | *10%* | *83%* | *17%* | *72%* | *28%* | *93%* | *7%* | |
| *$X^a$ kontr* | *25* | *5* | *19* | *6* | *21* | *4* | *21* | *6* | *19* | *2* | *23* | *3* | *22* | *9* | *20* | *83%* |
| | | *20%* | *76%* | *24%* | *84%* | *16%* | *84%* | *24%* | *76%* | *8%* | *92%* | *13%* | *88%* | *20%* | *80%* | |
| *Şəki 8nömrəli məktəb $X^a$ eksp* | *25* | *21* | *4* | *19* | *6* | *18* | *7* | *22* | *3* | *20* | *5* | *21* | *4* | *23* | *2* | *82%* |
| | | *84%* | *16%* | *76%* | *24%* | *72%* | *28%* | *88%* | *12%* | *80%* | *20%* | *84%* | *16%* | *93%* | *7%* | |
| *$X^b$ kontr* | *26* | *5* | *21* | *6* | *20* | *7* | *19* | *8* | *18* | *5* | *21* | *6* | *20* | *10* | *16* | *26%* |
| | | *19%* | *84%* | *23%* | *77%* | *27%* | *73%* | *31%* | *69%* | *19%* | *84%* | *23%* | *77%* | *38%* | *62%* | |
| *İsmayıllı 3nömrəli məktəb $X^1$ eksp* | *25* | *19* | *6* | *21* | *4* | *20* | *5* | *22* | *3* | *18* | *7* | *23* | *2* | *21* | *4* | *82%* |
| | | *76%* | *24%* | *84%* | *16%* | *80%* | *20%* | *88%* | *12%* | *72%* | *28%* | *92%* | *8%* | *84%* | *16%* | |
| *$X^3$ kontr* | *23* | *6* | *17* | *5* | *18* | *3* | *20* | *6* | *17* | *8* | *15* | *5* | *20* | *9* | *14* | *26%* |
| | | *26%* | *74%* | *22%* | *78%* | *13%* | *87%* | *26%* | *74%* | *35%* | *65%* | *22%* | *87%* | *39%* | *61%* | |

*Eksperimental siniflərdə qənaətbəxş cavab: 83%*
*Kontrol siniflərdə qənaətbəxş cavab: 23%*

Cədvəldən aydın olur ki, süjet xətti kompyuterlə nümayiş etdirilən eksperimental siniflərdə şagirdlər əsərdə hadisələrin inkişaf xəttini, eləcə də məzmununu daha yaxşı xatırlayır, hadisələr arasındakı əlaqəni daha aydın təsəvvür edirlər. “Xosrovun babası yuxuda ona nə deyirdi?” sualına eksperimental siniflərdə oxuyan şagirdlərin 83 faizi qənaətləndirici cavab verir, kontrol sinifdə oxuyan şagirdlərdən isə bu sualın nə demək olduğunu təsəvvür edən şagirdlərin sayı 5-6 nəfəri keçmir. Belə ki, həmin yuxu əsərdə təsvir olunan hadisələrin inkişaf xətti ilə - süjeti ilə bağlıdır, Xosrovun nəyə nail olacağı aydın deyilir. Xosrov yuxuda babasının dediklərinə real həyatda nail olur. Bu Nizaminin fantaziyasının məhsuludur. Başqa sözlə, atasının cəzası nəticəsində itirdiklərinin əvəzinə nələrə sahib olacağı aydınlaşır. Bu epizod əsərin ideya – bədii dəyərini nəzərə çarpacaq dərəcədə artırır.

Hazırda kurikulum üzərində iş gedir. İnanmaq olar ki, onun əsasında yazılacaq dərsliklərdə irihəcmli əsərlərdən hansı hissələr üzərində iş aparmağın lazım olduğu diqqət mərkəzində saxlanacaqdır.

Bir daha qeyd etmək lazım gəlir ki, bəzən oxucunun diqqətinə təqdim olunmuş kiçik bir epizod (yaxud detal) əsərin bədii dəyərinin nəzərə çatdırılması üçün mühüm əhəmiyyətə malik olur. Belə epizodlar nəzərdən qaçırılmamalıdır. İlk növbədə dərslik müəllifi bu cəhəti diqqət mərkəzində saxlamalıdır.

**ƏDƏBİYYAT**


1. Qarabağlı Ə. Azərbaycan ədəbiyyatının tədrisi metodikası. Bakı: Maarif, 1968.
2. Hacıyev A. Azərbaycan ədəbiyyatının tədrisi metodikası. Bakı: Təhsil, 2003.
3. Mikayılov Ş. Ədəbiyyat nəzəriyyəsi, (9-11), Bakı: Maarif, 2011.
4. Həsənli B, Nəcəfov N. Ədəbiyyat. IX sinif. Bakı: Əlfərül, 2005.
5. Cəfərov N., Kərimli T., Əsgərli Z., Bakıxanova A., Ədəbiyyat: X sinif, Bakı: Çaşıoğlu, 2005.
6. Cəfərov N., Həbibbəyli İ, Əliyeva N., Bakıxanova A.,Ədəbiyyat: XI sinif, Bakı: Çaşıoğlu, 2008.
7. Mirəhmədov Ə. Ədəbiyyatşünaslıq terminləri lüğəti. Bakı: Maarif, 1978.


**Ш.А.Микаилов**

**ПОНЯТИЯ КОМПОЗИЦИИ И СЮЖЕТА КАК ХУДОЖЕСТВЕННЫЕ СРЕДСТВА В ЛИТЕРАТУРЕ**

**РЕЗЮМЕ**

В статье раскрывается понятие композиции и сюжета как средств художественной литературы.

Мастер слов – писатель строит художественное развитие не по фотографиям, а на основе жизненных явлений. Так рождаются сюжеты произведений и объясняются основные моменты их развития.

**Sh.Mikailov**

**CONCEPTIONS OF COMPOSITION AND PLOT AS ART MEANS IN THE LITERATURE**

**SUMMARY**

The article explains the notion of composition and storytelling as a means of fiction.

Master words - writer builds artistic development is not the photographs, but on the basis of vital phenomena. Thus are born the subjects of works and explains the main points of their development.

*Redaksiyaya daxil olub: 20. 09.2013*

# YENİ PEDAQOJİ TEXNOLOGİYALARDAN İSTİFADƏ TƏLİMİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ MÜHÜM VASİTƏ KİMİ

**İsmət Məmmədova,**
*ARTPİ-nin elmi işçisi*
E-mail:konseptual-2010 @ mail.ru

**Rəyçilər:** *dos.* **A.X. Hacıyev,**
*dos.* **M.A. İbadova**

***Açar sözlər:*** *yeni pedaqoji texnologiya, təfəkkür prosesi, ümumiləşdirmə, müqayisə, yaradıcılıq qabiliyyəti, təhlil*

***Ключевые слова:*** *новые педагогические технологии, процесс мышления, анализ, сравнение, обобщение, творческие способности*

***Key words:*** *new teaching technologies, thinking process, analyze, comparison, generalization, creative abilities*

Son illərdə cəmiyyətdə baş verən köklü dəyişikliklər respublikamızın təhsil sistemində də öz əksini tapır. Təhsil sahəsində böyük islahat proqramı həyata keçirilir.

Ümummilli lider Heydər Əliyevin 15 iyun 1999-cu il tarixli, 168 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqramı" ölkəmizdə təhsil sistemində islahatların həyata keçirilməsi üçün ilkin təkan oldu.

"Azərbaycanın gələcək inkişafı təhsillə bağlıdır" - deyən ölkə Prezidenti İlham Əliyev də təhsilin inkişafını yüksək zirvəyə çatdırmağı mühüm vəzifə sayır.

O, savadlı, dünyagörüşlü kadrlara və şagirdlərə yüksək səviyyədə təhsil verilməsini təhsilin qarşısında duran ən mühüm vəzifə hesab edir.

Ümumtəhsil sistemində aparılan islahatların məqsədi təhsilin keyfiyyətinin

yüksəltmək, dünya standartlarına cavab verən səviyyəyə çatdırmaqdır.

Hazırda təhsildə yeni yanaşmaların tətbiqi təlim-tərbiyə prosesinin keyfiyyətinin yüksəldilməsi vasitəsi olub, dünya təhsil sferasında təhsil sisteminin modernləşdirilməsinin əsas strateji istiqamətlərindən biri kimi qiymətləndirilir. Yeni texnologiyaların elmi- pedaqoji təhlilinin aparılması, onun yeni məzmununun hazırlanması təhsil sisteminin ən aktual problemi kimi qiymətləndirilməli və problemin həlli onların pedaqoji, psixoloji əsaslarının işlənməsinə yönəldilməlidir.

"Texnologiya" XX əsrin 60-cı illərinin əvvəllərində pedaqoji elmlər üçün hələ yabançı anlayış idi. Amerika və Avropa məktəblərində isə bu yönümdə islahatlar keçirilirdi. Tədris prosesində texnikanın tətbiqi zəminində əvvəlcə təlimin texnologiyası anlamı səsləndi. Daha sonra bu anlam tədricən inkişaf edərək tərbiyə sahəsinə də nüfuz etdi və lüğətə pedaqoji texnologiya kimi daxil oldu. Texnologiya (yunanca *techne* -sənət, peşə, elm + *loqos*- anlayış, təlim) anlayışı texnikanın inkişafı zəminində əmələ gəlmişdir. Pedaqoji prosesdə texnologiya nəzərdə tutulmuş məqsədlərin yerinə yetirilməsinə şərait yaradır.

Daha sonra pedaqogikada yeni bir istiqamət - pedaqoji texnologiyalar meydana gəldi. Pedaqoqlar onları əvvəlki, ənənəvi təlim texnologiyalarından fərqləndirmək üçün yeni pedaqoji təlim texnologiyaları adlandırdılar. Yeni pedaqoji texnologiyalar məhz müasir dünyanın təhsil sahəsində önəm verdiyi təlim metodikasıdır.

Yeni pedaqoji texnologiyaların xarakterik əlamətləri aşağıdakılardır:

1. Müəllimin rəhbərliyi ilə təlim problemini şagirdlər özləri araşdırır və həll edirlər. Müəllim isə istiqamət verir və müvafiq şərait yaradır.

2. Təlim prosesi (texnologiyası) dəqiqliklə layihələşdirilir.

3. Yeni təlim texnologiyalarında şəxsiyyətyönümlülük və inkişafetdiricilik qabarıq şəkildə səciyyələnir

4. Şagirdlərin müstəqil fəaliyyət göstərmələri üçün tədris materialı optimal şəkildə tərtib olunur.

5. Şagirdlərin təlim fəaliyyəti istiqamətləndirilir- fəaliyyətin əsas prinsipləri, metodları, motivasiyası, nəzarət və əldə olunan nəticələrin qiymətləndirilməsi məsələləri izah edilir.

Yeni pedaqoji texnologiyalar, ümumilikdə təlimin yeni konsepsiyası dörd əsas prinsip ətrafında cəmləşdirilə bilər:

-şagidyönümlülük;

-fəal, müstəqil və birgə təlim fəaliyyəti imkanlarının yaradılması;

-təlimin inteqrativliyi;

-təlimin məzmun və nəticələrinin təlim alanların məktəbdən sonrakı həyat fəaliyyəti və cəmiyyətlə əlaqəli olması.

Pedaqoji texnologiyanı təhlil edən mütəxəssislər onun strukturunda aşağıdakı cəhətlərin olduğunu göstərirlər:

a) pedaqoji texnologiyanın konseptual əsası;
b) təlimin məzmunu:
- təlim məqsədləri(ümumi və konkret);
- təlim materiallarının məzmunu;
c) prosessual hissə- texnoloji proses:

-təlim prosesinin təşkili;

-şagirdlərin tədris fəaliyyətinin forma və metodları;

-müəllimin fəaliyyətinin forma və metodları;

-materialın mənimsənilməsi prosesinin idarə olunması sahəsində müəllimin fəaliyyəti;

-tədris prosesinin diaqnostikası

Təlimin keyfiyyəti sahəsində əsas vəzifə təhsilin bütün mərhələlərində və aspektlərində keyfiyyətin yüksəldilməsi, hamı tərəfindən qəbul edilən və ölçülə bilən təlim nəticələrinin əldə edilməsidir. Təhsilin müvəffəqiyyətlə həyata keçirilməsi yollarından biri Azərbaycan Respublikasının Təhsil Sahəsində İslahat Proqramında göstərildiyi kimi yeni pedaqoji texnologiyalardan istifadədir.

Prof. Y. Kərimov bu gün bütün nəşrlərdə texnologiyanın yeni anlamının olduğunu qeyd edərək yazır: “Onlara uyğun olaraq belə bir qənaətə gəlmək mümkündür ki, pedaqoji texnologiya sadəcə olaraq təlimdə texniki vasitələrdən və kompyuterdən istifadə dairəsi deyil. O prinsipləri aşkara çıxarmaq, təhsilləndirmək effektivliyini yüksəldən faktorları təhlil etmək yolu ilə təhsil prosesinin optimallaşdırılmasının priyomlarını işləmək məqsədinə xidmət edir. Onun mahiyyəti tədris prosesinin tam idarə olunmasıdır”.

Pedaqoji texnologiyalar yalnız təhsilin elementi kimi deyil, onun məqsədi, məzmunu, prosesi və nəticəsi kimi xidmət göstərir.

Pedaqoji və təlim texnologiyaları elmi şəkildə sistemlə tətbiq edildikdə təhsilin ayrılmaz bir hissəsinə çevrilir.

Yeni pedaqoji texnologiyaların tətbiqi prosesində müəllim şəxsiyyəti, onun rolu haqqında prof. A.O. Mehrabov yazır: “...Təkcə texnologiya, yaxud onların cəmi də pedaqoji praktika kifayət etmir. Bunun üçün ümidverici, inkişafetdirici texnologiyaların fədakar, aparıcı müəllim şəxsiyyəti ilə birləşməsi lazımdır. Ona görə də yeni texnologiyalardan danışarkən qeyd edilməlidir ki, onların tətbiqi yaradıcılıq tələb etməklə, texnologiyaların prinsip və təlimatlarına, digər tərəfdən müəllimin istiqamət götürdüyü mədəni situasiyaya söykənməli, həm də bu tətbiqetmə müəllimin və şagirdlərin şəxsiyyətinə istiqamətlənməlidir”.(2)

Pedaqoji və təlim texnologiyaları üzrə müəllimlərin bilik səviyyəsini, bacarıqlarının və qabiliyyətini artırmaq əsas şərtdir.

Yeni pedaqoji texnologiyanın hər hansı variantının uğurlu alınması üçün müəllimlərdən şəraiti, şagirdlərin hazırlıq səviyyəsini və psixoloji xüsusiyyətlərini nəzərə almaqla işə yaradıcı yanaşmaq tələb olunur. Yaradıcılıq və pedaqoji ustalıq müvəffəqiyyətin rəhnidir.

Təhsilin yeni pedaqoji texnologiyalar əsasında qurulmasında, təşkilatçılıq, istiqamətvericilik vəzifəsini öz üzərinə götürən müəllim əsas fəallığı şagirdlərə vermiş olur.

Yeni texnologiyaların tətbiqi zamanı şagirdin mövqeyi onun üçün qüvvəsi çatan məsələ və problemlərlə qarşılaşan və onları müstəqil həll etməyə qadir olan "tədqiqatçı", "ilk kəşf edən" mövqeyinə çevrilir. Bu zaman prinsipcə şagird üçün ən vacib olan təlim tapşırıqlarını tərkib hissələrinə ayırmaqdır. Müəllimin mövqeyi, məqsədi, öncül kimi problem-situasiyaların yaradıcısı olmaqla şagirdlərin tədqiqatçılıq tapşırıqlarının icrasına metodik istiqamət verməkdən ibarət olmalıdır. Bəzən də müəllim mövzunu daha yaxşı mənimsətmək məqsədilə mümkün olan variantlardan seçir.

Müəllimlərin qarşılarına belə bir məqsəd də qoyulur ki, tədris etdikləri fənnin köməyi ilə müstəqil həyat fəaliyyətləri üçün lazım olan bacarıq və vərdişləri şagirdlərə aşılamaqla yanaşı, həm də onları vətəndaş kimi tərbiyə edib yetişdirsinlər.

Müəllim şagirdlərin vətəndaş kimi tərbiyə olunmasında özünüdərk, özünəinam və özünütərbiyə prinsipini diqqət mərkəzində saxlamalı və hər mövunun tərbiyələndirici rolunun planda durmasına çalışmalıdır.

Təhsil sahəsində yeniliklərin həyata keçirilməsi başlıca olaraq təlimin məzmununun yeniləşdirilməsi ilə mümkündür. Təlimin məzmununun yeniləşdirilməsi isə ilk növbədə müasir təlim texnologiyalarının tətbiqi nəticəsində mümkündür.

Müasir təlim texnologiyalarının təhsil prosesinə daxil edilməsi şagirdlərin qeyri-fəallığın aradan qaldırılmasına, təfəkkür xüsusiyyətlərinin formalaşmasına, təlimin keyfiyyətinin yüksəlməsinə şərait yaradraq, respublikamızda təhsil sahəsində islahat proqramında göstərilən demokratikləşdirmə, humanisləşdirmə, difensiallaşdırma, fərdiləşdirmə, humanitarlaşdırma və inteqrasiya prinsiplərini həyata keçirməyə imkan verir.

Təlimin yeni texnologiyalarının tətbiqi zamanı, hər bir şagirddən yüksək fəallıq nümunəsi göstərmək tələb olunur. Əgər şagird hər hansı yeniliyi müəyyən edirsə, deməli o, təlimə yaradıcı şəkildə və yüksək maraqla yanaşır. Şagirdlərin fəallığının yüksəlməsi onlarda təlimin motivləşdirilməsi hesabına biliklərin müstəqil qəbul edilməsi, yaradıcı şəkildə qavranılması başlıca şərtlərdən biridir.

Təlim zamanı mənimsəmənin təşkilində fəal, problemli təlim sistemindən istifadə edərkən müəllim yaradıcı təfəkkürün effektliliyinin bir sıra psixoloji qanunauyğunluqlarını diqqət mərkəzində saxlamalıdır.

Yeni təlim metodlarından istifadə müəllimə imkan verir ki, şagirdlərlə daha səmərəli işləsin və onların intellektual potensialını maksimum şəkildə aşkara çıxarsın. Prof. Ə.Ağayev Azərbaycanda pedaqoji texnologiyaların tətbiqi tarixi ilə bağlı yazır:"Bu gün pedaqoji mətbuat səhifələrində müxtəlif adlarla adlandırılan və bizə Avropa, Amerika təhsil sistemindən gəlmə kimi təqdim olunan bir çox pedaqoji məsələlər klassiklərimizin zəngin irsində öz əksini tapmışdır".

Yeni təfəkkürə, müasir texnologiyalara əsaslanan mütərəqqi həyat tərzi mükəmməl şəkildə cəmiyyətimizin yaşayışına, düşüncəsinə daxil olmaqdadır. İnsanın təfəkkürü daim axtarışda olduğundan o, təbiətin, cəmiyyətin inkişafının yeni-yeni qanun və qanunauyğunluqlarını aşır, elmi-texniki tərəqqi durmadan inkişaf etdirilir.

Təhsilin məzmunun yeniləşməsinə xidmət edən müasir təlim texnologiyalarından səmərəli istifadə etməyə çox böyük ehtiyac vardır. Hazırda məktəbdə hər bir dərs şagird üçün sözün əsl mənasında təfəkkür və intelekt məkanına çevrilməlidir.Müasir təlim metodlarının düzgün və məqsədyönlü tətbiqi əsas şərt hesab edilir.

Dərsdə müasir təlim texnologiyalarını tətbiq etməklə, ənənəvi təlim sistemini dəyişərək ona tədqiqat xarakteri verməkdən və biliklərin mənimsənilməsi prosesində şagirdi əsas sima hesab etmək və onu təlimin subyektinə çevirmək mümkündür. Belə ki, bu prosesdə müəllim biliklərin əldə edilməsi yolunun bələdçisi, şagird isə bilikləri kəşf edən rolunu oynayır. Geniş imkanları olan yeni təlim texnologiyalarından biri sayılan blok dərslər, əqli hücum, qrup məşğələləri, başqa metod və vasitələrdən istifadə edildikdə müsbət nəticələr əldə etmiş oluruq.

Yeni təlim texnologiyaları şagirdlərdə sərbəst düşünmə və işləmə bacarığını artırır, müqayisə prosesində nəticə çıxarmaq qabiliyyətini inkişaf etdirir.

Yeni təlim texnologiyaları şagirdlərə aşağıdakı keyfiyyətləri aşılamalıdır:

-müstəqil düşünmək, sərbəst fikir söyləmək;

-öz təcrübəsini və biliyini təhlil etmək;

-özünü qiymətləndirmək;

-əməkdaşlıq etmək;

-başqalarını dinləmək;

-öz fikirlərini arqumentlərlə izah və sübut etmək;

-birgə həll yollarını müəyyənləşdirmək və qərar çıxarmaq.

Yeni təlim texnologiyaları bunlardır: dialoq treninq, cütlər və qruplar, yarımqruplar üzrə iş, didaktik oyunlar, rollu oyunlar, işgüzar səs-küy, söz assosiasiyaları, fikir sıçrayışı, əqli hücum.

Yeni təlim texnologiyalarının üstün cəhətlərini prof. Ə.Ağayev belə göstərir:

"... dərs tam fəallıq şəraitində keçir, təkcə müəllim deyil.şagirdlər də yaradıcılq axtarışında olurlar, müstəqil düşüncə tərzi formalaşır, təşəbbüskarlıq, yeniliyə meyillilik güclənir." (1)

Təlim prosesini fəallaşdırmaq, şagirdlərdə öyrənməyə maraq yaratmaq məqsədini güdən müəllim, şagirdi təlimə cəlb edəcək müəyyən metod, texnika və proseduralardan istifadə etməlidir. Şagird təlimin fəal iştirakçısı olmaq üçün hazırlanmalıdır.

Yeni texnologiyalar bir sıra xüsusiyyətləri ilə ənənəvi təlim metodlarından fərqlənir: şagirdlərin tədqiqat fəaliyyətinə cəlb edilmələri; müəllim tərəfindən problemli şəraitin yaradılması; biliklərin şagirdlər tərəfindən müstəqil əldə edilməsi və s.

Müşahidələr sübut edir ki, yeni təlim texnologiyaları üçün aşağıdakılar daha səciyyəvidir:

-müəllimin özünün fəallığı ilə şagirdin yaradıcı fəallığa cəlb edilməsi;

-şagirdin fəal fəaliyyəti və bu zaman ona sadə bacarıqların aşılanması;

-müəllimin şagirdlərlə və şagirdlərin bir-biri ilə əməkdaşlığı;

-hərəkətli, sujetli, musiqili didaktik rollu oyunlardan istifadə, sosial bərabərliyin və psixoloji şəraitin yaradılması;

-müəllimin təqdim etdiyi tematik materialın şagirdin yaradıcı təfəkkürünə və milli düşüncə tərzinin formalaşmasına təsir etməsi.

Yeni təlim texnologiyaların tətbiqi o zaman səmərəli nəticələrə səbəb olur ki,imkanlar, başlıca istiqamətlər dürüst müəyyənləşdirilir.

Yeni pedaqoji təfəkkürə görə müəllimin fəal, şagirdin qeyri-fəal olduğu dərslərdə bir çox vəzifələrin (şagirdlərin idrak qabiliyyətlərinin inkişaf etdirilməsi, onların intellektual inkişafının təmini və s.) vəzifələrin öhdəsindən gəlmək mümkün deyil. Təlimdə yüksək inkişaf səviyyəsinə nail olmaq üçün şagirdlərə fikirləşməyi öyrətmək, onlara düşünmə bacarıqları aşılamaq vacibdir.

Müşahidələr göstərir ki, şagirdlərə müşahidə etməyi, nəticə çıxarmağı, fakt

və hadisələrin başlıca səbəblərini axtarıb, tapmağı öyrətməklə, təfəkkür inkişafında əsaslı irəliləyiş yaratmaq və bu halda onları biliklərin mənimsənilməsinin fəal iştirakçısına çevirmək mümkündür. Elə yeni təlim texnologiyaları da bunu, şagirdlərin əqli fəallığını, təfəkkür müstəqil-liyini gücləndirməyi tələb edir.

İndi uşaqlara informasiya verməkdən daha çox öyrənməyi öyrətmək tələb olunur. İlk ad-dımlardan müstəqillik onların yaradıcı şəxsiyyət kimi formalaşmalarına təkan verir.

K. Kərimov yeni təlim texnologiyalarına yüksək qiymət verərək müasir dərsə

belə tərif verir: "Müasir dərs bilikləri müasir elmi-pedaqoji yollarla öyrədən dərsdir". (4)

Yeni texnologiyaların tətbiqi ilə həyata keçirilən dərs məşğələlərinin müşahidəsi aşağıdakıları deməyə əsas verir:

1. Müasir təlim texnologiyaları motivasiya probleminin həllini asanlaşdırır.
2. Şagirdlərin təlim fəallığını təmin edir.
3. Biliklərin qarşılıqlı ünsiyyət, əməkdaşlıq şəraitində əldə edilməsinə imkan yaradır.

4. Təlim zamanı şagirdlərin yaddaşını yeni elmi biliklərlə zənginləşdirir, onların düşünmə qabiliyyətlərini inkişaf etdirir.

5. Konstruktiv öyrənmə şagirdlərin tədqiqatçılıq qabiliyyətlərinin inkişaf etdirilməsini təmin edir.

Apardığımız müşahidələr belə bir qənaətə gəlməyə əsas verir ki, hər bir şagirdin və bütövlükdə sinfin ümumi və fərdi psixoloji xüsusiyyətlərinin və mənimsəmə imkanlarının nəzərə alınması zəminində keçilmiş materialların qavranılması və onların ideya məzmununun dərk olunması işini uğurla həyata keçirmək mümkündür.

Yeni təlim texnologiyaları dərsə qədər hazırlıq prosesində müəllimin, dərsdə isə şagirdlərin fəallığını tələb edir.

Müəllimlər şagirdləri gələcək həyata hazırlamaqla bərabər, onların həyatının hər anının maraqlı qurulmasına çalışmalıdır.

Yeni təlim texnologiyalarının tətbiqi zamanı dərsdə təhsilləndirici, inkişafetdirici, tərbiyələndirici funksiyalar özünü daha qabarıq şəkildə büruzə verir.

Yeni təhsil sisteminin əsas məqsədi təhsil alanın şəxsiyyət kimi formalaşmasına, onun təlim-tərbiyə prosesinin əsas subyektinə çevrilməsinə zəmin yaratmaqdır.

Bunun üçün ümumtəhsil məktəblərində yeni təlim texnologiyalarının tətbiqinə nail olmaq lazımdır.

**Məqalənin elmi yeniliyi:** Məqalədə yeni pedaqoji texnologiyaların mahiyyəti, xarakterik əlamətləri, həmçinin bu problemlə bağlı aparılan tədqiqatlar öz əksini tapır. Yeni təlim texnologiyalarının tətbiqi prosesində müəllimlərə bir sıra tövsiyələr verilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi:** Məqalədən və burada öz əksini tapan məlumatlardan problemlə əlaqədar tədqiqat aparanlar, ümumtəhsil məktəbi müəllimləri, magistrantlar və doktorantlar bəhrələnə bilərlər.

## ƏDƏBİYYAT

1.Ağayev Ə. Yeni təlim metod və texnologiyalarından istifadənin nəzəri və praktik məsələləri // ARTPİ-nin Elmi əsərləri, 2006, № 1

2.Mehrabov A., Abbasov Ə., Zeynalov Z., Həsənov R. Pedaqoji texnologiyalar. Bakı: Mütərcim, 2006.

3.Mehdizadə M. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları. Bakı: Maarif, 1982.

4.Kərimov Y. Təlim metodları. Bakı: RS Poliqraf MMC, 2009.

5.`Sadıqov F. Pedaqogika. Bakı: Çaşıoğlu, 2006.

6.Аббсов З.Педагогические технологии и инновации в учебной деятельности школьников // Школьные технологии, 2002, № 5

**И. Мамедова**

## ИСПОЛЬЗОВАНИЕ НОВЫХ ПЕДАГОГИЧЕСКИХ ТЕХНОЛОГИЙ КАК ВАЖНЕЙШЕЕ СРЕДСТВО ПОВЫШЕНИЯ КАЧЕСТВА ОБРАЗОВАНИЯ

### РЕЗЮМЕ

При систематическом, научном и последовательном использовании педагогических и новых технологий обучения у учащихся формируются такие качества как анализирование, сравнение и творческие способности.

В статье раскрываются сущность, характерные признаки и принципы использования новых педагогических технологий. Новые педагогические технологии констатируются как основной фактор повышения качества обучения.

**I. Mammadova**

## THE USE OF NEW TEACHING TECHNOLOGIES AS AN IMPORTANT MEANS IN IMPROVING THE QUALITY OF TRAINING

**SUMMARY**

The essence of new teaching technologies, characteristic features and principles are reflected in the article. This article also shows, that the application of new learning technologies is a key factor in improving the quality of training.

When teaching and learning technologies are applied systematically, scientifically and consistently, it helps students to analyze the formation of their creative abilities.

*Redaksiyaya daxil olub: 20.09.2013*

# RİYAZİYYAT KURSUNDA ONLUQ KƏSRLƏRİN ÖYRƏDİLMƏSİ METODİKASI

**Xalidə Həsənova,**
*SDU-nun dosenti,*
**Natəvan Allahverdiyeva,**
*SDU-nun assistenti,*
**Növrəstə Abdullayeva,**
*GDU-nin magistrantı*
E-mail: novreste1982@box.az

**Rəyçilər:** *prof.* **S. Həmidov,**
*prof.* **A. Adıgözəlov**

***Açar sözlər:*** *onluq kəsr, adi kəsr, tam ədəd, assosiativlik xassəsi, tranzitivlik xassəsi*
***Ключевые слова:*** *десятичные дроби, целое число, ассоциативная характеристика, транзитивная характеристика*
***Key words:*** *decimal fractional, ordinary fractional, full pieces, assosiativ property, tranzitiv property*

Uzun illərin təcrübəsi göstərir ki, tam ədədləri və adi kəsrlər üzərində əməlləri yaxşı mənimsəyən hər bir tələbə onluq kəsrlərin öyrənilməsində çox çətinlik çəkmirlər. Onluq kəsrlər adi kəsrlərin xüsusi halı olduğuna görə bu iki kəsrin yazılışındakı fərqi bir qədər ətraflı izah etmək lazımdır. Belə ki, adi kəsrlərin cütlərlə verilməsində surət və məxrəc bir-birindən vergüllə ayrılır. Onluq kəsrlərin də yazılışında vergüldən istifadə edildiyindən, bəzən çaşqınlıq yarada bilər. Ona görə də deyilənləri nəzərə alaraq, müəllim tədrisi elə qurmalıdır ki, onluq kəsr haqqında tələbələrdə tam təsəvvür yaradılsın.

Təcrübə göstərir ki, onluq kəsrin tərifi, o cümlədən ədədin onluq hissələri və onluq işarələri tələbələrə ətraflı izah olunduqda, sonrakı proseslərdə onlar çətinliklərlə qarşılaşmırlar.

İstər orta məktəb dərsliklərində, istərsə də ali məktəb dərs vəsaitlərində onluq kəsrlərə bəzən iki cür ekvivalent tərif verilir.

Tərif 1: Məxrəci 10 ədədinin qüvvətlərindən ibarət olan kəsrə onluq kəsr deyilir.

Tərif 2: Məxrəci vahid və sıfırlardan ibarət olan kəsrə onluq kəsr deyilir.

Göründüyü kimi, bu təriflərin hər ikisi nöqsanlıdır. Belə ki, $\frac{35}{10^{\frac{1}{2}}}$ kəsrinin yazılışında məxrəc 10 ədədinin qüvvətlərindən təşkil olunmasına baxmayaraq, onluq kəsri ifadə etmir.

Eləcə də $\frac{5}{1100}$ kəsrinin məxrəci vahid və sıfırlardan ibarətdir, lakin, onluq kəsr deyil.

Fikrimizcə, tərif aşağıdakı kimi verilməlidir.

Tərif: Məxrəci 10 ədədinin natural qüvvətlərindən ibarət olan kəsrə onluq kəsr deyilir.

Tələbələri onluq kəsrin rəqəmlərin yerinə görə qiyməti prinsipi əsasında onluq kəsr anlayışını, onluq kəsrlərin yazılışını və oxunuşunu onlara öyrətdikdən sonra möhkəmləndirmə məqsədilə aşağıdakı çalışmalardan istifadə etmək olar.

1) (5;10), (35;1000) cütlərinin göstərdiyi kəsrləri məxrəcsiz yazın;
2) 4 onluğu, 5 təkliyi, 3 onda biri və 2 yüzdə biri olan ədədi yazın;
3) Otuz beş tam yüzdə on yeddi, qırx iki tam mində on bir, sıfır tam yüz mində dörd yüz otuz altı ədədini rəqəmlərlə yazın.

Bütün bu hazırlıq işlərindən sonra onluq kəsrləri aşağıdakı kimi iki cür oxumaq olar.

1) hər bir mərtəbənin qiymətini göstərməklə;
2) hər bir mərtəbənin qiymətini göstərmədən qısa şəkildə oxumaqla.

Biz, adətən, ən çox ikincidən istifadə edirik.

Onluq kəsrlərin tədrisi prosesində tələbələrin çəkdikləri çətinliklərdən biri də onluq kəsrlərin ixtisarı ilə bağlıdır. Belə ki, onluq kəsrləri 10, 100, 1000 və s. artırmaq istədikdə, tam ədədlərin vurulmasında olduğu kimi onluq kəsrlərin sonuna uyğun olaraq bir, iki, üç və s. sıfır yazılır ki, bu da səhv nəticəyə gətirir. Bunun üçün müəllim ətraflı izahat işi apararaq, onluq kəsri 10, 100, 1000 və s, vurduqda vergülü uyğun olaraq sağa bir, iki, üç və s vahid köçürmək, eləcə də 10, 100, 1000 və s. dəfə azaltmaqla bir, iki, üç və s. vahid sola köçürmək lazım gəldiyini bildirməlidir.

Onluq kəsrlərin müqayisəsi tam ədədlərin müqayisəsindən bir qədər fərqli olduğundan müəllim onu tədris edərkən çox diqqətli olmalıdır.

Onluq kəsrlərin müqayisəsi zamanı da tələbələrin çoxu səhvən rəqəmlərin ümumi sayından istifadə edirlər.

Müəllimlər bu cəhətə də xüsusi diqqət yetirməli, onluq kəsrin müqayisəsinin elmi və metodik cəhətdən aşağıdakı ardıcıllıqla izah edilməsinə fikir verməlidirlər.

1) tamları müxtəlif və kəsr hissələri eyni olan onluq kəsrlərin müqayisəsi;
2) tamları eyni və kəsr hissələri müxtəlif olan onluq kəsrlərin müqayisəsi;
3) tamları və kəsr hissələri müxtəlif olan onluq kəsrlərin müqayisəsi.

Onluq kəsrlərin müqayisəsinin bu qayda ilə ətraflı izahı onluq kəsrlə adi kəsr arasında əlaqənin varislik prinsipi əsasında araşdırılması mühüm rol oynayır.

Həyatda elə məsələlər olur ki, onu bəzən adi kəsr yox, onluq kəsrlə və yaxud tərsinə həll etmək lazım gəlir.

Bu məqsədlə, bir qədər izahat işi aparıb aşağıdakı teoremi isbat etmək faydalı olar.

Teorem: İxtisar olunmaz adi kəsrin sonlu onluq kəsrə çevrilməsi üçün məxrəcinin sadə bölənlərinin 2 və 5 olması həm zəruri, həm də kafi şərtdir.

İsbatı: Əvvəlcə şərtin kafi olduğunu göstərək. Fərz edək ki, $(a;b)\to\frac{a}{b}$ ixtisar olunmaz kəsrdir və məxrəcin sadə bölənləri 2 və 5-lərdən ibarətdir. Yəni $b=2^{\alpha}\cdot5^{\beta}$ doğrudur. Göstərək ki, $(a;b)\to\frac{a}{b}$ kəsri sonlu onluq kəsrdir. Şərtə görə, belə olar:

$(a;b)=\left(a;2^{\alpha}\cdot5^{\beta}\right)$ (1)

$\left(a;2^{\alpha}\cdot5^{\beta}\right)$ cütünü təyin edən kəsrin komponentlərini kəsrin əsas xassəsinə görə $2^{\alpha}\cdot5^{\beta}$ hasilinə vursaq $\left(a;2^{\alpha}\cdot5^{\beta}\right)$ cütünü təyin edən kəsrə ekvivalent kəsr alarıq. Onda

$\left(a;2^{\alpha}\cdot5^{\beta}\right)\approx\left(a\cdot2^{\beta}\cdot5^{\alpha};2^{\alpha}\cdot5^{\beta}\cdot5^{\alpha}\right)=\left(a\cdot2^{\beta}\cdot5^{\alpha};10^{\alpha+\beta}\right)$ (2)

(1) və (2) bərabərliklərindən bərabərlik münasibətinin tranzitivlik xassəsinə görə $(a;b)=\left(a\cdot2^{\beta}\cdot5^{\alpha};10^{\alpha+\beta}\right)$ (3) alarıq.

Burada $\alpha$ və $\beta$ ədədləri arasında üç halı araşdıraq.

1) Tutaq ki, $\alpha=\beta$, onda (3) şərtindən $(a;b)=\left(a\cdot2^{\beta}\cdot5^{\alpha};10^{2\alpha}\right)$ alarıq;

2) Əgər $\alpha>\beta$ olarsa, $2^{\beta}\cdot5^{\alpha}=\left(2^{\beta}\cdot5^{\alpha-\beta}\right)\cdot5^{\beta}=\left(2^{\beta}\cdot5^{\beta}\right)\cdot5^{\alpha-\beta}=10^{\beta}\cdot5^{\alpha-\beta}$ olduğundan (3) şərtinə görə $(a;b)=(a\cdot10^{\beta}\cdot5^{\alpha-\beta};10^{\alpha+\beta})\approx(a\cdot5^{\alpha+\beta};10^{\alpha})$ olar;

3) Əgər $\alpha<\beta$ olarsa , $2^{\beta}\cdot5^{\alpha}=\left(2^{\beta-\alpha}\cdot5^{\alpha}\right)\cdot2^{\alpha}=2^{\beta-\alpha}\cdot\left(5\cdot2^{\alpha}\right)=2^{\beta-\alpha}\cdot10^{\alpha}$.

Beləliklə, hər üç halda şərtin kafi olduğu aydınlaşır.

İndi isə şərtin zəruriliyini göstərək. Tutaq ki, ixtisar olunmaz düzgün $(a;b)\to\frac{a}{b}$ kəsri sonlu onluq kəsr şəklində göstərilmişdir.

Başqa sözlə $(a;b)\to\frac{a}{b}=0,a_1,a_2,\dots,a_n$ (4)

Bu halda $0,a_1,a_2,...,a_n = (a_1,a_2,...,a_n;10^n) = (a_1,a_2,...,a_n;2^n \cdot 5^n)$ (5) alınar. (4) və (5) - dən $(a;b) \to \frac{a}{b} = a_1,a_2,...,a_n;2^n \cdot 5^n$ alınar. Əgər $a_1,a_2,...,a_n;2^n \cdot 5^n$ cütünü təyin edən kəsri ixtisar olunmaz kəsr olarsa, onda ixtisar olunmaz kəsrlərin bərabərliyi şərtinə görə $b = 2^n \cdot 5^n$ olar. Əgər $(a_1,a_2,...,a_n;10^n) = \alpha > 1$ olarsa, məxrəcin sadə vuruqları 2 ədədi ilə 5 ədədindən ibarət olduğundan $\alpha$ ədədinin sadə vuruqlara ayrılışı da 2 və 5 ədədlərindən ibarət olmalıdır.

İxtisar olunmaz kəsrlərin bərabərliyi şərtinə görə $b = 2^{n-\alpha} \cdot 5^{n-\beta}$ olar. Hər iki halda göstərdik ki, $(a;b) \to \frac{a}{b}$ istisar olunmaz kəsri sonlu onluq kəsr şəklində göstərilmişsə, onda məxrəcin sadə bölənləri 2 və 5 olmalıdır. Yəni şərt zəruridir.

Onluq kəsr haqqında ümumi məlumat və isbat etdiyimiz teorem onluq kəsr hesabının metodik cəhətdən tədrisi üçün şərait yaradır.

Bu zaman tələbələrin nəzərinə çatdırmaq lazımdır ki, onluq kəsrlərin toplanması və çıxılması tam ədədlərin toplanması və çıxılması kimidir. Fərq yalnız vergül işarəsinin qoyulmasındadır ki, bu da bir o qədər çətinlik törətmir.

Təcrübə göstərir ki, onluq kəsrlərin toplanmasında aşağıdakı halları araşdırmaqla təlimin səmərəliliyini artırmaq olar.

1) onluq rəqəmlərin sayı bərabər olan onluq kəsrlərin toplanması;
2) onluq rəqəmlərin sayı müxtəlif olan onluq kəsrlərin toplanması;
3) tam ədədlə onluq kəsrlərin toplanması;
4) səmərəli üsullardan istifadə etməklə onluq kəsrlərin toplanması.

Birinci halda tələbələr çətinlik çəkirlər. Çünki, bu halda onluq kəsrlərin toplanması qeyd etdiyimiz kimi tam ədədlərdə olduğu kimidir.

İkinci hala uyğun olaraq yuxarıda qeyd etmişdik ki, onluq kəsrlərin onluq rəqəmlərinin mahiyyəti geniş və aydın şəkildə izah edildikdə sonrakı proseslər çətinlik yaratmır. Bu baxımdan onluq kəsrlərin toplanması da istisna deyil. Belə ki,

*n*-ci onluq rəqəm təkliyin $(1;10^n)$ hissələrinin sayını göstərdiyindən *n*-ci onluq rəqəm olmadıqda onun yerinə sıfır yazılması kəsrin qiymətini dəyişmir.

Bu baxımdan cütlər vasitəsilə müxtəlif məxrəcli onluq kəsrlərin toplanması qaydası ilə yanaşı, bilavasitə onluq kəsrlərdə məxrəclərin bərabərləşdirilməsi qaydasının verilməsi təlimin keyfiyyətini yüksəldir. Dediklərimizi aşağıdakı misallar üzrə reallaşdıraq.

Misal. 38,25+4,628 cəmini tapın.

Əvvəlcə onluq kəsrləri adi kəsrə çevirib, cəmi tapaq.

38,25+4,628→38(25;100)+4(628;1000)=38(250;1000)+4(628;1000)= 42(878;1000)=42.878

Kəsrlərin məxrəcləri müxtəlif olduğu üçün biz onları ortaq məxrəcə gətirdik, onluq kəsrləri ortaq məxrəcə gətirmək üçün yuxarıdakı izahata uyğun olaraq, çatışmayan onluq rəqəmlərin yerinə sıfır yazaraq onları onluq işarələrin sayı eyni olan onluq kəsrlərin toplanması qaydası ilə toplayırıq.

$$\begin{array}{r} 38,250 \\ +\ \ 4,628 \\ \hline 42,878 \end{array}$$

Beləliklə, misal aşağıdakı kimi yazılaraq cəm tapılır.

$$\begin{array}{r} 38,25 \\ +\ 4,628 \\ \hline 42,878 \end{array}$$

Bu qayda mənimsənildikdən sonra məxrəcləri eyniləşdirmək üçün sıfırlar yazılmır, lakin yadda saxlanılır.

Tam ədədlə onluq kəsri topladıqda da tələbələr çox zaman kobud səhvə yol verirlər.

Belə ki, səhvən tamı kəsrin tam hissəsi ilə deyil, kəsr hissəsi ilə toplayırlar: Məsələn, 5+0,26=5,26 yazmaq əvəzinə 5+0,26 =0,31 kimi yazaraq kobud elmi səhvə yol verirlər.

Onluq kəsrlər kəsr ədədlərin xüsusi halı olduğu üçün kəsr ədədlər üzərində əməllərə də şamil etmək olar. Bu zaman elə misallar seçilməlidir ki, kəsr ədədlər cəminin assosiativlik xassəsinin tətbiqinin əlverişli olduğuna tələbələr əmin olsunlar.

Dediklərimizi aşağıdakı misal üzərində izah edək;

misal: 2,78+4,893+0,22 cəmini tapın:

Bu tip çalışmaları həll edərkən tələbələr çox zaman əməllər sırası ilə toplamanı yerinə yetirirlər ki, bu da uzun yoldur. Halbuki, səmərəli yolla bu misalı şifahi də hesablamaq olar. Başqa sözlə,

2,78+4,893+0,22=(2,78+0,22)+4,893=3+4,893=7,893

Başqa bir misal: (3,84+4,876)+6,16

Bu tip misalları hesablayarkən tələbələr çox zaman birinci dəfə mötərizənin içərisindəki əməli yerinə yetirib, sonra alınan cəmlə 6,16-nı toplayarlar. Yuxarıda qeyd etdiyimiz kimi, cəmin assosiativlik xassəsindən istifadə edilməklə hesablama işini daha səmərəli etmək olar.

(3,84+4,786)+6,16=(3,84+6,16)+4,786=10+4,786=14,786

Onluq kəsrlərin çıxılması qaydası da onluq kəsrlərin toplanma qaydasına analoji

olaraq çıxarılır.

Qayda: Onluq kəsrləri vurmaq üçün kəsr işarəsini atmaq, alınan natural ədədləri və hasildə sağdan vuruqlarda birlikdə olan qədər onluq rəqəm ayırmaq lazımdır.

Onu da bildirək ki, onluq kəsrlərin bölünməsi də natural ədədlərin bölünməsinə əsalanır. Burada əsas məsələ qismətdə vergülün harada qoyulması qaydasının tələbələrə şüurlu surətdə mənimsədilməsidir. Yaxşı olar ki, müəllim bu qaydanı bir neçə misalın köməyi ilə izah etsin. Hazırlıq məqsədilə 15=15,000, 20=20,000 və s. yazılışlarının mümkünlüyü izah edilir. Onda tələbələr həm nəzəri, həm də praktik cəhətdən bu prosesi dərk edərlər. Misal üçün 71:2 qismətinin metodik cəhətdən necə tapılmasını izah edək.

Belə ki, 71 ədədində 7 onluq, 1 təklik var. Əvvəlcə 7 onluğu 2-yə bölür və qismətdə 3 onluq, qalıqda 1 onluq qalır. Qalığın yanına 1 təkliyi endirərək 11 ədədini alırıq və 11-i 2-yə bölürük. Qismətdə 5 təklik, qalıqda isə 1 alınır.

Məlum olur ki, bölmə düzgün yerinə yetirilməyib. Ona görə də natural ədədin natural ədədə bölünməsi qaydası ətraflı şərh olunmalıdır. Belə ki, bölmə qaydasına görə bölünəndən bölmək üçün ayrılmış hissədə bölənin neçə dəfə yerləşdiyini tapdıqdan sonra natamam qismətlə bölənin hasili bölünəndən bölmək üçün ayrılmışdır.

## ƏDƏBİYYAT

1. B.S. Cəbrayılov. Riyaziyyat. Bakı: ADPU, 1999.

2. N.A. Sadıqov, N.S.Kazımov Ədəd anlayışının genişləndirilməsi. Kəmiyyətlər və onların ölçülməsi, Bakı: APİ, 1983.

3. Ə.Ə. Əliyev, R.B. Alıyev “ Riyaziyyatın ibtidai kursuna aid çalışmalar. Bakı: ABU, 2004.

4. И.К. Андронов. Арифметика дробных чисел и основных чисел. М.: Учпедгиз, 1955.

**Х.Гасанова, Н.Аллахвердиева, Н.Абдуллаева**

## МЕТОДИКА ПРЕПОДАВАНИЯ ДЕСЯТИЧНЫХ ДРОБНЫХ ЧИСЕЛ В КУРСЕ МАТЕМАТИКИ

### РЕЗЮМЕ

Изучение десятичных дробей на ступени магистратуры с помощью пары натуральных чисел плодотворно действует развитию математической подготовки студентов. Изучение десятичных дробей с помощью пары натуральных чисел в курсе математики на педагогическом факультете представляет большой интерес.

**Xh.Hasanova, N.Allahverdiyeva, N.Abdullayeva**

## THE METHOD OF TEACHING DECIMAL FRACTION IN THE COURSE OF MATHEMATICS

### SUMMARY

Study decimals on stage with a pair of graduate integers operates fruitfully develop mathematical preparation of students. Study decimals using a pair of integers in mathematics courses at the faculty of education is of great interest.

*Redaksiyaya daxil olub: 10.12.2013*

# ƏDƏBİYYAT SÖZ SƏNƏTİDİR

**Asya Bəkirova,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
E-mail: asyabekirova@rambler.ru

**Rəyçilər:** *prof.* **Ş.A.Mikayilov,**
*ped. f. d.* **E.İsmayılova**

***Açar sözlər:*** *bədiilik, obrazlılıq, təhlil,*
***Ключевые слова:*** *художественность, образность, анализ,*
***Key words:*** *aristry, figurativeness, analysis,*

“Ədəbiyyat” anlayışı incəsənət haqqında biliklər blokuna daxil olmaqla, aparıcı rola malikdir. Ədəbiyyatda bədiiliyin izahı digər incəsənət növlərinin xüsusiyyətinin başa düşülməsi üçün zəmindir. Bu da məlumdur ki, ümumtəhsil məktəblərində incəsənət növlərinin hamısının xüsusiyyəti haqqında nəzəri bilgi deyil, bəziləri haqqında (musiqi, rəssamlıq) bəsit şəkildə olsa da, praktik vərdişlər yaratmaq nəzərdə tutulur. Böyüməkdə olan gənclik incəsənət növlərinin hamısı haqqında müəyyən təsəvvürə malik olmalıdır. Minimum bilgiyə yiyələnmədən incəsənət əsərini duymaq və qiymətləndirmək mümkün deyil. Bu baxımdan da söz sənəti olan ədəbiyyatın təlimi prosesində əsərin bədii təhlili, demək olar ki, əsas əlaqədir. Müəllim bunu nəzərə almalı, hər bir əsərin təlimində onun bədii təhlilinə xüsusi diqqət yetirməlidir.

Бир аталар сюзцндя дейилир ки, «Адам адам сайясиндя адам олар». Эюрцндцйц кими, бурада «адам» кялмяси 3 дяфя тякрар едилмишдир. Яввялинси «адам» сюзц алтында щяля ярсяйя чатмамыш, тярбийяйя ещтийасы олан шяхс (ушаг) нязярдя тутулур. Икинси «адам» сюзц алтында **устад**, йеткин мцяллим, камил тярбийячи нязярдя тутулур. Мящз онларын тясири иля щяйата щазырланан ушаг, шцбщясиз ки, мцсбят яхлаги сифятляря малик инсан кими бойа-баша чатыр, сюзцн ясл мянасында адам олур. Демяли, халгын фикринся, ушаглардан фяал, басарыглы, гайьыкеш, мещрибан, ишэцзар, инсанпярвяр шяхсиййят йетишдирмяк цчцн тярбийя верянлярин юзляринин бу сифятляря малик олмасы зяруридир. Башга сюзля десяк, халг тярбийя верянин мянявиййатса камил вя саф олмасынын зяруриликйини иряли сцрмцшдцр. Халга эюря, ушагда мцяййян бир сифяти тярбийя етмяк цчцн нцмуня верянин, устадын

юзц щямин сифятя малик олмалыдыр. Тярбийячи унутмамалыдыр ки, «Ушаг эюрдцйцнц эютцряр». Хцсусиля, «Бюйцк ня тюкся, кичик ону йыьар». Демяли, устад цнсийййятдя олдуьу ушаьа ня юйрядярся (вя йа ушаг онда щансы сифяти эюрярся), она да йийялянясякдир. Ушагда пис сифятляри тярбийя едиб, сонра ондан мцсбят яхлаги кейфиййятляр эюзлямяк (йахуд тяляб етмяк) арпа якиб буьда бичмяк иддиасында олмаг кими бир шейдир. Тябиидир ки, «Арпа якян буьда бичмяз», чцнки «Ня тюкярсян ашына, о да чыхар гашыьына».

Халг тярбийя ишиндя тярбийячинин, устадын, йашлыларын мцщцм ролуну гейд етмякля йанашы, эянс нясли бюйцклярдян юйрянмяйя чаьырыр. «Сюз бюйцйцндцр», «Бюйцк данышаны кичик эютцряр», «Улу сюзцня бахмайан улайа-улайа галар», «Бюйцк сюзцня бахмайан бюйцря-бюйцря эедяр»», «Устад эюрян шаэирд щяр мягамда йорьалар», «Устад эюрмяйян шаэирд ондан-бундан гармалар» вя с. Мящз буна эюрядир ки, дастанларымыздакы гящряманларын чохунун тярбийяси иля тярбийячи - мцяллимляр мяшьул олурлар («Шащ Исмайыл» дастаны).

Азярбайсан наьылларында да гящряманлар чятинлийя дцшяркян ян чох дцнйаэюрмцш мцдрик госаларын, устадларын йанына эедир, онларла мяслящятляшир вя оларын эюстяришляриня ямял едяряк басарыг вя вярдишляря йийялянир, пис йоллардан чякинир, шяр гцввяляря галиб эялир, чятин вязиййятдян саламат гуртарырлар.

Гящряманлар чыхасаглары сяфярин сямтини, йолуну да, ясас етибариля йашлы адамлардан юйрянирляр. «Дашдямирин наьылы»нда Дашдямирин Мирзя Мющсцня, «Одунчу оьлу Ямирящмяд» наьылында Ямирящмядин кор госайа, «Аллащверди чобан» наьылында Аллащвердинин дцнйа эюрмцш аьсаггала, «Аь атлы оьлан» наьылында Нярбаланын госа баьбана, «Йетим Ибращим» наьылында Ибращимин госа кишийя, «Шащзадя Мцталиб» наьылында Мцталибин шящярин ян госа адамына тез-тез мцрасият етмяси вя онлардан юйрянмяси буна мисалдыр.

Йашлыларын аьыллы сюзляриня гулаг асыб, ямял етмяк инсаны фяаллашдырыр. Бу ися хошбяхт вя фираван щяйатын рящнидир. Щямин идейа бир чох наьылларын («Тянбял Ящмяд», «Шащ оьлу Бящрам» наьылы вя с.) ясас гайясини тяшкил едир. Йашлыларын «йахшы мяслящятляря гулаг асмаьын, нясищятляри синядяфтяр гылмаьын» васиблийини эюстярмяк мягсядиля бир сыра наьыл вя дастанларда щадисяляр еля верилир ки, щямин мяслящят вя нясищятляря ямял етмядикдя гящряман тящлцкяли вязиййятя дцшцр). Бу сящятдян «Аь гуш», «Цч шащзадя», «Ах вай?» наьыллары, «Короьлу», «Шащ Исмайыл», «Ясли вя Кярям» дастанлары даща мараглыдыр.

Демяли, ушаглар мцсбят образлара, мяняви кейфиййятляри иля щамыйа юрняк олан шяхсляря идеал варлыг кими бахыр, бцтцн фяалиййятлярдя онлара охшамаьа, онлар кими щярякят етмяйя, онлар кими нясиб вя хейирхащ ишлярля мяшьул олмаьа щявяс эюстярирляр.

Нцмуня бир шяхсдя олан мяняви кейфиййятлярин диэяриня кечмясиня кюмяк едян амиллярдяндир. Биз ушаглары йахшы нцмунялярля тярбийя етмяли, пис нцмунялярдян горумалыйыг. Бу щагда Н.Туси чох гиймятли фикир сюйлямишдир: « Тярбийянин биринси шярти будур ки, ушаьы онун тябиятини корлайа билясяк адамларла вя шейлярля мцнасибятдя олмаьа гоймайасан, чцнки ушаг няфси садя олар, ятрафдакыларын хасиййятини тез эютцряр».

Нцмуня милли янянялярин ашыланмасында да чох эцслц тясиря эцсцня маликдир. Ушаьын нцмуня эютцрдцйц инсанлар, мялум олдуьу кими, чохдур. Щямин инсанлар арасында валидейнлярля мцяллимляр хцсуси йер тутурлар. Она эюря дя халг мцяллими ушагларын мяняви аляминин мемары, сямиййятин етибар етдийи шяхсдир.

Ушаглар яхлаги биликляри, милли щиссляри, адят яняняляримизи яввялся аилядян - валидейнлярдян, сонра мяктябдя педагоjи коллективин цзвляриндян - мцяллимлярдян юйрянирляр. Ушаглар йцксяк яхлаги кейфиййятляря малик олан, юз нцмуняви давранышы иля ятрафдакыларын щцсн-ряьбятини газанан адамларын тапшырыг вя эюстяришляриня сюзсцз ямял едир, онларын нясиб вя хейирхащ ишлярини юйрянмяйя щявяс эюстярирляр.

Мялум олдуьу кими, инсан шяхсиййятин формалашмасында ясас амиллярдян бири мяктябдир. М.Т.Сидги мяктябя вя мцяллимя чох йцксяк гиймят верирди. О, ясил мяктябин шярафятини бир ясяриндя беля тясвир едир. «Мяктяб нядир? Мяктяб бизим елм вя маарифимизин васитясидир… Мяктяб сяъалят дярдинин дярманы вя мярифят баьынын хийабаныдыр ки, щямишя сащилляри вя диваняляри агил ейляр. Иллярся мяктябя эедиб тярбийя, ядяб-яркан кясб етмяйян кимсяляр, мяктябдя юмцр кечириб, елмлярдян бящрямянд олмайан шаэирдляр рянэарянэ эцлляр вя чичякляр иля долу бир баьчада эязиб - долашан кора бянзярляр. Мяктяб бир сисмя бянзяр ки, онун рущу мцяллимдир».

Мяктябдя, тялим вя тярбийядя мцяллимин ролуну йцксяк гиймятляндирян Сидги онун да гаршысында сидди тялябляр гойурду. Онун фикринся, мцяллим биринсиси, «цлум вя фцнуня дара» (дярин елми билийя малик), икинсиси, «ададиелм вя тярбийя вермяйин цсулларындан хябярдар» олмалыдыр.

Мясялянин бу шякилдя гойулушу иля Сидги юз дюврцнцн мядяни щяйатында сидди проблемя - «Ушаьын тялим вя тярбийясини кимя тапшырмаг олар?» проблеминя тохунурду.

ХЫХ ясрин сону вя ХХ ясрин яввялляриндя дярин мяналы вя гиймятли ясярляри иля азярбайсанлы эянслярин диггятини сялб едян Мирзя Ябдцррящим Талыбов да бу мясяляйя тохунмуш, «Мясалцкцл - мющсинин» ясяриндя «Савадсыз мцяллимдян ушагларын тялим вя тярбийясини эюзлямяк – дямирчидян саатсазлыг тяляб етмяк кимиди» - демишдир.

Демяли, тярбийядя мцяллим нцфузу, щяр шейдян яввял, мцяллимин юзцндян, юз цзяриндя ня дярясядя ишлямясиндян, щямкарлары иля, шаэирдлярля, онларын валидейнляри иля, истимаиййятля ряфтарындан асылыдыр. Бунунла йанашы, мцяллим нцфузу юз-юзцня йаранмыр. Нцфуз ушаглара эюстярилян йцксяк гайьы, онларын севинс вя кядяриня шярик олмаг, щяр бир ишдя ядалятли мювге тутмаг, ушагларда севинс ойатмагла йараныр.

Ушаг юз тябияти етибариля реалистдир. О, щяр бир щадисяйя дцзьцн мювгедян йанашмаьа, щягигяти олдуьу кими дярк етмяйя чалышыр. Бу ишдя мцяллим онлары дцзэцн истигамятляндирмялидир.

Бакы шящяр 254 нюмряли мяктябин синиф мцяллими Е.Мяммядова бцтцн мяняви кейфиййятляри иля шаэирдляря нцмунядир. О, айры-айры мювзулары тядрис едяркян Ислам Сяфярлинин мяктяб илляриндян хейли вахт кечдийиня бахмайараг, адамларын йаша долдугда беля юз севимли мцяллимини эюрдцйц заман она неся щюрмят етдийиндян данышараг дейир:

Аьсачлы, мещрибан мцяллимими  
Инди дя арабир, щярдян эюрцрям.  
Юзцмц итириб, бир ушаг кими  
Айаг сахлайараг салам верирям.

Мцяллим шери охудугдан сонра, ушаглара баша салыр ки, йахшы мцяллимин эюзял тясирини шаэирд юмрц бойу щисс етмялидир.

Республикамызда юз шаэирдляри цчцн йцксяк идеал олан йцзлярля мцяллим вардыр.

Азярбайсанын ян эюркямли педагогларындан бири олан Абдулла Шаиг юз мцяллимлик фяалиййяти иля йетирмяляриня, онларын эялясяк инкишафына бюйцк тясир етмишдир. О, шаэирдляринин щансы аилядя, неся шяраитдя йашадыгларыны йахындан юйрянир, щяр шаэирдин гялбиня нцфуз етмяйи вя щяр бир шаэирдя фярди йанашмаьы бажарырды.

А. Шаиг шаэирдлярини доьма баласы кими севир вя узагэюрянлийи иля онларын парлаг эялясяклярини, щятта тутасаглары мювгеляри яввялсядян эюрцрдц. О, щям дя чох тялябкар мцяллим иди. Онун йетирмяляриндян бири олмуш, Азярбайсанын эюркямли шаири С.Рцстям юз хатиряляриндя йазыр: «Мян Абдулла Шаиги ибтидаи мяктяб илляриндян танıйырам. О, мяктябин ян габагсыл, ян щюрмятли мцяллимляриндян иди. О, юз ядяби йарадысылыьы, педагоjи фяалиййяти вя шяхси щяйаты иля бизя нцмуня эюстярирди. Мящз бунун нятисяси иди ки, биз онун дярсляриня щямишя щазыр эялирдик. Щамымыз Шаиг мцяллимин хошуна эялмяк, онун мящяббятини газанмаг истяйирдик. Щятта бязян башга мцяллимлярин дярсдя низам-интизамы позан шаэирдляр беля онун дярсляриндя юзцнц яля алыр, дедиклярини бцтцн варлыьы иля динляйирдиляр ... ».

Халг арасында ясрлярин сынаьындан чыхмыш беля бир ибратамиз кяламы йада салмаг йериня дцшяр: «Гаршыдакы или дцшцнцрсянся, човдар як, габагдан эялян онилликляри дцшцнцрсянся, аьас як, ясрляри дцшцнцрсянся, ушаглары тярбийя еля». Бурадан беля нятися чыхыр ки, щяр бир иши эюрмяздян яввял, онун мягсяди цзяриндя дцшцнмяк лазымдыр. Мягсяд айдын олса, она чатмаг цчцн щансы ишляри - щансы мцддятя вя неся эюрмяк мясяляси дя айдын олар. Тярбийядя мягсяди айдын вя дцрцст билмяйин васиблийиндян данышаркян, гейд етмяк лазымдыр ки, юз тярбийяви фяалиййятинин мягсядини айдын вя дцрцст мцяййян едя билмяйян тярбийячи щеч няйя наил ола билмяз.

«Йцз ешитмякдянся, бир эюрмяк йахшыдыр» щикмяти бир даща тясдиг едир ки, нцмуня ушаглара юйцд-нясищятля, ямр вя эюстяришлярля, данлагла, сюзля тясир эюстярмякдян даща йцксяк тярбийяви эцся маликдир.

Мцяллимляр, тярбийячиляр вя валидейнляр билмялидирляр ки, шяхси нцмунядя нцмайиш йахшы нятися вермир. Еля тярбийя мцщити йаратмаг лазымдыр ки, ушаг мцсбят вя мянфи нцмуняляри тяфяккцр сцзэясиндян кечирсин, дцшцняряк саф-чцрцк етсин, шцурлу сурятдя йахшыны писдян фяргляндирмяйи басарсын.

Ушагларда мцсбят мяняви кейфиййятляри формалашдырмаг цчцн тярбийя едянин щяр бир фяалиййятиндя щяссас вя диггятли олмасы васибдир, чцнки она щяссас ушаг эюзляри тушланмышдыр. Бу эюзляр йахшыны писдян, хейири шярдян фяргляндирмяйя истигамятляндирилмиш, тямиз, пак гялбя малик ушаг эюзляридир. Бу эюзлярдян щеч ня йайына билмяз. Кичикйашлы ушаглар даща чох тяглидчилийя алудячилик эюстярирляр. Буна эюря дя тярбийя цчлцйц (мцяллим, валидейн, тярбийячи) защири эюркями, нитг мядяниййяти, дярин билийи, щяртяряфли дцнйаэюрцшц, яхлаги тямизлийи, бир сюзля бцтцн мяняви дцнйасы иля ушаглара нцмуня олмалыдыр.

Тярбийя едянин сачынын формасы, тямиз вя сялигяли эейими, цмуми эюрцнцшц йцксяк зювгцн тялябляриня саваб вермялидир. Тярбийя едянин етикасы, мяишят естетикасы, щяйата мцнасибятляри тярбийяйя аз тясир эюстярмир. Тярбийя едянин инсанларла растлашаркян саламлашмасы, айрыларкян саьоллашмасы, «Сиз» дейя мцрасият етмяси, сящвя йол вердикдя сямими етирафы вя цзр истямяси ушаглар цчцн нцмуня олмалыдыр.

Мцяллим адыны, мцяллим шяряфини йцксяк тутан, дярин вя щяртяряфли билийя малик, гайьы вя тялябкарлыьы дцзэцн низамлайан, сюзц иля ямялинин бирлийиня

наил олан мцяллимляр шаэирдляр тяряфиндян идеал инсан кими гаршыланырлар. Онларын шяхси нцмуняси вердикляри эюстяриш вя тапшырыгларын сюзсцз вя шцурлу йериня йетирилмясиня сябяб олур.

Ушаьын эюрцш даиряси, ряфтары, бу вя йа диэяр мясяляйя мцнасибяти, милли щисслярин йаранмасы гисмян аиля тярбийясинин тясири алтында тяшяккцл тапыр. Ибтидаи синиф шаэирдляринин милли яняняляр рущунда тярбийясиндя валидейнин дя ролу бюйцкдцр.

Мялум олдуьу кими ушаг вахтынын чохуну аилядя кечирир. О, аилянин йашлы цзвляринин щярякятлярини эюрцр вя ону тяглид етмяйя чалышыр, валидейнлярини даща йцксяк гиймятляндирир вя йахшы адам щесаб едир. Ушаглар ата вя ананын щярякятлярини тяглид етмяйя чалышыр, щярякятляриндя онлара истинад едирляр. Адятян, ушаглардан «Атам беля едир.», «Анам беля едир.», «Бюйцк гардашым беля едир» ифадялярини ешидирик. Онлар юз давранышларында бюйцклярин щярякятляриня ясасланыр, бюйцкляр кими етмяйя чалышырлар. Буна эюря дя валидейнлярин давранышы тярбийядя мцщцм рол ойнайыр. Валидейн щяр эцн, щяр саат, щяр дягигя юз щярякятляри иля ушаьына тясир едир. Бязян валидейн буну щисс етмир, лакин онун ян кичик щярякяти, данышыьы ушаьын яглиня вя характериня сидди тясир эюстярир.

А.С.Макаренко вахтиля демишдир: «Сизин юз давранышыныз ян щялледиси мясялядир. Еля билмяйин ки, сиз ушаьы йалныз онунла данышанда вя йа ону юйрядяндя, она ямр веряндя тярбийяляндирирсиниз. Сиз ону юз щяйатынызын щяр бир анында, щятта евдя олмадыьыныз заман да тярбийя едирсиниз. Сиз неся эейинирсиниз, башга адамларла вя юзэя адамлар щаггында неся данышырсыныз, неся севинирсиниз, достлар вя дцшмянлярля неся ряфтар едирсиниз, неся эцлцрсцнцз, гязети неся охуйурсунуз – бцтцн бунларын ушаг цчцн бюйцк ящямиййяти вардыр».

Бир чох щалларда валидейнляр ятрафларында онларын щяр бир сюзцнц ешидян, щяр бир щярякятини изляйян ушаглар олдуьуну унудурлар. Ушаг эюзцнц китаба дикиб, санки чох диггятля охуйур, лакин онун гулаьы анасы иля гоншулары щаггында гейбят едян бибисинин сющбятиндядир.Йашлылар ушаьы тамам унудуб, евлянмяк, бошанмаг щадисялярини ачыг-сачыг тящлил едирляр. Бцтцн бунлар ушаг цчцн тясирсиз галмыр, онда инсанлар арасындакы мцнасибятя даир долашыг фикирляр ойадыр.

Валидейнин шяхси нцмунясинин бир ящямиййяти дя онун дцзлцйцндядир. Яэяр валидейн юзц щеч вахт йалан данышмырса, онун ювладына доьручулуг барядяки нясищяти дя гцввятли тясир эюстярир. Якс щалда ушаг валидейнин йахшы нясищятлярини етинасыз бурахыб, пис щярякятлярини тяглид едясякдир.

Милли рущда йени инсан йетишдирмяк вязифясини ющдясиня эютцрмцш адам бцллур кими саф олмалыдыр. Онун щяр бир щярякятиндя мяняви эюзяллийи, мясляк тямизлийи, йцксяк идейалылыьы, мядяниййяти вя педагоjи усталыьы якс олунмалыдыр, ансаг беля инсан сайясиндя ушаг, сюзцн ясл мянасында, шяхсиййят кими бюйцйцб, камала чата биляр.

**ЯДЯБИЙЙАТ**

1.Кяримов Й.Тялим методлары. Бакы: РС Полиграф, ММЖС, 2009.
2.Аббасов А., Щясянова С. Аз сюйля, сюз сюйля. Бакы: Маариф,1992.
3.Гаралов З.Тярбийя. Ы,ЫЫ,ЫЫЫ щисся. Бакы: Педагоэика, 2003.
4.Макаренко А. Сечилмиш педагоjи ясярляри. Бакы: Азярняшр, 1950.

**С. Gасанова, В. Керимов**

**ПУТИ ИСПОЛЬЗОВАНИЯ НАЦИОНАЛЬНЫХ ТРАДИЦИЙ В СОВРЕМЕННЫХ УСЛОВИЯХ**

**РЕЗЮМЕ**

Воспитание человека в современных условиях является главной задачей общества. Для того, чтобы в области воспитания реализовать определенные цели, нужно часто обратиться к примерам учителей и родителей, которые оказывают сильное влияние на духовное воспитание детей. Для упрошенного и качественного воспитания детей надо быть «мастером дела».

**S. Hasanova, V. Karimov**

**IN MODERN CONDITIONS OF A WAY OF USEOF NATIONAL TRADITIONS**

**SUMMARY**

Todey educationof the person is a problem ofhuman society. Ezamples of teachers and parents has strong impact on spirit of pupils. For the simplified and high – quality education of children it is necessary to be the master of business.

*Redaksiyaya daxil olub: 10.12.2013*

# İMADƏDDİN NƏSİMİ YARADICILIĞINDA TƏRBİYƏ PROBLEMİ

**Mənzilə Rəhimova,**
*AMİ-nin Cəlilabad filialının dekanı*
E-mail: menzileraqimova@mail.ru

**Rəyçilər:** *ped.elm.dok.* **P.Əliyev,**
*dos.* **A.Hacıyev**

***Açar sözlər:*** *hürufilik, kamil insan, vətənpərvərlik tərbiyəsi, əxlaq tərbiyəsi*
***Ключевые слова:*** *хуруфизм, совершенный человек, патриотическое воспитание, нравственное воспитание*
***Key words:*** *hurufism, a perfect man, patriotic education, moral education*

*"Yaxşılıq eylə sən, sənə yaxşılıq eyləyə Xuda"*
**Seyid İmadəddin Nəsimi**

Cəmiyyətin hər bir inkişaf mərhələsində tərbiyə məsələləri aktuallığı ilə seçilmişdir. Çünki cəmiyyətin inkişaf səviyyəsi gənc nəslin təlim-tərbiyəsindən, onların mənəvi keyfiyyətlərə yiyələnmə səviyyəsindən, şəxsiyyət kimi formalaşmasından çox asılıdır. Bu həqiqətdir ki, insanın cəmiyyətə, insanlara, digər məsələlərə münasibəti əqidədə öz ifadəsini tapır. Əslində ideya əqidəsi insana öz davranışında, hərəkətlərində mənəvi yolunu seçməyə imkan verir. Belə olduqda hər bir insan özünün ictimai borcunu da dərk edir.

Tarixə nəzər saldıqda görürük ki, bütün dövrlərdə görkəmli mütəfəkkirlər, filosoflar, şairlər öz yaradıcılıqlarında təlim-tərbiyə məsələlərinə xüsusi yer ayırmışlar. Hətta onlar əsərlərindən başqa öz şəxsi nümunələri ilə bütün dövrlər üçün ən böyük tərbiyə məktəbi olmuşlar. Bu baxımdan klassik Azərbaycan ədəbiyyatı böyük xəzinədir.

1369-1417-ci illərdə yaşayıb yaratmış, Azərbaycan fəlsəfi fikir tarixinin ən görkəmli nümayəndələrindən biri olan Seyid İmadəddin Nəsimi özündən sonra zəngin irs qoyub getmişdir. O, öz əsərlərində tərbiyə məsələlərinə geniş yer vermişdir. Onun dünyagörüşü Qədim Şərq, Qədim Yunanıstan və eləcədə orta əsrlərin müxtəlif ideya cərəyanları zəminində yaranıb formalaşmışdır. Onun əsərlərində Zərdüşt, Pifaqor, Aristotel, İbn Sina və ən çox ilahiləşdirib pərəstiş etdiyi Fəzlullah Nəiminin təsiri duyulur. Nəsimi Həllac Mənsurun sufi görüşlərini təbliğ edirdi.

Altı əsrdən artıqdır ki, dahi Azərbaycan şairinin şərəfli ömür yolu mərdlik, fədakarlıq və iradə rəmzi kimi öyrənilir və təbliğ edilir. İmadəddin Nəsiminin yaradıcılığında təlim-tərbiyə məsələləri, şəxsiyyətin kamilliyi, Hürufizm, onun elmi-pedaqoji mahiyyəti və əhəmiyyəti böyük ustalıqla əks olunmuşdur.

Böyük Azərbaycan şairi Nizami Gəncəvinin Şərq ədəbiyyatına gətirdiyi mütərəqqi ideyaları davam və inkişaf etdirən ustad sənətkar insana, insan ləyaqətinə, onun qüdrətinə olan inamı tərənnüm edərək şeirlərində insanı həyatın yaradıcısı, həyat gözəlliklərinin əsl mənbəyi kimi təsvir etmişdir. "İnsan" anlayışının şərhi Nəsiminin humanist, etik-əxlaqi fikirlərini ifadə edir. İnsan maddi olanlarla eyniyyət təşkil etməklə yanaşı, kamillik baxımından yüksəkdə durur. Nəsimi insanı nə qədər ümumiləşdirib, mücərrədləşdirib kosmoloji həddə çatdırsa da onun həyatda real, etik-əxlaqi vəziyyətini, cəmiyyətdə yerini unutmamışdır.

Bu baxımdan onun ictimai-siyasi, əxlaqi mövzularda yazdığı əsərləri xüsusi əhəmiyyət kəsb edir. Gənclik illərində yazdığı əsərlərində gözəlliyi və məhəbbəti tərənnüm etmişdir. O, həm məhəbbət, həm də didaktik-tərbiyəvi məzmunlu əsərlərində xudpəsəndliyi, riyakarlığı, vəfasızlığı kəskin tənqid etmişdir.

İmadəddin Nəsimi əqli-əxlaqi kamillik üçün insanın müstəqilliyini birinci şərt hesab edirdi və hünərsiz insanların mənsəb sahibi olduqlarını, hünər sahiblərinin isə səfalət içində əzildiyi, elmə, istedada qiymət verilmədiyi feodal dünyasının haqsızlıqlarına qarşı üsyan edirdi.

Əsərlərində insana məhəbbət, insan şəxsiyyətinə hörmət mühüm yer tutur. O, insanı yaradıcı bir varlıq kimi ucaldır, zəkasının qüdrəti ilə dünyanın sirlərini açmağa qadir olduğuna dərin inam bəsləyirdi. Nəsimi insanı özünü və nəticədə isə dünyanı dərk etməyə çağırırdı. Buna görə də Nəsimi irsinin tədqiqatçıları onu "Odlar yurdunun Prometeyi", "iradəlilik rəmzi" kimi qiymətləndirmişlər.

Nəsimiyə görə, həyatda ən böyük həqiqət də, tükənməz sirlər mənbəyi də insandır. Çünki insan tanrının yaratdığı bütün varlıqların əşrəfidir. İnsanda haqqı görməyən kəs həqiqəti dərk edə bilməz. Haqqı isə yalnız kamil və yetkin insan görə bilər. Kamil insanın yetişdirilməsi yalnız və yalnız mükəmməl tərbiyə ilə mümkündür.

Kamil insan öz ağlı və eşqi ilə insanların gözlərindən, ruhundan, şüurundan zülmət pərdəsini qaldırmağa, günəş kimi işıq saçmağa qadirdir. Kainatı, təbiəti anlamaq, özünü dərk etmək prosesində yenə də tərbiyə əvəzolunmaz formada meydana çıxır. Həmin kamil insanı isə mürşid (ustad, müəllim) tərbiyə edir. İnsan öz idrakını, şüurunu müəllimsiz, tərbiyəsiz parlada bilməz.

Nəsimiyə görə ən kamil insan öz əqidə və məsləki uğrunda meydana atılan insandır. Belə insan nadanlarla yoldaşlıq etmir, ədəb-ərkanla böyüklərə hörmət edir.

Nəsimi yaradıcılığında Vətənə, torpağa bağlılıq xüsusi əhəmiyyət kəsb edir. Çünki Nəsimi xaraktercə böyük vətənpərvər, qətiyyətli fədai idi. Onun silahı dərin zəkası, fəlsəfi fikirləri, iradəsi, qətiyyəti, qüdrətli sözü idi.

Onun fikrincə, insanları saflaşdırmaq üçün bütün elmlər mühüm əhəmiyyət kəsb edir. Əxlaq tərbiyəsi üçün zəhməti yüksək qiymətləndirən qüdrətli şair, yetişən gənc nəslə mənəvi, fiziki və maddi çətinliklərə dözüm qabiliyyətini aşılamağı vacib hesab edir və bu yolla insanda bütün mənfi sifətlərin ləğvinə nail olmağı əsl qəhrəmanlıq sayırdı:

Pəhləvan ol kimdir, kim nəfsini qətl eyləyə

O, məhz bu yolla tamahkarlıq, ikiüzlülük, yalançılıq, zülmkarlıq, ədalətsizlik və s. rəzil sifətlərin əvəzinə xeyirxahlıq, cəsarət, vətənə məhəbbət, mübarizlik kimi bəşəri dəyərləri inkişaf etdirməyin mümkünlüyünü qeyd edirdi.

Şairin istər Azərbaycan dilində, istərsə də fars dilində yazdığı "Divan"ı böyük tərbiyəvi, əxlaqi, mənəvi hisslər oyandırmaq baxımından çox əhəmiyyətlidir.

Ömrünün demək olar ki, bütün illərini təqiblərə məruz qalan böyük şair dövrünün cahil quruluşu, "din xadimləri" tərəfindən "dinsiz", "kafir" adlandırılırdı. Tədqiqatlar göstərmişdir ki, Nəsimi Allahı tam dərk etmiş və əsərlərində də Allahın varlığını, onun qüdrətini böyük ustalıqla əks etdirmişdir:

Ey Nəsimi, həq qatında çün yəqin iman imiş,
Hər şəhadət kim yaxından tişrədir, iman degil.

Bu misralarda Nəsimi Allahdan başqa tapınacaq olmadığını və Allahın yanında sağlam düşüncənin, dərin zəkanın kamil iman kimi qəbul olunduğunu açıqlamışdır. O, şeirlərindən birində insan xarakteri üçün səciyyəvi olan mənfi və müsbət keyfiyyətlər triadasını açıqlamışdır.

Nəsimiyə görə ürək açan üç adət bunlardır:

1) birincisi – lətif təbiət, yaxşı xasiyyət; ikincisi - əliaçıqlıq, comərdlik, səxavət; üçüncüsü dəstəmaz almaq, haqq buyruğunu tutub ibadət etmək;

2) birincisi – həya; ikincisi - ədəb; üçüncüsü – qiyamət xofu;

3) birincisi – Quran; inincisi – axar su; üçüncüsü – gözəl üz;

Ürək sıxan üç əlamət bunlardır:

1) birincisi – yaman qonşu; ikincisi – pis xasiyyətli yoldaş; üçüncüsü – pis övrət;

2) birincisi – yalançılıq; ikincisi – qeybət; üçüncüsü – paxıllıq, ədavət;

3) birincisi – böhtan; ikincisi – ələ salma; üçüncüsü – kobud zarafat.

Qeyd olunanlar Nəsimi qələminin gücünün, Nəsimi sözünün qüdrətinin, Nəsimi şəxsiyyətinin müdrikliyinin, Nəsimi zəkasının nurunun və nəhayət və ən əsası Nəsimi imanının kamilliyinin təcəssümüdür.

Ömrünün son illərini Hələbdə yaşayan şair orada həbs olunub "kafir" elan olunaraq Misir sultanının əmri ilə diri-diri dərisi soyulmuşdur.

Yaşadığı bütün çətinliklərə baxmayaraq İmadəddin Nəsimi öz əqidəsindən, öz yolundan, öz amalından dönməmiş və bütün bəşəriyyətə örnək olan ömür sürmüşdür.

Yaşadığımız müasir dövrdə müstəqil Azərbaycanımızın əsl vətənpərvər, mükəmməl şəxsiyyət kimi yetişən gənclərə böyük ehtiyacı var. Bu baxımdan İmadəddin Nəsimi yaradıcılığının tədqiqi və təbliği böyük əhəmiyyət kəsb edir. Pedaqoji təmayüllü ali məktəblərdə Pedaqogika fənnindən tərbiyə nəzəriyyəsinin tədrisi zamanı Nəsimi yaradıcılığı və Nəsiminin həyat yolunun müəllim tərəfindən düzgün və ustalıqla çatdırılması tələbələrin əxlaq, vətənpərvərlik, humanizm, ideya-siyasi tərbiyəsinin inkişafında xüsusi əhəmiyyət kəsb edir. Onlarda mərdlik, dözümlülük, güclü iradə, qətiyyət və s. əxlaqi sifətlərin formalaşmasına kömək edir və onların kamil insan kimi formalaşmasında mühüm rol oynaya bilir.

## ƏDƏBİYYAT

1. İmadəddin Nəsimi. Seçilmiş əsərləri. Bakı, 1973.
2. İmadəddin Nəsimi. Mən bu cahana sığmazam. Bakı: Gənclik, 1991
3. Y. Talıbov, F. Sadıqov, S. Quliyev. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi. Bakı: Ünsiyyət, 2000.
4. Z. Məmmədov. Azərbaycan fəlsəfəsi tarixi. Bakı: Şərq-Qərb, 2006.

**М. Рагимова**

## ПРОБЛЕМЫ ВОСПИТАНИЯ В ТВОРЧЕСТВЕ ИМАДЕДДИНА НАСИМИ

## РЕЗЮМЕ

В произведениях Имадеддина Насими любовь к человеку, уважение к личности человека занимает значительное место. Он превозносил человека как творческое существо, глубоко верил, что силой разума человек способен раскрыть секреты мира. Насими призывал человека понять себя и в результате мир. Поэтому исследователи наследия Насими оценили его как «Прометей страны огней», «Символ воли».

**M. Rahimova**

## PROBLEMS OF EDUCATION IN CREATIVITY OF NASIMI

## SUMMARY

Love and respect for human personality play an important role in works of Imadaddin Nasimi. He glorifies a man as a creative being, fosters deep belief able to disclose the secrets of the world with the power of intellect. Nasimi calls the people to understand themselves and the world. Therefore, the researchers of Nasimi heritage estimated it as "Prometey of land of fire", "symbol of will ".

*Redaksiyaya daxil olub: 25.10.2013*

# UŞAQ ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA VALİDEYNLƏRİN ROLU

**Şəfəq Məmmədova,**
*ARTPİ-nin elmi işçisi*
E-mail: shefeq.2011@mail.ru

**Rəyçilər:** *dos.* **T. Paşayev,**
*ped.ü.f.d.* **X. Talıbova**

**Açar sözlər:** *ailə, şəxsiyyət, vətəndaş, davranış, uşaq, tərbiyə*
**Ключевые слова:** *семья, личность, гражданство, поведение, дети, воспитание*
**Key words:** *family, identity, citizenship, behavior, children, education*

Ailə insan şəxsiyyətini mədəniyyətə qovuşduran, ona insan davranışının normalarını, qaydalarını mənimsədən, vətəndaşın sosiallaşmasını təmin edən ilk məktəbdir. Ailədə mövcud olan insani dəyərlər, inanclar, ideallar gələcək şəxsiyyəti, onun həyatda yerini və davranışını formalaşdırır. Hər bir ailənin özünəməxsus xüsusiyyətləri, müəyyən mədəni mühiti var. Tarixi yaddaşın daşıyıcısı olan ailə dünyanın hər yerində sarsılmaz, əbədi dəyər sayılır. Tarixən ailə xalqımızın yüksək mənəvi dəyərlərinin qoruyucusu, genofondumuzun daşıyıcısı kimi milli inkişafımızda mühüm rol oynamışdır. Azərbaycanda ailə institutu özünün sosial təyinatını, milli-mənəvi missiyasını tam və dolğun şəkildə qoruyub saxlamaqdadır.

Müstəqil Azərbaycan Respublikasında sosial sahədə dövlət siyasətinin prioritet istiqamətlərindən birini məhz ailə siyasəti təşkil edir. Bu gerçəkliyi daim nəzərə alan Heydər Əliyev müstəqil Azərbaycanda ailə siyasətinin formalaşdırılması məsələlərinə böyük diqqət yetirmiş, bu sahədə mövcud olan problemlərin həlli istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyət göstərmişdir. Müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi dövrdə (1993-2003-cü illər) ümummilli lider ailə siyasəti ilə bağlı məsələlərin normativ-hüquqi tənzimlənməsini və əməli həllini prioritet vəzifələrdən biri kimi qarşıya qoymuşdur.

Müstəqil Azərbaycanda həyata keçirilən dövlət ailə siyasəti də milli-mənəvi dəyərlərdən qaynaqlanmaqla onun təcəssümüdür. Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında ölkədə uğurla həyata keçirilən sosial-iqtisadi siyasət ailələrin rifahının yaxşılaşdırılmasına, sosial müdafiəsinin gücləndirilməsinə, uşaq və yeniyetmələrin həm fiziki, həm də mənəvi cəhətdən güclü nəsil kimi formalaşdırılmasına, ümumən milli genofondumuzun möhkəmlənməsinə xidmət edir.

Həyatda hər şeyin başlanğıcı olan ailənin inkişafı və taleyi bütünlüklə cəmiyyətin inkişafı və taıeyindən ayrılmazdır. Ailə canlı, daim dəyişən bir sistemdir. Cəmiyyət dəyişdikcə onunla birlikdə ailə də dəyişir.

Ailə münasibətlərinin gənc nəslin tərbiyəsindəki rolunun nəzərə alınmaması ailə tərbiyəsində yol verilən nöqsanlar içərisində xüsusi yer tutur. Bir sıra ailələrdə uşağa verilən mənəvi tələblərlə valideynlərin əməlləri uyğun gəlmir. Evin məişət qayğılarında ata-ananın eyni dərəcədə iştirak etməməsi bu əsasda əmələ gələn söz-söhbət və münaqişələr uşaqlarda kişilik və qadınlıq haqqında təsəvvürlərin formalaşmasına mənfi təsir göstərir. Bəzən ata uşağa bir cür, ana başqa cür, nənə və ya baba tamamilə fərqli şəkildə təsir edir. Tərbiyəvi təsirlərin vəhdətdə olmaması uşaqların münasibətlər sisteminin və qiymət meyarlarının formalaşması prosesini çətinləşdirir.

Ailənin tərbiyə vəzifələri və imkanları haqqında yanlış təsəvvürlərə də az təsadüf olunmur. Bir çox ailələrdə əmək tərbiyəsinin əhəmiyyətsiz yer tutması, oyunlardan və birgə inkişaf etdirici məşğələlərin digər formalarından az istifadə edilməsi məhz bununla bağlıdır.

Gənc nəslin yaş, cins və fərdi xüsusiyyətlərinin, imkanlarının hesaba alınması sahəsində də ciddi nöqsanlar vardır. Psixoloqlar müəyyənləşdirmişlər ki, 5-6 yaşında uşaqlar dil öyrənməyə çox həssas olur, ana dili ilə yanaşı, rus dilini, hətta üçüncü bir dili də öyrənə bilərlər. Təəssüf ki, ailələr çox zaman bu böyük imkandan səmərəli istifadə etmirlər. Valideynlər uşaqların təbii imkan və qa-

biliyyətlərinin vaxtında üzə çıxarılması sahəsində də ciddi nöqsanlara yol verirlər. Onlar çox zaman uşağı heç bir əsas olmadan incəsənət sahələrinə təhrik edir, texnika sahəsinə isə maraq yaratmırlar.

Bəzi ailələrdə özünü göstərən əşya xəstəliyi uşaqların mənəvi tərbiyəsinə mənfi təsir göstərir. Bəzi ata-analar hətta uşaqlar üçün "peşə seçəndə" onun "maddi cəhətdən sərfəli" olmasına diqqət yetirirlər. Valideynlərin maraqlarının məhdudluğu, mənəvi kasadlığı istər – istəməz uşaqların dünya, ailə, insan haqqında təsəvvürlərində əks olunur. Ailə tərbiyəsinə quru nəsihətçilik halları da az ziyan vurmur.

Uşaqlarda ünsiyyətin zəif və yeknəsəq olması da diqqəti cəlb edir. Bir çox hallarda valideynlərin uşaqlarla ünsiyyəti sadəcə olaraq adi güzəran söhbətlərinə çevrilir, səthi və məhdud xarakter daşıyır. Ailədə asudə vaxtın, gün rejiminin düzgün təşkilindən çox şey asılıdır. Bu, bəzi hallarda valideynin iradəsindən asılı olmur. Həmin işdə məktəb, ictimai təşkilatlar ailənin köməyinə yetməlidirlər.

Müşahidələr göstərir ki, uşaqlar ən çox hərəkətlərində sərbəst olduqları – məktəbdən və ailədən uzaq gəzib-dolandıqları vaxt pozulurlar. Yaşadıqları məhəllənin, küçənin yerləşdiyi ərazinin yaxınlığı, dostluq, yoldaşlıq etdiyi uşaqların əxlaqı həddi-buluğa çatmamışlara güclü təsir edir. Məhəllə uşaqları arasında daha nüfuzluları olur. Digər uşaqlar onun ətrafına toplaşır, onun məsləhəti ilə oturub-dururlar. Həmin yeniyetmənin şəxsiyyətini müəyyənləşdirmək, sonra əməli tədbir görmək valideyn üçün zəruridir.

Yeniyetmələrin hədsiz əzizlənmələri, hər cür tələblərinə güzəştə gedilməsi bəzi hərəkət və davranışlarında onlara sərbəstik verilməsi də pis nəticələnir. O, məktəbdən yayınır, papiros çəkməyə, içki içməyə, yaşlılara məxsus oyunlar oynamağa, evə gec gəlməyə başlayır.

Birinci halda, oz huquq və vəzifələrinin daim sıxışdırıldığını hiss edən yeniyetmə yaşlıların qadağalarını, göstəriş və tələblərini yerinə yetirməmək üçün müxtəlif yollar axtarır, hiyləgərlik edir, yalan danışır, bir sozlə, oz hərəkətlərinə haqq qazandırmağa calışır. Əvvəllər yaşlıların təzyiqinə verilən cavab kimi qiymətləndirilən bu cür xoşagəlməz davranış xüsusiyyətləri get-gedə mohkəmlənir və uşağın xarakter əlamətinə çevrilir. Uşaq yaşlının ədalətsizliyinə dozə bilmir, oz daxili aləminə qapanır, özünü tənha hiss edir. Yeniyetmənin fikrincə, valideynlər başqalarını başa düşmək iqtidarına malik deyillər. Məhz buna görə də yeniyetmə onların hər cür rəy, tələb və sözlərini mahiyyətinə varmadan dərhal rədd edir. Əlbəttə, valideynlər üçün bundan dəhşətli heç nə yoxdur. Onlar yeniyetmənin rəftar və davranışlarını idarə etməkdə tamamilə aciz qalırlar.

İkinci halda, yaşlı yeniyetmənin təzyiqi altında öz şəxsi görüşlərinə zidd gedərək əvvəl qadağa etdiklərinə indi icazə verir, lakin hərəkətində ardıcıllıq göstərmir. Doğrudur, bu vaxt yaşlı ilə yeniyetmə arasındakı ziddiyyətlərin sayı bir qədər azalır, ancaq onlar baş verdikdə valideynlər çıxılmaz vəziyyətdə qalır, yeniyetmə hər dəfə onu getdiyi güzəştə görə təqsirləndirib, növbəti güzəştə nail olur. Qeyd etməliyik ki, hadisələrin bu cür gedişi heç də xoşagələn deyildir. Burada bəlalı cəhət orasındadır ki, nə yaşlı, nə də yeniyetmə "nəyi etmək olar", "nəyi etmək olmaz" məsələsini dəqiq düşünmək istəmir.

Üçüncü halda, yaşlılar zaman keçdikcə yeniyetməni uşaq hesab etmir, bir növ onunla hesablaşır və davranış tərzlərini müvafiq surətdə dəyişirlər. Belə olduqda çətinliklər azalır və demək olar ki, müəyyən müddətdən sonra tamamilə aradan qalxır. Yaşlılarla yeniyetmə arasında ziddiyyətin baş verməməsi və uşağın müstəqillik meylinin düzgün istiqamətə yönəldilməsi üçün valideyn və müəllimlər yeniyetmənin şəxsiyyətinə, statusuna, mənliyinə, şəxsi ləyaqətinə hörmət hissi ilə yanaşmağı bacarmalıdırlar.

Yeniyetməlik dövründə mühüm əxlaqi-etik görüş və təsəvvürlərin, habelə şəxsiyyətin sosial-əxlaqi quruluşunun əsası qoyulduğundan, çalışmaq lazımdır ki, yeniyetmə ilə yaşlı arasındakı bütün ziddiyyət və münaqişələr qarşılıqlı razılaşma, qarşılıqlı etimad əsasında aradan qaldırılsın.

Yaşlılar, hər şeydən əvvəl, dərk etməlidirlər ki, yeniyetmə ilə özləri arasındakı mövcud münasibət qaydaları pozulmuşdursa, deməli, yeni tipli münasibət qaydalarına keçmək lazımdır. Əgər yaşlılar bunu başa düşmürlərsə, işin təşəbbüskarı rolunda yeniyetmə özü çıxış edir. Belə münasibətlərin həyata keçirilməsinə tədricən başlamaq lazım gəlir.

Yeni tipli qarşılıqlı münasibətlərlə əlaqədar qeyd etməliyik ki, bu cür davranış formasının ilk təşəbbüskarı yaşlılar olmalıdırlar. Belə olduqda valideyn və müəllimlər həm uşaqlarla yeni münasibətlərə, həm də onlarda yaşlılığın inkişafına rəhbərlik və nəzarət etmək imkanına yiyələnirlər. Əgər yaşlılar uşaqla köhnə münasibəti dəyişdirmirlərsə, hadisələrin sonrakı gedişində bilavasitə yeniyetmənin özü münasibətlərin yeni tipdə olmasına cəhd göstərir.

Burada müxtəlif hallar özünü büruzə verir. Əvvəla, yeniyetmə ilə yaşlılar arasındakı çətinlikər artır, ziddiyyətlər durmadan kəskinləşir. Yaşlı inadla öz əvvəlki münasibət tərzindən əl çəkmir. Bu isə yeniyetmənin ciddi etirazlarına, sözə qulaq asmamalarına gətirib çıxarır. Yaşlıların uşağa bu cür münasibəti uzun müddət davam edərsə, bu ziddiyyətlər yeniyetmə şəxsiyyətinin təşəkkülündə mənfi rol oynayır.

Burada yeniyetmənin müstəqillik və məsuliyyət hissini artırmaq da böyük rol oynayır. Bəs bunu necə həyata keçirmək lazımdır? Əvvəla, çalışmaq lazımdır ki, yeniyetmə evdə müxtəlif işlərin icrasında yaşlıların yaxın köməkçisi olsun. Belə olduğu təqdirdə, yeniyetmə oğlan ananın yaxın köməkçisi və məsləhətçisinə çevrilir, onun qayğısına qalır. Yeniyetmə qız isə özünü evin "balaca sahibəsi" hesab edir. Yaşlılarla bu cür ünsiyyət şəraitində yeniyetmə yaşlılıq hissinə daha tez yiyələnir, gücü çatan işdə yaşlıların köməkçisinə çevrilir. Bu cür qarşılıqlı etimad şəraitində yeniyetmə ilə yaşlılar arasında heç bir ziddiyyətə yer qalmır.

Qarşılıqlı münasibətlər o vaxt səmərəli inkişaf edir ki, yaşlı yeniyetməni özünün ən yaxın dostu sayır, məsləhət və təkliflərini məmnuniyyətlə qəbul edir, onun bütün işlərinin bilavasitə iştirakçısı və məsləhətçisi olur.

Yaşlı müəyyən "həddi" gözləməklə, özünün rəftar və davranışında uşaq üçün şəxsi nümunəyə çevrilməklə, onu öz məşğuliyyət və maraq sahəsinə təhrik edir, faydalı bacarıq və vərdişlərə yiyələndirir, müxtəlif çətinlikləri aradan qaldırmağa alışdırırsa, qarşılıqlı ünsiyyət lazımi səviyyədə inkişaf edir. Bəzi valideynlər "ideal ünsiyyətlə ideal valideynlik arasında nə əlaqə ola bilər?" deyə düşünürlər. Belə valideynlər valideynlik "rollarına" o qədər köklənirlər ki, həyat yoldaşları ilə ünsiyyətlərini ikinci plana keçirirlər. Halbuki yaxşı valideyn olmaq üçün, ilk növbədə, yaxşı həyat yoldaşı olmaq lazımdır. Uşaqları ilə münasibətdə heç bir problem yaşamayan, ancaq həyat yoldaşları ilə münasibətdə ciddi problemlərlə üz-üzə qalan valideynlərin uşaqları valideynləri ilə "yaxşı vaxt keçirsələr də", ata-anaları arasındakı gərginlikdən də öz paylarını alırlar. Belə isə ideal valideynlik üçün ideal ünsiyyətin əhəmiyyəti nədir?

Hər şeydən əvvəl, bu, valideynlərin özləri üçün vacibdir, çünki əgər valideynlər özlərini "əmin-amanlıq"da hiss edirlərsə (ailə daxilindəki problemlərlə bağlı heç bir gərginlik yaşanmırsa), istər-istəməz bunu öz atalıq və ya analıq "rollarında" da əks etdirirlər.

Tərəflər arasındakı ünsiyyət uşağa vermək istədikləri şeylərin (təbii ki, tərbiyə başda olmaqla) daha tez təsir göstərməsi üçün də çox vacibdir. Əks halda, valideynlərin bütün səyləri boşa çıxa bilər.

Uşaqlar yaxşı hərəkətləri təqlid etdikləri kimi, pis hərəkətləri də təqlid edirlər. Bu, kiçikyaşlı uşaqlar üçün daha xarakterikdir. Başqa sözlə, əgər valideyn uşağından sevgisini əsirgəmirsə, ancaq aralarında "nifrət" hakimdirsə, deməli, uşaq təkcə sevgini yox, nifrəti də öyrənəcək. Ailədəki qeyri-sabit mühiti görən uşaq müəyyən vaxtdan sonra valideynlərinin səmimiyyətinə inanmır. Bu isə vaxt keçdikcə ailə daxilində etimadsızlığın meydana gəlməsinə və uşaqda özünəinamın azalmasına səbəb olur.

Tərəflər arasındakı gərginlik uşağın psixologiyasına da mənfi təsir göstərir. Müəyyən vaxtdan sonra uşaq valideynlər arasında kiminsə tərəfini saxlamaq məcburiyyətində qalır. Təbii ki, o, bu mərhələdə öz mənafeyini də unutmur.

Yeniyetməlik dövründədirsə, uşaq istər-istəməz daha sabit mühit axtarmağa başlayır. Buna görə də tədricən evdən uzaqlaşır. Belə mühitdə böyüyən uşaqlar gələcəkdə qurduqları ailələrdə də mənfi təsirlərdən xilas ola bilmirlər. Bəs bütün bunların baş verməməsi üçün valideyn nə etməlidir?

Hər şeydən əvvəl, tərəflər bir araya gəlməli, mövcud problemləri nəzərdən keçirməlidirlər. Əgər tərəflərdən biri problem olduğunu qəbul etmirsə, onda problem olduğunu qəbul edən tərəf məsələyə müdaxilə etməli və problemin həllinə çalışmalıdır.

Əgər problemin həllinə daha tez nail olmaq istəyirlərsə, güzəştə getməyi də bacarmalıdırlar.

Bəzən problemlərin həllində mütəxəssis köməyinə ehtiyac ola bilər. Bunun üçün ailə məsələləri üzrə bir mütəxəssisə müraciət etsələr daha yaxşı olar. Problemləri həll edənə qədər həssas davranmalı və bu prosesin uşağa mənfi təsir göstərməsinə imkan verilməməlidir. Tərəflər qəbul edəcəkləri bütün qərarlarda uşaqlarını da nəzərə almağı unutmamalıdırlar.

**Məqalənin nəzəri əhəmiyyəti.** Məqalədə ailədə mövcud olan insani dəyərlər, inanclar, ideallar gələcək şəxsiyyəti, onun həyatda yerini və davranışını formalaşdırması ясасландырылыр. Hər bir ailənin özünəməxsus xüsusiyyətləri, müəyyən mədəni mühitinin olması şərh edilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi**. Məqalədə irəli sürülən təklif və nəticələr müəllim-şagird, valideyn-uşaq münasibətlərinin yenidən qurulmasında, uşaqların tərbiyəsində nəzərə alına bilər.

## ƏDƏBİYYAT

1. Abbasov A.N. Milli əxlaq və ailə etikası. Bakı: Mütərcim, 2013.
2. Abbasov A.N. Məktəbliləri ailə həyatına hazırlamağın nəzəriyyəsi və təcrübəsi: Ped. elm. dok. dis. Bakı, 1995.
3. İbrahimov A., Xəlilov H. Sağlam övlad, düzgün tərbiyə, təmiz nitq. Bakı: Misri, 2004.
4. Qədirov Ə.Ə., Məmmədov İ.N. Yaş psixologiyası: dərs vəsaiti. Bakı: Maarif, 1986.

**Ш. Мамедова**

## РОЛЬ РОДИТЕЛЕЙ В ФОРМИРОВАНИИ ДЕТСКОЙ ЛИЧНОСТИ

### РЕЗЮМЕ

Семья является первичной школой, которая присоединяет личность к культуре и дает понятие о нормах и правилах человеческого поведения. Человеческие ценности, убеждения и идеалы формируют будущую личность, ее место и поведение в жизни. Семья является первым и важным источником, обеспечивающим социализацию будущих граждан. С другой стороны, каждая семья имеет свои особенности и определенную культурную среду.

**S. Mammadova**

## THE ROLE OF PARENTS IN SHAPING THE CHILD'S PERSONALITY

### SUMMARY

The family is the primary school, which adds personality to the culture and gives the concept of rules and norms of human behavior. Human values, beliefs and ideals shaping the future of identity and its place in the life and behavior. The family is the first and important sources for the socialization of future citizens on the other hand, every family has its own characteristics and specific cultural environment.

*Redaksiyaya daxil olub: 26.09.2013*

# DƏRSDƏNKƏNAR TƏDBİRLƏRDƏ MUSİQİ NÜMUNƏLƏRİNDƏN İSTİFADƏ ETMƏKLƏ ŞAGİRDLƏRİN EKOLOJİ TƏRBİYƏSİNİN TƏŞKİLİ YOLLARI

**Sevda Həsənova,**
*Naxçıvan Dövlət Universitetinin baş müəllimi*
E-mail: s _ hesenova @mail.ru

Ряйчиляр: *prof.* **F.Sadıqov,**
*dos.* **T.Paşayev**

***Açar sözlər:*** *təbiət fənləri, dərsdənkənar tədbirlər, ekoloji tərbiyə, ekoloji dəyər, musiqili lektoriyalar, uşaq studiyaları, ekoloji mühit*

***Ключевые слова:*** *предмет природоведения, экологическое воспитание, экологическая ценность, музыкальные лектории, детские студии, экологическая среда*

***Keywords:*** *nature subjects, ecological upbringing, ecological training, the child's studio*

Orta ümumtəhsil məktəblərinin ibtidai siniflərində musiqi məşğələlərində öyrədilən mahnı və musiqi nümunələri şagirdlərin estetik tərbiyəsilə yanaşı ekoloji tərbiyəsini formalaşdırmaq baxımından mühüm əhəmiyyət kəsb edir. Ümumiyyətlə, ibtidai sinif şagirdləri üçün təşkil edilən dərsdənkənar tədbirlər həm adlandırılmasına, həm təşkili formalarına, həm də həyata kecirilməsi məzmununa görə yuxarı siniflər üçün hazırlanan eyni adlı tədbirlərdən köklü surətdə fərqlənir. Bu fərqləri şərh etməzdən qabaq bu tədbirlərin adlandırılmasına öz münasibətimizi bildirək. Məlum olduğu kimi, pedaqoji ədəbiyyatda "sinifdənxaric", "sinifdənkənar", "dərsdənkənar", "məktəbdənkənar" işlər bəzən eyniləşdirilir. Fikrimizcə, ibtidai siniflərdə həyata keçirilən tədbirlərin əksəriyyəti sinif şəraitində keçirildiyi üçün belə tədbirlərə dərsdənkənar, məktəbdənkənar tədbirlər adı vermək pedaqoji məntiqə uyğun deyil.

Professor N.M.Kazımov haqlı olaraq göstərir ki, "... fənn müəllimlərinin və ya sinif rəhbərlərinin dərsdən əvvəl və ya dərsdən sonra sinifdə təşkil etdikləri söhbəti sinifdənxaric təlim-tərbiyə işi adlandırmaq olarmı? Olmaz! Nə üçün? Çünki məntiqsizlik olur: axı həmin tədbir sinifdə keçirilir! Odur ki, həmin qəbildən olan tədbirləri sinifdənkənar deyil, dərsdənkənar tərbiyə işi adlandırmaq daha məntiqlidir.

Bizim də sinifdənxaric adlandırdığımız həmin tədbirlərin forma, tip və məzmunun dərsliyin də nəzərə alınması vacibdir, çünki XXI əsrin şagirdlərinə bir qədər ciddi, bir qədər qlobal məzmun kəsb edən dərsdənkənar tədbirlərin hazırlanması daha məqsədə müvafiqdir.

Dərsdənkənar tədbirlərin gücündən istifadə etməklə şagirdlərin bədii zövqlərini nəzərə almaqla yanaşı onların ekoloji tərbiyəsini də günün tələbləri səviyyəsində formalaşdırmaq olar. Bu şərtlə ki, həmin tədbirlər estetik tutumuna və ekoloji dəyərinə görə öz zənginliyi və rəngarəngliyi ilə fərqlənsin, şablon xarakter daşımasın.

Dərsdənkənar tədbirlər üçün seçilən mahnı və melodiyalar içərisində elələri var ki, onlar yaşıllıqları, çayları, gölləri, bulaqları, quşları, heyvanları, çiçəkləri, gülləri, ağacları, düzənlikləri, ormanları, bir sözlə ətraf mühiti hesab olunur. Mahnı və melodiyalar vasitəsilə ekoloji mühitin sevilib qorunması ilə bağlı ibtidai sinif şagirdlərində heç olmazsa, təsəvvür yaratmaq musiqi müəllimlərinin vəzifə borcudur. Onlar uşaqları mahnı və melodiyalar vasitəsilə ekoloji bəlaları yaradanlara qarşı mübarizəyə qaldırmalıdırlar. Ekoloji bəlaları törədərək günah işlədənləri cəzalandırmaq, mənəvi cəhətdən onlara zərbə vurmaq bütün müəllim və şagirdlərin borcudur. N.Tusi göstərir ki, "Tövbənin mənası günahdan dönməkdir. Burada öncə günahın nə olduğunu bilməliyik. Bilmək gərəkdir ki, bəndələrin hərəkətləri beş qisimdir: birincisi, vacib və gərəkli hərəkət, yəni bu hərəkəti insan etməyə bilməz; ikincisi edilməsi yasaqlanan hərəkət, yəni bu hərəkəti insan edə bilməz; üçüncüsü, edilməsi edilməməsindən daha yaxşı olan hərəkət; edilməməsi edilməsindən yaxşı olan hərəkət; beşincisi, edilməsi və edilməməsi eyni olan hərəkət".

N.Tusinin bu müdrük kəlamlarını pedaqoji cəhətdən əsaslandırmağa çalışsaq, biz məktəblilərin ekoloji mübarizəsini 5 istiqamət üzrə müəyyənləşdirə bilərik: birincisi, ekoloji bəlalara qarşı qanunların gücü ilə mübarizə aparmaq; qanunların zəif işləndiyi təqdirdə canlı söz vasitəsilə mübarizə tədbirlərinin yeni formalarını yaratmaq. Bu ikinci istiqamətdir. Üçüncüsü, tənqidi yazıların hazırlanması ilə həyata keçirilən mübarizə yoludur. Dördüncü istiqamət kütləvi informasiyaların gücündən istifadə etməklə ekoloji bəlalara qarşı mübarizəyə başlamaqdır. Nəhayət, beşinci istiqamət üzrə həyata keçirilən tədbirlərin məzmununa mahnı və melodiyalar vasitəsilə ekoloji bəlanı törədənlərin bir başa şüuruna təsir göstərmək lazımdır. Beş əsas istiqamət üzrə mübarizə aparmaqla ekoloji bəlaları yaradan səbatsız adamları düzgün yola çəkmiş oluruq. Bu xüsusda N.Tusi yazır: "Səbat elə bir haldır ki,iman onunla bütövləşməsə, kamala yetişmək istəyi ilə çalışan nəfsin rahatlığı müyəssər olmaz, çünki öz etiqadında tərəddüd edən şəxs kamillik tələbində ola bilməz. İmanın səbatlı olması qəti qərar verməkdən ibarətdir. Bu, kamillik və kamal dərəcəsidir. Səbatsız kamilliyə yetişmək olmaz. Kamal tələbinin əzmi və əzmin səbatı hasil olmayınca heç şey mümkün deyil və səbatsız əzmin sahibi "yer üzündə şaşqın dolaşarkən şeytanların azdırdığı adam kimi" olar, bəlkə heyrətə düşüb, qərar vermək əzmində olmaz, ya müəyyən bir mərhələdə qərar vermək əzmində olmaz. Belə olduqda hərəkət, seyr və sülük baş tutmaz. Əgər hərəkət baş versə belə, nəticəsiz iztirab və tərəddüd ilə sonuclanır, bunun isə səmərəsi və faydası yoxdur. Batini səbatın səbəbi bəsarətdir (batini görümdür). Həqiqətən də, özünə və vicdanına etiqadı olan hər bir şəxs məqsədə çatmaqdan ləzzət alır və bu halın adətə çevrilməsi batini yöndə zavala uğramaz. Buna görə də səbat sahibi öz işini daimən düzgün görmək zorundadır.

Kiçik yaşlı məktəbliləri təbiəti sevməyə alışdırmaq, ətraf aləmin ekoloji təmizliyini qorumağı onlara öyrətmək bizim əsas məqsədimizdir. Bu məqsədin əhatə dairəsi çox genişdir, çünki bugünkü azyaşlı, yəni kiçikyaşlı uşaq sabahın ziyalısıdır. Əgər bugünkü nəsillərdə belə bir əqidə formalaşdıra bilsək, növbəti onilliklərdə çox güclü təbiətsevərlər ziyalı ordusu yaratmış olarıq. Özü də normal inkişaf etmiş ziyalı ordusunun yaradılması "hərtərəfli inkişaf etmiş şəxsiyyət", "bütöv adam" bolluğu deməkdir. Görkəmli pedaqoq Zahid Qaralov bu xüsusda yazır: "Əslində normal inkişaf etmiş ziyalılar dünyanı tərk edən, ondan təsirlənən və nemətlərindən insanların xeyri üçün daha səmərəli istifadə etməyi baçaranlardır. Dünya vahiddir, onun qanunlarının öz sistemi və yönümü var, həqiqət birdir. Ağıllı ziyalı bu həqiqətlərin düzgün dərk olunmasına, onların bəşəriyyətin inkişafına yönəldilməsinə ömrünü həsr edir. Belə ömürlər hədər yaşanmır, məqsədli yaşanır, nəsillərə böyük irs qoyub gedir, tarix boyu unudulmur. Belə şəxsiyyətlərə hərtərəfli inkişaf etmişlər də deyirlər, lakin bu ad mücərrəddir və "hər şeydən bir az" kimi mənfi meyllər də doğurur. Odur ki, " hərtərəfli inkişaf etmiş şəxsiyyət" anlayışı "bütöv şəxsiyyət" anlayışı kimi başa düşülməlidir. Şəxsiyyətin bütövlüyü dedikdə onun vahid dünyanı bütövlükdə dərk etmək, sözü ilə əməlinin bütövlüyü başa düşülür. Təlim-tərbiyə sisteminin də bütöv şəxsiyyətlər yetişdirməyə xidmət höstərməsi nəzərdə tutulmalıdır.

Deməli, dərsdənkənar tədbirlərdə musiqi nümunələrinin gücündən istifadə etməklə əsl şəxsiyyətlər yetişdirmək ona görə zəruri sayılır ki, bu şəxsiyyətlər, belə hərtərəfli inkişaf etmiş insanlar, bütöv adamlar, yaşadığımız ekoloji mühitimizin saflaşması ilə bağlı işlərin həyata keçirilməsini özünün təxirəsalınmaz vəzifəsi hesab edirlər.

Əgər biz bu gün təlim prosesilə yanaşı dərsdənkənar tədbirlərdə də saf əqidəli, vicdanlı, məsuliyyətli, halal xislətli, harama nifrət edən, Vətəninin bütün diyar-şünaslıq ünvanlarını böyük məhəbbətlə sevən, N.Tusi demişkən əsil səbatlı adamlar tərbiyə edə biliriksə, deməli, gələcəyə nikbinliklə baxmağa haqqımız var. Əgər biz dəsdənkənar tədbirlər vasitəsilə kiçikyaşlı məktəblilərin ekoloji şüurunda ətraf mühitimizi sevib-qorumaqla bağlı inqilabi dəyişikliklər edə biliriksə, deməli, gələcəyin normal inkişaf etmiş ziyalısının yetişdirilməsilə bağlı fikir yürüdə bilərik. Əgər biz kütləvi tədbirlərin gücü ilə uşaqları ekoloji mühitimizi qorumağa hazırlaya biliriksə, Zahid Qaralov demişkən hərtərəfli inkişaf etmiş şəxsiyyətlər ordusunun yaradılması işində böyük nailiyyətlər qazanmış oluruq.

Dərsdənkənar tədbirlər dedikdə, biz əsasən bədii yaradıcılıq dərnəklərini, kurslarını, musiqi lektoriyalarını, uşaq studiyalarını, uşaqlar üçün təşkil edilən gecələri, görüşləri, şagird konfranslarını, maraq kurslarını, dəyirmi masaları və s. bu kimi tədbirləri nəzərdə tuturuq.

Dərsdənkənar tədbirlərdə, o cümlədən gecələrdə, dəyirmi masalarda, maraq kurslarında, şagird konfranslarında ekoloji tərbiyə ilə bağlı aparılan söhbətlər, irəli sürülən elmi ideyalar, dəyərli məsləhətlər, söylənilən mülahizələr, verilən tövsiyələr şagirdlərin ekoloji dünyagörüşünü formalaşdırır.

Qeyd edildiyi kimi, dərsdənkənar tədbirlərin gücü ilə də şagirdlərin ekoloji tərbiyəsini formalaşdırmaq üçün çoxsaylı imkan və yollardan istifadə etmək mümkündür. Hazırda respublikamızın məktəblərində ibtidai sinif şagirdlərinin elmi dünyagörüşlərini, əxlaqi mənəvi normalarını, o cümlədən ekoloji tərbiyəsini formalaşdırmaq üçün bir sıra dərsdənkənar tədbirlərin forma və növlərindən istifadə olunur. Bu tədbirlər içərisində gecələr və görüşlər xüsusi yer tutur. Adətən əmək adamları, əmək qəhrəmanları, milli qəhrəmanlar, cəsur döyüşçülər, əmək və hərbiçi veteranlar üçün təşkil edilmiş gecələrdə bir sıra mahnı və melodiyalar səslənir. Yaxud, millət vəkillərilə, alimlərlə, şair və yazıçılarla, görkəmli idmançılarla, o cümlədən dünya Avropa və Olimpiya çempionları ilə keçirilən görüşlərin bədii hissəsində bir sıra məktəbli mahnıları səsləndirilir, lakin bu mahnı və melodiyaların çox kiçik bir qismi ekoloji tərbiyə mövzusunu əhatə edir. Ona görə də ibtidai sinif şagirdləri üçün təşkil edilən gecələrin və görüşlərin mövzusunu sırf ekoloji tərbiyə ilə bağlı problemlərə həsr etməklə söz və əməlin vəhdətindən ekoloji mühitə olan sevgi və məhəbbətin zəngin elementlərini, ən dəyərli detallarını uşaqlara aşılamaq mümkündür. Çalışmaq lazımdır ki, ekoloji tərbiyə sahəsində dövlət direktivlərini özündə səciyyələndirən mövzuların müzakirəsi zamanı ətraf mühitə həsr olunan mahnı və melodiyalar səslənsin. Belə ikitərəfli təsirin gücü daha dinamik və daha orijinal olar.

Hazırda təhsil işcilərinin, məktəb rəhbərlərinin əlində ekoloji mühitimizin qorunması ilə bağlı istənilən qədər direktiv sənədlər vardır. "Azərbaycan Respublikasının ekoloji konsepsiyası", "Azərbaycanda təbiətin qorunması və təbii sərvətlərdən istifadə", "Azərbaycanda ətraf mühitə təsirin qiymətləndirilməsi prosesi haqqında əsasnamə", "Azərbaycan Respublikasının heyvanat aləmi haqqında qanunu", "Azərbaycan Respublikasının dövlət təbiət və biosferin qoruqlarının ümumi əsasnaməsi" kimi dövlət direktivlərində ətraf mühitimizin, ekoloji aləmin qorunması ilə bağlı qarşıya çox mühüm vəzifələr qoyulur. Bu vəzifələrin həllində məktəblilər də iştirak etməlidir. Məktəblilər bu vəzifələri böyük məmnuniyyətlə, dərin məhəbbət hissi ilə yerinə yetirməyə daha çox maraq göstərirlər. Ona görə də kiçikyaşlı məktəblilər üçün belə tədbirləri təşkil edərkən bir sıra zəruri tələblərin gözlənilməsi haqqında danışılan problemin hərtərəfli həllində çox mühüm rol oynayır. Belə tədbirləri müəyyənləşdirib, irəli sürərkən aşağıdakılara üstünlük verilməsi işin xeyrinə olar:

- ekoloji mühitin saflaşdırılmasına, ətraf aləmin qorunmasına həsr edilən dərsdənkanar tədbirlərin mövzusunu müəyyənləşdirərkən və bir sıra sahədəki dövlət direktivlərinə və proqram sənədlərə istinad edilməsi çox faydalı olar;
- belə tədbirlər kiçikyaşlı məktəblilərin zövqünə, yaş-fərdi-cinsi xüsusiy-yətlərinə uyğun təşkil edilməlidir;
- belə tədbirlərə ekoloji tərbiyə təcrübəçilik mərkəzinin əməkdaşlarının, bioloqların, təbiətşünasların, meşə işçilərinin dəvət olunması və onların tövsiyələrinin dinlənilməsi çox faydalı olar;
- belə tədbirlərdə ibtidai sinif müəllimləri və musiqi müəllimlərilə yanaşı təbiətşünaslıq, biologiya fənlərini tədris edənlərin, sinif rəhbərlərinin, məktəb direktorlarının tərbiyə işləri üzrə təşkilatçılarının da iştirakı nə qədər vacibdirsə, onların çıxış etmələri, tövsiyə və məsləhət vermələri də bir qədər zəruridir;
- bu tipdə təşkil olunmuş tədbirlərin bədii hissəsinin repertuarı yalnız ekoloji mühitə həsr olunmuş bədii yaradıcılıq nümunələrindən və ətraf aləmə həsr edilmiş mahnı və melodiyalarda ibarət olmalıdır;

- belə tədbirlərin təşkili isə təkcə məktəb mühitilə məhdudlaşdırılmamalı, yeri gəldikcə açıq havada, ekskursiya şəraitində həyata keçirilməlidir.

Təcrübə və müşahidələr göstərir ki, hazırda respublikamızın, o cümlədən Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərinin ibtidai siniflərində musiqi nümunələrindən istifadə etməklə şagirdlərin ekoloji tərbiyəsinin formalaşdırılmasına xidmət göstərən müsbət iş təcrübəsi yoxdur, lakin bu heç də o demək deyil ki, məktəblərimizdə musiqi dərslərində, dərsdənkənar tədbirlərdə təbiətə, təbiət hadisələrinə, xüsusilə güllərə, çiçəklərə, ağaclara və eləcə də ətraf mühitin digər gözəlliklərinə dair bədii yaradıcılıq nümunələrindən istifadə olunmur. Olunur, özü də yüksək səviyyədə. Təəssüf ki, istifadə olunan bədii yaradıcılıq nümunələrinin hamısı şagirdlərin estetik-bədii zövqlərinin inkişaf etdirilməsi üçün nəzərdə tutulur. Bunları nəzərə alıb musiqi müəllimlərinə, sinif müəllimlərinə, habelə bu sahədə çalışan digər mütəxəssislərə elmi-pedaqoji-metodik cəhətdən kömək göstərmək məqsədilə musiqi nümunələri vasitəsilə kiçikyaşlı məktəblilərin ekoloji tərbiyəsinin inkişafında mühüm rol oynayan dərsdənkənar tədbirlərin təşkili yolları ilə bağlı bəzi tövsiyələrin verilməsini məqsədəuyğun hesab edirik.

Məqalənin elmi yeniliyi. Məqalədə musiqi nümunələri vasitəsilə kiçikyaşlı məktəblilərin ekoloji tərbiyəsinin inkişafında mühüm rol oynayan dərsdənkənar tədbirlərin təşkili yolları göstərilir.

Məqalənin praktik əhəmiyyəti. Məqalədə yer almış fikirlər musiqi müəllimlərinə, sinif müəllimlərinə, habelə bu sahədə çalışan digər mütəxəssislərə şagirdlərin estetik-bədii zövqlərinin inkişaf etdirilməsində kömək edə bilər.

## ƏDƏBİYYAT

1.Kazımov N.M. Məktəb pedaqogikası. Bakı: Çaşıoğlu, 2002.
2. Övsafül-Əşraf. Bakı: Nurlan, 2002.
3. Qaralov Z.İ. Tərbiyə. Bakı: Pedaqogika, 2003.
4. Sadıqov F.B. Pedaqogika. Bakı: Adiloğlu, 2009.

**С. Гасанова**

## ПУТИ ОРГАНИЗАЦИИ ЭКОЛОГИЧЕСКОГО ВОСПИТАНИЯ УЧАЩИХСЯ НА ВНЕКЛАССНЫХ МЕРОПРИЯТИЯХ С ИСПОЛЬЗОВАНИЕМ ОБРАЗЦОВ МУЗЫКАЛЬНЫХ ОБРАЗЦОВ

## РЕЗЮМЕ

В статье рассматриваются пути организации экологического воспитания учащихся во внеклассных мероприятиях с использованием музыкальных образцов. При этом широко освещается вопрос формирования экологического воспитания у младших школьников с использованием музыкальных образцов во внеклассных мероприятиях.

**S.Hasanova**

## SUMMARY

The article deals with searching the ways of arrangement of the students’ ecological training by using musical samples during after school activities. Formation of the ecological training of the juniour class pupils by using musical samples has been widely described in the article.

*Redaksiyaya daxil olub: 22.01.2014*

# ŞAGİRDLƏRDƏ KİŞİYƏ VƏ QADINA MƏXSUS XÜSUSİYYƏTLƏRİN MƏNİMSƏNİLMƏSİ

**Ruslan Kamilov,**
*Naxçıvan Müəllimlər İnstitutunun müəllimi*
E-mail: ruslan795@box.az

**Rəyçilər:** *dos.* **R. Rəhmanov,**
*dos.* **Ü. Əfəndiyeva**

***Açar sözlər:*** *sosiallaşma, cəmiyyət, maskulizasiya, feminizasiya, cinsi tərbiyə*
***Ключевые слова :*** *социализация, общество, маскулизация, феминизация,половое воспитание.*
***Key words:****socializing, society, masculization, feminization, sexual upbringing*

Sosiallaşma, bəşər övladının cəmiyyətin müəllim üzvü kimi mənsub olduğu toplumun bir parçası olduğunu öyrənməsidir. Geniş mənada sosiallaşma uşağın yaşadığı cəmiyyətə uyğunlaşması deməkdir. Bu proses eyni zamanda cəmiyyətə hazırlanma hesab olunur, çünki uşaq bu prosesdə hər hansı bir cəmiyyətlə, (hər hansı bir qurupla) bütünləşir. Böyüməkdə olan uşaq ətrafındakı insanların təsiri nəticəsində, onların hərəkətlərinə oxşar hərəkətləri inkişaf etdirir. Nəticədə təkcə özlərinə məxsus xüsusiyyətləri olan insanlar əvəzinə bir-birindən fərqli xüsusiyyətləri ilə yanaşı, bir-birinə çox oxşar cəhətlərə olan insan qrupları əmələ gəlir.

Sosial psixoloqları hələ qədim zamanlardan indiyədək belə bir sual maraqlandırmışdır: necə olur ki, insanlar özlərinə məxsus fərqli xarakterləri və müxtəlif hissləri olmasına baxmayaraq oxşar davranışları icra etməklə bir sosial mühit yarada bilirlər? Əsasən XIX əsrdə bu sualın cavabı sosial fəlsəfədə axtarılmasına baxmayaraq bu gün həmin suala cavab verə bilmək üçün sosiallaşma prosesi incələnməkdədir. İnsan sosiallaşarkən sosial təsirə məruz qalır. Sosial təsir insanlar və qruplar arasında bu təsirə qoşulanların davranışını dəyişdirən hər hansı bir əlaqəyə verilən addır. Uşaq sosial təsir yolu ilə qrup mədəniyyətini qazanır. İnsanlar sosial təsir nəticəsində içində olduqları vəziyyətə uyğunlaşırlar. İnsanın sosiallaşması çox çətin bir prosesdir. İnsan, ətrafında olanların, hər gün rastlaşdıqları saysız-hesabsız hadisələrin, adət-ənənə və qanunların, ətraf mühitdə baş verən müxtəlif dəyişikliklərin və bir çox hadisələrin təsirindədir. Bu hadisələrin təsiri nəticəsində insan bir şəxsiyyət kimi formalaşır,sosiallaşır.

Bir uşağın sosiallaşması üçün üç mühüm şərt mövcuddur.

1.Sosiallaşma üçün hər hansı bir cəmiyyətin varlığı, mövcudluğu lazımdır.

2.Uşağın lazım olan səviyyədə psixoloji əlamətlərə sahib olması lazımdır.

3.Uşağın digər insanlarla sosial münasibət qurmaq ehtiyacını hiss etməsi lazımdır.

Sosiallaşmanın iki növü var: uğurlu və uğursuz sosiallaşma. Uğurlu sosiallaşma-həm şəkilləndirici, həm də yaradıcı bir prosesdir. Yəni ilk əvvəl uğurlu sosiallaşma uşağı cəmiyyətin istədiyi şəklə salır, sonra isə ondan cəmiyyətə xeyir verən, onun mənafeyini qoruyan bir şəxsiyyət yaradır.

Uğursuz sosiallaşma-mənfi davranışların qazanılmasına səbəb olur. Bəzən uşaqlar onları əhatə edən mikro mühitin mənfi təsirlərinə məruz qalır və cəmiyyət tərəfindən qəbul edilməyən davranışlara yiyələnirlər.

Sosiallaşma cəmiyyəti təşkil edən insanların müəyyən rollara yiyələnməsini təmin edir. Bu sosial rollar isə insanlarda müəyyən davranış normalarının formalaşdırılmasını tələb edir. Cəmiyyəti təşkil edən insanların sosial rollarının əsasını onların cinsi rolları meydana gətirir. Yəni insanlar ilk növbədə mənsub olduqları cinsin rollarını mənimsəməyə çalışırlar ki, bu proses də, adətən, kiçik yaşlardan, ailədən başlayır. Ailədə valideynlər qızlara qadına məxsus, oğlanlara isə kişiyə məxsus sosial rolları mənimsətməyə çalışırlar. Əgər bu proses ailədə gərəkli səviyyədə həyata keçirilərsə, uşaqlar sosial həyata normal, öz rollarını mənimsəmiş insanlar kimi daxil olarlar. Əks halda uşaqların davranışları ilə cəmiyyətin istəyi üst-üstə düşməz. Çox vaxt əks cinsin xarakter

xüsusiyyətlərinə uyğun olaraq sosiallaşdırılan, tərbiyə edilən oğlan və qızlarda feminizasiya və maskulinizasiya keyfiyyətləri formalaşır. Feminizasiya və maskulinizasiya halları cəmiyyətdə ta qədim dövrlərdən özünü göstərsə də, bir elmi fakt kimi, əsasən, XIX yüzilliyin sonlarından araşdırılmağa başlamışdır. Latın dilində "feminizasiya"- oğlanlarda qıza, "maskulinizasiya" isə qızlarda oğlanlara məxsus keyfiyyətlərin, formalaşmasıdır.

Hələ qədim zamanlardan cinsi tərbiyə cəmiyyətin tələblərindən asılı olaraq formalaşmışdır. Ailədə cinsi tərbiyə həm ailənin, həm də cəmiyyətin tələblərinə uyğunlaşdırılmışdır. Pedaqoji fikir tarixində də bu fikrə birmənalı münasibət olmamışdır. Alimlər arasında bu problemlər ətrafında daim fikir ayrılığı olmuşdur. Bu fikir ayrılığını başlıca olaraq iki qrupa ayırmaq olar. Birinci qrupun tərəfdarları cinsi tərbiyəyə o qədər də əhəmiyyət verməməyi, cinslərarası fərqləri o qədər də şişirtməməyi tövsiyə edir, bildirirlər ki, qadın və kişilərin fəaliyyəti arasında fərq qoyulması, fəaliyyət sahələrinin cinsi fərqlər baxımından bölünməsi düzgün deyil. Yeniyetmə oğlan özünə qulluq etməyi, paltarını səliqəyə salmağı, özünə yemək hazırlamağı, qopmuş düyməni, paltarının sökülmüş yerini tikməyi bacarmalıdırlar. Qızlar xarab olmuş ütünü təmir etməyi, divara mıx vurmağı və s. kimi "oğlan" işlərini bacarmalıdır. Deməli, fəaliyyət sahəsində kəskin cinsi fərqlər qoyulmamalıdır.

İkinci qrupun nümayəndələri isə cəmiyyətdə "feminizasiyalaşma" getdiyini göstərir, fəaliyyət sahəsində kəskin fərqlər qoyulmasını düzgün sayırlar. Oğlanlar sırf kişi, qızlar isə sırf qadın işlərini öyrənməlidirlər. Oğlanlar əsl kişi kimi cəngavər təbiətli, zəiflərə kömək etməyi, özünü və başqalarını qorumağı bacarmalıdırlar. Qızlar isə zərif, qayğıkeş olmalı, başqalarının qulluğunda dayanmağı bacarmalıdırlar.

Ailə tərbiyəsində də bir çox hallarda yuxarıda deyilən kimi, ya tamamilə əks qütblərə ayırma, yaxud da bu fərqə tamamilə biganə yanaşma özünü göstərir. Ya oğlanın qızla, qızın oğlanla əlbir fəaliyyəti qadağan olunur, əks cins haqqında düşmən obrazı yaradılır, yaxud да oğlan qız təbiətli, qız oğlan təbiətli böyüdülür. Bu hallar hər iki cins üçün sosiallaşma baxımından eyni dərəcədə zərərlidir. Birinci halda ailə həyatına hazırlıq, qarşılıqlı güzəşt, hörmət yox olur, ikinci halda hər iki cinsin özünəməxsusluğu itir.

Oğlan və qızların sosial mühitdə gərəkli şəkildə uyğunlaşmaları üçün onların cinsi tərbiyəsində ailənin, daha dəqiq desək, valideynlərin onlara düzgün münasibətləri vacib şərtlərdəndir. Azərbaycanlı ailəsi çoxuşaqlı ailələrdən hesab olunur. Xarici ölkə alimlərinin (Sirs və b.) apardıqları tədqiqatların nəticələri göstərər ki, inkişaf etmiş ölkələrdə valideynlər qız uşaqlarına daha çox üstünlük verir, heç olmasa, iki övladının qız olmasını arzulayırlar. Bəs, azərbaycanlı ailələrdə vəziyyət necədir? Bu baxımdan aparılan tədqiqatların nəticəsi göstərir ki, uşağın oğlan və ya qız olmasına münasibətdə valideynlər arasında fərq öz əksini tapır. Analar atalara nisbətən qız uşağına üstünlük verirlər. Təbii ki, oğlan və qızlara valideynlərin belə ikili münasibəti ailə tərbiyəsində, o cümlədən cinsi tərbiyədə öz əksini tapır. Bunun nəticəsi olaraq bəzən valideynlər bu və ya digər cinsə üstünlük verir, tutaq ki, oğlan uşağı istəyirlər. Belə halda oğlan uşağı əzizlənir, nəticədə oğlan uşağı həddən artıq tələbkar, eqoist, aqressiv olur, müti, qorxaq, "qız kimi" tərbiyələnirlər ki, bunun hər ikisi eyni dərəcədə zərərlidir. Bəzən isə oğlan arzulayan valideynlərin qızı olur. Həmin qız oğlan kimi geyindirilir, ona oğlana xas olan keyfiyyətlər aşılanır. Bu hal isə psixoloji cəhətdən qəbuledilməzdir. Valideynlər ilk zamanlarda belə halların psixoloji nəticələrini aydın dərk etmir, elə fikirləşirlər ki, uşaq böyüdükcə özü anlayacaq ki, o artıq uşaq deyil, daha oğlan kimi davranmamalıdır, lakin uşaqlıqdan özünü qız kimi aparmağı öyrənən oğlan uşaqları yeniyetməlik illərində və sonralar gərəkli olan sosial rollarını çətinliklə öyrənir, yaxud öyrənə bilmirlər.

Cinsi tərbiyə sahəsində özünü göstərən cəhətlərdən biri də milli xüsusiyyətlərlə bağlıdır. Təbii ki, hər xalqın özünə xas olan cəhətləri tərbiyə prosesində də öz əksini tapır. Bu cinsi tərbiyəyə də aiddir. Müxtəlif xalqlar qadınlarda və kişilərdə hansısa keyfiyyətləri məqbul sayır, hansılarısa inkar edirlər. Bir xalqın bəyəndiyi keyfiyyət digər xalq üçün qəribə görünür. Azərbaycan ailələrində də belə xüsusiyyətlər var ki, nəsildən-nəslə ötürülərək davam edir. Ailə içində qız və oğlan uşaqları ilə

fərqli şəkildə davranılır: ata və analar kiçik yaşlarından etibarən oğlan uşaqlarına qız uşaqlarından daha çox müstəqillik verirlər. Valideynlər oğlan uşaqlarında daha iddialı, dediyini etdirən, sərt, hətta aqressiv davranışlar görmək istəyir, qızlara isə itaət edən, yumşaq olmalarını, ətrafdakı böyüklərin istəyinə uyğun davranmalarını arzu edirlər. Beləliklə, uşaqlar dörd yaşında ikən oğlan və ya qız olması ilə əlaqədar məlumata yiyələnirlər. Ailənin iqtisadi vəziyyəti və təhsili yüksəldikcə hər iki cinsdə uşağa bərabər səviyyədə təhsil vermək imkanı artmaqdadır. Yoxsul ailələr məhdud iqtisadi imkanlarını ilk əvvəl oğlan uşaqları üçün sərf edirlər. Məktəbdə müəllimlərin davranışları, dərs kitablarındakı kişi və qadın rolları haqqındakı nümunələr uşaqlarda cinsi rolların mənimsənilməsini daha da sürətləndirir.

Cinsi fərqlər peşə seçimində də özünü göstərir. Oğlan uşaqları daha çox riyaziyyat, iqtisadiyyat, fizikaya, qızlar isə dil-ədəbiyyat, sosial işlər, həkimlik, müəllimlik peşəsinə maraq göstərirlər. Qızlar daha çox oturaq iş, səyahəti olmayan, məsuliyyəti az olan peşələri seçirlər və ailənin gəlirində birinci dərəcəli məsuliyyət daşımadıqları üçün qazanca çox da əhəmiyyət vermirlər. Bunun əksinə oğlanlar yaxşı gəliri olan, riskli və yüksəliş üçün imkan olan məsləklərə yönəlirlər. İşləri planlaşdırma, başqalarını idarə etmə, iqtidar və məsuliyyət sahibi olma, oğlan uşaqlarında müşahidə edilən başlıca peşə keyfiyyətləridir.

Günümüzdə ev işləri daha çox maşınlar vasitəsilə həyata keçirildiyindən, müəyyən yaşdan sonra uşağın baxımı və tərbiyəsi bu sahədə mütəxəssislər tərəfindən aparıldığından qadının iş yükü azalmış və boş vaxtı artmışdır. Belə vəziyyətdə qadınların sosial rolları daha da artır. Bu isə gələcəkdə qız uşaqlarının cəmiyyətin sosial həyatında fəal rol oynayacaq, cəmiyyət üçün faydalı vətəndaşlar kimi formalaşdırılmasını tələb edir.

**Р.Камилов**

## УСВОЕНИЕ УЧЕНИКАМИ СВОЙСТВ, ХАРАКТЕРНЫХ МУЖЧИНЕ И ЖЕНЩИНЕ

### РЕЗЮМЕ

В статье говорится о социализации. Отмечается, что неудачная социализация приводит к приобретению отрицательного поведения. Иногда дети подвергаются отрицательному влиянию окружающей их микросферы и приобретают навыки поведения, не принимаемые обществом. Необходимо усвоение учениками свойств, характерных мужчине и женщине. Для нужного приспособления мальчиков и девочек социальной среде, важное условие в половом воспитании семья, точнее, отношение к ним родителей.

**R. Kamilov**

## UTILIZATION DISCIPLES PROPERTIES CHARACTERISTIC MEN AND WOMEN

### SUMMARY

The article refers to socialization. Notes that unsuccessful socialization leads to the acquisition of negative behavior. Sometimes children are adversely affected by their environment and acquire skills microspheres behavior, not the organization. Necessary to assimilate students properties characteristic of the man and woman. For the desired device for boys and girls social environment, an important condition in the family sex education, more precisely, the ratio of parents to them.

*Redaksiyaya daxil olub: 01.10.2013*

# İNTERNETDƏN İSTİFADƏ EDƏN MƏKTƏBLİLƏRİN İZTİRABLARI

**Qudsi Faranak,**
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Bakı Dövlət Universiteti*
E-mail: faranakqodsi@yahoo.com

**Rəycilər:** dos**. T. Paşayev,**
dos**. X. Talıbova**

***Açar sözlər:*** *internet asılılığı, iztirab, məktəblilər, informasiya problemləri, müxtəlif iztirablar, depressiya.*
***Ключевые слова:*** *интернет-зависимость, страдания, школьники, информационные проблемы, тревоги*
***Key words:*** *Internet addiction, suffering, schoolchildren, information problems, anxiety*

İnternetdən istifadə etmək müasir vasitələrdən biri hesab olunur və yeni nəsilin təlimində böyük rol oynayır. İnternet fəaliyyətimizin ayrılmaz hissəsinə çevrilmişdir. Bu vasitədən məktəbdə, virtual ticarətdə, evdə, hər yerdə və hər zaman istifadə edilır. Aparılan tədqiqata görə, say etibarilə internet istifadəçiləri gənclərdir. 2005-ci ildə, 77 milyondan çox uşaq say berfəzasına daxil olmuşdur. İnternetin imkanları yüksəldikcə yeni bir asılılıq növü ortaya çıxır ki, buna "internet asılılığı" deyilir. "İnternet asılılığı" informasiya əsrinin problemidir. Bütün asılılıqlar kimi, bu asılılıq da depressiya, həyəcan, qıcıqlanma, narahatlıq və s. simptomları ilə bağlıdır. Virtual dünyada gənclər arasındakı əlaqələr artır, amma real dünyada münasibətlərin dairəsi aşağı düşür. Bundan əlavə, onların akademik biliklərinin azlığından davranışlarında problemlər yaranır (1:3). Araşdırmalar göstərir ki, intenet istifadəçilərinin 14%-də davranış simptomları, depressiya və narahatlıq var. Bu hal onların sosial əlaqələrinə təsir edir və beləliklə, fəaliyyətlərini azaldır. Gənclərdə məktəbə gecikmə halları yaranır və bu səbəbdən tədris prosesində geriləmə baş verir.

İnternetdən asılılığın digər mənfi tərəfi həyat tərzinin dəyişməsinə səbəb olmasıdır. Vaxtın daha çox hissəsin internetə sərf etməklə ailə və dostlara soyuq münasibətin yaranması, internet ilə əlaqədar maliyyə çətinliyinin yaşanması və digər problemlərin peyda olması (2:65) internetdən asılılığın törətdiyi fəsadların qarşısını almaq məqsədilə geniş elmi tədqiqat işinin aparılması tələb olunur. Bu məqalədə, Tehranda və Bakıda 14-18 yaşlı məktəblilər arasında aparılan sorğular nəticəsində intenetin təsiri ilə onların keçirdikləri iztirablara və bu problemin həllinə dair yeni fikirlər söylənilmişdir.

İztirab - fərdin keçirdiyi, xoşagəlməz və mübhəm bir qorxu, kökü bəlli olmayan, etimadsızlıq, əlacsızlıqla müşayiət olunan bir narahatlıq hissidir. Stress yaradan məqamların yenidən təkrarlanması, yaxud bu stress zamanı fərdin çəkdiyi zərər onda iztirab yaranmasına səbəb olur. Bütün insanlar həyatlarında iztirab keçirirlər, lakin xroniki və şiddətli stres qeyri-adi olub, problem yaradır. Tədqiqatlar və araşdırmalar göstərir ki, iztirab qadınlarda, azgəlirli təbəqələrdə, orta yaşlı və yaşlı insanlarda daha çox aşkara çıxır. "İztirab" və "stress" məvhumundan gündəlik həyatda bir çox vəziyyətləri və hissləri ifadə üçün istifadə etmək olunur. Kütlə qarşısında nitq söyləyərkən, imtahan zamanı, maddi problemlər yaşandıqda, bir görüşə gecikdikdə və s. bu kiını situasiyaları izah edərkən, fərqinə varmadan bu sözlərdən istifadə edirik, lakin körpə və yeniyetmələr arasında geniş yayılmış psixi problemlərdən bəhs olunarkən bu ifadələrin fərqini dəqiq dərk etmək lazımdır.

Psixologiyada iztirab xroniki stresin inkişaf etmiş mərhələsidir. Fərd üçün məqsədlərinə çatmasına mane olan hallar baş verdikdə, yaxud onun məqsədlərinə çatmasına mane olduqda, ya da gündəlik gördüyü işlərində pozulmalar əmələ gəldikdə bu hal narahatlıq yaradır və onun psixi sağlamlıq probleminə çevrilir.

Fərddin həyatında stress yaradan şəraitin həddindən artıq uzun sürməsi və ya ardıcıl təkrarlanması, yaxud da bədənin əsəb sistemi müqavimətə son verə bilmədiyindən bədən uzun müddət səfərbər vəziyyətində qaldıqda iztirab baş verir.

Bu halda bədən zəifləyir, fiziki və psixi xəstəliklər (iztirab kimi) qarşısında həssas olur.(3:74)

**İztirabın geniş yayılmış əlamətləri:**

yorğunluq hissi, əsəbi olmaq və qərarsızlıq, qorxu və nigarançılıq, yuxusuzluq yaxud ürək döyüntüsü, nizamsız və sürətli tənəffüs, tərləmək, başağrısı və baş gicəllənməsi, diqqət və hafizə problemi, əzələlərin titrəməsi yaxud atması, ardıcıl sidik ifrazı (4:29)

**İztirabın səbəbləri:**

iztirabın səbəbləri aşağıdakı üç faktorla bağlıdır:

l. Bioloji və fiziki faktorlar. Həyəcanlı fərdlərdə qanda olan bəzi hormonların miqdarı qeyri-sabit olur. Bu baxımdan da hormon sistemində pozulmaya səbəb olan hər şey bədən üçün təhlükəli sayılır. Hamiləlik zamanı trioid vəzilərinin fəallığı və ya qeyri-fəallığı, qanda şəkərin miqdarının az olması, böyrəküstü vəzilərdə epinefrin hormonları ifraz edən vəzilərin olması və nəbzin pozulması da bu faktorlardandır.

2. Mühit və sosial faktorlar. Ailə problemləri, ayrılmaq və tərk edilmək hissi və s. bu kimi sosial və ünsiyyət faktorlarının əksəriyyəti iztirabın meydana gəlməsinə səbəb olur. Mühit faktorlarına misal olaraq, gözlənilməz və qəfil dəyişikliyi, zəlzələnin, xəstəliyin baş verməsini, yaxınların vəfatını və s. göstərmək olar.

3.İrsi və genetik faktorlar. Ən mühüm iztirab faktorlarından biri genetikdir. Həyəcanlı olan yaşlı fərdlərin uşaqlarında iztirabın olması ehtimalı yüksəkdir. Əlbəttə, ata-ananın, yaxud başqalarının davranışlarını özləri üçün ölçü qəbul edib, onların əməllərini məcburi təkrarlayan uşaqlarda iztirabın yaranması (sosioloji faktor) labüddür. Həyəcanlı valideynin dünyaya gətirdiyi və bir-birindən ayrı yaşayan əkizlər, habelə heyvanlar üzərində aparılan araşdırmalar və tədqiqatlar göstərir ki, iztirabın yaranmasında genetik faktorların olduqca böyük təsiri vardır. Bununla belə, xüsusilə bu məsələdə genin rolunun olmadığına inanmaq çətindir. Bəlkə bəzi genlərin tərkibi belə nəticələrə malikdir, amma son araşdırmalara əsasən, demək olar ki, genetik faktorların qorxu və yüksəklik fobiyası kimi bəzi iztirab növlərinin yaranmasında olduqca böyük rolu vardır.

**İztirabın yaranmasına təsir göstərən kənar faktorlar**

Bəzi mütəxəssislərin dedikləri kimi, düzgün qidalanmamaq da iztirabın yaranmasına səbəb ola bilir. Bəzi amin turşularının, maqneziumun, florid turşusunun və B12 vitamininin çatışmazlığı iztirabın yaranmasını sürətləndirir;

Narkotik maddələrdən və psixotrop preparatlardan istifadə bəzi beyin törəmələrinin yaranmasına və qətiyyətsiz pozğunluğa oxşar əlamətlərin meydana çıxmasına səbəb olur. (5:56)

**Müxtəlif iztirab pozulmaları**

İztirab pozuntularının altı növü var ki, hər kəs bunlardan birinə və ya bir neçəsinə tutula bilər.

**İztrabların intrnetdən asılılığı.**

Bu tədqiqat 2013 ildə korrelyasiya yanaşma və klaster seçmə yolu ilə Bakıda və Tehranda 14-18 yaşlı məktəblilər arasında aparılmışdır. Sorğuya cəlb olunanlar 432 məktəblidən 220-si Tehrandan, 212-si Bakıdan seçilmişdir. İnternetdən istifadə vaxtına görə aşağıdakı statistik nəticə əldə etdik: 185 nəfər (42,8%) 0-4 saat ərzində, 92 nəfər (21,3%) 4-8 saat ərzində cavab vermiş, 102 nəfər (23,6%) isə bu sorğunu cavablandırmayıb. Bu araşdırmada biz Yung və Goldberg səhiyyə sorğu və Pearson korrelyasiya testindən istifadə etdik. Əldə edilən nəticələr internet asılılığı ilə fiziki sağlamlıq, iztirab və depresiya arasında əlaqələrin olması qənaətini yaratdı. İnternet asılılığı eyni zamanda tələbələr arasında ictimai fəallığın zəifləməsinə səbəb olur. Bu işdə internet və iztirab arasında əlaqələr diqqət mərkəzindədir.

Cədvəl №1.İztirabın internet asılılığı ilə əlaqəsi

| | | | sağlamlıq | İnternet asılılığı |
|---|---|---|---|---|
| Spirmn Korrelyasiya əmsalı | İnternet asılılığı | Korrelyasiya əmsalı | 1,000 | ../306** |
| | | Sig. | . | 0/000 |
| | | say | 186 | 179 |
| | İztirab | Korrelyasiya əmsalı | ../306** | 1.000 |
| | | Sig. | 0/000 | . |
| | | say | 179 | 414 |
| ** correlation is significant at the 0.01 level (2-tailed) | | | | |

Cədvəldəki nəticələrə görə, anlamlı səviyyə: sig=0.00 alındığını və bunun da 0.05-dən az olduğunu nəzərə alaraq, sıfır fərziyyəsi rədd edilir və bu iki dəyişkən arasında asılılıq olduğu sübut olunur. İki dəyişkən arasındakı korrelyasiya koefisienti 414 və verilən üçün 0.306-ya bərabərdir və 1 % xəta səviyyəsində də anlamlıdır. İki dəyişkən arasındakı asılılıq müsbət və nisbətən yaxşı haldır və bu bir daha istifadəçilərin internet asıhlığının “iztirab səviyyəsinə təsir etməsi” fərziyyəsini bir daha təsdiq edir. Əldə olunan nəticələrə əsaslanmaqla belə problemlərin ortaya çıxmaması üçün internetdən düzgün istifadə etməyi məktəblilərə öyrətmək lazımdır. İztirabın aradan qaldırma yolları aşağıdakılardır:

**İztirabın profilaktikası yolları:**

İztirabın qarşısını almaq üçün müxtəlif yollar mövcuddur.

**1. Sağlam qidalanma rejimi.** Çeşidli və lazımi miqdarda, bədən təlabatına görə maddələrə zəngin olan yeməklərdən istifadə etmək sağlamlığı qorumaq üçün əsas amillərdən biridir.

**2. Müntəzəm fiziki fəaliyyətlər.** Müntəzəm şəkildə idmanla məşğul olmaq iztirabın profılaktikası və müalicəsi yollarından biridir. 40 dəqiqə müddətində sürətli yeriş iztirabı orta hesabla 14% aşağı salır. Bundan başqa, idmanla məşğul olmaq tənəffüs sistemi və qan dövranı fəaliyyətinin artmasına, fərdin çəki sabitliyi və şadlığına səbəb olur. Yoqa kimi idman növləri sakitliyin yaranmasına səbəb olduğundan iztirabın qarşısını alınaq üçün olduqca faydalıdır maksimum stimul verir.

**3. Özünə inamın artması.** Yüksək özünəinam hissi streslə mübarizə üçün bədənə maksimum stimul verir.

**4. Tərki-dünyalıqdan qaçmaq və ictimailəşmək.** Fərdlər psixi təzyiqlərə məruz qaldıqda instinktiv olaraq fəaliyyət səhnəsindən və cəmiyyətdən uzaqlaşır və bir guşəyə sığınırlar, lakin guşənişinlik özlüyündə stresin kəskinləşməsinə səbəb olur. Həmin fərdlər dostlara, xüsusilə də uşaqlara ünsiyyət zamanı sevinc hissi keçirə bilər, hətta bu ünsiyyət qısa bir müddət üçün olsa belə onun narahatlığını, stresini unutmasına səbəb ola bilər.

**5. Sosial müdafiə.** Hər fərdin həyatında sosial müdafiənin olması həyatın böhranları ilə mübarizədə özünü müdafiə edə bilmək üçün arxalana biləcəyi bir qalxana malik olmasına səbəb olur. Sosial müdafiə təhlükəsizlik və özünə inam hissini yüksəldərək, fərdi streslər və psixi təzyiqlər qarşısında daha dözümlü bir vəziyyətə gətirir.

**6. Real zaman haqqında fikirləşmək.** Real zaman haqqında fikirləşməklə, xəyalları və arzuları daha münasib imkan üçün bir kənara qoymaq zehni sakitliyi artırır. Həmçinin zehni yerinə yetirməkdə olan işlə məşğul etmək və əlçatmaz arzuları fıkirləşməmək iztirabın yaranmasının qarşısını almasına təsir göstərir.

**7. Gərginlik yaradan şəraitlə bağlı informasiya əldə etmək.** Təzyiq yaradan məqamlar haqqında məlumatsızlıq fərdlərdə daha çox stress və iztirab yaranmasına səbəb olur. Fərdin qarşılaşmalı olacağı şəraitlər və hallarla bağlı informasiya və biliyə malik olması daha az nigarançılıq və həyəcan keçirilməsinə səbəb olur, məsələn, xəstələrin cərrahi əməliyyat və ondan sonra keçirəcəyi ağrıları haqqında öncədən məlumatlandırılması onların daha az iztiraba düçar olmasına səbəb olur.

**8. Gülmək.** Gülmək psixi təzyiqlərin qarşısını almaq üçün ən sağlam yollardan biridir. Gülərkən beyində ağrıkəsici (fərddə şadlıq və sağlamlıq hissi yaradan) hormonlar ifraz olunur və qanda stress yaradan hormonların sayı aşağı düşür.

**9. Həyəcanların kağız üzərində bəyan edilməsi.** Həyəcanların və emosiyaların kağız üzərində sadə bir şəkildə yazılaraq çatdırılması, məsələn, işi itirmək, ailə problemləri və s. kimi hadisələrdən doğan psixi stresslərin azalmasına səbəb olur.

**İztirabın müalicəsi**

Bəzi hallarda iztirab, adətən, xəstəlik sayılmır və həkimə ehtiyac olmadan müalicə oluna bilər. Həmin vəziyyətə təbii iztirab deyilir. Bu zaman iztirab xəstə tərəfindən asanlıqla nəzarətdə saxlanılır və bu vəziyyətdən özü çıxır, məsələn, imtahandan doğan iztirab kimi. Təbii iztirab uzun müddət çimmək, dərindən nəfəs almaq, etibar elədiyi bir fərdlə söhbət etmək, qaranlıq bir otaqda istirahət etmək və s. kimi üsullarla nəzarətdə saxlana bilər.

Fərdin özünün apardığı müalicə nəticə vermədikdə, yaxud fərddə həddən artıq qorxu olduqda, ya da yeni və izah edilə bilməyən əlamətlər ortaya çıxdıqda həkimə müraciət etmək zəruri sayılır. Bu halda həkim ona dərman (klassik üsul), yaxud qeyri-dərman müalicəsi təklif edir.

Günümüzdə iztirabın müalicəsi üçün istifadə edilən preparatlara misal olaraq floksitin (prozak), benzodyazinlər ailəsindən olan (qısa müddət üçün) sertalin və s. göstərmək olar. Bəzən dərman preparatlarının bəziləri xəstələrə mənfi təsir göstərir. Qeyri-dərman müalicəsinə misal olaraq bədəni sakitləşdirmək, həssaslığı zəiflətmək, fıkri yayındırmaq, nümunə göstərmək və s. metodlar təsiredici xüsusiyyətə malikdirlər. Bu metodlarla xəstələrə öz bədənlərini stress yaradan faktorlarla mübarizə üçün birbaşa və effektiv şəkildə hazırlamağı öyrədirlər.

## ƏDƏBİYYAT

1. Margaret H., Christensen, Marses Hech, Torzack. Computer addiction, journal of psychology social nursing, mental health services, 39.3-pranest medical library. 2009, N 39.

2. Young, Kimberly, internet addiction the mergence of neü clinical disorder, WWW//addiction.com/articles/new disorder, 1999-186

3-کا پلان ،هارولد-سادوک بنیا مین،خلاصه روان پزشکی،ترجمه نصرت الله پور افکاری،جلد سوم،تهران،انتشارات شهرآب 1380ص:260

4.نوربخش پریوش، ساخت و اعتباریابی ابزار اندازه گیری عوامل فشارزای شغلی دبیران تربیت بدنی استان خوزستان و تعیین رابطه بین این عوامل با سلامت روانی انان- پایان نامه دکترا مدیریت تربیت بدنی و علوم ورزشی دانشگاه تربیت معلم-1379

5. حسینیَ، اصول بهداشت روانی – انتشارات علوم پزشکی مشهد- 1370-ص.230

**Qudsi Faranak**

**RELATIONSHIP BETWEEN INTERNET ADDICTION AND ANXIETY**

**SUMMARY**

Education via the Internet is an effective tool and plays an important role in educating the younger generation. Internet addiction is a problem of our time . She as well as other kinds of dependencies leads to seclusion human estrangement from his family and others, so it may harm your health , relationships and personal feelings. The results show that Internet addiction is directly related to the physical condition of man, anxiety and depression. This article explains the relationship between the Internet and the anxiety and depression of students aged 14-18 in Tehran and Baku. In addition, this article examines the types and causes anxiety, ways to reduce anxiety. Fatigue are symptoms of anxiety , nervousness, insomnia and nightmares , headaches and dizziness. In order to avoid anxiety in Internet users , they need to follow a healthy diet , do the appropriate physical exercise, participate in social activities , things to do.

**Гудси Фаранак**

**СВЯЗЬ МЕЖДУ ИНТЕРНЕТ-ЗАВИСИМОСТЬЮ И ТРЕВОГОЙ**

**РЕЗЮМЕ**

Обучение с помощью интернета является эффективным инструментом и играет важную роль в воспитании молодого поколения. Интернет-зависимость является проблемой нашего времени. Она как и другие виды зависимостей приводит к затворничеству человека, отдалению его от семьи и других, поэтому она может навредить здоровью, отношениям и личные чувствам. Результаты исследования показывают, что интернет-зависимость напрямую связана с физическим состоянием человека, тревогой и депрессией. Эта статья объясняет связь между интернетом и тревогой и депрессией учащихся 14-18 лет в Тегеране и Баку. Кроме того, эта статья изучает виды и причины тревожности, способы уменьшения беспокойства. Признаками беспокойства являются усталость, нервозность, бессонница и кошмары, головные боли и головокружение.

Для того, чтобы избежать беспокойства у пользователей интернета, они должны соблюдать здоровую диету,делать соответствующие физические упражнения, участвовать в социальных мероприятиях, развлечениях.

*Redaksiyaya daxil olub: 11.07.2013*

# İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARI TƏLİM İNFORMASİYA VASİTƏSİ KİMİ

**Hamzehbeigi Kohnehshahri Taiebeh Reza qızı**
*Bakı Dövlət Universiteti, pedaqogika kafedrası, müəllim*
Bygi2000@yahoo.com,bygi2012@gmail.com

**Rəyçilər**: *prof.* **L.N. Qasımova,**
*баш тцяллим* **A.M. Allahverdiyev**

**Açar sözlər**: *İnformasiya-kommunikasiya texnologiyaları, təlim informasiya vasitəsi, informasiya-kommunikasiya texnologiyalarının rolu, öyrənmə, təlim.*
**Ключевые слова:** *информационно-коммуникативные технологии, средство информационного обучения, роль информационно-коммуникативной технологии, изучение, обучение.*
**Key words:** *Information and communication technology, educational technolgy, the role of information and communication thechnology, learning, teaching*

Avropa ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı иля bağlı olan Tədqiqatlar və Yeniliklər Mərkəzinin müdiri C.R.Kas təlim texnologiyasına belə tərif verir: "Bir kütləvi sistemin möhkəmlən-dirilməsi olub, müasir kütləvi informasiya метод-ларындан, vəsaitlərdən, vizual vasitələrdən, siniflərin tənzimlənməsi və yeni tədris методlarından yararlanır, eyni zamanda onlardan möcüzə də gözləmir". Britani-yanın Təlim Texnologiyası Milli Şurası 1971-ci ildəki məlumatında belə bir nəticəyə gəlmişdir ki, təlim texnologiyası "öyrənmə prosesini yaxşılaşdırmaq məqsədilə sistemlər, texnikalar, yardımçı alət və ləvazimatlardan istifadə etməsi ilə şərtlənir" (9, səh.2).

Təlim texnologiyası öyrənmə prosesinin yaxşılaşdırılması üçün sistemlər və yardımçı texnika və vasitələrdən istifadə edilməsidir (səh.13).

Təlim texnologiyası bütün metodlar, təlim materialları, təçhizat və tədbir-lərdən ibarətdir və effektiv təlim aparılması üçün mövcuddur. Bu baxımdan öyrən-məni asanlaşdıran və ya təşviq edən bütün sistemlər və методları bir növ təlim texnologiyası ilə əlaqə yaradır və buna görə də təlim texnologiyasını təlim siste-minin ayrılmaz bir hissəsi saymaq olar ki, işin gedişində gah öyrənmə prosesindən əvvəl hərəkət edir, gah da ona nisbətən geri qalır (12, səh.97).

Belə bir nəticəyə gəlmək olar ki, təlim-tərbiyə işində texnologiyadan istifadə edilməsi təlim-tərbiyədə istifadə oluna bilən hər növ vasitə, alət və informasiyadır.

"İnformasiya-kommunikasiya texnologiyası" ифадяси 1980-ci illərdə meydana çıxmışdır (17). Üç sahənin –texnologiya, informasiya və kommunikasiyanın bir-birini tamamlaması və qarşılıqlı anlaşması əsasında informasiya-kommunikasiya texnologiyası formalaşmışdır. O, istifadəçilərə informasiyanın yığılması, emalı və hər hansı bir nöqtəyə göndərilməsi imkanı verir.

İran Ali İnformasiya Şurasının Katibliyi (1378 Salehi, 1382) informasiya texnologiyasına belə tərif verir:

"İnformasiya texnologiyası informasiyanı müxtəlif şəkillərdə (səs, təsvir və mətn) yığan, saxlayan, bərpa edən, emal edən, ötürən və verən üsullar, hissələr, proqramlar və avadanlıqların birləşməsindən yaranan kompleksə deyilir " (сящ.18).

- gerçək və ilkin öyrənmə təcrübələrinin formalaşdırlıması: bir təlim anla-yışını öyrənmək üçün yaxşı olar ki, öyrəncinin müxtəlif hissələrini səfərbər edək və birbaşa öyrənmək təcrübəsini öyrənək;
- öyrənmə stimulunun yaradılması və onun uzanmasına kömək etmək: stimulun olması öyrəncinin öyrənmə prosesində könüllü fəaliyyətlərinə və birbaşa iştirakına səbəb olur, onun təlim məqsədlərinə çatmaq imkanlarını artırır;
- təlim zamanına qənaət edilməsi. Təlim və tədris müəyyən zaman daxilində aparılmalıdır. Informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə xüsusi вахт ayırmağa ehtiyac yoxdur. Həzərdə tutулмуш mövzuları daha az zaman içərisində öyrətmək olar;

- daha asan əlaqə və daha yaxşı şərhetmə. Təlim informasiya vasitələri mesaj-ları ötürməklə tərbiyəçilərlə öyrəncilər arasında olan əlaqəni asanlaşdırır, şagirlərin zehnində mənanın inkişaf edib, genişlənməsiня təsir göstərir;

- daha sürətli, daha dərin və давамлы öyrənmə təcrübələrinin formalaş-dırılması. Münasib texnologiyalardan istifadə etməklə əksər hallarda mürəkkəb və qarışıq məfhumları öyrənянlərə daha sürətlə və daha asan öyrətmək mümkündür;

- mümkün olmayan öyrənmə təcrübələrinin formalaşdırılması. Бirbaşa və ilkin təcrübələrdən istifadə etmək hər bir təlim məqamında tövsiyə olunur. Belə hallarda təlim texnologiyalarından istifadə edilməsi öyrənmə təcrübələri əldə etmək üçün münasib əvəzləyici sayılır.

Ümumiyyətlə, informasiya-kommunikasiya texnologiyaları üçün aşağıdakı üstünлцkləri və xüsusiyyətləri qeyd etmək olar. Informasiya-kommunikasiya texno-logiyaları:

- Эörünməzi görünənə çevirir. O, məktəb laboratorийасında aparыlmasы mümkün omayan kimyəvi reaksiyaları mümkün edir. Cizgi filmi, animasion мцжяр-ряд anlayışların dərk olunmasıma kömək edir, o olduqca kiçik və ya sürətli olan proseslяrин vizual təsəvvürünü mümkünləşdirir;

- Məktəblilərin bacarıqlarındakı fərqləri himayə edir. Belə ki, güclü və stimulu olan məktəblilər üçün təkmilləşdirici və zənginləşdirici proqramlar, zəif məktəblilər üçün иcя möhkəmləndirici proqramlar hazırlayır;

- Фərdi öyrənməyə səbəb olur. Бelə ki, hər bir fərd özünün öyrənmə sürətinə uyğun olaraq öyrənməyə başlayır. Бu da müəlimlə məktəblinin qarşılıqlı anlaşma-sına səbəb olur. Başqa sözlə, öyrənянlərin müstəqilliyinin artmasına, təlim şəraiti və imkanlarının çevikliyinə səbəb olur.

- Ctimul və müxtəlifliyin yaranmasına səbəb olur. Бu da maraq, şövq və təcrü-bəyə gətirib çıxarır.

- Юyrənmədə qrup fəaliyyətlərini himayə edir. Бaşqalarının ideyalarından istifadə etmək və onlara cavab vermək öyrənmənin yaxşılaşmasına və dərketmənin yüksəlməsinə səbəb olur. Öyrənmə fərdi çalışmalar явязиня qrup çalışmaları şəklin-də olarsa, daha yaxşı nəticələrə gətirib çıxaracaqdır.

- Müəllimlərin müxtəlif öyrənmə методlarından istifadəni asanlaşdıran effek-tiv öyrənmə просесинин təşviqиня səbəb olur (127).

- Бacarıqlar və tənqidi təfəkkür kimi yüksək səviyyəli koqnitiv prosesləri yaxşılaşdırır.

- Müəllimlər və məktəblilər arasında дистант əlaqə yaranmasına səbəb olur. Belə ki, informasiya mübadiləsi apara bilir, tədqiqatlar və digər fəaliyyətlərdə də bir-biri ilə əməkdaşlıq edirlər (Həddad və həmkarları, 2002);

- Иki və ya bir neçə məktəbli, təlim mütəxəssisləri arasında qarşılıqlı anlaşma üçün münasib öyrənmə imkanları yaradır (128).

Belə bir nəticəyə gəlmək olar ki, təlim sistemində informasiya-kommuni-kasiya texnologiyalarından yararlana bilmək üçün bir neçə fərziyyəni nəzərə almaq lazımdır (129). O cümlədən (səh.147).

- Юyrənяnin sürəti, özünü yюnяltmя imkanı və öyrənmənin çevikliyi nəzərə alınmaqla, öyrənmə üçün media mənbələrindən istifadəni tələb edən öyrənянə yönümlü təlim prosesinin qəbul edilməsidir.

- müəllimin rolunun bilik ötürəndən öyrənmə prosesini asanlaşdırana dəyişil-məsinin qəbul olunması;

- texnologiyadan yararlanan sistemlər vasitəsilə məktəblilərin öyrənməsinin effektivliyi və məhsuldarlığının yaxşılaşmasının mümkünlüyünə inam.

Raio (2003) (130) texnologiyadan öyrənmə və tədris prosesində efektiv şəkildə istifadənin üç mühüm açarını sayır. Яgər münasib bir şəkildə istifadə edilərsə, texnologiyanın təlim sistemindəki imkanlarının aşkara çıxmasına səbəb olacaqdır (131). Бirinci açar, müəllimlərin yetişdirilməsi və onların tədris prosesində təlim texnologiyalarından yararlanmaq üçün təşviq olunmasıdır. Иkinci açar, ümumi şəkildə öyrənянlərin məhsuldarlığını artırmaq üçün texnologiyadan istifadə edilməsi və xüsusi şəkildə məktəblilərin fərdi öyrənmə fəaliyyətlərini himayə etməkdir. Цçüncü açar, даща

mühüm olub, texnologiyaya uyğun dərs proqramları fəaliyyət-lərinin hazırlanmasıdır. Bu üç açardan hər biri tədris və öyrənmə prosesində texnologiyanın imkanlarından istifadə edilməsi üçün lazımlı və zəruri sayılır. Bu halda aşağıdakı xüsusiyyətlərə malik münasib təlim mühitini təsəvvür etmək olar:

*Cinif müəllimə yönəмli, yorucu mövzular verilməsi və təkrarlanma vəziyyə-tindən çıxaraq canlı və yaradıcı bir mühitə çevrilir.

* Щər yeri sinif otağına çevirir.

* Йeni tədris metodlarının yaranmasına imkan верир.

* Məktəblilər və müəllimləри дцшцнмяйя вадар едир, онлар üçün ömrün sonuna qədər öyrənmə imkanı yaradır.

* Məktəblilərə cəmiyyətin ehtiyacı olan texnoloji bacarıqlar verir.

* Вахт, xərc və s. qənaətə riayət edirlir.

* Məktəblilər arasında qrup işini genişləndirir.

* Məktəblilər məsələləri həll etmək və problemləri aradan qaldırmağa qadir olurлар.

Бu təlim mühitində məktəblilər aşağıdakı qabiliyyət və bacarıqları əldə edir və informasiya cəmiyyətində daha yaxşı yaşamaq üçün hazırlaşırlar:

* Məktəblilər öz məsələlərini araşdırır, münasib cavablar tapmaq üçün axtarış aparırlar.

* Məktəbli münasib texnologiyalardan istifadə etməklə mütəfəkkir, tənqidçi, icmalçı və informasiya seçicisi kimi. Яldə etdikləri informasiyanı dəyərləndirir.

* Məktəbli informasiya cəmiyyətində bilik qəbul edən fəal олур və bilik istehsal edir.

* Məktəbli müxtəlif texnologiyalar və münasib informasiya vasitələrindən istifadə etməklə öz mesajlarını başqalarına ötürür.

* Məktəbli öz билийини genişləndirmək, elm, bilik istehsal etmək məqsədilə texnologiya və kütləvi əlaqə vasitələrindən istifadə etmək bacarığına malik олур.

* Məktəbli sosial və mədəni həyatda öz rolunu yaxşı ifa edir, cəmiyyət üzvləri və başqaları qarşısındakı hüquqları, vəzifələri məsuliyyətini bilir, yerinə yetirir.

**Məqalənin aktuallığı.** İnformasiya texnologiyaları təlim prosesində ilkin öyrənmə təcrübələrinin formalaşdırlmasına, öyrənmə stimulunun yaradılması; onun давамına, təlim вахтына qənaət edilməsinə, daha sürətli, daha dərin və давамлы öyrənmə təcrübələrinin formalaşdırılmasına imkan verir.

**Məqalənin elmi yeniliyi**. Məqalədə İnformasiya-kommunikasiya texnologi-yaları təlim vasitəsi kimi nəzərə alınıb, onun чoxlu üstünlüklərиндян bəhs olunub, nümunələr və misallarла иfadə olunub.

**Məqalə** BDU-nin pedaqogika kafedrasında 01.05.2013-ci il tarixli iclasında (prot. №17) muzakirə edilmiş və çapı məsləhət görülmüşdür.

## ЯDƏBİYYAT

1. İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi yolları. İCT. Rəstkarpur,H., Abdullahi, N. Tehran: Daneş mərdom, 1384.

2. Yeni texnologiyaların təlimdə tətbiqi. Ş.Zofən. Tehran: Səmt, nəşriyyatı, 1383, səh.295.

3. Təlim üçün texnologiyalar: imkanlar, parametrlər və perspektivlər. Бакы, 1998.

**Т. Гамзехбеиги**

## ИНФОРМАЦИОННО-КОММУНИКАТИВНЫЕ ТЕХНОЛОГИИ КАК СРЕДСТВО УЧЕБНОЙ ИНФОРМАЦИИ

### РЕЗЮМЕ

В статье, в первую очередь, дается понятие технологии обучения, а затем объясняется суть информационно-коммуникативной технологии и его роль в системе образования.

Определяются роли и преимущества информационно-коммуникативной технологии. В конеч-

ном итоге рассматриваются, во-первых, характеристика подходящей сферы обучения и, во-вторых, какие умения и навыки приобретают школьники в этой сфере обучения.

**Т. Щамзещбеиэи Кощнещсщащри**

**İNFORMATION AND COMMUNICATION TECHNOLOGY AS EDUCATIONAL MEDIA**

**SUMMARY**

In this article information and communication technology is considered as an educational media and its advantages is mentioned. It's role as an educational medium has been discussed and in this regard Samples and examples are given.

*Redaksiyaya daxil olub: 10.09.2013*

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN TƏRBİYƏSİ ВЯ ТЯЛИМИ HAQQINDA MÖVCÜD ELMİ NƏZƏRİYYƏLƏR VƏ MÜASİR YANAŞMALAR

**Dəniz Məmmədova,**
*ADPU-nin magistrantı*
*E-mail: denizs89@mail.ru*

**Rəyçilər:** *prof.* **M. İlyasov,**
*dos.* **Ş. Əliyeva**

***Açar sözlər**: təlim, tərbiyə, pedaqoji nəzəriyyə, pedaqoji yenilik*
***Ключевые слова**: обучение, образование, педагогические теории, педагогические новинки (инновации)*
***Keywords**: training, education, pedagogical theory, pedagogical innovation*

Pedaqoji nəzəriyyə pedaqoji hadisələr təsvir olunmuş, aydınlaşdırılmış, dəqiqləşdirilmiş, ciddi çərçivəyə alınmış biliklər sistemidir. Onun quruluşunun elementlərini ideyalar, anlayışlar, qanunauyğunluqlar, prinsiplər, qaydalar, göstərişlər təşkil edir. Pedaqoji nəzəriyyələr həm qlobal, həm də xüsusi ola bilər. Bu, təhsildə və tərbiyədə baş verən problemlərdən asılıdır.

Məktəbəqədər pedaqoji nəzəriyyə iki yerə ayrılır:

a) Tərbiyə nəzəriyyəsi

b) Təlim nəzəriyyəsi

Bir qrup nəzəriyyəçilər belə hesab edirdilər ki, uşağın inkişafı təlim və tərbiyədən asılı deyil. Bu nəzəriyyəni Z.Freyd, J.Piaje irəli sürmüşlər. Burada bir həqiqət var ki, uşaq təlim tərbiyənin təsiri olmadan fiziki cəhətdən inkişaf edə bilər, lakin cəmiyyət üçün hazırlanan vətəndaşa təlim və tərbiyə zəruridir. Bir sözlə, onlar öyrədici təlimi qəbul etmir, spontan, öz – özünə inkişafa üstünlük verirdilər. Onlar uşaqların inkişafında yaşlıların rolunu nəzərə almırdılar.

İkinci qrup nəzəriyyəçilər inkişafın təlimlə bağlı olduğunu qəbul edirdilər. Bu nəzəriyyənin tərəfdarları T.S. Kostyuk, N.A. Mençinskaya və başqalarıdır. Onlar təlim və tərbiyəni inkişafın bazası kimi qəbul edirlər. Konkret olaraq insanın xarakterini onun inkişaf səviyyəsi ilə əlaqələndirirlər. Praktikada təlim və inkişaf bir – biri ilə sıx bağlıdır, biri digərini tamamlayır.

Üçüncü qrup nəzəriyyəçilər hesab edirlər ki, yaşlılar uşağın inkişafını vaxtından əvvəl aparırlar. Halbuki, bu proses tərbiyə və təlimdən kənarda mümkün deyil. Uşağın inkişaf prosesi daxili zərurətdən, mədəni – tarixi inkişaf xüsusiyyətlərindən irəli gəlir. Bu ideya A.N. Leontyev, P.Y. Qalperin, D.B. Elkonin, A.V. Zaporojes, L.A.Venqer tərəfindən müdafiə olunurdu. Burada aparıcı rol təlim və tərbiyəyə verilir. Uşağın inkişafı inkişafetdirici tərbiyə və təlimlə yaxşı təşkil olunmuş pedaqoji – psixoloji mühitlə bağlıdır.

V.A.Suxomlinski yazırdı: uşaqlar təbiətin qoynunda qoy susun, onu dinləsin, sonra onların diqqətlərini cəlb edən hər hansı bir hadisəni təsvir etsinlər. Bu, onların ilk inşası olacaq. Nağıl isə nitqin odunu alovlandıran təmiz küləkdir.

Məktəbəqədər yaş dövründə inkişafetdirici təlim prioritet yer tutur. İnkişafetdirici təlim uşaq şəxsiyyətini inkişaf etdirir. Zamanla ayaqlaşmaq, həyatdan geri qalmamaq üçün valideynlər və tərbiyəçilər çalışırlar ki, uşağın inkişaf tempini irəli aparsınlar. Valideynlər onları müxtəlif dərnəklərə apararkən yaş və inkişaf xüsusiyyətlərini nəzərə almalıdırlar. Əks halda uşaq yorulur və haldan düşür, çünki uşağın inkişafını süni surətdə toplanmış bilik, bacarıq və vərdişlərlə həddindən artıq yükləmək onları yorur.

Uşağın inkişafında, onun mənəvi və əqli cəhətdən zənginləşməsində yaş həddi ilə uşağın həvəsi bağlı olmalıdır. A.Zaparojest deyirdi ki, uşağın inkişafı uşaq fəaliyyətinin növlərindən asılıdır. Elə bunların sayəsində uşaq şəxsiyyətində yüksək keyfiyyətlər bazası yaranır. Yaradıcı fəaliyyətdə məsuliyyətlilik, özünə inam, təşəbbüskarlıq, ətrafdakılara inam və etibar tərbiyə olunur.

Qazanılan bütün bacarıq və vərdişlər uşaq şəxsiyyətinin sonrakı inkişaf üçün vasitə rolunu oynayır. Ünsiyyət böyüklərlə birgə fəaliyyət və əməkdaşlıq prosesində həyata keçirilir.

Pedaqoji nəzəriyyə tərbiyə işinin məzmununu ənənəvi olaraq fiziki, əqli, əxlaqi, əmək, estetik və ekoloji tərbiyə adı altında müəyyənləşdirir. Bununla yanaşı, mövzular tərbiyənin məzmununu cinsi, hüquqi, ekoloji, etno – mədəni və s. mövzular hesabına genişlənir. Tərbiyə işində avtoritar, liberal və demokratik üslublara təsadüf edilir. Ən mütərəqqi üslub demokratik üslubdur. Şəxsiyyətin inkişafı haqqında olan nəzəriyyələrdən biri də koqnitiv nəzəriyyədir. Bu nəzəriyyə birinci növbədə əqli tərbiyə, əqli inkişafa üstünlük verir.

J.Piaje əxlaq tərbiyəsində uşaqlara mənəvi muxtariyyət verilməsini irəli sürür, çünki uşaqlar məsələyə böyüklərin nöqteyi – nəzərindən yanaşmırlar.

Psixoanalitik nəzəriyyənin tərəfdarları Z.Freyd, E.From, E.Erikson, E.Bern, A,Adler inkişafa motivlərin tələbatı kimi baxırlar. Onlar psixososial inkişafa cinslərin davranış, bacarıq və vərdişlərin formalaşması kimi baxır, uşaqların yaxın adama münasibəti nəzərdə tutulur kimi baxırlar.

Bağlılıq nəzəriyyəsinin tərəfdarları olan Amerika və Avropa pedaqoq və psixoloqları sübut etməyə çalışırlar ki, uşağın anaya bağlılığında ananın hər cəhətdən uşağa təsiri böyükdür. Sosial mühitin adapdasiyasında, yaşıdlarına münasibətindəki müvəffəqiyyət də anaya bağlılıqla əlaqədardır.

Biheyvorizm nəzəriyyəçiləri A.Badura, R.Suri, B.Skinner, Con Duy, E.Torundayk şəxsiyyətin inkişafında bioloji meyllərə geniş yer verir. Onlar belə hesab edirlər ki, şəxsiyyətin bütün inkişafı, qavrayışı, şüurlu irsiyyətlə, insanın inkişafı onun davranışı ilə bağlıdır. Insan bütün ömrü boyu davranış qaydalarını öyrənir. O insan iradəsizdir ki, şəxsi fəallığını nəzərə almır.

Humanist nəzəriyyə tərəfdarları K.Rocers, S.Büller, S,Fren qeyd edirlər ki, şəxsiyyətin özünün inkişafı, fəallığı müasir dövrdə uşaq hüquqları ilə bağlıdır.

BMT Baş Assambleyasının 20 noyabr 1989 – cu ildə qəbul etdiyi uşaq hüquqları haqqındakı konvensiyada, Birləşmiş Millətlər Təşkilatının insan hüquqları haqqında bəyannaməsində və insan hüquqları haqqında beynəlxalq sənədlərdə irq, dərinin rəngi, cins, dil, din, siyaasi əqidələr yaxud digər əqidələr, milli və sosial mənşə, əmlak vəziyyəti, yaxud başqa əlamətlərə fərq qoyulmadan uşaqların xüsusi qayğıya ehtiyac olduğu bəyan edilir. Uşaq hüquqları Bəyannaməsində uşaqların hüquqlarının müdafiə olunmasının nəzərə alındığı göstərilir. Uşağın cəmiyyətdə müstəqil həyata hazırlanmaları BMT – nin Nizamnaməsində bəyan olunmuş ideyalar ruhunda – sülh, ləyaqət, dözümlülük, azadlıq, bərabərlik və həmrəylik ruhunda tərbiyə edilməsi zəruri sayılır. Uşaq hüquqlarına dair ilk sənədlər 1924 – cü il tarixli Cenevre Bəyannaməsi və 1959 – cu il Baş Məclis tərəfindən qəbul edilmiş uşaq hüquqları haqqında nizamnamə olmuşdur.

Fəaliyyət prosesində yaxınlaşma- bu nəzəriyyəyə görə fəaliyyət prosesində yaxınlaşma uşaq şəxsiyyətinin formalaşmasına təsir göstərir. L.S.Viqotski və D.B.Elkonin öz tədqiqatları ilə bu nəzəriyyəni inkişaf etdirmişlər.

Müasir pedaqoji nəzəriyyələr inteqrasiya prinsipi ilə reallaşır. Bu prinsipin reallığı ondadır ki, məktəbəqədər tərbiyənin hər hansı bir sahəsi ayrılıqda götürülüb öyrənilir. O cümlədən, Azərbaycanın uşaq bağçalarında da bu prinsip geniş yayılmışdır. Azərbaycan xalqının milli mentalitetinə, adət - ənənəsinə, yerli şəraitinə uyğun olaraq belə tədqiqat işləri aparılmış və aparılmaqdadır. Bu sahədə Ə.Əlizadənin, Y.Ş. Kərimovun, B.Paşayevanın, N.Rüstəmovanın, Z.Vəliyevanın və başqalarının xidmətlərini göstərmək olar. Hazırda məktəbəbəqədər tərbiyənin bir problemi eyni məqsəd üçün müxtəlif yollarla öyrənilir.

İqtisadi təhsil və tərbiyə nəzəriyyəsi – bu nəzəriyyəyə görə müasir dövrdə uşaqlara iqtisadiyyat, qənaətçilik haqqında bilik vermək lazımdır. Bunun üçün uşaq oyunlarından geniş istifadə edilməlidir. Iqtisadi tərbiyəyə əmək və əxlaq nöqteyi- nəzərindən baxmaq lazımdır.

Mənəvi – hüquqi tərbiyə nəzəriyyəsini irəli sürən T.N. Doronova, N.Z. Gan, Z.K. Şnekendoorf və başqa pedaqoqlar uşağa bir şəxsiyyət kimi hörmətlə yanaşmağı tələb edirdilər. Mənəvi – hüquqi tərbiyə uşaq şəxsiyyətinə hörmət etmək və onun mənəviyyatını qorumaqdır.

Görkəmli pedaqoq A.S.Makarenko deyirdi: "Uşaq şəxsiyyətinə hörmət et və mümkün qədər çox tələbkar ol".

Pedaqoji yenilik təhsil məkanına sistemin ayrı – ayrı hissələrinin, onun komponentlərinin və bütövlükdə onun özünün xarakteristikasını yaxşılaşdıran sabit elementləri (yenilikləri) daxil edən məqsədyönlü dəyişikliklərdən ibarətdir.

Yeniliklərin müəyyən təsnifatı mövcuddur:

1. Fəaliyyət növlərinə görə:
- pedaqoji prosesi təmin edən pedaqoji yeniliklər;
- idarəetmə yenilikləri.

2. Daxil edilən dəyişikliklərin xarakterinə görə:
- prinsipcə yeni ideya və yanaşmalara əsaslanan radikal yeniliklər;
- məlum olan elementlərin yeni birləşmələrinə əsaslanan kombinəedilmiş (birləşdirici) yeniliklər;
- mövcud olan obraz və formaları təkmilləşdirən və tamamlayan dəyişdirici yeniliklə.

3. Daxil edilən dəyişikliklərin miqyasına görə:
- ayrı – ayrı istiqamət və komponentlərin, bir – birindən asılı olmayan dəyişikliklərini daxil edən lokal (məhdudlaşdırıcı) yeniliklər;
- sir neçə məhdudlaşdırıcı pedaqoji yeniliklərin bir – biri ilə qarşılıqlı əlaqədə olan istiqamətlərini qabaqcadan nəzərə alan model yenilikləri;
- sistemin tamamilə yenidən qurulmasını qabaqcadan nəzərdə tutan model yenilikləri.

4. İstifadə miqyasına görə:
- ayrılıqda istifadə olunan yeniliklər:
- diffuz (qarışmış) yenilklər.

5. Yaranma mənbəyinə görə:
- təhsil sisteminin hüdudları kənarında yaranan xarici yeniliklər;
- sistemin daxilində yaradılan daxili yeniliklər.

6. Yeniləmə obyektinə görə:
- məktəbəqədər təhsilin tərkibində olan yeniliklər;
- təhsil texnologiyasının yenilikləri;
- tədris prosesinin baş verdiyi şəraitlərdə (əşyavi – inkişafetdirici sahə və böyüklə uşağın qarşılıqlı əlaqəsinin xarakteri) olan yeniliklər.

**Məqalənin elmi yeniliyi**. Beləliklə, yeniləmə prosesi yeniliklərin yaradılması, mənimsənilməsi, istifadəsi və yayılması üzrə kompleks fəaliyyətdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi**; Təhsil müəssisələrində və uşaq bagçalarında istifadə olunarsa, nəticəsi yaxşı olar.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında məktəbəqədər təhsil proqramı (kurrikulumu). Bakı, 2013.
2. R. Mursaqulova, N.Rüstəmova. Məktəbəqədər pedaqogika. Bakı, 2010.
3. A.Mehrabov. Azərbaycan təhsilinin müasir problemləri". Bakı: Mürətcim, 2007.
4. V.A.Suxomlinski. Ürəyimi uşaqlara verirəm. Bakı, 1979.

**Д.М. Мамедова**

## НАУЧНЫЕ ТЕОРИИ И СОВРЕМЕННЫЕ ПОДХОДЫ К ОБУЧЕНИЮ И ВОСПИТАНИЮ ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА

**РЕЗЮМЕ**

Это статья посвящена теории педагогики, анализу высказываний известных педагог о воспитании детей дошкольного возраста. В статье приводятся новые педагогические классификации, говорится о роли конвенции.

**D.M. Mammadova**

**THE CURRENT SCIENTIFIK THEORIES ABOUT BRINGING UP CHILDREN IN PRE – SCHOOL AGE AND MODERN APPROACHES**

**SUMMARY**

This article focuses on the pedagogical theory, analysis of statements known about teacher education in preschool children. The article presents new educational classification, discusses the role of convention

*Redaksiyaya daxil olub: 29.10.2013*

# MƏKTƏBƏQƏDƏR TƏHSİL İNKİŞAFETDİRİCİ TƏLİM PARADİQMASINDA

**Şərafət Baxışova,**
*pedaqogika üzrə fəlsəfə doktoru. Dosent*
*ADPU*
Е-маил: ыщарафат бахшшщова 1960@маил.ру

**Ряйчиляр:** *dos.* **М. Ибадова,**
*dos.* **Х. Талыбова**

***Açar sözlər:*** *inkişafetdirici təlim, məktəbəqədər dövr, idrak fəaliyyəti, şəxsiyyət*
***Ключевые слова:*** *развивающее обучение, дошкольный этап, познавательная деятельность, личность*
***Key words:*** *developing training, preschool stage, informative activity, the person*

Məktəbəqədər təhsil təhsilin ilk pilləsi olmaqla, uşaqların intellektual, fiziki və psixi inkişafını, sadə əmək vərdişlərinə yiyələnmələrini, istedad və qabiliyyətlərinin üzə çıxarılmasını, sağlamlığının qorunmasını, estetik tərbiyəsini təmin edir. Ağılın, intellektin inkişaf etdirilməsi ön plana keçir. Dünyanın təhsil məkanında sadəcə bilik, bacarıqlar deyil, dəyərlər, səriştələr şəxsiyyətin inkişafında mühüm atributlar kimi qiymətləndirilir və bugünkü təhsilin keyfiyyət göstəriciləri kimi qəbul edilir.

Müasir təhsil modelində məktəbəqədər təhsilə uşaqların məktəb təliminə müvəffəqiyyətlə hazırlığı üçün bərabər imkanların təminatının əsası kimi baxılır. Azərbaycan təhsil sisteminin modernləşdirilməsinin əsas strateji istiqamətlərindən biri olan təhsilin keyfiyyətinin yüksəldilməsi, yeni yanaşmaların, fəal təlim metodlarının tətbiqi və onlardan səmərəli istifadənin təşkili təhsil sistemində ən vacib bir problem kimi qiymətləndirilir. Azərbaycan Respublikasının Təhsil sahəsində islahat Proqramında deyildiyi kimi "cəmiyyət öz gələcəyini təmin etmək məqsədilə yeni nəslin yüksək səviyyədə hazırlığına nail olmalı və buna görə də təhsil üstün inkişaf etdirilən sahəyə çevrilməlidir" (1, s.8). Təhsilin modernləşdirilməsinin məqsədi təhsil sisteminin davamlı inkişaf mexanizminin yaradılmasından ibarət olduğundan, qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün təhsilin yuxarı pillələri kimi məktəbəqədər təhsilin müasir tələblərə cavab verən keyfiyyətlərə çatdırılması vacibdir. Bu problem müasir təhsil sisteminin qarşısında duran mühüm vəzifələrdəndir.

Sosial-iqtisadi dəyişikliklər, təhsil sahəsində islahatlar dövründə idrak prosesinin mükəmməl təşkili ilə növbədə inkişafetdirici təlimin həyata keçirilməsi, bu prosesin təhsilin bütün pillələrini əhatə etməsi tələb olunur. Getdikcə artan informasiya axını uşaqlara xas olan idrak fəaliyyətini nəzərə alaraq fikri qabiliyyətlərin inkişafına xüsusi diqqət yetirilməsini ön plana çəkir.

Təlimin uşaqları inkişaf etdirməsi məlum məsələdir, lakin təcrübə göstərir ki, o, xüsusi istiqamətlə uşaqların bütün fəaliyyət sahələrinə-sensor qavrayışına, hərəki, intellektual, iradi, emosional, motivasiya dairəsinə daxil edilməklə özünün inkişafetdirici funksiyasını daha səmərəli həyata keçirir. Bununla əlaqədar olaraq didaktikada "inkişafetdirici təlim" adlanan xüsusi termin işlədilir (Y.K.Babanski adlanan xüsusi termini işlədilir). Bu terminin mənası odur ki, uşaqlarda bilik və bacarıqları formalaşdırmaqla yanaşı, ümumi inkişafını təmin etmək üçün xüsusi metodik işlər aparılmalıdır. Təlim bütün dövrlərdə inkişafetdirici olmadığı üçün onun məzmunu və metodları bir qədər məhdud olmuşdur. Təlim prosesi elə təşkil olunmalıdır ki, inkişafı təmin edə bilsin. Məlumdur ki, istək, maraq, şəxsi səy və müstəqil axtarıcılıq qabiliyyəti olmadan insanın inkişafı mümkün deyil. İnkişaf müxtəlif fəaliyyət növlərində fəal surətdə iştirak etməklə, bacarıq və qabiliyyətlərə yiyələnmək prosesində baş verir. Təlim hər şeydən əvvəl uşaqları elmlərin əsasları ilə dərindən silahlandırmağa, onların əqli və praktik fəaliyyətləri üçün bilik, bacarıq və vərdişlərə yiyələnmələrinə xidmət edir.

Hazırda yeni qurulan təhsildə idraki inkişafın parametrlərini nəzərə almaq, ona imkan və şərait yaratmaq əsas amil hesab edilir. Məktəbəqədər yaşlı uşaqlarda idrakın inkişaf səviyyəsi

öyrənmə marağına, biliyə yiyələnmək, biliyi dərk etmək qabiliyyəti və s. sahələrdə özünü göstərir ki, bu da uşağın həyat tərzindən onu əhatə edən mühitdən çox asılıdır.

Akad. M.M. Mehdizadə göstərmişdir ki, "Şagirdlərin hər birinin dərsdə gərgin işləməsini təmin etmək, hər şeydən əvvəl, onların idrak fəaliyyətini fəallaşdırmaq dərsin təkmilləşdirilməsində əsas tələblərdən biri hesab edilir. Bu da təsadüfi deyildir, çünki şagirdlərin idrak fəaliyyətini təlim prosesində fəallaşdırmaq elə mühüm tələbdir ki, ona istinad edərək onların hazırlıq səviyyəsini əsaslı surətdə yüksəltmək mümkündür." (3)

Təlimin inkişafetdirici məqsədi psixoloji aspekti reallaşdırır və uşaqların fəaliyyət prosesində qazandıqları təcrübə mənimsəmə yolu ilə həyata keçirilir ki, bu da tərbiyəçinin istiqamətverici rolu ilə, uşaqların birgə fəaliyyəti procecində özünü büruzə verir.

Beləliklə, inkişafetdirici təlim texnologiyasının modeli elə təqdim edilməlidir ki, tərbiyəçi təlim prosesinin təşkilində bütün səylərini özünüinkişafa və şəxsiyyətin inkişafına yönəltsin.

Məktəbəqədər təhsilin məzmunu sistemli xarakter daşımalıdır. Bu, uşağın dərk etdiyi obyekt və hadisələr arasındakı qarşılıqlı əlaqəni təmin edir. Bununla uşağın idrakının məlumat dairəsi genişlənir və nəticə kimi artıq böyük məktəbəqədəryaşlı uşaq qazanılmış bilik sistemində yeni əlaqələr qurmaq bacarığını mənimsəyir. Bu bacarıq idrak vasitəsi kimi çıxış edir, konkretlik çərçivəsindən çıxmağa imkan verir. Özünüreallaşdırma, özünütəqdimetmə müasir insanın ən mühüm keyfiyyətlərindən biridir. Təlim-tərbiyə prosesində bu işin dəstəklənməsi, onun tərbiyəçi və uşaq fəaliyyətinin mərkəzinə gətirilməsi xüsusi olaraq əhəmiyyətlidir. Bunun mühüm bir yolu təfəkkür müstəqilliyini təmin edən tapşırıqların verilməsidir. Məşğələlər vasitəsilə uşaqların inkişafını təmin etmək, izləmək mümkün olur. Uşaqlar idrakın müxtəlif mərhələlərində anlama, tətbiqetmə, təhliletmə və s. kimi bacarıqlar nümayiş etdirirlər. Hazırda məşğələnin məzmununda uşaqlarda humanist mövqenin inkişafı, uşaqlar üçün seçim situasiyası, yaradıcı axtarış, problemin həlli, məşğələdə ünsiyyət və əməkdaşlıq bacarığı, özünütənzimləmənin, özünüdərkin, refleksiyanın yaranmasının öz əksini tapması, uşaqların idrak fəallığını inkişaf etdirməyə imkan verən metodların seçilməsi mühüm şərtdir. İdrak fəallığının yüksəldilməsi metodlarına müqayisə, müsahibə, təkrar metodu, məntiqi tapşırıqların həll edilməsi, tədqiqatçılıq və s. daxildir. Bu metodlardan istifadə etməklə uşaqların məşğələlərdə fəallıq göstərmələrinə, diqqətlə və həvəslə işləmələrinə imkan yaranır.

Təlim prosesində müəyyən fəaliyyətlərin əlaqələnməsi nəzərdə tutulmuş biliklərin daha möhkəm mənimsənilməsi baxımından əhəmiyyət daşıyır. Əslində, fəaliyyət özlüyündə idrakla bağlı anlayışdır. İdrak olmadan fəaliyyət yoxdur. «İdrak insan şəxsiyyətinin bütün cəhətlərinə nüfuz edir. Bu da ondan irəli gəlir ki, idrak, hər şeydən əvvəl, fəaliyyətdir». Bu proses o zaman səmərəli olar ki, uşağın inkişaf göstəriciləri və tərbiyəçinin hazırlıq səviyyəsi inkişafetdirici təlimi reallaşdırmağa imkan versin. Tərbiyəçinin hazırlıq göstəriciləri müəyyən edilərkən onun pedaqoji qabiliyyəti, mədəniyyəti və peşəkarlığı- uşaq psixologiyasını bilməsi, onlara məhəbbəti, qayğısı, hörmətlə yanaşması, təlimə maraq yaratması, təşkilatçılıq bacarığı, yaradıcılığı, mədəni davranış normalarına malik olması nəzərdə tutulmalıdır.

Təlim prosesinin keyfiyyətini yüksəltmək üçün tərbiyəçinin yeni mövzunu məharətlə şərh etməsi ilə yanaşı, onun konseptual əsasına uyğun daha əlverişli iş forması seçməsi, fərdi işin planlaşdırılması, məşğələnin uşaq şəxsiyyətinin ınkişafında rolu, uşaq şəxsiyyətinin inkişafının diaqnostikası, idraki və şəxsiyyətyönümlü vəzifələrin həlli, uşaqlarda humanist mövqenin inkişafı, onlar üçün seçim situasiyası, yaradıcı axtarış, məşğələdə marağın yaradılması və motivasiya, məşğələnin ayrı-ayrı mərhələlərində fəaliyyət növlərinin dəyişdirilməsi, idraki və şəxsiyyətyönümlü vəzifələrin həlli, uşaqların məşğələdə fəal iştirakı, irəliləyişi, zehni və əməli cəhətdən fəallıq göstərmələri, məşğələnin təşkili, məşğələnin mühüm şərtdir.

Məktəbəqədər yaşlı uşağın inkişafı və məktəbə hazırlıq səviyyəsinin göstəriciləri aşağıdakı kimi müəyyənləşdirilməlidir:

1.fiziki hazırlığı (uşağın düşüncə dairəsinin inkişafının fizioloji səviyyəsi);

2.psixoloji hazırlığı (uşağın şəxsiyyətinin emosional, iradi inkişaf səviyyəsi);

3.sosial hazırlığı (uşağın düşüncə dairəsinin inkişafının sosial səviyyəsi).

Uşağın və tərbiyəçinin hazırlıq səviyyələrini belə müəyyənləşdirmək mümkündür:

1.uşağı və tərbiyəçini fəaliyyətyönümlü təlim metodu çərçivəsində müşahidə etmək.

2.fəaliyyət, şüur və şəxsiyyət vahidliyi prinsipinə əsaslanmaq.

3.inkişafın əsası kimi qabiliyyətlərdən istifadə etmək.

4. həm uşağın, həm də tərbiyəçinin inkişafına şəxsiyyətlərarası münasibətlər fonunda yeniləşmiş sistemli təhlilin nəticəsi kimi baxmaq.

Yuxarıda qeyd etdiklərimiz inkişafetdirici təlim prosesində uşağın və tərbiyəçinin ayrı-ayrılıqda inkişafını deyil, onların təlim prosesinin vahid subyekti kimi inkişaf etmələrini göstərir. Vahid subyektin inkişafının göstəriciləri isə fikir və düşüncələr sistemidir. Buradan belə qənaətə gəlmək olar ki, uşaq və tərbiyəçinin vahid subyekt kimi inkişafı fəaliyyət, şüur və şəxsiyyətin vahidliyi psixoloji prinsipləri (A.N.Leontyev) və "sağlam düşüncə pedaqogikası" nın (A.A.Leontyev) pedaqoji prinsiplər sisteminin təcrübəyə tətbiqi ilə inkişafı təmin etmək olar:

1. sosial-mədəni prinsiplər;

a) "uşaq dünyası" prinsipi;

b) təhsilin məzmununun tamlığı prinsipi;

c) ardıcıllıq prinsipi;

ç) dünyaya düşüncəli münasibət prinsipi.

2. fəaliyyətyönümlü prinsiplər:

a) həyat şəraitində uşaqların fəaliyyətinin idarə olunması prinsipi;

b) uşağın aktual inkişafının səviyyəsinin nəzərə alınması prinsipi;

c) fəaliyyət prosesində uşaqların qabiliyyətlərinin inkişafı prinsipi;

ç) uşaqların birgə fəaliyyətdən müstəqil fəaliyyətə keçməsi prinsipi (yaxın inkişaf zonası)

3. şəxsiyyətyönümlü prinsiplər:

a) psixoloji komfort prinsipi;

b) uşağın şəxsiyyətində yeniliklərin nəzərə alınması prinsipi;

c) uşağın olduğu kimi qəbul edilməsi prinsipi;

ç) şəxsiyyətyönümlü inkişaf prinsipi.

Beləliklə, fəaliyyətin, şüurun və şəxsiyyətin vahidliyi prinsipi pedaqoji prinsiplər (sosial-mədəni, şəxsiyyətyönümlü, fəaliyyətyönümlü) məktəbəqədər təhsil müəssisələrində inkişafetdirici təlimin, şəxsiyyətyönümlü yanaşmanın konseptual məzmununu təşkil edir. Təlim prosesində təfəkkürün intensiv inkişafı üçün tədrisi yüksək onların "gücləri çatan ən yüksək"çətinlik səviyyəsində təşkil etmək"(L.V.Zankov) və uşaqların öz təlim fəaliyyətlərini dərk etmələrinə nail olmaq lazımdır.

Bütün bunlar bütövlükdə təhsilin humanist prinsipi əsasında qurulmasına təminat verir. Təhsildə humanizmin dərəcəsi şəxsiyyətin, cəmiyyətin mədənilik səviyyəsini müəyyənləşdirir. Bu baxımdan təhsilin məzmunu, onun fasiləsizliyi humanizm prinsipləri üzərində qurulmalıdır.

## ƏDƏBİYYAT

1.Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı. Azərbaycanın təhsil siyasəti (1998-2004), I kitab. Bakı: Çaşıoğlu, 2005.

2.Bayramov Ə., Əlizadə Ə. Psixologiya. Ali məktəblər üçün dərslik. Bakı, Maarif, 1989.

3. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları. Bakı: Maarif,1982.

4. Л.В. Занков. Новая система начальная обучения. 1 класс. М.: Просвешение, 1965.

**Ш.А. Бахышева**

## ДОШКОЛЬНОЕ ОБРАЗОВАНИЕ В ПАРАДИГМЕ РАЗВИВАЮЩЕГО ОБУЧЕНИЯ

### РЕЗЮМЕ

Социально-экономические перемены общественной жизни нашей страны внесли соответствующие изменения в систему дошкольного образования, ставшей многофункциональной по своему предназначению. Одним из важных направлений в развитии познавательной деятельности дошкольников выступает создание условий, обеспечивающих полноценное умственное развитие детей, связанное с формированием устойчивых познавательных интересов, умений и навыков мыслительной деятельности, качеств ума, творческой инициативы.

**Sh. A. Bakhishova**

## PRESCHOOL EDUCATION IN THE PARADIQM OF DEVELOPING TRAINING

### SUMMARY

Social and economic changes of public life of our country have brought respective alterations in system of the preschool education, become multipurpose on the mission. As one of important directions in development of informative activity of preschool children creation of the conditions providing high-grade intellectual development of children, connected with formation of steady informative interests, skills of cogitative activity, qualities of mind, the creative initiative acts.

*Redaksiyaya daxil olub: 11.07.2013*

# PEDAQOJİ KADRLARIN HAZIRLANMASI VƏ İXTİSASININ ARTIRILMASI

## AZƏRBAYCAN UNİVERSİTETLƏRİNİN ÜMUMAVROPA TƏHSİL VƏ ELM MƏKANINA İNTEQRASİYA PROSESLƏRİ: MODERNLƏŞMƏNİN TƏLƏBLƏRİ KONTEKSTİNDƏ

**Hümeyir Əhmədov,**
*pedaqogika üzrə elmlər doktoru,*
E-mail: eduaz@mail.ru
**Zahid Məmmədov,**
*iqtisadiyyat üzrə elmlər doktoru,*
*professor*
E-mail: prof.zahig.mamed@mail.ru

***Açar sözlər:*** *modern, iqtisadiyyat, öyrənmək, qiymətləndirmə sistemi,elmi araşdırmalar, dil problemi*
***Ключевые слова:*** *модерн, экономика, познание, система оценивания, научные исследования, языковая проблема*
***Keywords:*** *modern, economy, knowledge, assessment system, scientific research, a language problem*

**1. Biliklərə əsaslanan iqtisadiyyat**

Elmin inkişafi Azərbaycanda dövlət siyasətinin prioritet sahələrindən biridir və biliklərə əsaslanan iqtisadiyyatı inkişaf etdirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 4 may tarixli 255 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya" proqramında – fundamental elmlər üzrə tədqiqatları genişləndirmək və fundamental elmlər üzrə araşdırmaların müasir tələblər səviyyəsinə çatdırılması vəzifələri təsbit edilmişdir.

Azərbaycan Respublikası Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin dövrü mətbuatda "İctimai və humanitar elmlər: zaman kontekstində baxış" məqaləsində (3) elmi ictimaiyyət qarşısında mühüm vəzifələr qoyulmuşdur. Məqalədə sosial-siyasi elmlər sahəsində, fəlsəfə, dövlət idarəçiliyi nəzəriyyəsi, menecment və digər sahələr üzrə biliyə əsaslanan keyfiyyətli mütəxəssislərin hazırlığı məsələsi universitetlər qarşısında mühüm vəzifə kimi qoyulmuş, özəlliklə, dünya maliyyə bazarlarının və xarici investisiya axınlarının istiqamətlərini təhlil edən elmi mərkəzlərin yaradılması günün əsas tələblərindən biri kimi vurğulanmışdır.

"... kadr qıtlığı və müvafiq mexanizmlərin işlənilməməsi bu prosesi hələlik düzgün qurmağa imkan vermir. Əsas məqsədimiz ondan ibarətdir ki, yaxın illərdə təhsildə, elmdə, ümumən intellektual sahələrdə ciddi dönüş yaradılmalı və biliklərə əsaslanan iqtisadiyyatın qurulması prosesi intensivləşməlidir".(3)

Biliklərə əsaslanan iqtisadiyyatı inkişaf etdirmək məqsədilə görüləcək əsas işlər aşağıdakılar olmalıdır: iqtisadi və institusional sistemin adekvatlığını təmin etmək; insan kapitalının formalaşmasını təmin edən güclü sosial bazanın təminatı; dinamik informasiya infrastrukturu və informasiyanın geniş kütləyə çatdırılmasını təmin edən səmərəli milli sistemin təsisatı.

**2. Modern ali məktəblərin məqsədi–öyrətmək deyil, öyrənməkdir**

Müasir dünyada hər bir ölkənin uğurlu gələcəyi həmin ölkədə elm və təhsilin səviyyəsi ilə müəyyən olunur. Təcrübə göstərir ki, təbii sərvətlərin bolluğu dövlətin inkişafının əsas göstəricisi deyil, başlıcası, bu sərvətlərin cəmiyyətin hərəkətverici qüvvəsi olan insan kapitalına çevrilməsini təmin etməkdir. Bu, indiki mərhələdə təhsil sisteminin ən zəruri vəzifəsidir. ABŞ, Yaponiya, Cənubi Koreya və digər inkişaf etmiş ölkələr malik olduqları maddi resurslardan daha çox təhsil sisteminin yetişdirdiyi insan kapitalından böyük gəlirlər əldə etmişlər.

"Bu gün dünyada universitetlər ictimaiyyətin və iqtisadiyyatın ehtiyaclarına yetərincə cavab verirmi?" ifadəsi ən çox müzakirə edilən mövzular sırasında yer alır.

Universitetlər elmi bilikləri öyrənmək arzusunda olanlara çatdıran və elmi araşdırmaları fasiləsiz davam etdirən elmi mərkəzlərdir. XIX əsrdən etibarən, universitetlər daha çox araşdırmaya yönəlişli mərkəz vəziyyətinə keçdi. Modern universitet həm tədris, həm də tədqiqat prossesini həyata keçirən araşdırma müəssisəsidir. Universitetlərdə bilik istehsal olunur və bu biliklər ictimaiyyətin hüquqi, sosial-iqtisadi inkişafına ciddi təsir göstərir.

Modern ali məktəblərin məqsədi – öyrətmək deyil, öyrənmək olmalıdır. Öyrənmək zərurəti bilməyən ali məktəb, öyrədən müəssisə də ola bilməz, yəni özü öyrənməyənin, başqasını öyrədə bilməsi də mümkünsüzdür. Özəlliklə, ictimai elmlər sosial sifarişə çevik reaksiya verməlidir. Modern universitetlər üç məqsəd naminə xidmət etməkdədir: araşdırma yolu ilə bilik istehsal etmək; tədris yolu ilə gələcək nəsillərə bilik vermək və əmək bazarının ehtiyacına uyğun mütəxəssislər hazırlamaq.

Modern universitetlərdə professor-müəllim heyəti 3 parametrə cavab verməlidir: yaradıcı, yenilikçi və təşəbbüskar. Bu mənada akademik R. Mehdiyevin məqaləsində qaldırılan məsələyə - "Ona görə də daim axtarışda olan insanlara geniş meydan verilməli, yeni fikirlər və ideyalar, novator yanaşmalar dəstəklənməlidir" (3) universitet rəhbərləri diqqətlə yanaşmalıdırlar.

**3. Universitetlərdə "müəllimləri qiymətləndirmə sistemi"**

Qərb Universitetlərində tələbələr tərəfindən "müəllimləri qiymətləndirmə sistemi" tətbiq edilir. ABŞ universitetlərində bu sistem 1920-ci ildən etibarən tətbiq edilir. Bu sistemin 3 əsas funksiyası mövcuddur:

1. İnformasiya funksiyası – tədris kurslarının keyfiyyətini xarakterizə edir, tədris prosesi, tədris kursları və tələbələrin ixtisaslaşması mövzusunda dolğun məlumat hazırlanır, bu isə öz növbəsində rektorluğa optimal qərarların hazırlanmasında yardımçı olur;

2. Motivasiya funksiyası – tələbələr tərəfindən müəllimlərin qiymətləndirilməsi haqqında açıq informasiya məlumatı müəllimləri öz üzərində daha da məsuliyyətlə işləməyə məcbur edir və dərsə hazırlıqlı gəlmələrinə yardımçı olur;

3. Stimullaşdırıcı funksiya isə ali məktəbin rəhbərliyi ilə müəllimlər arasında bağlanacaq müqaviləyə təsir göstərir.

Bəzi ölkələrdə müəllimlərin tələbələr tərəfindən qiymətləndirilməsi müsbət qarşılanmır. RF-da "Ali iqtisad məktəbi" universitetinin rəhbərliyi müəllimlərin tələbələr tərəfindən qiymətləndirilməsini qəbul etmir və bu sistemin neqativliyə yol açacağını, yəni tələbələrə qarşı loyal davranan, onların qiymətlərini şişirdəcək müəllimlərə yüksək bal yazılacağından əndişə edir. Belə əndişələri Azərbaycan universitetləri üçün söyləmək mümkündür. Bu model müəllimlər haqqında qeyri-obyektiv məlumat verə bilər. Azərbaycan universitetləri müəllimlərin tələbələr tərəfindən qiymətləndirilməsi tətbiqinə hazırdırmı sualının cavabı mənfidir, çünki Azərbaycanda əksər tələbə və onların valideynləri diplom əldə etmək xatirinə universitetdə təhsil alırlar. Məqsəd biliklərə yiyələnməkdən çox, diploma sahib olmaqdır. Qərb Universitetlərində tələbələr tərəfindən "müəllimlərin qiymətləndirmə sitemi"ni Azərbaycanda ali məktəb müəllimlərinin peşəkarlıq səviyyəsini müəyyənləşdirən mexanizm kimi qəbul etmək mümkün deyil.

4. **Avropa universitetlərinin üstünlüklərini xarakterizə edən əsas göstəcilər**

Adətən, Avropa universitetləri öz üstünlüklərini internet saytda aşağıdakı göstəcilərdən istifadə edərək göstərir:

1. dünya üzrə reytinq göstəricilərinə görə universitet neçənci sıradadır?
2. məzunların iş tapma imkanları, istər inzibati, istərsə də biznes fəaliyyətində;
3. ictimaiyyət tərəfindən qəbul edilən müəllimləri fikri və onların ictimaiyyətə təsir etmə gücü;
4. universitetdə xarici ölkələrdən təhsil alan tələbələrin sayı;
5. professor-müəllim heyətinin neçə faizi elmi-tədqiqat işi ilə məşğuldur?
6. məktəbin hökumətlə və iri biznes sturukturları ilə sıx əlaqəsi nədir?

7. professor-müəllim heyətinin hökumət və biznez sturukturlarının – məsləhət şuralarında fəaliyyət səviyyəsi.

**5. Azərbaycanda universitetlərin fəaliyyətinin auditi**

Azərbaycanda universitetlərin fəaliyyətini audit etmək məqsədəuyğun olardı. Bu məqsədlə aşağıdakı gösətiricilərdən istifadə etmək gərəkir:

1. professor-müəllim heyətinin professional mütəxəssis tərkibi;
2. universitet professor-müəllim heyətinin məqalə, monoqrafiya, elmi-metodik vəsaitlərinin sayı və keyfiyyəti;
3. professor-müəllim heyətinin əsərlərinə edilən istinadlar;
4. universitetin maliyyə təminatı;
5. universitetin maliyyə mənbələrinin strukturu;
6. universitetin beynəlxalq fəaliyyəti;
7. internet-auditoriya, o cümlədən universitet saytından istifadəçilərin sayı.

**6. İctimai elm üç əsas prinsipə söykənməlidir: nəzəriyyə, ideologiya və texnologiya**

İqtisadiyyat elmində robinzonçulara yer yoxdur. İqtisadi nəzəriyyə fərdlərin subyektiv mühakiməsinə bağlı olmamalıdır. Mühakimə isə üç əsas prinsipə söykənməlidir: nəzəriyyə, ideologiya və texnologiya.

Akademik Ramiz Mehdiyev məqaləsində qeyd edir: "Ölkə iqtisadiyyatının davamlı inkişafını təmin etmək üçün bizə nailiyyətlərimizin dərin təhlili, yeni təkliflər və yeni ideyalar lazımdır. Misal üçün, ölkədə aparılan iqtisadi islahatlar çərçivəsində müasir iqtisadi modelə ehtiyac duyulur. İqtisadçı alimlər isə özlərini bu kimi müasir problemlərdən ümumən təcrid ediblər".(3)

Hələ SSRİ dönəmində iqtisadiyyat elminin ağır vəziyyətinin nəticəsi olaraq ölkə iqtisadi cəhətdən iflasa uğramışdı. Almaniyanın keçmiş kansleri H. Şmit hələ 1990-ci illərdə yazırdı: "Sizin (SSRİ-də yaşayanların – müəllif) bədbəxtliyinizin əsası ölkənizdə ciddi iqtisadçıların olmamasındadır" (5). Corc Soros SSRİ- də iqtisadiyyat elminin vəziyyəti haqqında yazırdı: "Elementar iqtisadi bilikləri olmayan və bu səbəblə iqtisadi xəstəliyə düçar olan ölkə" (4, 139).

İctimai fənlərin tədrisində ciddi dəyişikliklərə gedilməsi məqsədəuyğundur. Tələbələrə uzun və monoton mühazirə kursları əvəzinə, onları professorların tədqiqat fəaliyyətinə cəlb etməklə gələcəkdə elmi tədqiqata marağa stimul yaratmaq mümkündür.

Bundan başqa, mücərrəd nəzəri biliklərlə tələbələri yormaq əvəzinə, onlara həyatda keçərli nəzəri-praktik biliklər öyrətmək gərəkdir. Lazımsız və istifadə edilməyəcək bilikləri tələbələrə izah etmək həm vaxt itkisi, həm də yorucu bir prosesdir. Ümumiyyətlə, ictimai elmlər elmi üçbucağa (nəzəriyyə, ideologiya və texnologiya) söykənir, əsaslandıqda cəmiyyətdə daha güclü və keçərli olur.

Cəmiyyətdə nəzəri biliklər o zaman qəbul edilir ki, onun ideologiya və texnologiyası mövcuddur. Nəzəriyyə – elmi-nəzəri ideyaya yönəlir, ideologiyada haraya doğru hərəkət etmək haqqında yol xəritəsi verilir, texnologiyada isə bunun necə həyata keçirilməsi sualına cavab verilir.

Akademik R. Mehdiyev məqaləsində nəzəri və praktik biliklərini ictimaiyyətdə axtara bilən və fikirləri ilə ictimai proseslərə təsir göstərə bilən ekspert alimlərin yetişməsinə ehtiyac olduğunu qeyd edir: "İctimai elmlər cəmiyyətdə baş verən proseslərin və dövlət-vətəndaş münasibətlərinin əlaqələndirilməsini təmin etməlidir. O, elmimizi obyektiv istiqamətlərə yönəltməklə millətin düşünən beyninə, insanlarımızın ictimai əxlaqının yüksəlməsinə, bütünlükdə inkişafın aparıcı amilinə çevrilməlidir. Bu vəzifələrin öhdəsindən gəlmək üçün ictimai elmlər sahəsində yeni ideyalar irəli sürməyə qadir şəxslərə, kreativ düşüncəli insanlara ehtiyac vardır".

**7.Universitetlərdə alimlərin təsnifatı**

Qərb Universitetlərində ictimai elmlərin nümayəndərini "düşüncə fabrikləri" (think thanks) və ya "düşüncə polisi" adlandırılırlar.

Modern Avropa universitetlərində alimlər 3 kateqoriyada qiymətləndirilir:

1. nəzəri biliklərə sahib olan alim və ya kabinet alimi;
2. nəzəri və praktik biliklərə əsaslanan alim;

3. nəzəri və praktik biliklərlə yanaşı əldə etdiyi bilikləri ictimaiyyətə çatdıra bilən və fikirləri ilə ictimai proseslərə təsir göstərə bilən ekspert alim.

Qərbdə ictimai elmlər sahəsində gedən dəyişikliklər və yeniliklər haqqında ictimaiyyəti maraqlandıran suallara cavab vermək məqsədilə "əhalinin iqtisadi maarifləndirilməsi" mövzusunda dövlət proqramları fəaliyyət göstərir. Bununla əlaqədar, Avropa ölkələrində vətəndaşlara gündəlik iqtisadi kateqoriyaları – faiz, inflyasiya, kredit, büdcə və bu kimi anlayışları izah etmək məqsədilə universitetlər nəzdində dövlət tərəfindən maliyyələşən xüsusi məktəblər fəaliyyət göstərir.

Yuxarıdakıları nəzərə alaraq, bizdə də alimlərin çalışma fəaliyyətini və bilik mühakiməsini 3 kateqoriyada qiymətləndirməyimiz gərəkdir. Ona yönəlmiş fərqli əmək haqqı siyasətinin tətbiqatı məqsədəuyğun olardı.

**8.Universitetlər dil öyrənmə mərkəzləri deyil, ixtisas öyrənmə mərkəzləridir**

Akademik R. Mehdiyev məqaləsində qeyd edir: "Daim dilin (Azərbaycan dili – müəllif) keşiyində dayanmalı olan insanlar, təəssüf ki, müasir dövr üçün zəruri sanballı tədqiqatları həyata keçirmirlər".

Bəzi təhsil işçiləri ölkəmizin gələcək inkişafı "təhsil sistemlərində və iş yerlərində xarici dilin istifadəsinə bağlıdır" deyə çıxış edirlər. Yəni, yetər ki, "biz ingilis dilini bilək və bir neçə il içində ölkəmiz inkişaf edən ölkələr sırasında yer alar".

M.Y. Lermontov yazırdı ki, Avropada fransız dili, Qafqazda Azərbaycan dili əhəmiyyətlidir. Bəs nə oldu dilimizə? Nə üçün vaxtilə Qafqazın diplomatik və iqtisadi dili sayılan Azərbaycan dilinə belə laqeyd münasibət nədən oldu? Sualına cavab ciddi araşdırma tələb edir.

Qoyulan suala cavablardan biri də – təhsil sistemində vahid tədris dilinə keçməməyimizdir. Yəni, dövlət, təhsil sistemində tədrisin Azərbaycan dilində aparılmasına nail olunmalıdır. Bəzi ali məktəb rəhbərləri qanunlara zidd, heç bir elmi və təhsil bazası olmadan, lakin "tarzancasına" ingiliscə danışanların auditoriyaya buraxılmasına göz yumurlar.

Ümumiyyətlə, Azərbaycan vətəndaşları hesabına maliyyələşən məktəblərdə Azərbaycan dilini sadəcə bilmək, yetərli deyil, elmi dili bilmək məcburiyyətini gətirmək gərəkdir. Bəzi Azərbaycan elm adamları dilimizi bilmədiklərindən 2-3 cümləni Azərbaycan dilində ifadə etməkdə çətinlik çəkirlər.

Universitetə qəbul olunanların məqsədi dil öyrənmək deyil, ixtisas öyrənməkdir. Bir qrup azərbaycanlıya bir azərbaycanlı professor tutaq ki, ixtisası ilə əlaqədar mövzunu xarici dildə anlatmağa çalışır. Əvvəla belə bir sual ortaya çıxır: azərbaycanlı professor xarici dili hansı səviyyədə bilir? Bundan başqa, o professorun vəzifəsi ixtisasını yaxşı anlatmaqdır, yoxsa, onu xarici dildə şərh etməsi kifayətdir, yetərlidir? Axı, professorun vəzifəsi, xarici dili filoloq səviyyəsində bilmək deyil, öz ixtisası üzrə biliyini məhsuldar şəkildə tələblərə çatdırmaqdır. Xarici dildə təhsil verməni müdafiə edənlər israr edirlər ki, elmdə bütün mənbələr xarici dildədir. Məgər, xarici mənbələr göydənmi düşdü? Axı kimsə, bunların üzərində işlədi, bunları öz dillərinə tərcümə etdilər.

Bir anlıq düşünək, İngiltərədə oxuyan bir tələbəyə ingilis professoru fransız dilində dərs anlatsaydı, nə qədər absurd olardı. Bəs, o zaman azərbaycanlı tələbəyə azərbaycanlı müəllim niyə ana dilində deyil, xarici dildə dərs verir? Yenə də absurddur. Unutmayaq ki, xəstələnib, həkimə gedərkən, onun xarici dil bilib-bilməməsi bizi maraqlandırmır. Bizi maraqlandıran məsələ onun tibb sahəsində aldığı biliyidir. Xarici dil bilib, ixtisasını bilməyən həkimin yanına kim gedər, o həkimin xəstəyə faydası nə olar? Dil hər hansı cəmiyyətin inkişafını göstərən bir güzgüdür. Cəmiyyətin bilik lokomotivi olan universitetlərimizdə əgər doğma dilimizdən istifadə etmiriksə, bilik iqtisadiyyatına sahib olan güclü bir dövlət qurmaq mümkünmü?

Milli dil siyasəti güdən ölkələrin təhsil sistemində xarici dildə təhsil yoxdur. Hətta, Avropanın mərkəzində yerləşən Macarıstan və Çexiyada nüfuzun azalmasına baxmayaraq təhsil sistemi öz ana dillərindədir və bu ölkələrin iqtisadi inkişaf səviyyəsi də yüksək dərəcədədirlər. Hollandiya, İsveç kimi yüksək iqtisadi gücə sahib olan ölkələrdə təhsil sistemi ana dilindədir.

Pakistan, Əlcəzair, Banqladeş, Hindistan, Livan, Nigeriya, Mali kimi ölkələrin təhsil sistemlərində tədris xarici dildə ikən, nəyə görə bu ölkələr iqtisadi cəhətdən güclü deyildir?

Doğrudur, xarici dil öyrənməliyik həm də mükəmməl, ancaq Azərbaycan dili hesabına deyil. Hətta, sovet dövründə Özbəkistan, Qırğızıstan, Türkmənistan, Tacikistanın ali məktəblərində tədris dilləri rus dilində ikən, Azərbaycanda milli məzunlar istər ixtisası, istərsə də dili onlardan yaxşı bilirdilər və iqtisadi inkişafımız onlardan daha irəlidə idi. Deməli, iqtisadi inkişaf dilə bağlı deyil. İqtisadi inkişaf ixtisasını mükəmməl bilən və təcrübədə tətbiq edən insan gücünə bağlıdır. Xarici dili bilmək vacib və gərəklidir, ancaq orda-burda «dəb» xatirinə deyil, Azərbaycan dövlətçiliyinin tarixi-ənənələrini və şərəfini xaricilərə yaxşı anlatmağa xidmət etməlidir.

Avropa Birliyi ölkələri iqtisadi-siyasi ittifaqlar qurduqları halda, indiyə qədər vahid bir dilə keçməsini gündəliyə gətirməmişlər. Deməli, inkişaf dilə deyil, insanın elmi səviyyəsinə bağlıdır.

**9. Universitet və müdafiə şuraları**

Dissertasiya işlərinin nəticələrinin tətbiqi bilik toplumunun inkişafında ən önəmli amildir, lakin bizdə hələ də inkişafın dünya təcrübəsi kontekstində Azərbaycan modeli ilə bağlı fundamental və emprik təhlillər aşağı səviyyədə aparılır və ya Azərbaycan modelinin əsas göstəricilərini, onun prioritet meyillərini araşdıran dissertasiyalar yox dərəcəsindədir.

Akademik R. Mehdiyevin məqaləsində hamını ciddi narahat edəcək və düşündürəcək: "indi elmə gələn bəzi insanların şəxsi keyfiyyətləri və analitik təhlil qabiliyyətlərinin müasir tələblərdən xeyli aşağı olmasıdır"(3). Mövcud elmi şuralar öz iclaslarında elmin müxtəlif sahələrinə həsr olunmuş xüsusi müzakirələr keçirmir. Beynəlxalq tərkibli elmi şuralar isə heç yoxdur. Müdafiə şuraları səviyyəsiz araşdırmalara, dissertasiyaların müxtəlif yollarla yazılmasına, müdafiəsinə və elmi adların verilməsinə ciddi və tələbkarlıqla yanaşmır, nöqsanlara göz yumur. Müdafiə olunan dissertasiyaların böyük bir qismində sanballı elmi tutum və yeni elmi qənaətlər yoxdur. Belə faktların sayı isə nəinki azalmır, əksinə, artır. Elm bir biznesə çevrilib və istənilən şəxs - dövlət məmuru, yaxud iş adamı müxtəlif yollarla elmi ad almağa nail olur. Təəssüf ki, bütün bu proseslərdə elm və təhsil müəssisələrinin bir sıra əməkdaşları hazır dissertasiyaları iddiaçılara təklif edirlər. Paradoksal haldır ki, elmin paklığını qorumaq əvəzinə elm xadimlərinin özləri təsadüfi adamların elmi adlar almalarına rəvac verir, belə işləri elmi şuralarda yekdilliklə dəstəkləyirlər. Söz yox ki, bu cızma-qaralar Azərbaycanın elmi potensialının artırılmasına heç bir xidmət göstərə bilməz. Yüzlərlə dissertasiya müdafiə edildiyi halda, dünyanın nüfuzlu elmi jurnallarında Azərbaycan alimlərinin məqaləsinə hərdənbir rast gəlmək mümkündür" cümləsi dissertasiya şuraları üzvləri qarşısında böyük məsuliyyət qoyur. Məlumdur ki, elmi fəaliyyəti laboratoriya və ya kafedrada həyata keçirmək olar. Dünyanın hər bir yerində elmi dərəcə və ya elmi ad almaq istəyən şəxs bütün işlərdən imtina edib, fəaliyyətini elmi müəssisələrdə keçirməsi vacibdir. Assisent olmadan professor ola bilməzsən. Bizdə isə, bəzi hallarda, hətta müəllimlik etmədən professor elmi adı daşımaq uğrunda mübarizəyə can atırlar.

Ölkənin davamlı iqtisadi yüksəlişinin təminatı ilk növbədə elmin müasir tələblərə uyğun inkişaf etdirilməsini tələb edir. Son vaxtlar bəzi şəxslər alimlik dərəcəsini aldıqdan sonra elmi fəaliyyətdən kənarlaşaraq, dövlət və biznes strukturlarında işləməyə üstünlük verirlər. Çox təəssüf ki, elmi dərəcə almış gənc mütəxəssislər yaradıcılığın ən məhsuldar dövrünü pedaqoji və elmi fəaliyyətə həsr etmək əvəzinə bilik və bacarığını elmə aid olmayan işlərə sərf edirlər. Pedaqoji və elmi fəaliyyəti həyata keçirməyən şəxslər, adətən, elmi ad və ya dərəcələrdən şəxsi ehtiyacları üçün marka kimi istifadə edirlər.

**10. Universitetlərdə elmi nəşrlər**

Ölkədə elmin vəziyyətinin ən önəmli göstəricilərindən biri də keyfiyyətli elmi nəşrlərin yayımıdır. Qloballaşma mühitində humanitar və ictimai elmlər sahəsində yeni vəzifələr müəyyənləşdirilir. Yeni elmi istiqamətlərin sayının artımına paralel elmi-periodik nəşrlərin sayında da yüksəliş müşahidə olunur, yüksəlişə cavab olaraq müəllif, resenzent və jurnal redaktorları qarşısında ciddi tələb, məsuliyyət qoyulur.

Bu məqsədlə 2009-cu il dekabrın 3-də tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası XXI əsrdə elmi-periodik nəşrlərdə məqalə yayımlanması prosesi, resenzent və redaksiya mövqeyini müzakirə etmək, xarici təcrübədə əldə edilən bilik və

məlumatları paylaşmaq, xüsusilə də, gənc alimlərin elmi fəaliyyətini stimullaşdırmaq və onların fundamental elmi-tədqiqatlarının daxildə və xaricdə nüfuzlu jurnallarda, nəşriyyatlarda çap edilməsi üçün nə etməli suallarına cavab olaraq «Elmi nəşrlərin ekspert qiymətləndirilmə modeli: müəllif, resenzent və jurnal redaksiyasının mövqeyi» mövzusunda dəyirmi masa keçirmiş və bu sahədə görülməsi vacib olan cox geniş təkliflər paketini hazırlamışdır. Elmi məqalənin IMRAD (İntroduction – giriş, methods – metod, Results – nəticələr və discussion - müzakirə) sistemində hazırlanmasına başlamaq gərəkdir.

Azərbaycanda nəşr olunan elmi jurnallar qərb jurnallarının nəşr siyasətinin əsası qəbul edilən-IMRAD modelini yayım siyasətində tətbiq edilməlidir. İMRAD modeli qoyulan suallara verilən doğru cavabdır, yəni, birinci- sual hansı problem araşdırılır? Cavab: introduction – giriş; ikinci sual problem necə araşdırıldı? Cavab: elmi metod və üsullarla; ücüncü sual araşdırma prosesində nə tapıldı? Cavab: results = nəticə; dördüncü sual - bunlar nə məna verir? Cavab: discussion = müzakirə. Beləliklə, jurnalın əsas məqsədi yeni biliyə əsaslanan bilikləri istehsal etmək olmalıdır.

Elmi nəşrlərin qiymətləndirmə sistemi və müvafiq meyarlar dünya elmi tərəfindən, xüsusilə də ISO (ABŞ-da İnstitute for Scientific Information), Rusiyada Ali Attestasiya Komissiyanın elmi nəticələrinin dərc olunmasını qəbul etdiyi elmi nəşrlər və Rusiya İstinad İndeks İnstitutu, Azərbaycanda isə Prezident yanında Ali Attestasiya Komissiyası müəyyən edir.

## NƏTİCƏ

“Ölkə iqtisadiyyatının davamlı inkişafını təmin etmək üçün bizə nailiyyətlərimizin dərin təhlili, yeni təkliflər və yeni ideyalar lazımdır”.

Haqqında söhbət gedən məqalədə göstərilən problemlərin həlli üçün ictimai elm sahəsini müasir tələblərə uyğun istiqamətdə inkişaf etdirmək məqsədilə aşağıdakı tədbirlərin görülməsini vacib hesab edirik:

1. Ali məktəblərdə, elm və təhsil müəssisələrində alimləri üç kateqoriyada alman modelinə uyğun qiymətləndirmək olar: kabinetdən kənara çıxmayan nəzəriyyəçi alim; nəzəri-praktik alim; nəzəri-praktik bilikləri ictimaiyyətə açıqlaya bilən ekspert-alim. Alimlərin əmək haqları da bu kateqoriya üzrə tətbiq olunmalıdır;
2. Ölkəmizin xaricdə ictimai elmlər sahəsində tanınmasına təsiri olacaq məqalə və kitabların xarici dilə tərcüməsi təşkil edilməlidir.
3. İctimai elmlərin inkişafını gücləndirmək məqsədilə «İctimai elmlərə dəstək fondu» yaradılmalıdır.
4. İctimai elmlərin inkişaf konsepsiyasını hazırlamaq məqsədilə “Təhsil-elm-dövlət və iş dünyası ilə əməkdaşlıq” mövzusunda ümumrespublika forumunun keçirilməsi məqsədəuyğundur.
5. İctimai elmlərin inkişafında əməyi olan elm xadimlərinə hər il müsabiqə yolu ilə mükafat verilməlidir.
6. İctimai elmlər sahəsi ilə məşğul olan elmi məktəblərin Azərbaycan ictimaiyyətinə tanıdılması məqsədilə KİV-lərində onların apardıqları tədqiqat işləri və əldə etdikləri nəticələr haqqında məlumatların ötürülməsi təşkil olunmalıdır.
7. Doktorluq pilləsində “elmi tədqiqatın nəzəri-əməli əsasları” fənninin tədirsinə başlanması vacibdir, çünki araşdırma texnologiyasını bilmədən dissertasiya yazmaq mümkün deyil.
8. Elmi fəaliyyəti maaliyyələşdirən qeyri-büdcə fondlarının, o cümlədən ianə və sponsorluq dəstəyinin vacibliyi nəzərə alınmalı, elmi-əməyin qiymətləndirilməsi sayəsində yeni qaydalar işlənib hazırlanmalıdır.
9. Təhsil və elmin mülkiyyət formasından asılı olmayaraq bütün elm, təhsil təşkilatlarının fəaliyyətini əlaqələndirən və tənzimləyən Şuranın – Prezident Yanında Elm Şurasının yaradılması məqsədəuyğundur.
10. Müasir universitetlər əmək bazarının tələb etdiyi mütəxəssislər hazırlamalıdır. Universitetlərdə professor-müəllim heyəti üç təməl parametrə cavab verməlidir: yaradıcı, yenilikçi-

təşəbbüskar. Universitetlərin professor-müəllim heyəti istənilən sahədə elmi araşdırmalar həyata keçirmək və onların nəticələrini nəşr etdirmək imkanına malikdir, lakin, bu müstəqillik dövlətin varlılığı, müstəqilliyi, bütünlüyü əleyhinə ola bilməz. Avropa Birliyinə üzv ölkələrin ali təhsil məktəblərinin maliyyələşmə mənbələri dövlət büdcəsi vəsaiti hesabına həyata keçirilir. Ümumiyyətlə, dünyanın heç bir ölkəsində universitetlər dövlətin nəzarətindən kənar fəaliyyət göstə bilməz.

11. Əhalinin iqtisadi və maliyyə cəhətdən maarifləndirilməsi məqsədilə "xalq məktəbləri"nin açılması məqsədəuyğundur.

12. Universitetlərin elmi və tədris fəaliyyətində audit keçirilməli, elmi-tədqiqat fəaliyyəti olmayan universitetlər, kafedralar, laborotoriyalar ləğv edilməlidir.

13. İctimai fənlərin tədrisində ciddi dəyişikliklər edilməsi məqsədəuyğundur. Tələbələrə uzun və monoton mühazirə kursları keçmək əvəzinə, onları professorların tədqiqat fəaliyyətinə cəlb etməklə onlarda elmi-tədqiqata stimul yaratmaq olar. Bundan başqa, mücərrəd nəzəri biliklərlə, tələbələri yormaq əvəzinə, onlara həyatda zəruri olan nəzəri-praktik bilikləri öyrətmək lazımdır. Ümumiyyətlə, ictimai elmlər elmi üçbucağa söykənir. O, "nəzəriyyə, ideologiya və texnologiya"ya əsaslandıqda daha güclü olur.

14. Azərbaycanda yayımlanan xarici ölkələrdə maraq doğuracaq elmi əsərlərin xarici dillərə tərcüməsi məqsədəuyğundur.

15. Tədris planı və tədris proqramları gunun tələblərinə uyğun şəkildə tərtib edilməlidir.

16. Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qəbul etdiyi elmi nəşrlərin elektron versiyayası hazırlanmalıdır.

17. Xarici ölkələrdə Azərbaycan elmini tanıtmaq məqsədilə abunə sistemi təşviq edilməlidir.

18. Beynalxalq nüfüzlü jurnallarda tələb edilən IMRAD modeli (introduction – giriş, methods – metod, results – nəticələr və discussion - müzakirə) Azərbaycan elmi nəşrlərində tətbiq olunmalıdır.

19. Elmi nəşrdə çap olunan müəllif lər haqqında qısa məlunat verilməlidir.

20. Jurnalların redaksiya heyəti, redaksiya şurası haqqında ətraflı məlumatın verilməsi zəruridir.

21. Elmi nəşriyyat tərəfindən müəllifin məqaləsi imtina edildikdə əsaslandırılmış rəy verilməlidir.

22. Jurnalların müəyyən edilmiş strateji məqsədinə uyğun nəşr siyasətləri və etibarlı redaksiya heyətləri olmalıdır.

23. Nəşrlərin redaksiya heyətlərinə elmlər doktorları rəhbərlik etməlidir.

24. Redaksiya heyətlərinə jurnalın profilinə uyğun elmlər doktorları cəlb olunmalıdır.

25. Jurnalllarda davamlılıq, tələbkarlıq və vaxtında nəşr edilmə məsələləri beynəlxalq nəşr qaydalarına uyğun olmalıdır.

26. Elmi nəşrlərin monitorinq mərkəzi yaradılmalıdır.

27. Akademik tənqid mədəniyyəti inkişaf etdirilməlidir.

28. Nəşrlərdə köçürmə (duplication) yolverilməzdir.

29. Nəşrlərdə etika qaydaları gözlənilməlidir.

30. Dissertasiya işləri yalnız Azərbaycan dilində hazırlanmalıdır.

31. Hər hansı şəxs elm dərəcə almağa təqdim edilərkən və ya məsul elmi işə, vəzifəyə qəbul zamanı elmi istinad indeksi sistemi nəzərə alınmalıdır.

32. Biliyi olanların elmdə söz haqqı tanınmalıdır.

33. Rusiyada elmi istinad indeksi sisteminə bənzər layihə hazırlanmalıdır.

34. Nüfuzlü elmi nəşrlərdə çap olunan məqalələrə görə pul mükafatı verilməlidir. (məsələn Türkiyədə- TUBİTAK bir məqalə üçün sinfindən asılı olaraq 250-1600 $ mükafat ayırır)

35. Elmlər doktoru dərəcələrini almaq istəyənlər məqalələrini indeksli jurnallarda nəşr etdirməlidirlər.

Beləliklə, öyrənmək bacarığı və qabiliyyəti olmayan universitetlər az saylı kontingenti olan ali məktəblərlə birləşməli və ya bağlanmalıdır.

**ƏDƏBİYYAT**

1. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə milli strategiyanın həyata keçirilməsi üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında (04.05.2009) sərəncamı // Təhsil xəbərləri. Bakı: Çaşıoğlu, 2009, №5.
2. Mehdiyev R.Ə. Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi. Bakı, 2001.
3. Mehdiyev R.Ə. İctimai və humanitar elmlər: zaman konteksində baxış, "Xalq qəzeti" qəz., 2009, 9 dekabr.
4. Дж. Сорос . Советская система: к открытому обществу. М.; 1991.
5. ЕХО / 2009, №11
6. Əhmədov H.H. Azərbaycan təhsilinin inkişaf strategiyası. Bakı: Elm, 2010.
7. Əhmədov H.H. Ali təhsilin modernləşdirilməsi. Bakı: Maarif, 2008.

**Г. Ахмедов,**
**З. Мамедов**

**ИНТЕГРАЦИОННЫЕ ПРОЦЕССЫ УНИВЕРСИТЕТОВ АЗЕРБАЙДЖАНА В ОБЩЕЕВРОПЕЙСКОЕ ОБРАЗОВАТЕЛЬНОЕ И НАУЧНОЕ ПРОСТРАНСТВО: В КОНТЕКСТЕ ТРЕБОВАНИЙ МОДЕРНИЗАЦИИ**

**РЕЗЮМЕ**

Целью модернизированных высших учебных заведений должно быть не передача знаний, а самопознание и усовершенствование. Вузы, не знающие, чему обучать, - не могут быть учебным заведением, передающим знания. Еолько те вузы имеют право не существование, выпускники, которых могут выдержать конкуренцию на рынке труда и будут востребованы не только у себя, но и на международном уровне.

**H. Ahmadov**
**Z. Mamмadov**

**INTEGRATION PROCESSES UNIVERSITIES OF AZERBAIJAN -EUROPEAN EDUCATIONAL AND SCIENTIFIC SPACE: IN THE CONTEXT OF THE REQUIREMENTS OF MODERNIZATION**

**SUMMARY**

To modernize higher education institutions should be no transfer of knowledge and self-knowledge and improvement. Universities do not know what to teach - can not be an educational institution, the transmission of knowledge. Eolko those universities do not have the right to exist, graduates who can compete in the labor market and will be in demand not only for themselves, but also at the international level.

*Redaksiyaya daxil olub: 25.10.2013*

# ALİ MƏKTƏB MÜƏLLİMLƏRİNİN TƏDQİQATÇILIQ FƏALİYYƏTİ TƏLİMİN KEYFİYYƏTİNƏ TƏSİR GÖSTƏRƏN MÜHÜM AMİL KİMİ

**Asif Hacıyev,**
*ARTPİ,*
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
E-mail: hacıyev_asif @ mail.ru

**Rəyçilər**: *prof.* **A.N. Abbasov**,
*ped.elm.dok.* **H.H. Əhmədov**

***Açar sözlər:*** *elm, araşdırma, təhlil, müzakirə, təlim, yanaşma*
***Key words:*** *research, analysis, discussion, training, scientific approach*
***Ключевые слова:*** *наука, исследование, анализ, обсуждение, обучение, подход*

Azərbaycan təhsil sistemində aparılan məqsədyönlü islahatlar təhsilin məzmununun yeniləşməsi və təlimin keyfiyyət göstəricilərinin yüksəldilməsi, ixtisaslı kadr hazırlığı, idarəetmə sisteminin təkmilləşdirilməsi, müasir elmi-texniki tərəqqinin tələblərinə cavab verən infrastrukturun və maliyyələşdirilmə mexanizminin yaradılması kimi mühüm məsələləri əhatə edir. Bu mənada Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda beynəlxalq təcrübəyə istinad edilməklə sadalanan istiqamətlər üzrə müəyyənləşdirilən hədəflər açıqlanır (1). Pedaqoji ictimaiyyət, o cümlədən elm və təhsil işçiləri qarşısında duran başlıca vəzifə alt komponentlər şəklində maddə-maddə konkretləşdirilən bu strateji hədəf və tədbirlərin reallaşdırılması ilə bağlı səmərəli təkliflər vermək və əsaslandırılmış ideyalar irəli sürərək uğurla həyata keçirilməsini təmin etməkdir.

Müasir təhsil üçün prioritet vəzifələrdən sayılan yüksək intellektual qabiliyyətlərə və həyati bacarıqlara yiyələnmiş şəxsiyyətin yetişdirilməsi bir çox amillərdən, o cümlədən pedaqoji kadrların, xüsusilə də fənn müəllimlərinin hazırlıq səviyyəsindən asılıdır. Tədris etdiyi fənnin nəzəri və metodik əsaslarını dərindən mənimsəyən müəllimlərin peşəkar fəaliyyətinin təməli pedaqoji təmayüllü ali məktəblərdə qoyulur. Gələcəyin müəllimi olacaq tələbələrin elmi biliklərə, innovativ metod və texnologiyalardan istifadə bacarıqlarına yiyələnmələri ilk növbədə ali təhsil müəssisələrindəki tədris planlarının tərtibi, ixtisas fənləri ilə əlaqədar proqram və dərsliklərin hansı məzmunda işlənilməsi, eləcə də professor-müəllim heyə-tinin ümumi hazırlıq məsələləri ilə bağlıdır. Şübhəsiz, ali məktəb müəllimi tədris etdiyi fənnin elmi əsaslarını dərindən mənimsəməyibsə, son dövrdə bu sahədə aparılan tədqiqatlarla tanış deyilsə, eləcə də müasir pedaqoji texnologiyalara yiyələnərək təlim prosesini qura bilmirsə, müasir tələblərə uyğun müəllim hazırlığından danışmağa dəyməz. Buradan belə bir nəticəyə gəlinir ki, ali məktəb müəllimlərinin elmi-metodik hazırlığının keyfiyyətini yüksəltmədən tələbələrin peşəkar fəaliyyətə qoşulmalarını təmin etmək və bu sahədə əsaslı dönüşə nail olmaq xeyli çətinliklər yaradacaqdır. Gerçəkliyi nəzərə alaraq mövcud problemin aradan qaldırılmasında həlli vacib önəmli işlərdən biri ali məktəb müəllimlərinin daha aktual elmi araşdırmalara cəlb olunmasıdır ki, bununla bağlı bəzi məqamlar üzərində ayrıca dayanmaq istərdik.

Məlumdur ki, fundamental və tətbiqi olmaqla iki qola ayrılan elmi tədqiqatlar Milli Elmlər Akademiyasında, ali təhsil müəssisələrində və sahə institutlarında aparılır. Elmin inkişafına öz töhfəsini verən ali təhsil məktəbləri sırasında pedaqoji təmayüllü universitetlərin xidməti əvəzsizdir. Burada aparılan elmi işlər nəzəri və metodik xarakterli olub, təhsilin məzmunu və təşkili məsələlərini əhatə edir.

Ali məktəblərdə elmi tədqiqat işlərinin aparılmasını xarakterizə edən başlıca amil bu araşdırmaların tədris edilən fənlərlə bağlı olmasıdır. Ayrı-ayrı elm sahələrini təmsil edən araşdırıcıların həm də fənn müəllimləri kimi işləmələri bu tədqiqatların daha mobil şəkildə yerinə yetirilməsi üçün zəmin yaratmaqla bilavasitə pedaqoji prosesin təkmilləşməsinə xidmət edir. Problemin aktuallığını nəzərə alan Azərbaycan pedaqoqları ona öz münasibətlərini bildirmişlər.

Ali məktəblərdə aparılan elmi-tədqiqat işlərinə pedaqoji prosesin bir hissəsi kimi yanaşan prof. N. Kazımov problemin aktuallığı, səciyyəvi xüsusiyyətləri, məqsəd və vəzifələri, yerinə yetirilmə mexanizmi üzərində daha geniş dayanmışdır. Görkəmli alimin fikrincə, ali məktəblərdə aparılan elmi-tədqiqat işləri əhatə dairəsinə görə üç qrupa ayrılır: kafedranın ehtiyaclarına xidmət edən, ümuminstitut əhəmiyyəti daşıyan və respublika üçün əhəmiyyətli tədqiqat işləri kimi qeyd olunur.

Ali məktəblərdə aparılan tədqiqat işlərinə yüksək ixtisaslı elmi-pedaqoji kadrların hazırlanması vasitəsi kimi baxan alim yazır: "Əvvəla, tədqiqat işi ilə məşğul olan şəxs, istəsə də, istəməsə də, pedaqoji cəhətdən təkmilləşir: onun elmi-pedaqoji təfəkkürü itiləşir, hadisə və faktları təhlil etmək, tutuşdurmaq, qruplaşdırmaq, ümumiləşdirmək, nəticə çıxarmaq qabiliyyətləri sürətlə formalaşır. Tədqiqatçı müəllimdə intensiv formalaşan bu cür təfəkkür qabiliyyətləri pedaqoji prosesdə əks-səda verir, onun səviyyəsini yüksəldir, tədricən tələbələrin təfəkkürünə süzülür" (2, 440-441).

F. Rüstəmov və T. Dadaşovanın hazırladıqları "Ali məktəb pedaqogikası" dərsliyində ali məktəb müəlliminin funksiyaları təhsilverici, tərbiyəedici, təşkiledici və tədqiqatçılıq olmaqla qruplaşdırılaraq hər biri ayrıca səciyyələndirilir. Bir-birini tamamlayan və biri digəri ilə sıx vəhdətdə olan bu funksiyalar arasında müəllimin pedaqoji və elmi-tədqiqatçılıq fəaliyyətini daha əhəmiyyətli sayan alimlər yazırlar: "Tədqiqatçılıq fəaliyyəti ali məktəb müəllimini daxilən zənginləşdirir, onun yaradıcı potensialını inkişaf etdirir, elmi səviyyəsini yüksəldir. Müəllimin elmi-tədqiqatçılıq fəaliyyəti onun pedaqoji fəaliyyətin məqsədlərini daha aydın dərk etməsinə, təlim informasiyalarını daha dərindən ümumiləşdirməsinə və daha məntiqi surətdə sistemləşdirməsinə, aparıcı ideya və nəticələri daha aydın müəyyənləşdirməsinə kömək edir" (3, 101-102).

Burada ali məktəb müəlliminin peşə ustalığını təmin edən keyfiyyətlər sırasında öz üzərində müntəzəm işləməklə elmi və professional hazırlığı təkmilləşdirmə, zəngin erudisiya, məntiqi təfəkkür, elmin bütün sahələrinə nüfuz etmə, tədris olunan fənnə elmin və texnikanın müasir inkişaf səviyyəsində yiyələnmə bacarıqları xüsusi nəzərə çatdırılır (3, 107-108).

Təhlil göstərir ki, ali məktəblərdə nəzəri istiqamətdə aparılan tədqiqatların böyük əksəriyyəti müəyyən elm sahəsinin inkişafına xidmət edir. Praktik mahiyyət daşıyan tədqiqatlar isə konkret fənnin tədrisini yüksəltməyə yönəlir, proqram, dərslik, dərs vəsaitləri, metodik tövsiyələrin hazırlanması və təkmilləşdirilməsinə xidmət edir. Hazırda pedaqoji təmayüllü ali məktəblərdə fənlər, xüsusən fənn metodikaları əsasən keçən yüzilliyin 60-70-ci illərində hazırlanmış, yaxud məzmununda cüzi dəyişikliklər edilmiş proqram və dərsliklər əsasında tədris olunur. Təbii ki, bu da tələbələrin peşə hazırlığına öz mənfi təsirini göstərir. Ümumtəhsil məktəblərində həyata keçirilən Kurikulum islahatı fənlərin məzmununda, onların təşkilinin forma və metodlarında, yeni texnologiyaların tətbqində, bilik və bacarıqların qiymətləndirilmə qaydalarında köklü dəyişikliklər edilməsinə gətirib çıxardı. Məhz buna görə də ali məktəb tələbələrinin seçdikləri ixtisasa hərtərəfli yiyələnmələri üçün həmin yeniliklərin müvafiq fənn metodikalarına aid proqram və dərsliklərin məzmununa gətirilməsinə, elmi-tədqiqatların bu istiqamətdə aparılmasına xüsusi ehtiyac duyulur.

Bəs ali məktəblərdə fənn metodikalarının yeniləşməsi hansı istiqamətlərdə, hansı məzmunda aparıla bilər? Hər şeydən əvvəl, həmin fənlərin bakalavr və magistratura pillələrində məzmun təkrarçılığı aradan qaldırılmalıdır. Fənnin praktik mahiyyət daşıyan bölmələri bakalavr, elmi-nəzəri mahiyyət daşıyan bölmələri magistratura pillələri üzrə diferensasiya edilməlidir. Kurikulum islahatının tələblərinə uyğun olaraq fənnin ümumtəhsil məktəblərinin səviyyələri və siniflər üzrə təlim nəticələri, məzmun xətləri, əsas və alt standartları, təlim strategiyaları, yəni təlimin təşkilinin metod və vasitələri, tədris vahidlərinin planlaşdırılması, bilik və bacarıqların qiymətləndirilmə formaları ilə bağlı ən zəruri biliklər bakalavriaturada oxuyan tələbələrə verilməlidir ki, məktəb təcrübəsində onlardan nələr tələb olunacağını dərindən mənimsəyə bilsinlər. İkincisi, fənlərin tədrisi ənənəvi təlim üsulları ilə deyil, tələbələrdə fikri fəallıq yaradan, onları seçdikləri peşənin incəliklərinə yiyələnməyə həvəsləndirən interaktiv təlim metodları ilə aparılmalıdır. Bu isə elmi tədqiqatların təlim prosesini daha maraqlı, daha səmərəli qurmağa yönəlmiş metodik vəsaitlərin hazırlanması istiqamətində aparılmasını zəruri edir. Eyni zamanda, dövrün elmi-metodik inkişafına uyğun dərsliklərin hazırlanması işi xüsusi diqqət mərkəzində saxlanılmalıdır. Bu zaman dərsliklərin proqram

materialını əhatə etməsi, məzmunun son tədqiqatlara istinadən işlənilməsi, strukturda sual, tapşırıq və müvafiq bölməyə aid ədəbiyyat siyahısının nəzərdə tutulması kimi mühüm şərtlər gözlənilməlidir. Dərslik yalnız məzmununa, tərtibatına görə deyil, həcminə görə də monoqrafik tədqiqatlardan seçilməlidir.

Ali məktəblərdə aparılan elmi-tədqiqat işlərinin təlim prosesinin müasir tələblər əsasında qurulmasına operativ şəkildə təsir göstərməsinə nail olmaq üçün modul prinsipi, yəni konkret mövzular üzrə modelləşmə əsasında yerinə yetirilməsi məqsədəuyğundur.

A.V. Yastrebov "Elmi-tədqiqat işlərinin modelləşdirilməsi pedaqoji ali məktəb tələbələrinin təliminin optimallaşdırılma vasitəsi kimi" mövzusunda yazdığı doktorluq dissertasiyasında elmi fəaliyyət anlayışının mahiyyətini açmaqla belə bir qənaətə gəlir ki, ali məktəb müəlliminin elmi-tədqiqat işlərinə cəlb olunması onun təlim fəaliyyətinə müstəsna təsir göstərən vasitədir. Bu yolla pedaqoq-tədqiqatçı tədris etdiyi fənnin elmi əsasda mənimsədilməsinə nail olmaqla yanaşı, elm sahəsinin hansı istiqamətdə inkişaf etdiyini, hansı müasir problemlərin araşdırıldığını və onların həlli yolları haqqında obyektiv məlumat alınmasına imkan yaradır. Müəllif modelləşdirməyə bir tədqiqat metodu kimi yanaşaraq onu üç mərhələyə ayırır:

- birinci mərhələ elmi-tədqiqat fəaliyyətinin layihələşdirilməsi konsepsiyasının qurulmasır;
- ikinci mərhələ elmi-tədqiqat fəaliyyətinin mərhələli planlaşdırılması;
- üçüncü mərhələ elmi-tədqiqat işinin funksional-struktur modelinin işlənilməsi və dəyərləndirilməsi (4, 25).

Göründüyü kimi, elmi araşdırmaların praktik mahiyyət kəsb edən modul formasında aparılmasına və sabit struktura malik sistem daxilində dəyərləndirilməsinə xüsusi əhəmiyyət verilir. Bu həm də müasir dövrün tez-tez dəyişən çevik tələblərinə tam uyğundur.

Beləliklə, elmi araşdırmalar ali məktəb müəlliminin peşəkarlıq səviyyəsini yüksəlməsində, təlim materiallarının elmi-texniki tərəqqinin müasir səviyyəsinə uyğun işlənilməsində, təşkili formalarının zənginləşməsində, eləcə də tələbələrin təlimə maraq hissinin güclənməsində müstəsna rol oynayır ki, bu işi daha səmərəli təşkil etmək üçün aşağıdakıları nəzərə almağı faydalı bilirik:

1. Aparılan tədqiqat işləri müəllimin tədris etdiyi fənnin məzmunu ilə bağlı olmalı və müasir yanaşmaları əks etdirməlidir. Tədqiqat işi müəllimin pedaqoji fəaliyyətinin nəzəri-metodik cəhətdən zənginləşməsinə yönəlməli, onu daimi axtarışa həvəsləndirməlidir. Buna görə də elmi işlərin mövzusu ilkin müzakirədən keçməlidir.

2. Elmi-tədqiqat işlərinin aktual problemlərə həsr edilməsi müəllimin bir alim kimi tanınmasına, təmsil olunduğu kollektiv üzvləri, tələbələr və ümumiyyətlə, ictimaiyyət arasında böyük nüfuz qazanmasına şərait yaradır. Ali məktəb müəlliminin tədqiqatçı alim, tədqiqatçı pedaqoq kimi formalaşması onun tələbələrinin də tədqiqatçı kimi yetişmələrinə müsbət təsir göstərir.

3. Pedaqoji təmayüllü ali məktəblərdə aparılan elmi-tədqiqat işləri o zaman daha səmərəli hesab olunur ki, təlim prosesinin dolğunlaşmasına xidmət etsin. Bunun üçün elmi işlərin ənənəvi modeldə aparılmasına imkan yaradan təsvirçilikdən imtina etmək və konkret təkliflərlə nəticələnən variant hazırlamaq lazımdır.

4. Pedaqoji təmayüllü ali məktəblərdə tədqiqat işlərinin səviyyəsini yüksəltmək məqsədilə elmi işlərin geniş müzakirəsi və ixtisaslı alimlər tərəfindən ekspertizası yüksək səviyyədə təşkil olunmalı, ən yaxşıları stimullaşdırıcı vasitələrlə dəyərləndirilməlidir.

**Məqalənin elmi yeniliyi:** Pedaqoji təmayüllü ali məktəb müəllimlərinin elmi-tədqiqat işlərinə cəlb edilməsinin istiqamətləri açıqlanır.

**Məqalənin praktik əhəmiyyəti:** **A**li məktəblərdə təlim prosesinin səmərəli təşkilində elmi araşdırmaların rolu müəyyənləşdirilir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. // Kurikulum 2013 № 4, səh.103-113

2. Kazımov N.M. Ali təhsil pedaqogikası. Bakı: Nicat, 1999.

3. Rüstəmov F., Dadaşova T. Ali məktəb pedaqogikası Magistratura pilləsi üçün dərslik. Bakı: Nurlan, 2007.

4. Ястребов А.В. Моделирование научных исследований как средство оптимизации обучения студента педагогического вуза. Автореф. ... д-ра пед. наук, Ярославль, 1997.

**А.Гаджиев**

## ИССЛЕДОВАТЕЛЬСКАЯ ДЕЯТЕЛЬНОСТЬ УЧИТЕЛЕЙ В СИСТЕМЕ ВЫСШЕГО ОБРАЗОВАНИЯ В КАЧЕСТВЕ ВАЖНОГО ФАКТОРА, ВЛИЯЮЩЕГО НА КАЧЕСТВО УЧЕБНОЙ ДЕЯТЕЛЬНОСТИ

### РЕЗЮМЕ

Участие учителей в области научного исследования имеет особое значение среди факторов, влияя на создание учебной деятельности на основе современных требований в вузах. Теоретическая и практическая исследовательская работа наряду с развитием той или иной области науки, способствует улучшению качества профессиональной подготовки ученых, занимающихся преподавательской работой. Эти исследования играют важную роль в создании новых учебных программ и учебников и подготовке учебных пособий и монографий.

**A.Haciyev**

## RESEARCH ACTIVITY OF HIGH SCHOOL TEACHERS AS AN IMPORTANT FACTOR INFLUENCING ON TEACHING QUALITY

### SUMMARY

Involvement of teachers in research work in high schools is of particular importance among the influencing factors on the basis of modern teaching requirements. Along with the development of a particular area of science, the theoretical and practical research work contributes to the improvement quality of professional skills of scientists, who are engaged in teaching. These studies play an important role in creation of new subject curricula and textbooks and in preparation of teaching aids and monographs.

*Redaksiyaya daxil olub: 03.02.2014*

# MÜƏLLİMİN KOMMUNİKATİV MƏDƏNİYYƏTİNİN PEŞƏ FƏALİYYƏTİNDƏ FORMALAŞMASI

**Mahirə İbadova,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**Rəyçilər:** *prof.* **İ.Cəbrayılov,**
*dos.* **X.Talıbova**

***Açar sözlər***: *müəllim, kommunikativ mədəniyyət, bacarıqlar, ünsiyyət, kommunikativ keyfiyyətlər, nitq mədəniyyəti, davranış.*

***Ключевые слова***: *педагог, коммуникативная культура, умения, общение, коммуникативные кА-чества, культура речи, поведение.*

***Key words***: *teacher, communicative culture, skills, communication, communicational quantities, speech culture, behavior*

Təhsilin məzmununun yeniləşməsi, onun keyfiyyətinin yüksəldilməsi yeni texnologiyalardan istifadə, yerli və dünya təcrübəsinin öyrənilməsi və müasir cəmiyyətin təhsil qarşısında qoyduğu tələblərin nəzərə alınması ilə bağlıdır. Bununla bərabər təhsilin keyfiyyəti müəllimin peşəkarlığından, onun şəxsi keyfiyyətlərindən və onun kommunikativ bacarıqlarından birbaşa asılıdır.

Son dövrlərdə bəzi məktəblərdə müəllim – şagird münasibətindəki neqativ halların sosial şəbəkələrdə yayılması bu mövzunu daim diqqətdə saxlamağa zərurət yaradır. Müəllimin şagirdlərin yaş xüsusiyyətlərini, meyl və maraqlarını nəzərə almaması, ailədaxili münasibələri öyrənməməsi, təhqiramiz sözlərlə təzyiq göstərməsi və hətta fiziki cəzaya əl atması onun cəmiyyətdə nüfuzunu aşağı endirir, qeyri – peşəkarlığından xəbər verir.

Bu gün təhsil müəssisələrində müəllimlərin kommunikativ mədəniyyətinin inkişafı problemi xüsusi aktuallıq kəsb edir. Ən kiçik yaş dövrü kommunikativ fəaliyyətin mədəni formalarının əsasını qoymaq üçün əlverişli dövrdür. Müasir təhsilin uşaqların kommunikativ mədəniyyətinə istiqamətlənməsi müəllimlərdən müvafiq pedaqoji hazırlıq tələb edir.

Müəllimin kommunikativ mədəniyyəti şagirdlərə müsbət təsir göstərən, təlim və tərbiyə prosesini səmərəli təşkil etməyə imkan verən və pedaqoji vəzifələrin

həll edilməsi prosesində kommunikativ fəaliyyəti nizamlamağa təsir göstərən bilik, bacarıq və kommunikativ keyfiyyətlərdir.

Müəllimin kommunikativ mədəniyyəti kommunikativ bacarıqları və qabiliyyətləri mənimsəməsini nəzərdə tutur.

Kommunikativ bacarıqlar aşağıdakılardır:

- şagirdlərlə emosional kontakt qurmaq və ünsiyyətdə təşəbbüsü ələ almaq;
- öz emosiyalarını idarə etmək bacarığı;
- müşahidəçilik və diqqətin çevikliyi;
- xarici əlamətlərinə görə şagirdlərin psixoloji vəziyyətini başa düşmək;
- ünsiyyətdə özünü təqdim etmək bacarığı;
- şagirdə fərdi yanaşmaq bacarığı.

Müəllimlərin kommunikativ mədəniyyətinin inkişaf səviyyəsi aşagıdakılarla

şərtləşir:

- ekspressiv bacarıq və qabiliyyətlərin mövcudluğu: nitqin, jestlərin, mimikaların və xarici görkəmin ifadəliliyi;
- perseptiv bacarıq və qabiliyyətlərin mövcudluğu: şağirdlərin vəziyyətinin başa düşülməsi, kontaktın qurulması, şağirdin adekvat obrazının yaradılması bacarığı və qabiliyyəti.

Nitq mədəniyyəti - ədəbi dilin şifahi və yazılı normalarını (tələffüz qaydaları, vurğu, qrammatika, sözlərin yerində işlədilməsi) mənimsəmə, həmçinin müxtəlif situasiyalarda ifadəli dil vasitələrinin istifadə edilməsidir.

Nitq mədəniyyətinin əsas göstəricisi zəngin lüğət ehtiyatı, dəqiqlik, ifadələrin obrazlılığı, fikri yığcam və sadə formalaşdırmaqdır.

Pedaqoji nitq aşağıdakıları təmin etməlidir:

a) dolğun ünsiyyət, müəllim və şagirdlər arasında qarışılıqlı hörmət;

b) şagirdlərin ideyalarını, fəaliyyət motivlərini düzgün istiqamətləndirmək məqsədi ilə onların şüuruna, hisslərinə təsir etmək və düzgün istiqamətləndirmək;

c) müəllimin nitqi təlim prosesində mükəmməl qavranılmalı, dərk olunmalı və möhkəmləndirilməlidir;

ç) şagirdlərin təlim və praktik fəaliyyətinin səmərəli təşkili.

Müəllimin nitqinə verilən əsas tələblər aşağıdakılardan ibarətdir:

- məzmunun tamlığı, dəqiqlik, məntiqlilik;
- sözlərin leksik, fonetik, qrammatik və orfoepik düzlüyü;
- nitqin obrazlılığı, məntiqi ifadəliliyi;
- nitqin emosionallığı, zəngin intonasiya, aramlılığı, kifayət qədər ucadan səslənməsi;
- təmiz diksiya, nitq etiketlərinin gözlənilməsi, sözlərin əmələ uyğun olması;
- jestlərin, mimikaların bacarıqla istifadə edilməsi.

Müəllimin nitq davranışının funksiyalarını üç faktorla izah etmək olar:

birincisi, müəllimin peşəkarlığıdır. O, şagirdlərdə özünə qarşı müsbət münasibət və rəğbət yaratmaq qabiliyyətinə malik olmalıdır. İkincisi, motivasiya funksiyasıdır. Müəllimin geniş qiymətləndirmə mühakiməsi şagirdlərin fəaliyyət və davranışlarının məzmun aspektlərini təkmilləşdirməli və onlarda özünə qarşı tənqidi münasibət formalaşdırmalıdır. Üçüncü faktor isə psixoterapevtik funksiyadır. Ünsiyyətin şagirdyönümlü səviyyəsi, müəllimin humanistliyi sayəsində uşaqlar özlərini müdafiə olunmuş hiss edirlər və onlarda özünüqiymətləndirmə, özünüaşkaretmə və təsdiqetmə kimi keyfiyyətlər formalaşır.

Pedaqoji ünsiyyətin əsasını təşkil edən kommunikativ keyfiyyətlərə aşağıdakılar daxildir:

- nitqin xarakteristikası: dəqiq diksiya, ifadəlilik;
- şəxsiyyətyönümlü xüsusiyyətlər: ünsiyyətlilik, insanları dinləmək və başa düşmək bacarığı;
- ünsiyyətlilik – insanlarla kontaktda olmağa istiqamətlənmiş davamlı səy və bacarıqdır.

Ünsiyyətlilik şəxsiyyətin xüsusiyyəti kimi bu komponentləri özündə ehtiva edir:

- kommunikabellik – ünsiyyət prosesindən məmnun olmaq;
- sosial tələbat – insanın cəmiyyətdə olmaq istəyi;
- empatiya – başqa insanın duyğularını başa düşmək qabiliyyəti.

Beləliklə, kommunikativ mədəniyyət müəllimin peşəkarlığının əsasını təşkil edir və onun pedaqoji fəaliyyətinin səmərəliliyi üçün şərait və zəmin yaradır. Məhz bu keyfiyyətlər onun peşəkarlığının, səriştəliliyinin yüksəldilməsinə və özünü təkmilləşdirməsinə təkan verə bilər.

## ƏDƏBİYYAT

1. Abiyev A. Xalqın mənəvi və fiziki qayğıkeşi. Bakı: Adiloğlu, 2005.
2. Ağayev Ə.Ə. Pedaqoji fikrimiz, dünənimiz, bu günümüz. Bakı: Elm, 2000.
3. Ağayev Ə.Ə.Təlim prosesi:ənənə və müasirlik. Bakı: Adiloğlu, 2006.
4.Əliyev P.Əhmədov H. Gənclərin milli – mənəvi dəyərlər əsasıda tərbiyəsi. Bakı: Təhsil, 2006.
5.Hüseynzadə R. Tərbiyə işinin metodikası. Bakı, 2010.

**М.А.Ибадова**

## ФОРМИРОВАНИЕ КОММУНИКАТИВНОЙ КУЛЬТУРЫ ПЕДАГОГА В ПРОФЕССИОНАЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ

**РЕЗЮМЕ**

В статье раскрывается сущность негативных явлений между педагогами и учащимися. Указывается большая роль коммуникативной культуры учителей не только в общении с учащимися, но и в повышении качества воспитания и обучения. Автор излагает научные основы коммуникативных качеств педагога, которые необходимы в их профессиональной деятельности.

**M.A. Ibadova**

## FORMATION OF TEACHERS COMMUNICATIVE CULTURE OF IN THE PROFESSIONAL ACTIVITY

**SUMMARY**

The article deals with the negative relations between teachers and pupils. The role of teachers communicative culture is indicated not only in communication with pupils, but at the same time in increasing of quantity of education and teaching.

The author shows scientific bases of communicative quantities of a teacher which are necessary in their professional activity.

*Redaksiyaya daxil olub: 25.10.2013*

# ƏLAVƏ TƏHSİLİN PROBLEMLƏRİ

## ƏLAVƏ TƏHSİLİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ

**Adilə Məmmədova,**
*ARTPİ-nin əlavə təhsil şöbəsinin böyük elmi işçisi*
E-mail: adilemamedova@mail.ru

**Rəyçilər:** *dos.* **S. Həsənova,**
*dos.***X. Talıbova**

***Açar sözlər:*** *əlavə təhsil, pedaqoji mühit, təhsil müəssisələri, yeni pedaqoji texnologiyalar, təlimçilərin ustalığı*
***Ключевые слова:*** *дополнение к образованию, среда обучения, образование, новые образовательные технологии, квалификации тренеров*
***Keywords:*** *addition to education, new educational technology, teaching environment, education, skill trainers*

Təhsilin keyfiyyəti təlimin yeni texnologiyalarını, tədris prosesini bilavasitə reallaşdıran müəllimin yaradıcı əməyindən, peşəkarlıq səviyyəsindən, peşəsini ürəkdən sevməsindən cox asılıdır. Müəllimin sağlam rəqabət tələb edən layihələrdə, innovativ proqramlarda iştirakı onun yaradıcı əməyinin keyfiyyətinin aşkarlanmasında mühüm rol oynayır.

Dünya təhsilinə inteqrasiyanın sistemli, geniş parametrli prosesə çevrildiyi bir zamanda inkişaf etmiş ölkələrin qabaqcıl pedaqoji təcrübələrini öyrənib, ümumiləşdirib yaymaq, həmkarların coxillik əməyinin nəticəsi olaraq formalaşmış qabaqcıl pedaqoji təcrübələrdən bəhrələnərək tədris prosesinin səmərəliliyini artırmaq və öz fəaliyyətini təqdim etmək bacarığına malik olmaq müəllimin yaradıcı əməyinin keyfiyyət göstəricilərindəndir.

Təhsil prosesində müəllim yeni pedaqoji texnologiyalardan faydalanaraq şagirdlərdə təfəkkürün formalaşmasına nail olur. O, müasir təlim yanaşmalarını əks etdirən dərs-mühazirə, dərs-yarış, dərs-müzakirə, dərs-disput kimi qeyri-standart dərslərdən istifadəyə üstünlük verir, qruplarla, cütlərlə, fərdi və kollektivlə iş formalarından istifadə edir, dialoqa, məntiqi və tənqidi təfəkkürü inkişaf etdirən yaradıcı metodlardan istifadəyə geniş yer verir. Fəal təlimdən istifadə etməklə dərslərin yeni təlimə uyğun qurulması müəllim və şagird fəaliyyətinin səmərəsini artırır. Təhsilin inkişafını şərtləndirən əsas amil məhz müəllimin fəaliyyətidir. Uğurlu nəticə də fəaliyyətdən asılıdır.

Müəllimin uşaqlarla həssas ünsiyyətqurma, əməkdaşlıq, tədqiqatçılıq, özünütəhsil və idarəcilik bacarıqlarına malik olması onun dövrün tələblərinə uyğun inkişaf etmiş xususiyyətlərindəndir.

Müasir dövrdə cəmiyyətdə, pedaqoji mühitdə əlavə təhsil problemlərinə müxtəlif baxışlar mövcuddur. Bəziləri əlavə təhsili diplomdansonrakı təhsilin əsası kimi qəbul edərək, onu dövlət sifarişi hesab edir və təhsilin bu sahəsi ilə məşğul olan müəssisələrə xüsusi diqqət yetirməyi vacib sayırlar. İkincilər hesab edirlər ki, öyrədən öyrənməsə, müasir dünyada baş verən elmi-texniki tərəqqidən baş çıxarmasa, onun istiqamət verdiyi öyrənən cəmiyyətdə lazımi səviyyədə yer tuta bilməz.

Üçüncülər fikirləşirlər ki, əlavə təhsil, xüsusilə ixtisasartırma forması beş ildə bir dəfə həyata keçirilən məcburi fəaliyyətdir.

Bəziləri də belə düşünürlər ki, əlavə təhsilin nəticəsi maddi və mənəvi cəhətdən stimullaşdırılmasa, gözlənilən səmərəni əldə etmək çətindir.

R(Ş)TŞ-də, yerli təhsil müəssisələrində əlavə təhsilə münasibətin daha ciddi olması, maliyyə vəsaitinin düzgün planlaşdırılması, müqavilələrdə "sifariş-təklif" prinsiplərinin pozulmaması, pedaqoji kadrların əlavə təhsilə fərdi tələbatının öyrənilməsi müasir təlim vasitələri və metodların-

dan səmərəli istifadə, əlavə təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi bu sahənin daha sürətli inkişafına zəmin yaradır.

Əlavə təhsilin praktik imkanları artırılmalı, təlimçilərin ustalığı, peşəkarlığı öyrənənlərin maraq və tələbatına uyğun olmalıdır. 2008-2009 tədris ilindən ümumtəhsil məktəblərinin I-IV siniflərində fənn kurikulumlarının tətbiqinə başlanıldı. Ötən illərin təcrübəsi göstərdi ki, müəllim hazırlığında əsaslı keyfiyyət dəyişikliyi həyata keçirilməlidir. Bu mühüm nəticə "Fasiləsiz müəllim hazırlığının konsepsiyası və strategiyası" sənədində də nəzərə çarpdırılmışdır. Doğrudur, yeni proqramların (kurikulumların) tələb etdiyi şəkildə şagirdlərin intellektual fəallığına əsaslanan müasir dərsləri təşkil edəcək müəllimlərin hazırlanması məqsədilə ibtidi sinif müəllimləri ilə bir neçə mərhələdə treninqlər keçirilmişdir. Bununla belə, aparılan monitorinqlərin təhlili göstərir ki, ənənəvi təlim metodlarına yiyələnmiş müəllimlər yeni məzmunu şagirdlərə mənimsətməkdə çətinlik çəkirlər. Bu isə ilk növbədə təlimin keyfiyyətinə əsaslı təsir göstərir. Tətbiq edilən islahatın alt komponentlərində biri olan "Müəllim hazırlığı" məsələsi xüsusi aktuallıq kəsb etdiyindən Azərbaycan Dövlət Pedaqoji Universitetində, Azərbaycan Müəllimlər İnstitutunda və Gəncə Dövlət Universitetində ibtidai məktəb üçün müəllim hazırlığını daha səmərəli həyata keçirmək məqsədilə professor-müəllim heyəti ilə treninqlər keçirilmiş və tədris edilən fənlər üzrə yeni proqramlar hazırlanmışdır.

Əlavə təhsilin səmərəli təşkili üçün aşağıdakı məsələlər diqqət mərkəzində saxlanılmalıdır:

1) məzmunun tələbata uyğunluğu;

2) əlavə təhsilə cəlb olunanların tələb və ehtiyaclarının öyrənilməsi;

3) çevik ixtisasartırma proqramlarının modul mexanizmlərinin, nəticəyə görə kredit sisteminin tətbiqi;

4) qabaqcıl dünya təcrübəsinin öyrənilməsi və tətbiq olunması;

5) sağlam rəqabət mühitinin yaradılması;

6) keyfiyyəti yüksəltmək məqsədilə ixtisasartırma prosesinə çoxsaylı dövlət və qeyri-hökumət təşkilatlarının cəlb olunması;

7) keyfiyyətə nəzarət, keyfiyyətin təmin olunması üçün elmi əsaslarla monitorinq mexanizminin tətbiqi;

8) maddi və mənəvi stimullaşdırma, karyera üzrə peşə yüksəlişi, bir dərəcədən digərinə keçid üçün təminat;

9) hüquqi cəhətdən məcburi və könüllü əlavə təhsilin tətbiqi: <u>məcburi</u> - əmək haqqı və vəzifə artımı üçün vacib hesab edilən; <u>könüllü</u> – məktəblər tərəfindən müəllimlər üçün təşkil edilən ixtisasartırma;

10) peşəkar təlimçi korpusunun formalaşdırılması;

11) "ixtisasartırma portfoliosu"nun tətbiqi;

12) variativ proqramların tərtibi;

13) maddi-texniki bazanın zənginləşdirilməsi, əlavə təhsil üzrə məlumat və təcrübə bankının yaradılması;

14) təcrübi imkanlara üstünlük verilməsi;

15) nəticələrə görə qarşılıqlı cavabdehlik və s.

Təcrübə göstərir ki, otuzdan artıq innovasiyanın tətbiq olunduğu təhsil sistemində ənənəvi metod və vasitələrlə böyük uğurlar qazanmaq çox çətindir. Yenilik, yeni mühitə bələd olan kadr potensialı və baza ilə həyata keçirilə bilər. Məhz belə bir şəraitdə əlavə təhsili səmərəli təşkil etmək və onun keyfiyyətinin yüksəldilməsinə nail olmaq mümkündür.

Son zamanlar belə fikir formalaşmışdır ki, ali təhsil müəssisələri bir sıra hallarda təhsilalanlara praktik bacarıqlar, peşəkarlıq səviyyələri artırmaqdan istər ilkin müəllim hazırlığında, istərsə də ixtisasartırma təhsilində daha çox pedaqoji, psixoloji və metodoloji nəzəriyyələrə yer ayırırlar. Üstəlik ümumtəhsil məktəblərində pedaqoji təcrübələr də bir sıra hallarda lazımi səviyyədə təşkil olunmur.

Haqlı olaraq, qeyd edilir ki, bütün bu kimi hallar nəzəriyyə və təcrübənin üzvi vəhdətdə olmamasına, dərslərin, auditoriya məşğələlərinin müəllim üzərində cəmləşməsinə, şagirdlərin idrak və təfəkkür fəallığının, yaradıcı müstəqilliyinin, təşəbbüskarlığının diqqət mərkəzində saxlanmasına gətirib çıxarır.

Bütün bunlar nəzərə alınaraq, ali məktəblərdə "Təhsilin əsasları" fənninin tədrisi məqsədəuyğun hesab edilmişdir. "Azərbaycan Respublikasında ali təhsilin bakalavr pilləsində ibtidai sinif müəllimlərinin hazırlığı üzrə çərçivə kurikulumu"nda digər fənlərlə yanaşı "Təhsilin əsasları" tədris fənninin pedaqoji ali məktəblərin tədris planlarına salınmasının vacibliyi əsaslandırılmış, təlimin nəticələri (yəni bu fənlə tanışlıq başa çatdıqdan sonra tələbələr hansı bilik və bacarıqlara hansı səviyyədə yiyələnməlidirlər, fənn üzrə təlim nəticələrinin ümumi təlim nəticələri ilə qarşılıqlı əlaqəsi üzərində dayanılmış, eyni zamanda fənnin məzmununa aydınlıq gətirilmişdir.

"Təhsilin əsasları" kursu 4 əsas bölməni əhatə edir: 1) təhsilin fəlsəfəsi; 2) təhsil siyasəti; 3) kurirulum və yeni təlim strategiyaları; 4) təhsilin iqtisadiyyatı və pedaqoji təcrübə.

Təhsil haqqında Azərbaycan Respublikasının Qanununu yerinə yetirmək məqsədilə Azərbaycan dövləti ardıcıl tədbirlər həyata keçirir. Təhsil sahəsində İslahat proqramının mərhələlər üzrə yerinə yetirilməsi, kurikulumların tətbiqi əlavə təhsilin yeni tələblərə uyğun qurulmasını tələb edir.

Cəmiyyətin bu sifarişini reallaşdırmaq güclü maliyyə dəstəyi, maddi-texniki təchizat, yüksək peşəkarlığa malik olan kadr potensialı tələb edir.

Son illərdə əlavə təhsil sisteminin təkmilləşdirilməsi baxımından məqsədyönlü tədbirlər həyata keçirilmişdir:

- təhsil sistemi, formaları, pillələri, müddəti, məzmunu, məqsədləri müəyyənləşdirilmişdir;
- yaradılmış hüquqi bazanın reallaşdırılması üçün dövlətin maliyyə imkanları gündən-günə güclənir;
- milli-mənəvi dəyərlər üzərində qurulan Azərbaycan təhsil sistemi mütərəqqi ümumbəşəri dəyərlərə əsaslanan qabaqcıl dünya dövlətlərinin təhsil sisteminə inteqrasiya yolunu seçmişdir;
- əsas təhsil bazasında formalaşan əlavə təhsilin məzmunu, istiqamətləri hazırlanmışdır.

Əlbəttə, görülmüş hazırlıq işləri o zaman uğurla həyata keçirilir ki, onu reallaşdıran mexanizm işləsin.

Təcrübə göstərir ki, əsas təhsil sahəsində çalışan kadrların elmi - metodik hazırlıq səviyyəsini yüksəltmək, pedaqoji ustalığını, peşəkarlığını artırmaq üçün mexanizm daha da təkmilləşdirilməli, dünyanın təhsil sistemində mövcud olan innovasiyalarla zənginləşdirilməlidir.

Əlavə təhsilin əsas istiqamətlərini modernləşdirmək üçün, fikrimizcə, aşağıdakıların nəzərə alınması məqsədəuyğundur:

- Müasir təhsilin əsas istiqamətləri dövrün tələblərinə uyğun modernləşdirilməlidir. "Azərbaycan Respublikasının Təhsil Qanunu"nda dövlətin təhsil siyasətinin əsasları, məqsədləri, strukturu, formaları təsbit olunmuşdur. Ölkədə yaradılan istənilən təhsil növü, o cümlədən əlavə təhsil bütün fəaliyyətini bu bazis üzərində qurmalı və tədricən təkmilləşdirməlidir.
- Bu gün Azərbaycan təhsili milli-mənəvi dəyərləri nəzərə almaqla özündə ümumbəşəri dəyərləri və müasir dünyanın mütərəqqi yeniliklərini əks etdirən təhsil sistemi ilə qloballaşan dünyaya inteqrasiya olunur, çünki belə bir dünyada yaşayıb, ondan təcrid olunmaq mümkün deyil. O, daim dəyişir, inkişaf edir, yeniləşir. Aydındır ki, bir neçə il ərzində öyrəndiyi bilikləri, qazandığı bacarıqları, istifadə etdiyi texnologiyaları dəyişən hər bir mütəxəssis özü də dəyişməli, inkişaf etməli, yeniləşməlidir. Müasir əlavə təhsil buna xidmət etmək üçün yaradılır.
- Əlavə təhsilin uzun illər ərzində mövcud olmuş, hazırda da, əsasən, o istiqamətdə davam edən mərkəzəqaçma-mərkəzləşmiş formaların daha çevik və tələbatı ödəyən regional formalarla əvəz olunması məqsədəuyğundur. "Kaskad" yolu ilə təlimçi hazırlığının gücləndirilməsi və ayrı-ayrı regionlarda müasir tələbləri ödəyə bilən əlavə təhsil strukturlarının yaradılması vacibdir. Bunu hansısa bir yeni müəssisənin yaradılması kimi yox, hazırda fəaliyyəti hiss olunmayan dayaq məntəqələrinin tədris-maddi bazasının gücləndirilməsi kimi nəzərə almaq lazımdır. Yüz mindən

artıq pedaqoji kadrın əlavə təhsilini Bakı şəhərində mərkəzləşmiş qaydada təşkil etmək həm fiziki, həm maddi, həm də digər amillər baxımından xeyli çətinliklər yaradır. Ona görə də yerlərdə əlavə təhsil üzrə fəaliyyət çevik və modernləşdirilmiş formaya gətirilməlidir.

- Əlavə təhsil informasiya-kommunikasiya texnologiyalarının tətbiqini tələb edən sahələrdən biridir. Bu mənada həmin fəaliyyətlə məşğul olan müəssisələrin təchizatı qəbul olunmuş orta səviyyədən yüksək olmalıdır. Əks halda ixtisası üzrə innovasiyaları öyrənməyə gələn mütəxəssis əlində olan vasitələrlə ona yenilik kimi təqdim olunan vasitələrin fərqini yaxşı mənada görməsə, belə əlavə təhsil fayda verməz.
- Əlavə təhsil stimullaşdırılmalıdır. Belə ki, həmin təhsili başa vuran mütəxəssis öz əməyinin ödənilməsindəki fərqi hiss etməsə, əlavə təhsil onun üçün nəticəsiz olur, itirilmiş vaxt sayılar. Bir halda ki, əlavə təhsilin kredit forması tətbiq olunur, müəllim özünün bacarıq və peşəkarlığını sübut edir, özünü "təsdiq" edir. Bu, onun əməyinin nəticəsinə də təsir etməlidir.

Əlavə təhsilin prinsiplərini aşağıdakı şəkildə qeyd etmək olar:

- pedaqoji fəaliyyətin yüksək ixtisas dərəcəsinə müvafiqliyi;
- ömür boyu öyrənməyin vacibliyi;
- fəallıq prinsipi (kadrların ixtisaslarını artırmaq,peşəkarlıq səviyyələrini inkişaf etdirmək məqsədilə müəllimin həmkarları ilə təcrübə mübadiləsi aparması);
- əlavə təhsilin tərəfdaşlıq əsasında həyata keçirilən fəaliyyət olması.

İxtisasartırmaya verilən müasir tələblər aşağıdakılardır:

İxtisasartırma təhsilinin:

- dövlətin təhsil siyasətinin reallaşdırılmasını, dinləyicilərin fərdi maraq və ehtiyaclarını təmin etməsi;
- ixtisasartırma təhsili sistemində rəqabətli mühitin formalaşdırılması, yəni dövlət təhsil müəssisələri ilə yanaşı, qeyri-hökümət təşkilatlarının və özəl qurumların da prosesdə iştirakı üçün şəraitin yaratması;
- müəssisələrin ixtisasartırma modellərinin inkişaf etdirilməsi üçün imkan yaratması;
- Avropa və dünya təhsil məkanına inteqrasiyası üçün zəmin yaratması.

**Məqalənin elmi yeniliyi**. Məqalədə əlavə təhsil sisteminin təkmilləşdirilməsi məqsədyönlü tədbir kimi əsaslandırılır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi**. Məqalədə irəli sürülən təklif və nəticələr ixtisasartırma təhsil sisteminin yenidən qurulmasında nəzərə alına bilər.

**ƏDƏBİYYAT**

1. Əlavə təhsilin məzmunu, təşkili və hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin veriməsi qaydası // Təhsil xəbərləri, 2010, № 6.
2. Mehrabov A. O. Əlavə təhsil sisteminin modernləşdirilməsinin əsas istiqamətləri // ARTPİ-nin "Elmi əsərlər"i, 2008, №4.
3. Cəbrayılov İ.H. Əlavə təhsilin təşkilinə yeni yanaşmalar // ARTPİ-nin "Elmi əsərlər"i, 2012, №1.
4. Əzizov R. Günün tələbi //Azərbaycan məktəbi, 2012, №1, s.79-83
5. Əzizov R., Babayev X. İxtisasartırma təhsilində yeni mexanizmlərin tətbiqi, forma və üsulları. Bakı: Müəllim, 2007

**А. Мамедова**

**ПОВЫШЕНИЕ КАЧЕСТВА ДОПОЛНИТЕЛЬНОГО ОБРАЗОВАНИЯ**

**РЕЗЮМЕ**

Практические возможности дополнительного образования, повышение профессионализма и мастерства инструкторов должны соответствовать потребностям учителей. В подготовке учителей должны быть осуществлены коренные изменения. Реализация политики образования государства и обеспечение потребности и интереса слушателей.

Формирование конкурентной среды в системе образования, и создание условий для участия в этом процессе наряду с государственными образовательными учреждениями неправительственных организаций и частных структур.

**A. Mammadova**

**IMPROVING THE QUALITY OF SUPPLEMENTARY EDUCATION**

**SUMMARY**

The feasibility of additional education, increasing professionalism and skill trainers should be in accordance with the needs of teachers. In teacher training should be implemented fundamental changes. Implementation of the education policy of the state and provide the needs and interest of the audience.

A competitive environment in the education system, and creating the conditions for participation in the process, along with state education tor governmental agencies, non-governmental organizations and private entities.

*Redaksiyaya daxil olub: 06.12.2013*

# PEDAQOJİ TƏMAYÜLLÜ ORTA İXTİSAS MƏKTƏBLƏRİNDƏ AŞAĞI KURS TƏLƏBƏLƏRİNİN TƏLİM PROSESİNƏ ADAPTASİYASI ÜZRƏ İŞİN XÜSUSİYYƏTLƏRİ

**Arzu Fərzəliyeva,**
E-mail: arzu_66@rambler.ru

**Rəyçilər:** *dos.* **T. Paşayev,**
*dos.***X. Talıbova**

***Açar sözlər:*** *pedaqoji təmayüllü, orta ixtisas məktəbləri, aşağı kurs tələbələri, təlim prosesi, adaptasiya*
***Ключевые слова****: педагогические цели, специальные средние школы, студенты начальных курсов, учебный процесс, адаптация*
***Keywords:*** *educational purposes, special schools, students are undergraduates, the learning process, the adaptation*

Cəmiyyətdə sosial – iqtisadi yeniliklər şəraitində sosial adaptasiya problemləri və onun uğurla həyata keçirilməsi üçün optimal şəraitin yaradılması daha da aktual problemə çevrilir. Dəyəri meyllərin dəyişilməsi həyat fəaliyyətinin təhsil sahəsinə təsir göstərməyə bilməz.

Müxtəlif peşələrin nüfuz səviyyəsi dəyişilmişdir. Yaxın keçmişdə məktəb məzunları arasında müəllim peşəsi ən nüfuzlu peşələrdən biri sayılırdısa, bu gün o, öz yerini digər peşələrə verməkdədir. Bununla əlaqədar olaraq pedaqoji kolleclərin sosial və peşəkar adaptasiyası təhsil prosesinin ayrılmaz hissəsinə çevrilir. Pedaqoji orta təhsil müəssisələrinin tələbələrinin adaptasiyası elmi problem kimi kifayət qədər öyrənilməmişdir.

Bununla əlaqədar olaraq fərdin fəal mövqeyinin, nailiyyətlərin motivləşdirilməsinin, şəxsi məsuliyyətin və müstəqilliyinin formalaşdırılması problemi böyük əhəmiyyət kəsb edir. Təhsilin təşkili yollarının formalarının effektivliyi, təhsildə arzu olunan uğurların, özünü inkişaf etdirmə üsullarının əldə olunması tələbələrin real təhsil şəraitinə adaptasiyasından asılıdır.

Orta peşə təhsilinin modernləşdirilməsi tələbələrin pedaqoji kollecin fəaliyyətinin daim dəyişən şəraitində tədris olunmasına yeni yanaşmalar tələb edir. Orta peşə təhsilinin təhsil müəssisələrinin yalnız tələbələrin dərslərdə müvəffəqiyyətinə, onlara bilik və bacarıqların verilməsinə istiqamətlənməsi müasir şəraitin tələblərinə zidd olmaqla adaptasiya funksiyalarını tələb edir. Məktəblərin bir çox məzunları keyfiyyətli biliklərə malikdirlər. Onlar elm və texnikanın son nailiyyətlərini mənimsəmişlər, lakin əksəriyyəti kollec məkanının şəraitinə adaptasiya zamanı çətinliklər çəkir.

Adaptasiya problemi dəfələrlə pedaqoq, psixoloq və sosioloqların diqqət mərkəzinə cəlb olunmuşdur. Elmi ədəbiyyatda təsdiqlənir ki, tələbənin orta peşə təhsilinin təhsil müəssisəsində adaptasiyası onun gələcəkdə peşəkar, şəxsiyyət kimi inkişaf etməsi, müstəqilliyinin və fəallığının artması üçün şəraiti təmin edir.

Pedaqoji kollecin ilkin mərhələsində tələbələrin adaptasiyası probleminin tədqiq olunmasının nəticələrinin böyük əhəmiyyətinə baxmayaraq, bir çox mühüm məsələlər az işlənmişdir. Adaptasiyanın peşəkar inkişaf prosesində və gələcək pedaqoqun inkişafında rolunun müasir anlayışını əhəmiyyətli şəkildə dəqiqləşdirmək zəruriyyəti mövcuddur. Aşağı kurs tələbələrinin pedaqoji kollecin təhsil prosesində adaptasiyasının təmin olunması xüsusiyyətləri haqqında məsələlər də araşdırma tələb edir.

Pedaqoji kollec tələbələrinin adaptasiyası öz spesifikasına malikdir ki, burada yeni, məktəbdən fərqli şəraitdə 15-19 yaşlı gənc qız və oğlanların şəxsi və peşəkar inkişafı baş verir. Adaptasiya şəxsiyyətin strukturunda müəyyən dəyişikliklərin baş verməsi ilə fəallığını əhatə edir. Təhsilin ilkin mərhələsində tələbələr tədris-idrak fəaliyyətində müəyyən çətinliklərlə rastlaşırlar ki, bu da idrak müstəqilliyini, kommunikativ bacarıqların mövcudluğunu, pedaqoq peşəsinə aid dəyərli meylləri tələb edir.

Bu zaman özünü inkişaf etdirmə prosesində, özünüdərketmədə və “Mən” obrazının formalaşmasında ziddiyyətlər artır və çətinliklər əmələ gəlir. Kollec tələbələrinin adaptasiya çətinliklərinə qalib gəlmələri üçün əlverişli şəraitin yaradılması təhsil-tərbiyə prosesinin birliyini, fasiləsizliyini və şəxsiyyətin inkişafında varəsəliliyi təmin edir.

Kollec tələbələrinin adaptasiya probleminin elmi və təcrübi həlli adaptasiya prosesinin uğurlu keçməsinə yardım edən sosial-pedaqoji şərtlər kompleksinin müəyyən olunmasını və əsaslandırılmasını tələb edir.

Orta peşə təhsili sahəsində elmi-tədqiqatların təhlili və sosial-pedaqoji təcrübənin vəziyyəti aşağıda qeyd olunanlar arasında ziddiyyətləri aşkar etmək imkanını vermişdir:

- dövlətin və cəmiyyətin təhsil reallığının yeni şəraitinə adaptasiyasını bacaran müəllimlərə tələbatı ilə onun orta peşə təhsili sistemində formalaşması üçün şəraitin kifayət qədər olmaması arasında;
- təhsil təcrübəsinin aşağı kursların tələbələrinin pedaqoji kollecdə adaptasiyası tələbi ilə bu problemin peşəkar pedaqogikada kifayət qədər işlənməməsi arasında;
- tələbələrdə adaptasiyanın uğurunu təmin edən şəxsi keyfiyyətləri və nəticə etibarilə, təhsil prosesinin uğurlu təşkil olunması ilə pedaqoji kollecin təhsil prosesi tərəfindən irəli sürülən tələblər sistemi arasında.

Aşkar olunmuş aktual ziddiyyətlərin həll olunma yollarının axtarışının zəruriliyi tədqiqat problemini müəyyən etmişdir ki, o, aşağı kurs tələbələrinin adaptasiya prosesinin təmin olunması xüsusiyyətlərinin aşkar edilməsindən və pedaqoji kollecin təhsil məkanında peşəkar hazırlığın təşkil olunmasında onların nəzərə alınması şərtlərinin axtarışından ibarətdir.

Elə vəziyyətlər də mövcuddur ki, bu zaman hər hansı bir həyat sahəsinin həddindən artıq dəyərli olduğu müəyyən edilir, bu sahədə uğurların qazanılması imkanları isə bir o qədər də əhəmiyyətli deyil. Bu, tələbədə adaptasiya çətinliklərinin mövcudluğundan xəbər verir. Tələbə üçün arzu olunan və mümkün olan amillər arasında fərqlər səviyyəsi nə qədər az olsa, bir o qədər də daxili harmoniya və müvafiq olaraq, sosial-peşəkar adaptasiya səviyyəsi də yüksək olar.

Kollec tələbələrinin dəyərli meyllərinin həyata keçirilmiş tədqiqatı həyatın bu və ya digər sahələrinin əhəmiyyətini müəyyən etmişdir. Dəyərlərin iyerarxiya sistemində birinci yerləri “Xoşbəxt ailə həyatı”, “Yaxşı və sədaqətli dostların mövcudluğu”, “Sağlamlıq”, “Məhəbbət” tutmuşdur. Bu dəyərlərin yüksək göstəriciləri yeniyetmə yaşlarının psixoloji xüsusiyyətləri ilə izah olunurdu. Kollecə daxil olan gənc qızlar və oğlanlar öz peşə seçimini etmişlər, lakin, onlar üçün ailə qurmaq kimi həyat əhəmiyyətli problem həll olunmamış qalır.

Bununla yanaşı, bir fakt da diqqətə layiqdir ki, onların gələcək peşəkar fəaliyyətlərinə aid olan dəyərlər (“Yaradıcılıq”, “Fəal fəaliyyət”, “Dərketmə”, “Maraqlı iş”) tələbələrlə söhbətlərdə qeyd olunmurdu.

Əldə olunmuş nəticələr tələbələrdə idrak prosesinə, yaradıcılıq axtarışlarına, gələcək peşəyə marağın artırılmasına dəyərli münasibətin formalaşdırılmasının zəruriliyini göstərirdi.

Kollec tələbələrinin şəxsiyyətinin adaptasiyasının əsas şərtlərindən biri onların özünü inkişaf etdirmələridir. Tələbələrin özünü inkişaf etdirmə şərtlərinin yaradılması üzrə pedaqoqların işi müxtəlif istiqamətlərdə aparılır. Onlardan biri – pedaqoji kollecdə ünsiyyət zamanı özünü inkişaf etdirmə olmuşdur.

Ünsiyyət bacarığı müəllimin mühüm peşəkar cəhətidir və sosial-peşəkar adaptasiyada əhəmiyyətli rol oynayır. Tələbələrin öz qrup tələbələri, digər qrupların tələbələri və müəllimlərlə ünsiyyətinin uğurlu olması sosial adaptasiyanın etibarlı amilidir.

Beləliklə, həyata keçirilmiş tədqiqatda pedaqoji kollecdə tələbələrin sosial-pedaqoji adaptasiyasının aşkar olunmuş xüsusiyyətləri adaptasiya prosesinin optimallaşdırılması yollarını və onların həyata keçirilməsi imkanlarını müəyyən etmək imkanını vermişdir.

Adaptasiyanın ümumi məsələləri üzrə tədqiqatlar kontekstində pedaqoji kollec tələbələrinin həyat fəaliyyətinin yeni şəraitinə və gələcək peşəyə adaptasiya prosesi də öyrənilmişdir.

Adaptasiyanın təmin olunması – tələbələrin pedaqoji məkanın fəal mənimsənilməsi prosesidir və aşağıda qeyd olunan aspektləri əhatə edir:

• tələbənin şəxsi xüsusiyyətlərinin uçotu (dəyəri, meyillər, bacarıqlar, təcrübə, özünü qiymətləndirmə və s.)

• adaptasiya tələbənin dərs də və dərsdənkənar vaxtda sosial – pedaqoji fəaliyyətindən asılıdır.

• Adaptasiya prosesinin idarə olunması aksioloji metoda əsaslanmalıdır.

• Gələcək müəllimlərin sosial – peşə adaptasiyasının fundamenti qismində tələbələrin adaptasiyası üzrə tədbirlər çıxış edə bilər.

**Məqalənin elmi yeniliyi**. Məqalədə göstərilir ki, ünsiyyət bacarığı müəllimin peşəkar mühüm cəhəti olub, sosial-peşəkar adaptasiyada əhəmiyyətli rol oynayır. Tələbələrin öz qrup tələbələri, digər qrupların tələbələri və müəllimlərlə ünsiyyətinin uğurlu olması sosial adaptasiyanın etibarlı amilidir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi**. Məqalədə irəli sürülən təklif və nəticələr müəllim-tələbə münasibətlərinin yenidən qurulmasında nəzərə alına bilər.

## ƏDƏBİYYAT


1. Ялийев Б.Щ., Жаббаров Р.В. Тящсилдя шяхсиййят проблеми. Бакы: Нурлан, 2007.

2. Щямзяйев М.Я., Ямирасланова С.Ф. Цнсиййятин психолоэийасы. Дярс вясаити. Бакы: Нурлан 2007.

3. Адаптация студентов к условиям обучения в педагогическом колледже. Санкт-Петербург, 2008.

4. Балл Г.А. Понятие адаптации и его значение для психологии личности // Вопросы психологии, 1989, № 1.

5. Брудный В.И. Адаптация студентов младших курсов вуза: из опыта работы технических вузов юга Украины. М., 1975.


**А. Фарзалиева**

## ОСОБЕННОСТИ ОБЕСПЕЧЕНИЯ ПРОЦЕССА АДАПТАЦИИ СТУДЕНТОВ МЛАДШИХ КУРСОВ В ОБРАЗОВАТЕЛЬНОМ ПРОСТРАНСТВЕ ПЕДАГОГИЧЕСКОГО КОЛЛЕДЖА

### РЕЗЮМЕ

Адаптация включает активность личности с определенными изменениями в ее структуре. На начальном этапе обучения студенты испытывают значительные трудности в учебно-познавательной деятельности, требующей сформированной познавательной самостоятельности, коммуникативных умений, ценностных ориентаций на педагогическую профессию. Создание благоприятных условий для преодоления студентами колледжа трудностей адаптации в обозначенный период обеспечивает единство, непрерывность учебно-воспитательного процесса и преемственность в развитии личности.

**A. Farzalieva**

## FEATURES OF ENSURİNG THE ADAPTATİON OF THE JUNİOR STUDENTS İN THE EDUCATİONAL SPACE TEACHERS COLLEGE

### SUMMARY

Adaptation involves the activity of the individual with certain changestions in its structure. At the initial stage of study, students have great difficulty in learning and cognitive activitiession requiring formed cognitivetionsion independent, communicative mindtions, values on teaching profession. Creating favorable conditions for overcoming the difficulties of college students adapt to a designated period shall ensure the unity, the continuity of the educational process and continuity in the development of the individual.

*Redaksiyaya daxil olub: 06.11.2013*

# MÜƏLLİMLƏRİN PEŞƏKARLIQ SƏVİYYƏSİNİN ARTIRILMASI TƏHSİLİN MODERNLƏŞDİRİLMƏSİNİN ŞƏRTLƏRİNDƏN BİRİ KİMİ

**Adilə Nəzərova,**
*ARTPİ-nin böyük elmi işçisi*
E-mail: adile1970@mail.ru

**Rəyçilər:** *prof.* **A. Abbasov,**
*dos.***A. Hacıyev**

***Açar sözlər:*** *təhsil, islahat, peşə hazırlığı, inkişaf, keyfiyyət, meyar*
***Ключевые слова:*** *образование, реформа, профессиональная подготовка, развитие, качество, критерий*
***Keywords:*** *education, reform, professional training, development, quality, criteria*

**Məsələnin qoyuluşu.** Təhsilin keyfiyyət göstəricilərinə təsir edən amillər sırasında müəllim kadrların peşəkarlıq səviyyəsi xüsusi qeyd edilir. Azərbaycan təhsil sisteminin modernləşdirilməsinin mühüm komponentlərindən biri olan müəllimlərin peşə hazırlığının təkmilləşdirilməsi pedaqoji problem kimi araşdırılmalıdır.

**İşin məqsədi.** Ümumtəhsil məktəblərində aparılan islahatın tələblərinə müvafiq olaraq müəllimlərin tədrisdən ayrılmadan peşə hazırlığının səmərəli təşkili formalarını müəyyənləşdirməkdir.

Ölkəmizin sosial-iqtisadi inkişafı gələcəyə istiqamətlənmiş təhsil sahəsinin möhkəm dayaqlar üzərində qurulmasına zəmin yaradır. Keçən əsrin sonlarından başlayaraq təhsildə aparılan məqsədyönlü islahatlar onun maddi-texniki bazasının güclənməsinə, məzmununun milli və bəşəri dəyərlər əsasında zənginləşməsinə, təşkili forma və metodlarının müasir pedaqoji-psixoloji tələblərə uyğun yeniləşməsinə təkan vermişdir ki, bu da yetişməkdə olan nəslin hərtərəfli hazırlığına xidmət edir.

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasında” bu genişmiqyaslı inkişafın dinamikası, məqsəd və hədəfləri 5 stratejesi xətt üzrə açıqlanmışdır. “Təhsilalanların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən yüksək nüfuzlu təhsilverənin formalaşdırılması” kimi ifadə olunan ikinci strateji istiqamət təhsilin aparıcı qüvvəsi sayılan müəllim kadrların peşəkarlıq səviyyəsinin yüksəldilməsi ilə bağlı tədbirləri əhatə edir. Göstərilən tədbirlər sırasında maraq doğuran alt komponentlərdən biri “müəllimlərin təhsil müəssisəsi səviyyəsində, tədrisdən ayrılmadan peşəkarlıq səviyyəsinin artırılması üzrə özünü doğrultmuş innovativ modellərin tətbiqi” adlanır ki, dövrümüz üçün olduqca aktual olan bu məsələ ətrafında ayrıca dayanmaq istərdik.

Человеческие ценности, интеллектуальные отношения займут самое видное место в новом веке. А это значит, что именно профсоюзы, призванные заботиться о человеке, представлять и защищать его интересы, должны стать одной из центральных фигур общества.

## ЛИТЕРАТУРА

1. Azərbaycan Respublikasının Konstitusiyası: 12 noyabr 1995-ci ildə qəbul edilmişdir. (Əlavələr və dəyişikliklə). Bakı: Qanun, 2012.

2. Qaraşov H.T. Həmkarlar ittifaqları vətəndaş cəmiyyətinin mühüm sosial mexanizmidir: tarix və müasirlik. Bakı. 2009.

3. Башмаков В.И. Профсоюзы как социальный институт. М.: Государственный Университет Управления, 2001.

4.Гриценко Н.Н. О чем свидетельствует мировой опыт // Экспресс-выпуск ВКП. 1994, № 2

5.Можаев В.Е. Мотивация профсоюзного членства в современных условиях: новое в зарубежном опыте // Вестник профсоюзов. 1999, № 2.

6.Adam B. Time and Social Theory. Cambridge, 1990.

7.Crouh C. Trade Unions: The logic of collective action. Glasgow, Fontana, 1982.

**R.Ş. Şərifov**

# HƏMKARLAR İTTİFAQI İŞÇİLƏRİNİN FƏALİYYƏTİNİN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASINDA TƏHSİLİN VƏ SOSİAL-PSİXOLOJİ AMİLLƏRİN ROLU

## XÜLASƏ

Məqalə Həmkarlar İttifaqlarının sosial bazasının bazar iqtisadiyyatı şəraitində təşkilinin aktual problemlərinin tədqiqinə həsr olunmuşdur. Göstərilir ki, onların fəaliyyətində təhsil, sosial-psixoloji amillər mühüm rol oynayır.

Vətəndaş cəmiyyətinin strukturunda Həmkarlar İttifaqlarının fəaliyyətinin təşkilinin yeni mexanizmlərinin işlənib hazırlanmasına xüsusi diqqət yetirilir.

Müqayisəli tədqiq metodu vasitəsilə əmək bazarının iştirakçılarının maraqlarının müdafiəsinin Həmkarlar İttifaqları vasitəsilə həyata keçirilməsi funksiyalarının universal və xüsusi formaları qlobal, regional və lokal səviyyələrdə öyrənilir.

**R.Sh. Sharifov**

# THE RULE OF EDUCATION AND SOCIO-PSYCHOLOGICAL FACTORS AT INCREASING EFFICIENCY OF TRADE UNION WORKERS ACTIVITY

## SUMMARY

The article is devoted to research of actual problems of creation of a social base of trade-union movement in the conditions of market economy.

The special attention is given to a question of development of new mechanisms of the organization of activity of trade unions in structure of civil society.The method of comparative research considers universal and special forms of implementation by function trade unions on protection of interests of participants of a labor market in global, regional and local levels.

*Redaksiyaya daxil olub: 04.11.2013*

# ИНТЕЛЛЕКТУАЛ ИНКИШАФЫ ПРОБЛЕМЛИ КИЧИК ЙАШЛЫ МЯКТЯБЛИЛЯРИН ТЯФЯККЦРЦНЦН ТЯЛИМ ПРОСЕСИНДЯ ИНКИШАФ ЕТДИРИЛМЯСИ ИМКАНЛАРЫ

**Диларя Достузадя**
*редагоэика цзря фялсяфя доктору,*
*АРТПИ*
Е-маил: д.достузаде@маил.ру

**Ряйчиляр:** *dos.* **Т. Пашайев,**
*dos.* **С. Həsənova**

***Ачар сюзляр***: *тяфяккцр, идрак просеси, ягли инкишаф, щафизя, интеллект*
***Ключевые слова***: *мышление, познавательный процесс, интеллектуальное развитие, память, интеллект*
***Key words***: *thinking, proses cognitive, intellectual development, memory, intelligence*

Мцстягил инкишаф етмиш республикамызда бюйцмякдя олан нормал ушаг-ларла йанашы саьламлыг имканлары мящдуд ушагларын орта тящсил алмасы, онларын мяняви мядяниййятинин вя шцурунун артмасы, гцсурлу ушагларын формалашмасы цчцн йени имканлар йарадыр. Бу бахымдан саьламлыг имканлары мящдуд ушагларын интеллектинин инкишафы да диггят мяркязиндя олмалыдыр. Беля ушагларын нормал вятяндаш вя шяхсиййят кими формалашмасында елмин, тящсилин вя тярбийянин ролу бюйцкдцр.

Цмуммилли лидеримиз Щейдяр Ялийевин 2001-жи илдя «Саьламлыг имканлары мящдуд шяхслярин хцсуси тящсили щаггында Ганунда» эюстярдийи кими хцсуси мяктяблярдя тялим-тярбийя ишляринин кейфиййятини йцксялтмяйи тяхиря салынмаз вязифя кими гаршыйа гойур.

Хцсуси мяктяблярдя тялим-тярбийя ишляринин мязмунуну, форма, васитя вя методларыны тяхиря салмадан йахшылашдырмаг, мцяллимлярин хцсуси мяктяблярдя йарадыжылыьыны артырмаг вя беляликля, мяктяб ишляринин кейфиййятини бцтцнлцкдя йцксяк сявиййяйя галдырмагдан ибарят олмалыдыр.

Мцкяммял тялимин нятижяси сонралар саьламлыг имканлары мящдуд ушагларын шяхсиййят кими формалашмасында юзцнц эюстярир. Щазырда, тящсил ислащаты юлкямиздя мцвяффягиййятля щяйата кечирилир.

Саьламлыг имканлары мящдуд олан жямиййятин кичик цзвляринин шяхсиййят кими формалашмасы дцзэцн вя кейфиййятли тялим просесинин тяшкилиндян асылыдыр.

Мяктябйашлы ушагларын бир гисминин данышыг габилиййяти олмадыьындан онлар ятрафында оланларла цнсиййят сахлайа билмирляр. Щямин ушагларла иш апармаг цчцн дефектологларын гаршысында мцщцм вязифяляр дурур.

Ешитмяси, эюрмяси, ягли гцсурлу ушаглар цзяриндя апарылан мцшащидяляр вя тяжрцбяляр эюстярир ки, мяктябдя бцтцн тялим-тярбийя ишляринин мцвяффягиййяти шаэирдлярин ана дилини вя ядяби тяляффцз нормаларыны йахшы юйрянмясиндян асылы-дыр.

Интеллектуал инкишафы проблемли кичикйашлы мяктяблилярин тяфяккцрцнц инкишаф етдирмяк цчцн ана дили тядрисиндя мювзулары йахшы билмяк, онларын арасындакы ялагялярин тядриси ардыжыллыьыны эюзлямяк лазымдыр. Бу ушагларла иш апармаг цчцн, сурдопедагог-тифлопедагог вя логопедлярин гаршысында мцщцм вязифяляр дурур.

Ы синифлярдян башлайараг интеллектуал инкишафы проблемли кичикйашлы мяктяб-лилярин лцьят ещтийатыны зянэинляшдирмяк, шифащи нитгини инкишаф етдирмяк лазымдыр.

Ушаглар нитгин мянтиги ардыжыллыгла гурулмасына, юз фикирляринин шифащи йазылыш формасыны (кар ушагларда ял щярякятляринин дцзэцн йолуну юйряндикдян сонра дактилля) вя йазы гайдаларыны тядрис просесиндя мянимсямяйя чалышырлар. Беляликля, ушагларын щафизяси, дцшцнжя габилиййяти тядрижян инкишаф едир. Онлар бир щадисяни диэяриндян фяргляндирмяйя, цмумиляшдир-мяйя, йекунлашдырмаьа, нятижя чыхармаьа, сюзляри жцмлядя ишлятмяйя мцяййян гядяр чятинлик чякирляр.

Н.М. Лаговски эюстярир ки, мцяллимлярин жящди нитгимизи ушаглара чат-дырмаг олмушдур. О, ушагларда шифащи данышыг вярдишляринин йарадылмасыны ян мцряккяб бир иш щесаб етмишдир.

Щазырда саьламлыг имканлары мящдуд мяктяблярдя интеллктуал инкишафы проблемли кичикйашлы мяктяблилярин тяфяккцрцнцн инкишафы цчцн мяктяблярин гаршысында дуран ясас вязифялярдян бири ушагларда шифащи вя йазылы нитгин формалашдырылмасындан ибарятдир. Мялум олдуьу кими саьламлыг имканлары мящдуд ушагларда оху вярдишинин ясасян Ы синифдя тяшкили, гцсурлу ушагларын цмуми билийинин системли шякилдя инкишафына кюмяк едир.

Интеллектуал инкишафы кичикйашлы мяктяблилярин тяфяккцрцнцн тялим просе-синдя иш системинин щазырланмасы, тялимин мязмуну, формалары, методлары, васитяляри, шаэирдлярин тялим-тярбийяси вя инкишафы арасында гаршылыглы ялагянин йаранмасы мягсядини эцдцр.

Инкишафын щяр бир дюврцндя апарыжы фяалиййят просесиндя йени мцнасибятляр, йени биликляр вя онларын мянимсянилмяси йоллары мейдана чыхыр. Бу шяхсиййятин идрак сащясини, тяфяккцрцнц вя психолоъи структуруну дяйишир. Саьламлыг имкан-лары мящдуд ушагларын щяртяряфли тярбийя олунуб йетишмялярини тямин етмяк цчцн, мцяллим-тярбийячилярин юз цзярляриндя ишлямяляри вя тящсиллярини артырма-ларына ясаслы шяраит йарадылмалыдыр.

Психи инкишафы нязярдян кечирян А.Валлон эюстярир ки, инкишафын мцяй-йянедижи нятижяси ушаг шяхсиййятинин формалашдырылмасыдыр.

Интеллектуал инкишафы проблемли кичикйашлы мяктяблилярин тяфяккцрцнцн фор-малашдырылмасы проблеми, онларын ягли инкишафында тялимин ролу, тялим материал-ларыны мянимсямя имканлары, мцяллим-шаэирд мцнасибятляри вя с. мясяляляр психологларын мягсядйюнлц тядгигатларынын ана хяттини тяшкил едир.

Интеллектуал инкишафы проблемли кичикйашлы мяктяблилярин тяфякцрцнцн шифащи вя йазылы нитг вярдишляринин формалашдырылмасы цчцн, ялверишли метод вя цсулларын ишляниб щазырланмасы сон дяряжя важибдир.

Й.А. Ушински гейд едир ки, ушагларын дил сащясиндяки габилиййятлярини инкишаф етдирмяк цчцн щяр шейдян яввял, онларын дцзэцн фикирляшмяк габилий-йятини инкишаф етдирмяк лазымдыр.

Тяфяккцр тярбийянин тясири алтында тяшяккцл тапыр вя инкишаф едир. Педагоъи жящятдян интеллектуал инкишафы проблемли кичикйашлы мяктяблиляри щазырламаг цчцн онларын бцтцн жящятляриня фикир вермяк лазымдыр. Шифащи оху гайдалары, нитг инкишафы, йазылы нитг инкишафы, бир-бири иля баьлы олараг ейни вахтда инкишаф етдирилмялидир. Бу заман интеллектуал инкишафы проблемли ушаьын билийя олан мараьы артар вя шаэирд тящсилини давам етдирмяйя чалышар. Интеллектуал инкишафы проблемли кичикйашлы ушаьын охумасы-йазмасы ейни формада инкишаф етмялидир. Мцяллим-тярбийячи интеллектуал инкишафы

проблемли кичикйашлы мяктябли ушаьын шифащи нитгиня системли нязарят етмялидир.

Н.М. Лаговски, мяктябли ушагларда тяфяккцр вярдишляринин йарадылмасыны ян мцряккяб бир просес щесаб етмишдир. Щазырда мяктяблярдя мцяллимлярин гаршысында дуран ясас мясялялярдян бири интеллектуал инкишафы проблемли кичик-йашлы мяктяблилярин тяфяккцрцнцн инкишаф етдирилмяси, йазылы вя шифащи нитгин формалашдырылмасындан ибарятдир.

Тяжрцбя эюстярир ки, шякилляр цзря иш интеллектуал инкишафы проблемли кичик-йашлы мяктяблиляри мцсащибядя иштирак етмяйя щявясляндирир, ушагларын нитг нюгсанларынын мцяййянляшдирилмяси, хцсуси бир чятинлик щисс етмядян щялл олунур вя фярди иш апарылмасы цзря вязифяляр дягигляшир.

Интеллектуал инкишафы проблемли кичикйашлы мяктяблийя нитг вярдишинин ашыланмасында тяляффцз мцщцм ящямиййят кясб едир. Тяляффцз даим диггят мяркязиндя олмалыдыр. Ушаглар дярсдя мцяллимля данышыр, ондан сяслярин дцз-эцн тяляффцзцнц юйрянирляр, дярсдян сонра бу иш тярбийячинин цзяриня дцшцр.

Щазырда хцсуси вя цмумтящсил мяктябляриндя интеллектуал инкишафы проб-лемли кичикйашлы мяктяблилярин тяфяккцрцнцн тялим просесиндя инкишаф етдирилмяси ишинин тяшкилинин юйрянилмяси арашдырылыр.

Интеллектуал инкишафы проблемли кичикйашлы мяктяблилярин тяфяккцрцнцн тялим просесиндя инкишаф етдирилмяси тялим-тярбийя просесиндя фяалиййятляринин тяшкили цчцн ясасдыр.

Мяктябдя нитг инкишафынын тядриси просесиндя интеллектуал инкишафы проб-лемли кичикйашлы мяктяблилярин щафизяси, дцшцнмя габилиййяти инкишаф етдирилмя-лидир.

Мяктяблярдя щазырда интеллектуал инкишафы проблемли кичикйашлы ушаглар цчцн тялим йени тякмилляшдирилмиш програмлар ясасында апарылмыр, бу ися фян-лярин мязмунуну мцасир сявиййяйя галдырмаьа имкан вермир. Мцяллим-тярбийячиляр шаэирдляря дярин билик вя вярдишляр ашыламаьа чятинлик чякирляр.

Интеллектуал инкишафы проблемли кичикйашлы мяктяблилярин тяфяккцрцнц инкишаф етдирмяк цчцн, тядрис просесиндя техники каситя вя яйаниликдян сямяряли истифадя етдикдя, ушагларын нитги фяаллашыр, кечилян материаллары асанлыгла мяним-сяйя билирляр.

Тялим просесиндя шаэирдляр тякжя билик мянимсямякля кифайятлянмир, щям дя юз тяфяккцрляринин мцхтялиф хцсусиййятлярини инкишаф етдирирляр. Тялим йалныз мянимсямяк цзяриндя дейил, ейни заманда шаэирдин ягли инкишафы цзяриндя дя рящбярлик просесидир. Буна эюря дя шаэирдлярин ягли инкишафы хцсусян тяфяк-кцрцнцн инкишафы тялим ишинин нежя тяшкил едилмясиндян, щансы цсуллардан истифадя олунмасындан, интеллектуал инкишафы проблемли кичикйашлы мяктяблилярин тяфяк-кцрцнцнц инкишафы уьрунда мцяллимин шцурлу олараг нежя мцбаризя апарма-сындан асылыдыр. Интеллектуал инкишафы проблемли кичикйашлы мяктяблилярин тяфяк-кцрцнцн инкишафы вя тярбийяси гайьысына галмаг мяктябин цмуми вязифясинин ян мцщцм тяркиб щиссясидир.

Тялим просесиндя интеллектуал инкишафы проблемли кичикйашлы мяктяблилярин тяфяккцрцнцн инкишафы дедикдя ня баша дцшцлцр?

Тялим просесиндя бир тяряфдян мяктяблилярин тяфяккцрцнцн формалары инкишаф едир. Мяктяблиляр щюкмцн мцхтялиф нювляриндян йериндя вя дягиг сурятдя истифадя етмяйи юйрянирляр, онларда тядрижян ягли нятижяляр инкишаф едир. Диэяр тяряфдян тялим просесиндя шаэирдлярдя фикри просесляр инкишаф

едир: онлар тящлил, тяркиб, цмумиляшдирмя, мцжяррядляшдирмя, мцгайися етмя вя с. кими фикри просесляря йийялянирляр.

Интеллектуал инкишафы проблемли кичикйашлы мяктяблилярин тяфяккцрцнцн тялим просесиндя инкишаф етдирилмяси сайясиндя, онлар мцхтялиф тялим материалларыны асанлыгла мянимсяйя билир вя биликлярини зянэинляшдирирляр.

**Мягалянин елми йенилийи**. Интеллектуал инкишафы проблемли кичикйашлы мяк-тяблинин нитг инкишафына гайьы иля йанашдыгда бу сащядя йцксяк мцвяффягиййят ялдя етмяк мцмкцндцр.

**Мягалянин практик ящямиййяти**. Мягалядя иряли сцрцлян тяклифляр, нятижяляр цмумтящсил вя хцсуси мяктяб вя ушаг баьчаларында, тялим-тярбийя просесиндя фярди йанашмагла арадан галдырла биляр.

## ЯДЯБИЙЙАТ

1. С.Гасымов. Хцсуси мяктяблярдя аномал ушагларын нитг инкишафы. Бакы: Маариф, 1999.

2. Д.Достузадя. Зяифешидян вя сонрадан карлашмыш ушагларын тящсилинин бязи мясяляляри // Ибтidai мяктяб вя мяктябягядяр тярбийя 2010, №-1.

3. Й.Кяримов.Ана дилинин тядриси методикасы. Бакы: Насир, 2003.

4. Я.Гядиров. Ушагларда идрак просеслярининн инкишафы. Бакы: Маариф, 1970.

**Д. Достузаде**

## РАЗВИТИЕ МЫШЛЕНИЯ ДЕТЕЙ МЛАДШЕГО ВОЗРАСТА С ИНТЕЛЛЕКТУАЛЬНЫМИ ПРОБЛЕМАМИ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ

### РЕЗЮМЕ

Интеллектуальное развитие детей младшего возраста с интеллектуальными проблемами в процессе обучения ставит целью подготовку системи работы, содержания обучения, формы, методы, средства и взаимную связь между воспитательно-образовательной работой и развитием детей.

Для опеспечения всестореннего развития таких детей педагоги- воспитателя должны постоянно работать над собой. Необходимо также создание условий для повышения потенциальных возможностей работников этой области.

**Д. Достузаде**

## THE DEVELOPMENT OF THINKING OF YOUNGER CHILDREN WITH INTELLECTUAL PROBLEMS IN LEARNING

### SUMMARY

The intellectual development of younger children with mental problems in the learning process aims to prepare the system work, training content, forms, methods, tools, and the mutual relationship between the educational and work and educational development of children .

For opespecheniyav vsestorennego development of these children teachers -educators need to work on yourself and need to create conditions for increasing the potential of employees in this area.

*Redaksiyaya daxil olub: 01.10.2013*

# KİÇİK YAŞLI MƏKTƏBLİ ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA ÖZÜNÜTƏSDİQİN ROLU

**Xalidə Talıbova,**
*pedaqogika üzrə fəlsəfə doktoru*
E-mail: xalidetalibova@mail.ru
**Aidə Əliyeva,**
*Qazax şəhəri, 1 nömrəli məktəbin müəllimi*
E-mail: aliyevaida@mail.ru

**Rəyçilər:** *dos.* **M. İbadova,**
*dos.* **V. Kərimov**

***Açar sözlər:*** *kiçik yaşlı məktəbli, şəxsiyyət, özünütəsdiq, müəllim, valideyn*
***Ключевые слова:*** *малолетний школьник, личность, самореализация, учитель, родитель, воспитание*
***Keywords:*** *young schoolboy, identity, say, a teacher, parent, parenting*

Şəxsiyyət ətraf aləmlə, insanlarla və özü ilə qarşılıqlı əlaqə prosesində reallaşır, bu da onun xüsusiyyətlərində və keyfiyyətlərində öz əksini tapır.

Özünütəsdiq - insanın öz həyat fəaliyyəti və şəxsiyyəti barədə biliklərin toplanması və dərk olunması prosesidir. Özünütəsdiq insanın ətraf mühiti dərk etməsi prosesinə daxil olmaqla ətrafdakılarla münasibətlərin yaranmasının mühüm şərtidir.

Özünütəsdiq motivi – özünü sosiumda təsdiq etməyə cəhd şəxsi ləyaqət, mənlik və şöhrət hissləri ilə bağlıdır. İnsan status almağa cəhd edir, ətrafındakılara sübut etməyə çalışır ki, onun dəyəri var, cəmiyyətdə onu qiymətləndirsinlər, hörmət etsinlər. Bəzən özünütəsdiqə cəhdi nüfuz motivasiyasına (yüksək sosial status almağa və ya onu saxlamağa cəhd) şamil edirlər. Beləliklə, özünütəsdiq, özünün rəsmi və qeyri-rəsmi statusunun yüksəldilməsi, onu intensiv işləməyə və tərəqqiyə sövq edən böyük motivasiya amilidir.

Kiçikyaşlı məktəbli özünütəsdiqin inkişafı və formalaşması probleminə yanaşmaların təhlili aşağıdakı məsələlərin qarşıya qoyulmasına imkan yaratdı:

- özünə, daxili dünyasına və gələcəyinə maraq oyatmaq, özünütəsdiqə sövq etmək;
- şəxsiyyətin xüsusiyyətlərini aşkarlamaqda şagirdlərə yardım etmək;
- sonrakı inkişafı və həyat məqsədlərinin reallaşdırılmasını təmin etmək;
- öz həyat yolunun və şəxsi inkişafının perspektivlərini görmək qabiliyyətini inkişaf etdirmək;
- öz həyat fəaliyyətinin müxtəlif tərəfləri, şəxsiyyətin keyfiyyətləri və xüsusiyyətləri barədə düşünmək bacarığını inkişaf etdirmək.

Özünütəsdiqin daha bir mühüm xarakteristikası şəxsiyyətin öz xüsusiyyətlərinin və imkanlarının tənqidi dərk olunması bacarığıdır. Kiçik məktəb yaşlarında təhsil fəaliyyətində uğursuzluqların təhlili müəllimlərin, valideynlərin və həmyaşıdların qiymətləndirilməsinin təsiri altında baş verir. lakin bu heç də həmişə özünü tənqidi cəhətdən təhlil etmək bacarığını formalaşdırmır.

Məktəb həyatına daxil olmaqla şəxsiyyətlərarası münasibət və əlaqələr, sosial status, stereotiplər dəyişir, bu da psixikada dəyişikliyə səbəb olur. Yeni şəraitə, təlim fəaliyyətində özünütəsdiq olunmaq üçün kiçik məktəblilər bir sıra çətinlikləri dəf etməli olurlar. Bunlar aşağıdakılardır:

- məktəb həyatında özünütəsdiq üçün məktəbin norma, ənənə və qaydalarını mənimsəmək;
- intizam qaydalarına əməl etmək, təlimə məsuliyyətlə yanaşmaq;
- yoldaşları ilə münasibətdə onların maraq və meyllərini nəzərə almaq, onu öz istəkləri ilə uyğunlaşdırmaq;
- yoldaşlarla, müəllimlərlə ünsiyyəti və birgə fəaliyyəti mənimsəmək;
- kollektivin ümumi maraq və fəaliyyətini öz maraqları ilə uzlaşdırmaq və s.

Məktəbə daxil olmaqla kiçikyaşlı məktəblidə baş verən dəyişikliklər özünütəsdiqi xeyli

çətinləşdirir və özündə psixofizioloji, sosial, pedaqoji sahələri birləşdirir. Psixoloqlar bu prosesi şəxsiyyət və ətraf mühitin qarşılıqlı əlaqə və təsiri kimi şərh edirlər.

Müşahidələr göstərir ki, kiçikyaşlı məktəblilərin təlim fəaliyyətinə başlamaları ilə onların üzərinə düşən pedaqoji, psixi və fiziki yük xeyli artır. Bu, onların həyəcan keçirmələrinə səbəb olur və kollektivdə özünütəsdiqini çətinləşdirir. Belə vəziyyət bəzən psixikanın pozulmasına, nevroza səbəb olur.

Tədqiqat zamanı kiçikyaşlı məktəblinin müəllim ilə qarşılıqlı əlaqəsinin əhəmiyyətini, həmçinin, onun sinif kollektivinin şəxsiyyətlərarası münasibətlərini nəzərə alaraq, onların xüsusiyyətləri öyrənilmişdir.

Qeyd olunan amillər əsasında şəxsiyyətin özünütəsdiq prosesində əldə olunmuş şəxsi inkişaf göstəriciləri belə müəyyən olunmuşdur:

- özünüqiymətləndirmə şəxsin özünə qarşı münasibətinin ifadəsi kimi;
- öz imkanlarına qarşı münasibət;
- özünə əminlik, müstəqillik, optimizm, özünə nəzarət, soyuqqanlılıq;
- fərdin ətraf aləmlə və digər insanlarla münasibətlərini xarakterizə edən xüsusiyyətlər;
- şəxsiyyətin özünü, öz istəklərini hiss etməsinin kompleks qiymətləndirilməsi kimi özünü aktuallaşdırma tendensiyası.

Tədqiqatın nəticələri birmənalı olaraq qeyd edir ki, kiçikyaşlı məktəblinin özünü təsdiq etməsi üçün şəraitin yaradılması və müvafiq olaraq, onda şəxsiyyəti xarakterizə edən keyfiyyətlərin və cəhətlərin inkişaf etdirilməsi vacibdir. Bununla əlaqədar əsas amil ibtidai məktəb müəlliminin düşünülmüş pedaqoji fəaliyyətidir.

Kiçikyaşlı məktəblilərin özünü təsdiqetmə prosesinin öyrənilməsi və formalaşdırılması üzrə əldə olunmuş təcrübə ibtidai siniflərin şagirdləri ilə işləyən böyüklərə uşaqların şəxsiyyətinin inkişaf etdirilməsi xüsusiyyətlərini daha dərindən təhlil etmək, şagirdlərə şəxsi potensialın aşkarlanmasında, özünütəkmilləşdirmə və özünütəsdiqetmə prosesində yardım göstərmək imkanı verəcək.

Həyata keçirilmiş tədqiqat bir sıra problemlərin sonrakı işlənmə yollarını müəyyən etdi:

- Kiçikyaşlı məktəblilərin özünütəsdiqetmə prosesinin təzahür səviyyələrinin xüsusiyyətlərini öyrənmək; özünütənzimləməyə və özünütəkmilləşdirməyə daha çox sövq edən özünütəsdiqetməni aşkarlamaq, özü haqqında biliklərin formalaşma səviyyəsinin özünütəsdiqetmənin əqli və şəxsi zəminlərinin inkişafı ilə əlaqəsinin tədqiq olunması zəruridir.

Кичикyaşlı мяктяблинин психи инкишафында, коллектив щяйатына гошулмасында башлыжа йери ясас фяалиййят формасы олан тялим тутур. Буна эюря дя кичикyaşlı мяктяблинин тялим фяалиййяти вя гаршылыглы мцнасибятin, цнсиййятин вящдятдя арашдырылмасы мцщцм ящямиййят кясб едир. Кичикyaşlı мяктяблинин юзцня вя башгаларына мцнасибяти ойун, ямяк вя тялим фяалиййяти просесиндя формалашыр. Тярбийя етмяк дедикдя, илк нювбядя, шаэирдин мцхтялиф фяалиййят нювляриня жялб олунмасы nəzərdə tutulur. Демяли, шаэирд тялим тапшырыгларыны йериня йетиряркян конкрет ситуасийайа дейил, онун цмуми щялли йолларына истинад етмялидир. Шаэирдин тяфяккцрц инкишаф етдикжя о, даща чох проблемин коллектив щяллиня цстцнлцк верир.

Тяжрцбя эюстярир ки, тялим просесиндя шаэирдлярин дискуссийа апармасы, полемикайа эирмяси онларын цнсиййят мядяниййятини йцксялдир. Тялим просесиндя диалог, дискуссийа синифдя полемиканы эцжляндирир, драматиклийи артырыр ки, бу да щям психи инкишафа мцсбят тясир эюстярир, шаэирдляр зиддиййятляри юзляри ашкара чыхарыр, щям дя коллективля ишлямяйи юйрянирляр. Бунунла беля, тялим просесиндя кичикyaşlı мяктяб йаш дюврцндя шаэирдлярин дискуссийайа эирмяляри, полемика вя онун инкишафа тясири аз юйрянилмишдир. Тябии ки, бу просес юзбашына, хаотик şəkildə жяряйан етмямяли, мцяллимин рящбярлийи алтында апарылмалыдыр.

Кичикyaşlı мяктяблилярин тялим фяалиййяти просесиндя гаршылыглы мцнаси-

бятлярин формалашмасыны тядгиг едяркян биз беля бир мцддяайа ясасландыг ки, шяхсиййятин кейфиййятляри вя психи просеслярин формалашмасында мягсядйюнлц тярбийя мцщцм рол ойнайыр. Тялим фяалиййяти ойун фяалиййяти просесиндя вя онун давамы кими формалашдыьы цчцн гаршылыглы мцнасибятляр дя тялим просесиндя даща интенсив шякилдя инкишаф едир. Бирэя фяалиййятя, коллективя адаптасийа олунмасы цчцн шаэирдлярин фяалиййятиндя ижтимаи файдалы истигамятин олмасы важибдир. Nəticəдя шаэирдлярдя бирэя фяалиййятя мцсбят мцнасибят инкишаф едир. Шаэирдляр бир-бирляринин фикриня щюрмятля йанашыр, юз мювгейини мцдафия едиб, ясасландырмаьы юйрянир, юзцнцн вя йолдашларынын фяалиййятини дцзэцн гиймятляндирмяйи бажарырлар.

Тялим тапшырыгларынын коллектив шякилдя тяшкили вя беляликля бирэя фяалиййят просесиндя цмуми нятижянин алынмасы кичикуaşlı мяктяблилярдя йашыдлары иля гаршылыглы мцнасибятляря эирмяк зяруряти йарадыр. Ишин характериндян асылы олараг онларда йолдашлыг, хейирхащлыг, дцзлцк, фяаллыг кими кейфиййятляр формалашыр. Беляликля, гаршылыглы мцнасибятляр вя тялим фяалиййяти гаршылыглы шякилдя бир-бирляриня тясир эюстярир вя онларын вящдяти шаэирдлярин коллективя, коллектив фяалиййятя адаптасийасыны сцрятляндирир.

**Məqalənin elmi yeniliyi**. Məqalədə жямиййятя там адаптасийа олмамыш, дахили «мян»ини дцзэцн гиймятляндиря билмяйян kiçikyaşlı məktəblilərin давранышлары вя özünütəsdiq etmələri ясасландырылыр.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi**. Məqalədə irəli sürülən təklif və nəticələr müəllim-şagird, valideyn-uşaq münasibətlərinin yenidən qurulmasında nəzərə alına bilər.

## ƏDƏBİYYAT

1. Байрамов Я.С. Шаэирдлярдя ягли кейфиййятлярин инкишаф хцсусиййятляри. Бакы: Маариф, 1967.

2. Ялизадя Я.Я., Ялизадя Щ.Я. Ясрин мегамейлляри: Психолоъи проблемляр. ЫЫ жилд. Бакы: АДПУ, 2008.

3. Балл Г.А. Понятие адаптации и его значение для психологии личности // Вопросы психологии, 1989, № 1.

4. Вопросы психологии младших школьников // Отв. ред. И.В.Страхов. Саратов: “СГПИ”, 1984.

**Х.А. Талыбова**

## РОЛЬ САМОРЕАЛИЗАЦИИ В ВОСПИТАНИИ ЛИЧНОСТИ ШКОЛЬНИКА МЛАДШИХ КЛАССОВ

### РЕЗЮМЕ

Свойства, которые могут характеризовать школьника младших классов как реализующуюся личность: уверенность в себе, оптимизм, невозмутимость, самоконтроль - имеют в целом средний уровень развития. Подтверждается высокая степень зависимости детей в этом возрасте. Более всего, очевидно, от взрослых. Результаты исследования однозначно указывают, что значимой переменной в создании условий для самореализации школьника и, соответственно, развития у него тех качеств, которые характеризуют в нем личность, является стиль педагогической деятельности учителя начальной школы.

Kh.A. Talibova

## ROLE OF SELF-EDUCATION IN PERSONALITY SCHOOLCHILDREN

### SUMMARY

Properties that can be characterized as a younger schoolboy realizes personality: self-confidence, optimism, calmness, self-control - are generally average level of development. Confirmed the high degree of dependence of children at this age. Furthermore, it is obvious from adults. Results of the study clearly indicate that significant variable in creating the conditions for self-realization younger schoolboy and, accordingly, his development of the qualities that characterize a person in it, is a style of teaching activities , primary school teachers .

*Redaksiyaya daxil olub: 06.12.2013*

# CİNSİ İDENTİFİKASİYANIN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

**Çinarə Hüseynova,**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistrantı*

**Rəyçilər:** *dos.* **E. Bəylərov,**
*dos.* **Ü. Əfəndiyeva**

***Açar sözlər**: cinsi identifikasiya, cinsi rolların mənimsənilməsi, femini-zasiya, maskulinizasiya*
***Key words:** sexual identification, appropriating of the sexual roles, femini-zasiya, maskulinizasiya гендир ме*
***Ключевые слова:** сексуальная идентификация, усвоение сексуальные роли, феминизация, маскулинизация, сексуальная личность*

Uşaqların psixoseksual inkişafının mühüm qanunauyğunluqlarından biri də bilavasitə cinsi identifikasiya ilə bağlıdır.

İdentifikasiya (latınca identificatio eyniləşdirmək deməkdir) müxtəlif psixoloji cərəyanlarda müxtəlif mənalarda nəzərdən keçirilir. Freydizimdən, neofreydizimdən və psixoloji antropologiya-dan fərqli olaraq, bəzi psixoloji nəzəriyyələrdə cinsi identifikasiya dedikdə iki cəhətə xüsusi diqqət yetirilirdi.

1) Öz "mən"-ini qəbul edilmiş " nümunə və ya "etalon" la eyniləşdirmək. Bu prosesin özü bir-biri ilə qarşılıqlı əlaqədə bağlı olan proseslərlə xarakterizə edilir: uşaq inanır ki, o da başqa qadın və ya kişilər kimi oxşar əlamətlərə malikdir. a) O, həmin "nümunəyə" xas olan hisslər keçir-məyə başlayır. b) Onun keyfiyyətlərinə yiyələnməyə və özünü onun kimi aparmağa çalışır.

Dar mənada identifikasiya yalnız birinci iki prosesdən- özünü müəyyən bir qadın və ya kişi ilə koqnitiv və emosional cəhətdən eyniləşdirməkdən ibarətdir. Müvafiq niyyət və ustanovkaların, eləcə də davranışın formalaşması isə identifikasiyanın nəticəsidir.

İdentifikasiya müxtəlif yollarla, xüsusilə uşaqların qadın və ya kişiyə məxsus davranış tərzləri və keyfiyyətlərini mənimsəməsi yolu ilə həyata keçirilir. Bu zaman, Günay özünündə Lalə, Dilarə kimi qız olduğunu dərk edir və mənimsədiyi hazır davranış nümunələri, etalonları və stereotiplərinə müvafiq qız (qadın) kimi hərəkət etməyə başlayır. Bu hal həmçinin oğlanlara da aid edilir. Bu baxımdan cinsi identifikasiya a) bədənin sxemi və surətinin formalaş-masını, b) cinsi rolun, kişi və qadın stereotiplərinə müvafiq olan psixi (xüsusilə xarakteroloji) keyfiyyətlərin mənimsənilməsini nəzərdə tutur, Müasir psixolo-giyada cinsi identifikasiya somatik (bədənin surəti), davranış (cinsi rol) və xarakteroloji (psixi keyfiyyət) səviyyədə nəzərdən keçirilir.

2) Fərdin müvafiq cinsə mənsub olmasının başqa adamlar tərəfindən qəbul edilməsi zərurəti. Əgər fərdin cinsi mənsubiyyəti başqaları tərəfindən qəbul edilmirsə, bu, cinsi identifikasiyanı çətinləşdirir, onu hətta qeyri-mümkün edir. İstər cinsi rol, istərsə də müvafiq psixi keyfiyyətlər başqa adamlarla ünsiyyət prosesində formalaşır.

Cinsi identifikasiya təbii surətdə, öz-özünə bəlli olan hadisə kimi cərəyan edir və şüurun fəallığını tələb etmir. Müəyyən patoloji hallarda isə onun formalaşmasında spesifik cəhətlər meydana çıxır ki, bu da cinsi identifikasiyanın qanunauyğunluqlarını təhlil etmək üçün böyük əhəmiyyətə malikdir. Cinsi identifikasiyanın pozulmasının ilk əlamətləri 4-5 yaşlarında uşaqların sosial əlaqələrinin genişlənməyə başladığı bir dövrdə müşahidə olunur. Ətrafdakı adamların cinsi identifikasiyası anormal formalaşan uşaqların zahiri görkəminə, hərəkətlərinə, genitaliyasına və s. aid iradları və reaksiyaları ilə əlaqədar olaraq oğlan və qızlar tədricən özlərinin "atipikliyini", mənsub olduqları cinsin başqa nümunələrinə "oxşamadıqlarını" hiss etməyə başlayırlar. Patoloji vəziyyətli uşaq bu zaman, adətən, özünün fiziki əlamətlərini müvafiq "nümunə" və ya "etalonla" müqayisə edərək, düşdüyü vəziyyəti kifayət qədər qiymətləndirir və ona müxtəlif formalarda reaksiya göstərir. O, bir halda ətrafdakı adamlardan öz qüsurunu gizlətməyə, başqa hallarda isə, zahirən olsa da, öz cinsi mənsubiyyətinin " nüfuzunu" saxlamağa çalışır. Uşaq öz "həmcinslərinin"

oyunlarında fəal iştirak edir, müvafiq davranış tərzlərini təqlid etməklə özünün əsl “oğlan” və ya “qız” olduğunu nəzərə çarpdırır. Belə uşaqların müəyyən bioloji qüsurları olsa da, onlar əksər hallarda cinsi yetişmə dövrünə qədər özlərini müvafiq cinslə eyniləşdirə bilirlər.

Pubertat yaşı dövründə bioloji bazadakı uyğunsuzluqlarla əlaqədar olaraq, şəxsiyyətin cinsi identifikasiyasında böyük çətinliklər meydana çıxır. Bu zaman zəruri hormonal irəliləyişin olmaması və ya əksinə, hormonların güclü ifrazı əks cinsə xas olan fiziki əlamətlərin kəskin surətdə nəzərə çarpması və çoxalması ilə nəticələnir. Bütün bunlar isə cəmiyyətin müvafiq cinsi rola verdiyi sosial tələb və gözləmələrin həmin adamlar tərəfindən həyata keçirilməsini çətinləşdirir və ya qeyri-mümkün edir.

Cinsi identifikasiya başqa bir tədqiqata görə instinktiv davranış formasıdır. Yəni insanlar uşaq yaşlarından hansi cinsə mənsub olmasını instinktiv olaraq dərk edir və ona yiyələnməyə çalışırlar. Bu, həm də sosial mühitlə əlaqədardır. Müəyyən edilmişdir ki, sürüdən təcrid olunmuş meymun balalarında seksual davranış özünü göstərmir. Təcrübə aşağıdakı kimi aparılmışdır: Cavan meymunların hər biri ayrıca qəfəsə salınmışdır. Onlar bir-birini görsə və eşitsə də, bir-biri ilə fiziki ünsiyyətə girmək imkanından məhrum idilər, başqa sözlə, seksual oyunların baş verməsi aradan qaldırılmışdı. Müəyyən vaxt keçdikdən sonra tədqiqatçılar həmin meymunlardan nəsil almaq məqsədilə onları bir yerə buraxanda məlum oldu ki, seksual davranışın formalaşması bilavasitə qrup effekti ilə şərtlənir.

Sosioloji-cinsi qrupla identifikasiya cinsin “onlar” (əks cinsin) və “bizim” (öz cinsinin) xüsusiyyətlərinin qarşılıqlı surətdə dərk edilməsi zəminində təşək-kül edilir. Özünü oğlan və ya qız olaraq dərk etmək mürəkkəb prosesdir. Onun ilk şərtləri uşaqlarda cinsi fərqlər haqqında hələ məktəbəqədər yaş dövründə müəyyən təsəvvürlərin yaranması ilə bağlıdır. L.S.Vıqotskinin göstərdiyi kimi, fərqin dərk olunması nisbətən oxşarlığın dərk edilməsi ümumiləşdirmə və konseptualizasiya qabiliyyətinin inkişafını tələb edir. Oxşarlığın dərk olunması ümumiləşdirmə və ya bir sıra oxşar obyektlərə aid nəzərdə tutursa, fərqin dərk edilməsi hissi səviyyədə də mümkündür.

Psixoloji tədqiqatlar göstərir ki, uşağın oğlan və ya qız rolunu mənim-səməsində valideynlər mühüm rol oynayırlar. Onlar lap əvvəldən, məsələn, öz oğlunda məhz oğlan davranışı formalarını rəğbətləndirir və qıza məxsus hərəkətlərə meyl etdikdə onu cəzalandırırlar. Qız uşağında oğlan davranışı forma-larını, oğlanlarda isə əksinə, qız davranışı formalarını rəğbətləndirən ana və ya ata onlarda cinsi identifikasiyasının inkişafına mənfi təsir göstərir, lakin oğlan və qızların tərbiyəsi sahəsində bu cəhətdən müxtəlif xarakterli nöqsanlara da təsadüf olunur. Oğlanlara münasibətdə həmin nöqsanlar, hər şeydən əvvəl, onda özünü göstərir ki, ailədə oğlan uşağında kişi keyfiyyətlərinin formalaşmasına əhəmiyyət verilmir. Valideynlərin oğlan uşağını həddindən artıq əzizləmələri, hər cür qayğıdan azad etmələri, çətinlikdən uzaqlaşdırmaları və s. onda qıza məxsus keyfiyyətlərin- feminizasiya (latınca femina- qadın deməkdir) əlamət-lərinin formalaşması üçün əlverişli şərait yaradır.

Bir sıra hallarda isə valideynlər qız uşağını mahiyyət etibarilə oğlan kimi tərbiyə edirlər. Onu, oğlan kimi geyindirir, hətta ona oğlan oyuncağı alırlar. Belə bir şəraitdə qız öz cinsinə xas olmayan davranış tərzinə yiyələnir ki, bu əsasda da maskulinizasiya (latınca masculinus –kişi deməkdir) əlamətləri formalaşır.

Feminizasiyaya nisbətən maskulinizasiya hallarına az təsadüf olunsa da, onların psixoloji nəticələri haqqında ciddi düşünmək lazımdır. Qız uşaqlarının lap kiçik yaşlarından başlayaraq qadın etalon və stereotiplərini mənimsəmələrinə xüsusi diqqət yetirilməlidir.

Etnopsixoloji tədqiqatlar göstərir ki, məsələn, qızlar qadınlıq etalonlarını, hər şeydən əvvəl, ana ilə dialoq (ünsiyyət) şəraitində mənimsəyirlər. Ona bu etalonlara müvafiq olaraq evdarlıq, kuklalar nümunəsində uşaqlara qulluq etmək vərdişləri aşılanır, musiqi mədəniyyəti, özünün ata və qardaşları nümunəsində kişiyə hörmət hissi, oğlanlarla rəftar taktı tərbiyə olunur. Qız üçün səciyyəvi keyfiyyətlərin formalaşmasına xüsusi diqqət yetirilir.

Ətrafdakı adamların davranışı da uşaqlarda kişi və qadın etalonları, standartları və s. haqqında təsəvvürlərin formalaşmasına kömək edir. Uşaq lap kiçik yaşlarından müşahidə edir ki, əsgərlər,

polislər və ya yanğınsöndürənlər, adətən, kişilər, tərbiyəçilər, dayələr isə qadınlar olurlar. Uşaq bu nümunələr əsasında başa düşür ki, ətrafdakı yaşlılar " cinsinə müvafiq olaraq" ondan hansı davranış formasını gözləyirlər.

Uşağın öz cinsi rolunu mənimsəməsində valideynlərin özlərinin davranışı da mühümdür. Atanın kişi, ananın isə qadın kimi nümunəsi oğlan və qızlarda cinsi identifikasiyanın formalaşması üçün, görünür, eyni dərəcədə zəruridir. Analar, bir qayda olaraq, qız və oğlanlarına onlarn cinsini kifayət qədər nəzərə almadan ümumiyyətlə, uşaq kimi, eyni dərəcədə qayğı ilə yana-şırlar. Atalar isə onlardan fərqli olaraq öz davranış və rəftarında uşaqların cinsini daha çox nəzərə alırlar. Bu mənada da analara nisbətən atalar uşaqlarda cinsi identifikasiyanın formalaşdırılmasında daha təsirli rol oynayırlar.

Müşahidələr göstərir ki, lap kiçik yaşlarından atası ilə kifayət qədər ünsiyyət imkanına malik olmayan oğlanlar sonralar çox vaxt öz atalıq vəzifələrini icra etməkdə çətinlik çəkirlər. Atasız tərbiyə olunan oğlanlar isə əlverişli şəraitdə ya qadın davranış tipini mənimsəyir, ya da onda kişi davranışı haqqında yanlış təsəvvürlər formalaşır. Atasız tərbiyə olunmuş qızlarda da kişilik haqqında birtərəfli təsəvvürlər nisbətən asanlıqla əmələ gəlir. Bu isə nəticə etibarilə qadın rollarının mənimsənilməsinə mənfi təsir göstərir. Pozulmuş və natamam ailələrdə də yeniyetmələr çox vaxt adekvat kişi və qadın modeli vastəsilə hər iki valideynlə münasibət təcrübəsinə yiyələnə bilmirlər.

Cinsi rolların mənimsənilməsində "ata-ana" tipli qarşılıqlı münasibətlər xüsusilə əhəmiyyətlidir. Sağlam ailədə uşaq tədricən kişi və qadın həyatının mənzərəsi ilə tanış olur: qız və ya oğlan öz anasının timsalında qadın davranışının, atasının timsalında isə kişi davranışının xüsusiyyətlərini öyrənir və çox vaxt onları öz başa düşdükləri kimi mənalandırırlar.

Psixologiyada 6 yaşından 10 yaşına qədərki dövr cinsi identifikasiya üçün ən senzitiv dövr hesab olunur. Müəyyən edilmişdir ki, uşağın qadın və kişi rollarını mənimsəməsində ilk əsas mərhələ 6 yaşa təsadüf edir. Müxtəlif sosial amillərin təsiri ilə hələ 3 yaşından etibarən uşaqda öz cinsi haqqında yaranan təsəvvürlər 6 yaşından başlayaraq daha da dolğunlaşır.

Psixoloqların müşahidələrinə görə, böyük yeniyetməlik yaşında qızlar rəğbət bəslədikləri oğlanlarda "kişilik əlamətlərini" artıq yüksək qiymətləndirirlər. Bu, bir tərəfdən, əks cinsə münasibətin yeni səviyyəsi üçün şərait yaradır, digər tərəfdən, spesifik qız və oğlan taktikası və strategiyasının formalaşmasını şərtləndirir. Sosioloji-cinsi qrupla identifikasiyanın əsasını təşkil edən xüsusiləşmə prinsipinin mahiyyəti dəyişilir.

**Məqalənin elmi yeniliyi:** Məqalədə əsas cinsi identifikasiyanın psixoloji xüsusiyyətləri, sosial cinsin, cəmiyyətdə formalaşması və bunun, şəxsiyyətin cinsi rolunun mənimsənilməsinə təsirindən bəhs olunur.

**Məqalənin praktik əhəmiyyəti:** Cinsi identifikasiyada şəxsiyyətin yaş dövrlərinə uyğun inkişafının araşdırılması mühüm məsələlərdəndir. Belə ki, aparılmalı olan praktik işlərin, cinsi rolların mənimsənilməsi dövrlərini müəy-yənləşdirilməsi, spesifik cəhətlərin hər bir yaş dövrünə uyğun inkişafını şərtlən-dirən praktiki işləri həyata keçirilməsi gələcəkdə baş verən patoloji cinsi xüsusiyyətlərin formalaşmasının qarşısını alacaq.

## ƏDƏBİYYAT

1. Əlizadə Ə.Ə. Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi. Bakı, 1986.
2. Əlizadə Ə.Ə. Uşaqlar və yeniyetmələr: seksual inkişafın psixopedaqogikası. Bakı, 2009.
3. Абраменкова В.В. Половая дифференциация и межличностные отношения в детской группе // Вопросы психологии, 1987, № 5.
4. Кон И.С. Половые различия и дифференциация социальных ролей. М., 1975.
5. Xripkova A.Q. Cinsi tərbiyə məsələləri // Azərbaycan məktəbi, 1970, № 6

**Ч. Гусейнова**

## ПСИХОЛОГИЧЕСКАЯ ХАРАКТЕРИСТИКА ПОЛОВОЙ ИНДЕНТИФИКАЦИИ

**РЕЗЮМЕ**

Половая идентификация предполагает ассоциирование собственного полового «я» с «образцом» или с эталоном. В данное время развитие половых ролей у детей имеет важное психолого – социальное значение. Ассоциирование половых ролей с эталонами принадлежащими «женщине» и «мужчине», является основной стороной половой идентификации. Патология в идентификации становится причиной серьезных проблем – маскулинизации и феминизации.

**Ch. Huseynova**

## PSYCHOLOGICAL CHARACTERISTICS IDENTIFICATION OF SEXUAL

**SUMMARY**

Gender identity involves associating sexual own "I" with "sample" or benchmark. At this time, the development of gender roles in children has important psychological - social value. Associating with the standards of gender roles belonging "woman" and "man", is the main party of sexual identification. Pathology in identifying causes serious problems - masculinization and feminization..

*Redaksiyaya daxil olub: 29.10.2013*

# *MÜƏLLİMİN ŞƏXSİ TƏHSİLİ*

***Rəşid bəy Əfəndiyev – 150***

## MƏŞHUR MAARİFÇİ, PUBLİSİST, ETNOQRAF VƏ YAZIÇI

**Hüseyn Əhmədov**
*pedaqogika üzrə elmlər doktoru, professor,*
*Rusiya Təhsil Akademiyasının xarici üzvü*
E-mail: ahmadov26@mail.ru

*"Azərbaycan dilinə dair ilk dərsliklərin yazılmasında o dövrün görkəmli maarifçiləri... Rəşid bəy Əfəndizadə... və başqalarını qeyd etmək lazımdır".*

**Heydər Əliyev**

***Açar sözlər:*** *maarifçi, publisist, etnoqraf, yazıçı. ana dili, dərsliklər, seminariya, təlim-tərbiyə, qadın təhsili*

***Ключевые слова:*** *просветитель, публицист, этнограф, писатель, родная речь, учебники, семинария, учебно-воспитательное, женское образование*

***Key words:*** *educator, publicist, ethnographer, writer, native speech, textbooks, seminary, teaching and educational, women's education*

Xalqımızın zəngin milli və ümumbəşəri elmi-pedaqoji dəyərlərini tədqiq etmək, onları üzə çıxarmaq, yeni nəfəs vermək, gənc nəslin elmi-pedaqoji biliyinin artırılmasında onlardan istifadə etmək bütün dövrlərdə olduğu kimi bu gün də aktualdır. XIX əsrin axırlarında qabaqcıl maarifpərvərlər çox yaxşı dərk edirdilər ki, beş-on ziyalı ilə iş görmək olmaz. Qarşıda duran böyük ictimai-siyasi vəzifələrin öhdəsindən gəlmək üçün geniş kütlələrin savadlanması, gənc nəslin yeni ruhda tərbiyələndirilməsi mühüm vəzifələrdən biri idi.

Qabaqcıl ziyalılar müəllimlik etməklə yanaşı, həm də dərsliklər yazır, xalqın mənəvi tərəqqisinə kömək edən bədii əsərlər yaradır, jurnal və qəzetlər nəşr edir, mətbuat səhifələrində xalq maarifinin bu və ya digər məsələlərinə aid faydalı fikirlər söyləyir, bir sözlə, təlim və tərbiyə ilə əlaqədar bir neçə sahəni öz fəaliyyətlərində birləşdirirdilər. Belə ziyalılardan biri də, dövrün tanınmış şəxsiyyəti Rəşid bəy Əfəndiyev idi.

R.Əfəndiyev XIX əsrin sonu və XX əsrin birinci yarısında Azərbaycanda xalq maarifi və pedaqoji fikrin inkişafı tarixində mühüm yer tutan, Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra özünün əməli pedaqoji fəaliyyəti ilə sovet pedaqogika elminin və məktəb təhsilinin inkişafı üçün mühüm xidmətlər göstərən görkəmli pedaqoqlardan biridir.

R.Əfəndiyev 1863-cü ildə Nuxada (Şəkidə) anadan olmuşdur. İlk təhsilini Nuxada Cümə məscidi yanındakı mollaxanaların birində alan Rəşid bəy, oradakı şəhər məktəbində də oxumuşdur.

Rəşid bəy təhsilini davam etdirmək üçün hərbi məktəbə daxil olmağa hazırlaşır, lakin 1878-ci ildə M.F.Axundovla görüşü onu bu məqsəddən çəkindirir. Rəşid bəy sonralar öz tərcümeyi-halında bu barədə yazırdı: «M.F.Axundov mənə hərbi məktəbə girməyi məsləhət görmədi, ancaq dedi ki, qardaş oğlu gələn il Qoridə yalnız müsəlmanlardan ötrü «tatarski otdelenie» (Azərbaycan şöbəsi – H.Ə.) açılır. O məktəb sənə çox münasibdir. Oraya mən səni indidən kandidat yazdırıram».

1879-cu ildə A.O.Çernyayevski Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinə tələbə toplayarkən, İrəvan, Naxçıvan, Şuşa, Şamaxı, Qazax və b. şəhərlərlə yanaşı, Nuxaya da gəlir və Rəşid bəyi Qoriyə aparır. Həmin il Rəşid bəy Qori Müəllimlər Seminariyasına daxil olur. 1882-ci ildə oranı bitirib, Qutqaşendə (Qəbələdə-H.Ə) açılan ikisinifli ibtidai xalq məktəbinə müdir və müəllim təyin olunur. 8 il Qutqaşendə müəllimlik etməklə yanaşı, Qafqaz Arxeoloji Cəmiyyətində

əməkdaşlıq etmiş və özünün «Nour gölü», «Qutqaşen kəndi haqda bir neçə məlumat», «Nuxa qəzasında xalq səhiyyəsi» və s. adlı məqalələrini «Sbornik materialov po opisaniye mestnostey i plemen Kafkaza» məcmuəsində nəşr etdirmişdir. Rəşid bəy 1892-ci ildə Tiflisə köçür. Orada müəllimlik etməklə yanaşı, həm də, Zaqafqaziya müsəlmanlarının ruhani idarəsində katib müavini vəzifəsində çalışır.

Rəşid bəyin həyat və fəaliyyətində diqqəti cəlb edən cəhətlərdən biri də, onun 1900-cü ildən 1916-cı ilə qədər Qori Müəllimlər Seminariyasında müəllimlik etməsidir. Bu dövrdə o,seminariyanın müəllim və şagird kollektivi arasında yüksək hörmət və nüfuz qazanmışdı. Məhz buna görədir ki, Qafqaz tədris dairəsinin popeçiteli onu 1911-ci ildə fərqlənmə medalı ilə təltif etmişdir.

Rəşid bəy sonralar İrəvan quberniyasında müsəlman məktəblərinin müfəttişi vəzifəsində işləmiş, Naxçıvanda, Kubanda qısamüddətli müəllimlər kursu təşkil etmiş və 1918-1919-cu illərdə Bakıda Müəllimlər Seminariyasının direktoru vəzifəsində işləmişdir.

Rəşid bəy həyatının son dövrünü doğma Nuxa şəhərində keçirmiş və orada fəaliyyət göstərmişdir. O, 1920-ci ildə Nuxada darülmüəllim (kişi seminariyası) və darülməllimat (qadın seminariyası) təşkil edir, zəhmətkeş balalarından, xüsusilə qızlardan yüzlərcə gənc müəllim kadrı hazırlayır.

1925-ci ildə Nuxa ictimaiyyəti R.Əfəndiyevin pedaqoji və ədəbi fəaliyyətinin 43 illik yubileyini keçirmişdir. Həmin il Rəşid bəyə ömürlük dövlət təqaüdü təyin olunmuş, lakin o, pedaqoji fəaliyyətindən ayrıla bilməmiş və ömrünün sonuna qədər Nuxa pedaqoji məktəbində rus dili müəllimi vəzifəsində işləmişdir.

R.Əfəndiyev 1942-ci il avqustun 31-də 79 yaşında Nuxada vəfat etmişdir. Hazırda Nuxa şəhərlərindəki məktəblərin birinə onun adı verilmiş və onun yaşadığı ev ölkəşünaslıq muzeyinə çevrilmişdir.

R.Əfəndiyevin 60 illik fəaliyyəti rəngarəng və çoxcəhətlidir, lakin o, hər şeydən əvvəl müəllimdir, maarifçidir.

R.Əfəndiyevin pedaqoji görüşlərində dövrünün təlim-tərbiyə sisteminin bir sıra məsələlərinə aid maraqlı və bu gün də əhəmiyyətli olan cəhətlər vardır.

R.Əfəndiyev elmi və pedaqoji fəaliyyətə hələ Zaqafqaziya Müəllimlər Seminariyasının tələbəsi olarkən başlamışdır. O, Seminariyanın I kursunda oxuyarkən, müəllimi A.O.Çernyayevski ilə birlikdə Azərbaycan şöbəsinin tətbiqat məktəbi (nümunə-baza məktəbi -H.Ə.) üçün proqram tərtib etmişdir.

Seminariyanın III kursunda olarkən həndəsə və cəbrdən həll etdiyi məsələlərdən ibarət «Həndəsə ilə hesab məsələləri məcmuəsi» kitabını yazmış, rus dilindən Azərbaycan dilinə tərcümə etmişdir. Həmin əsərlər Moskvada təşkil olunmuş Ümumrusiya sənaye, kənd təsərrüfatı, elm və mədəniyyət sərgisinə göndərilmiş və Zaqafqaziya Müəllimlər Seminariyası bu kitablar üçün 1882-ci ildə sərgi komitəsi tərəfindən ikinci dərəcəli diplom və gümüş medalla mükafatlandırılmışdır. Bütün bunlarla bərabər R.Əfəndiyev seminariyada oxuyarkən, A.O.Çernyayevskinin «Vətən dili» adlı əlifba dərsliyinin tərtibində fəal iştirak etmişdir. Sövti üsul əsasında yazılan bu əlifba kitabı o dövr üçün çox böyük pedaqoji hadisə idi. Bu kitab əsrlərdən bəri davam edən höccələmə (əbcəd-çərəkə) üsullarına qarşı ilk güclü bir hücum və zərbə idi.

R.Əfəndiyevin pedaqoji fəaliyyətində diqqəti cəlb edən çox mühüm cəhətlərdən biri onun ana dilində dərsliklər tərtib etməsidir. Rəşid bəy hələ seminariyada oxuyarkən, K.D. Uşinskinin pedaqoji görüşlərinin təsiri altında yeni Azərbaycan məktəbi yaratmağı qarşısına məqsəd qoymuşdur. Buna görə də o, seminariyada oxuyarkən, gələcək Azərbaycan məktəbləri üçün ana dilində mükəmməl bir vəsait yaratmaq haqqında düşünürdü. Rəşid bəy yaradacağı xalq məktəblərində şagirdlərə ana dilini öyrətməyi əsas götürürdü. Buna görə də o, seminariyanı qurtarıb, kənddə müəllimlik etdiyi vaxt Çernyayevskinin «Vətən dili» dərsliyini təcrübədən keçirib, onun bütün müsbət və mənfi cəhətlərini aşkar etmişdi.

R.Əfəndiyev bütün bu nöqsanları aradan qaldırmaq üçün özünün onillik pedaqoji təcrübəsinə və K.D.Uşinskinin pedaqoji görüşlərinə əsaslanaraq, «Uşaq bağçası» adlı yeni əlifba kitabını

yazmışdır. «Vətən dili» dərsliyinin müvəffəqiyyətlərini inkişaf etdirən bu kitab ilk dəfə 1898-ci ildə İstanbulda çap edilmişdir. Kitabın birinci nəşri 104 səhifədən ibarətdir.

R.Əfəndiyevin «Uşaq bağçası» kitabının Çernyayevskinin «Vətən dili» kitabından bir sıra fərqi və üstünlüyü vardır. Bu fərq ondan ibarət idi ki, Çernyayevskinin «Vətən dili» kitabı vasitəsilə ərəb əlifbasını şagirdə 6 aydan az vaxtda öyrətmək mümkün olmadığı halda, Rəşid bəy Əfəndiyevin «Uşaq bağçası» kitabı vasitəsilə bu əlifbanı bir ay müddətində öyrətmək, şagirdlərə yazı vərdişlərini aşılamaq mümkün idi. Buna görə də Rəşid bəy Əfəndiyev kitabın titul səhifəsində belə yazmışdı: «Savadsız adam bir ayda oxuyar və yazar».

R.Əfəndiyev, sonralar 1901-ci ildə yazdığı «müəllimlər üçün üsuli-cədid üzrə ən əvvəl şüru etmənin qəvaididir» adlı metodiki göstərişində yuxarıdakı fikirlərini inkişaf etdirərək, ana dili təlimində səs üsulunun üstünlüklərini bir daha göstərmişdir.

Rəşid bəy xalqın kitaba rəğbətini və məktəbə məhəbbətini daha da artırmaq üçün «Uşaq bağçası»nın sonrakı çapında bir sıra təshih və əlavələr etmişdir.

R.Əfəndiyevin «Uşaq bağçası» kitabı Azərbaycan dilində təhsil verən bütün dövlət və xüsusi tədris məktəblərində istifadə etmək üçün Qafqaz Təhsil Dairəsi tərəfindən bəyənilmişdir. «Uşaq bağçası» dörd dəfə (cəmi 90.000 nüsxə) nəşr edilmişdir. Bu kitab təkcə Zaqafqaziya məktəblərinin deyil, Şimali Qafqaz və Orta Asiyadakı müsəlman məktəblərinin inkişafında da mühüm rol oynamışdır.

R.Əfəndiyev Azərbaycanda K.D. Uşinskinin ardıcılı və onun ideyasını əməli surətdə həyata keçirən ilk görkəmli pedaqoq və maarif xadimlərindən biri olmuşdur.

R.Əfəndiyev yazmışdır: «Mən, o zaman məktəblər tarixinə göz gəzdirdim, gördüm ki, rus milləti vaxtilə «serkovno slovyanski» (kilsə-slavyan-H.Ə) yazıdan əl götürüb, ana dilində təzə «Rodnoe slovo Uşinskoqo I c.» kitabı ilə məktəblərini milliləşdirmişlər… Mən də onu təqlidən balalarımızı ərəb və fars dillərindəki mövhumata və lüğət əzbərləməyə məcbur və məşğul edən əski ərəb məktəbini təməlindən yıxıb, türk qövmü üçün ana dilində əsaslı bir dərsxana meydana gətirə bildim».

R.Əfəndiyevin ədəbi yaradıcılığı M.F. Axundovun təsiri altında inkişaf etdiyi kimi, pedaqoji fikirləri də K.D. Uşinskinin mütərəqqi ideyalarının təsiri altında inkişaf etmişdir.

Sözünə davam edən R.Əfəndiyev yazmışdır: «Pedaqojini öyrəndikdən sonra mən anladım ki, köhnə məktəb xalqa maarif və bilik verməyir, köhnə məktəb dağıdılmalıdır. Bu isə yalnız K.D. Uşinskinin yeni üsulla olan dərs kitabı kimi, öz məktəbimiz üçün ana dilində dərs kitabını tərtib etməklə mümkündür».

R.Əfəndiyev yazır ki, məhz bu məqsədlə də «Uşaq bağçası» kitabını qiymətli bir əsərə bənzətmək üçün pedaqoq Uşinskinin məşhur və məhbub əlifba kitabçasını özümə rəhbər etdim.

R.Əfəndiyevin ikinci məşhur dərsliyi «Bəsirət-ül-ətfal» (uşaqların gözüaçıqlığı-H.Ə) kitabıdır. Qeyd etmək lazımdır ki, Rəşid bəy ZMS-nin Azərbaycan şöbəsinə müəllim təyin olunarkən, bu şöbənin tələbələri üçün Azərbaycan dilində mükəmməl bir kitab yox idi. Buna görə də o, Tiflisdə işlərkən tərtib etdiyi ədəbi qiraət kitabını 1901-ci ildə 2 min nüsxə tirajla «Bəsirət-ül-ətfal» adı ilə Bakıda nəşr etdirmişdir. Bu barədə o, öz tərcümeyi-halında yazmışdır: «Tiflisdə ikən düzüb-qoşduğum «Bəsirət-ül-ətfal», müntəxəbatını əgər Bakıda tələsik basdırmasaydım, Qori seminariyasında türk lisanı dərsləri üçün məndən müqəddəm əldə bir kitab yox idi. Mənə də türk dili dərsləri həvalə olunduğu üçün 1902-ci sənədə, mən də öz kitabımdan dərs verməyə başlamışdım».

Kitabın titul səhifəsində onun müəllifi və məqsədi göstərilir: «Məktəblərdə oxunmalı türui-qiraət kitabıdır». Kitabın müəllifi və naşiri «Şaki» təxüllüslü Zaqafqaz Darül-müəlliminin müsəlman şöbəsinin elm-ilahi müəllimi Rəşid bəy Əfəndizadə. Kitab «bismilləhir-rəhmanir-rəhim» ilə başlayır.

«Uşaq bağçası»nda olduğu kimi, müəllif bu kitabda da savad təlimi, oxu texnikasını inkişaf etdirmək məsələləri ilə yanaşı, həm də onların tərbiyə edilmələrinə, əxlaqına təsir etməyə xüsusi fikir vermişdir.

Bu cəhətə böyük əhəmiyyət verən müəllif əsərin titul səhifəsində yazmışdır:

«Müsəlman millətinin tərbiyeyi-əxlaqına və məlumati-nafiəsinə xidmət edici tazə bir kitabdır». Müəllif məişətimizdə olan nöqsanları göstərən, xeyirxahlıq, yoldaşlıq və digər əxlaqi sifətlər aşılayan şeir, hekayə və rəvayətləri də dərsliyə daxil etmişdi. Bu şeir, hekayə və rəvayətlərdə vətənin təbiətini sevmək, xalqın məişətini bilmək, məktəbə getmək, elm öyrənmək və s. məsələlər ön planda qoyulmuşdur.

R.Əfəndiyevin «Bəsirət-ül-ətfal» kitabında kənd təsərrüfatı, təbiət və coğrafiyaya aid bir sıra məlumatlar da vermişdir.

İstər «Uşaq bağçası», istərsə də «Bəsirət-ül-ətfal» kitabına daxil edilmiş şeir parçalarının bir hissəsi müəllif tərəfindən rus şairlərinin əsərlərindən tərcümə edilmişdir. Kitabın bu məziyyətlərindən bəhs edən tanınmış ədəbiyyatşünas-professor M.Rəfili «İ.A.Krılov və Azərbaycan ədəbiyyatı» adlı kitabında R.Əfəndiyevin böyük rus yazıçılarından bacarıqla etdiyi bu tərcümələrə yüksək qiymət vermişdir.

R.Əfəndiyevin dərsliklərindən uzun müddət Azərbaycan məktəblərində geniş miqyasda istifadə edilmiş və Azərbaycan gənclərinin bütöv bir nəsli bu kitablardan təlim və tərbiyə almışdır.

Təkcə onu qeyd etmək kifayətdir ki, «Bəsirət-ül-ətfal» kitabı 1901-ci ildən 1912-ci ilə kimi 42.000 tirajla 4 dəfə çap olunmuşdur. Kitabı hər dəfə çapa hazırlayarkən müəllif əlavə materiallarla onu zənginləşdirmiş və təkmilləşdirmişdir.

Ümumiyyətlə, R.B.Əfəndiyevin dərslikləri keçən əsrin əvvəllərində Azərbaycanda ana dilində təhsilin inkişafında mühüm rol oynamışdır. Ondan sonra yaranan ana dili dərsliklərində R.Əfəndiyevin irsindən istifadə özünü göstərir. Bu dərsliklər R.Əfəndiyevin öz xalqına böyük xidməti kimi qiymətləndirilməlidir. R.Əfəndiyevin hər iki dərsliyi tərəfimizdən ərəb əlifbasından müasir latın qrafikasına çevrilmiş, "Uşaq bağçası" 2010-cu ildə transliterasiya və faksimeliya yolu ilə çap edilərək oxucuların ixtiyarına verilmişdir. Kitaba Azərbaycan ədəbiyyatı metodikası kafedrasının dosenti Bilal Muradov ön söz yazmmışdır. İkinci kitab isə hələlik çap edilməmiş qalır.

Rəşid bəyin pedaqoji fikirləri içərisində təlimin ana dilində aparılması ilə yanaşı, elmin əhəmiyyəti, qadın təhsili, vətənpərvərlik və əmək tərbiyəsi, həmçinin ailə tərbiyəsinə aid bir sıra dəyərli fikirləri vardır.

Rəşid bəy elmin qüdrətinə inanmış, onu tükənməz bir xəzinə hesab etmişdir. O, "Elm tükənməz xəzinədir" adlı məqaləsində yazır: "Elm elə bir xəzinədir ki, onun üçün nə qıfıllı sandıq, nə də gözətçi lazım deyildir". Rəşid bəyin fikrincə, "ələlxüsus bizim əsrimizdə elmin qədir və qiyməti hər şeydən alidir, çünki əvvəla elm bu halda puldan və parçadan zəngin, topdan və tüfəngdən ötgün, xəncərdən və qılıncdan kəskindir".

Rəşid bəyin fikrincə, elmin böyük bir fəziləti də udur ki, nə kiçiyə, nə böyüyə, nə nəcibə və nə də bədəsil adama fərq qoyur. Bu adamların hansının elmə həvəsi və marağı olarsa, o, elmə nail olacaqdır.

R.Əfəndiyev təhsil və elm öyrənmək məsələsində qadınların kişilərlə bərabər hüquqa malik olmasını qızğın müdafiə etmişdir. Bu məsələ onun pedaqoji görüşləri içərisində mühüm yerlərdən birini tutur. Onun qadın azadlığı və qadın təhsilinə aid fikirləri 1914-cü ildə nəşr etdirdiyi "Arvad məsələsi" adlı məşhur kitabında və bir sıra məqalə, şeir və hekayələrində öz əksini tapmışdır.

R.Əfəndiyev dövründəki qadın əsarətini görmüş, qadınları əsarətdə saxlayanlara, onların təhsil almalarına mane olanlara qarşı barışmaz mübarizə aparmış və qadınların cəhalətdə qalmalarını böyük "uçurum" və "fəlakət" hesab etmişdir. O, qadın azadlığı və təhsili məsələsində M.F. Axundovun ideyasını davam etdirmişdir.

R.Əfəndiyevin pedaqoji fikirləri içərisində diqqəti cəlb edən məsələlərdən biri də tərbiyənin məqsədidir. Rəşid bəy tərbiyənin tərifini belə belə müəyyən etmişdir: ***"Tərbiyə insanı bəsləyib, onun bədəninə, ruhuna əxlaqına yavaş-yavaş qüvvət kəsb etdirməyə deyilir".***

R.Əfəndiyev tərbiyə deyəndə üç cəhəti: fiziki, əqli və əxlaqi tərbiyəni nəzərdə tuturdu. O, yazmışdır: "Hər kəs bədəncə, ruhca və əxlaqca üç qism tərbiyəyə möhtacdır... bu üç qism tərbiyədən məhrum olan şəxs həqiqətdə adam cərgəsində sayılmaz".

Göründüyü kimi, Rəşid bəy üç cəhətin içərisində bədən tərbiyəsini birinci yerdə qoymuş və bədən tərbiyəsi vasitəsilə insan bədənində mövcud olan əzələlərin lazımınca inkişaf etdirilməsinə xüsusi əhəmiyyət vermişdir. Hərtərəfli inkişaf etmiş şəxsiyyəti məsələsində əqli tərbiyəni ikinci yerdə qoyan Rəşid bəy bunun vasitəsilə insanın zehnini, şüurunu, dərrakəsini, fikrini, xəyal və hafizəsini inkişaf etdirməyi lazım bilmişdir.

R.Əfəndiyevin fikrincə, əxlaq tərbiyəsi insanda "insaf, mürvət, rəhm, səbr, vəfa, dəyanət" və s. kimi keyfiyyətləri tərbiyə etməyə xidmət etməlidir.

Rəşid bəy əxlaq tərbiyəsinin aşağıdakı sifətlərini müəyyən etmişdir: doğruluq, sabiqlik, insaf və mürvət, həya və ədəb, əmanət və dəyanət, hümmət və şəfqət, elm və mərifət, əfkar və aqibət, vətən məhəbbəti, vətəni senmək. R.Əfəndiyevin pedaqoji fikirləri içərisində vətənpərvərlik tərbiyəsinə aid bu gün də əhəmiyyətini saxlayan maraqlı fikirlər var. O, hər bir kəsi vətəninə bağlı hesab edir, vətənə bağlı olmağı hikmətin böyük sirri adlandırırdı. Rəşidbəy göstərirdi ki, vətənin havası insana can, suyu isə bədənə taqət verir. Onun fikrincə vətən viranə olsa da, xalq misalında deyildiyi kimi, yenə də cənnətdir. Vətən qəlbə qüvvət, adama cürət verir. Vətəni heç bir şeylə müqayisə və əvəz etmək olmaz. Dünyada insan üçün ən gözəl şey vətəndir. Vətənin acı şeyləri belə insan üçün xoşdur. əgər başqa bir yer cənnət olsa da ora adam üçün qürbətdir.

R.Əfəndiyevin vətənpərvərlik fikirləri onun "Vətən məhəbbəti" şerində çox gözəl göstərilmişdir. Orada deyilir:

*Məhəbbət eyləmək hər yurd üçün bir sirr hikmətdir,*
*Vətən viranə də olsa, məsəldir, məhz cənnətdir.*
*Havası can verir cana, suyu taqət verir cismə,*
*Vətən qüvvət verir qəlbə, Vətən cürət verir şəxsə.*
*Vətən ziynət verir ruha, Vətən bir başqa hikmətdir*
*Vətən bir şamdır, pərvanəsi onun mənəm, sənsən,*
*O şamın nuru da hər kəsdəki elm ilə sənətdir...*
*Nə bədbəxt kimsədir o kəs vətən mülkünü tərk eylər,*
*Gedər qürbət yerə, gəlməz, bunun halı səfalətdir.*

R.Əfəndiyev insan şəxsiyyətinin təşəkkülündə tərbiyənin roluna böyük yer vermiş və beləliklə də, insanların tərbiyəli və tərbiyəsiz böyüməsinin fitri, anadangəlmə olmasını rədd etmişdir. O, göstərir ki, insanın əxlaqi keyfiyyətləri sonralar tərbiyə sayəsində formalaşır.

R.Əfəndiyevin ailə tərbiyəsinə aid də dəyərli fikirləri vardır. Onun 1904-cü ildə nəşr etdirdiyi "Qan ocağı" adlı əsəri bu cəhətdən daha xarakterikdir.

Rəşid bəyin özünün yazdığı kimi, bu əsər mənəvi tərbiyəsinə həsr edilmişdir. Burada ailədə baş verən oğurluq, yalan danışmaq, qadın hüququnun tapdalanması və s. kimi o zamanlar ailədə özünü göstərən cəhətlər Rəşid bəy tərəfindən kəskin tənqid edilmişdir.

R.Əfəndiyevin fikrincə, ana təbii tərbiyəçidir. O, göstərir ki, uşağı bəsləyən, onun qayğısını çəkən, onu tərbiyə edən, elmi-hali öyrədən, halal və haramı ayırd edən anadır. O, qadınlara bəzəyə-düzəyə, zərə-ziynətə uymamağı tövsiyə edir. Onun fikrincə qadının ən böyük bəzəyi onun ailəsi və düzgün tərbiyə etdiyi uşaqlar olmalıdır. R.Əfəndiyev "Ana kimdir" şerində kişilərə müraciət edərək deyir ki, sizi doğub, yedirdib, içirən, hər cür bəlalardan qoruyan qayğınıza qalan anadır. R.Əfəndiyev "Ana kimdir" adlı şerində ananı aşağıdakı kimi vəsf etmişdir.

*Əzizim, kim sizi doğub böyüdür,*
*Qul kimi qabağınızca gedir,*
*Kim sizə güclü mehribanlıq edir?*
*O gözəl nazlı, mehriban ananız,*
*O sizi bağrına basan ananız!*

*Kim sizi yaxşı doydurub içirir,*
*Kim sizə dadlı yeməklər bişirir,*
*Kim sizə hər nə lazım isə verir?*

*Balanın qeydinə qalan ananız!*
*O sizin odlara yanan ananız!*

R.Əfəndiyev Azərbaycan məktəb və pedaqoji fikir tarixində mühüm yer tutur. O, özünün pedaqoji fəaliyyətilə minlərlə müəllim kadrları tərbiyə edib, yetişdirməklə bərabər, nəzəri fikirləri ilə də pedaqoji fikri zənginləşdirmişdir. Onun qabaqcıl rus pedaqoji ideyalarını təbliğ etməsi, Azərbaycanda təhsilin və pedaqoji fikrin inkişafına böyük kömək etmişdir.

**Г.М. Ахмедов**

## ВИДНЫЙ ПРОСВЕТИТЕЛЬ, ПУБЛИЦИСТ, ЭТНОГРАФ И ПИСАТЕЛЬ РАШИД БЕК ЭФЕНДИЕВ

### РЕЗЮМЕ

Статья посвящена 150-летию со дня рождения известного азербайджанского просветителя, публициста, этнографа и писателя видного продолжателя педагогических идей К.Д. Ушинского в Азербайджане Рашид бека Эфендиева. Анализируя его научно-педагогическое творчество, автор так же оценивает его деятельность в области развития образования и воспитания молодого поколения в Азербайджане.

**H.M. Ahmadov**

## PROMINENT EDUCATOR, PUBLICIST, ETHNOGRAPHER AND WRITER RASHID BEY EFENDIYEV

### SUMMARY

The article is devoted to the 150th anniversary of the famous Azerbaijani educator, journalist, writer and ethnographer prominent successor pedagogical ideas K.D. Ushinsky Azerbaijan Rashid Bey Efendiyeva. Analyzing its scientific and pedagogical creativity, the author also otsenivayaet its activities in the field of education and upbringing of the younger generation in Azerbaijan.

*Redaksiyaya daxil olub: 30.12.2013*

# AZƏRBAYCANDA İDMANIN VƏ OLİMPİYA HƏRƏKATININ İNKİŞAFI İSTİQAMƏTLƏRİ

**Dilqəm Quliyev,**
*pedaqogika üzrə fəlsəfə doktoru, professor,*
*Az.DBTİA-nın prorektoru*
E-mail: d.quliyev @ mail.ru

**Rəyçilər**: *ped.elm.dok.* **P.B. Əliyev**,
*ped.elm.dok.* **İ.H. Cəbrayılov**

***Ачар сюзляр:*** *idman siyasəti, dövlətin idmançılara diqqət və qayğısı, ölkədə idmanın maddi-texniki bazası, müasir Olimpiya oyunları, Milli Olimpiya Komitəsi, riyazi reqlamlaşdırma metodu, beynəlxalq miqyasda böyük nüfuz qazana bilmiş, fəaliyyəti və əldə etdiyi nailiyyətləri*

***Ключевые слова:*** *политика спорта, внимание и забота государства к спортсменам, материально-техническая база страны, современные олимпийские игры,национальный олимпийский комитет, спортсмены, метод математического регламентирования.*

***Keywopдc:*** *sport policy the state care and attention to the sportsmen the material and technical base of sport in the country, the Modern Olympic Games, the national olympic committee, the sportsmen the mathematical regulated method*

Müstəqil Azərbaycan dövlətinin idman siyasətinin əsası da 1993-cü ildə ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və bu sahədə qazanılan uğurlar ildən-ilə yüksələn xətlə davam etmişdir. Məhz bu dövrdən başlayaraq idmanın və Olimpiya Hərəkatının inkişafı üçün dövlət səviyyəsində tədbirlər həyata keçirilməyə başlamış, 1997-ci ilin birinci yarım ilindən sonra isə Milli Olimpiya Komitəsi ölkədə idmanın və Olimpiya Hərəkatının inkişafını keyfiyyətcə yeni mərhələyə qaldırmışdır. 1997-ci ildə cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçilməsi ilə Azərbaycanda idmanın və Olimpiya Hərəkatının intibah dövrü başlamışdır.

Məhz həmin dövrdən başlayaraq, Azərbaycanın Olimpiya oyunlarında iştirakını təmin etmək, Milli Olimpiya Komitəsini beynəlxalq Olimpiya ailəsində nüfuzlu təşkilata çevirmək, idmanın bütün növlərini inkişaf etdirmək, idmançılara diqqət və qayğını artırmaq, onların sosial vəziyyətini yaxşılaşdırmaq, uğurlarını və əməyini qiymətləndirmək, ölkədə idmanın maddi-texniki bazasını möhkəmləndirmək, idmanın kütləviliyini artırmaq, uşaq və yeniyetmələri idmana cəlb etmək və s. kimi çətin vəzifələrin həyata keçirilməsi üçün kompleks proqramların reallaşdırılması işinə start verilmişdir. Uğurla həyata keçirilən belə tədbirlərin nəticəsidir ki, bu gün, sözün əsl mənasında, Azərbaycan Respublikası dünyanın idman dövlətidir. Bütün dünyanın qəbul etdiyi bu məlum həqiqəti ölkəmiz həm idman, həm də Olimpiya Hərəkatı sahəsində həyata keçirilən çox böyük miqyaslı kompleks proqramlar, Azərbaycan atletlərinin Olimpiya oyunlarında, dünya, Avropa çempionatlarında və müxtəlif səviyyəli beynəlxalq yarışlarda qazandıqları medallar vasitəsilə bir daha sübuta yetirmişdir. Bu böyük uğurlar Azərbaycan idmanının, Azərbaycan dövlətinin təntənəsidir. Milli Olimpiya Komitəsinin tarixi 1992-ci ildən, müstəqil dövlət olaraq, Olimpiya oyunlarında iştirakımızın tarixi isə 1996-cı ildən başlanır. Belə ki, Atlantada (1996-cı il) 1 gümüş medal qazanılmışdırsa, 1997-ci ilin ikinci yarısından başlayaraq həyata keçirilən tədbirlər sayəsində 15 il sonra London Olimpiadasında 10 medal qazanılmışdır. Təbii ki, hər bir Milli Olimpiya Komitəsinin əsas vəzifəsi ölkəsinin Olimpiya oyunlarında təmsil olunmasını təmin etməkdir. İdmançılarımız Azərbaycan bayrağı altında artıq 5 dəfə yay- Atlant-1996, Sidney-2000, Afina-2004, Pekin-2008, London-2012, dörd dəfə isə qış Olimpiya oyunlarında- Naqano-1998, Solt Leyk Siti-2002, Turin-2006 və Vankuver 2010-da iştirak etmişlər. Məhz bu dövrdə Olimpiya oyunlarında yüksələn xətlə əldə olunan uğurlarımız aşağıdakı kimi olmuşdur: Atlantada 1, Sidneydə 3, Afinada 5, Pekində 7, Londonda isə 10 medal. Bu faktlar tarixi gerçəklik olmaqla bərabər, həm də Azərbaycan dövlətinin idman siyasətinin doğruluğunun təsdiqi və təntənəsidir. Bu möhtəşəm

uğurların nəticəsidir ki, Milli Olimpiya Komitəsi beynəlxalq miqyasda böyük nüfuz qazana bilmiş, fəaliyyəti və əldə etdiyi nailiyyətləri ilə BOK- un keçmiş prezidenti Jak Roqq tərəfindən milli olimpiya komitələrinə nümunə göstərilmişdir. Bunun əsasında təsadüflər deyil, məntiqi əsaslara söykənən zərurət dayanmışdır.

Müasir Olimpiya oyunları bu gin dövrümüzün ən böyük idman tədbirlərindən biri olmaqla ümumbəşəri mahiyyət daşıyaraq, planetimizdə milyonlarla insanın qəlbinə yol açmışdır. İndi bütün dünya dövlətləri Olimpiya oyunlarında iştirak edirlər. Tarixə nəzər salsaq, görərik ki, ilk müasir Olimpiya oyunlarında bu mənzərə fərqli olmuşdur. Məsələn, 1896-cı ilin 6 aprelində Yunanıstanın paytaxtı Afina şəhərində keçirilən birinci Olimpiya oyunlarında cəmi 14 ölkə iştirak etmişdirsə, 2012-ci ildə Londonda keçirilən XXX Yay Olimpiya Oyunlarında 204 dövlət təmsil olunmuşdur. Ümumiyyətlə, XXI əsr Olimpiya Hərəkatının daha geniş vüsət alması, genişlənməsi, irəli getməsi ilə səciyyələnir. Azərbaycan bu hərəkatda həmişə olmuşdur. Məlumdur ki, SSRİ 1952-ci ilədək Olimpiya oyunlarında iştirak etmirdi. Bu səbəbdən də Azərbaycan atletlərinin bu möhtəşəm oyunlarda iştirakı təbii ki, mümkün olmamışdır. Lakin bu, heç də o demək deyildir ki, ölkəmizdə Olimpiadaya maraq göstərilməmişdir. Hələ 1925-ci ildə Bakıda "Olimpiya oyunları" adı altında yarışlar keçirilmişdir. Bu, onu göstərir ki, ölkəmizdə Olimpiya oyunları dolayısı yolla da olsa təbliğ edilmişdir. Lakin reallıq ondan ibarətdir ki, Azərbaycan atletlərinin bu oyunlarda iştirakı 1952-ci ildən başlamışdır. İdmançılarımız o dövrdə müstəqil Azərbaycanın deyil, SSRİ komandasının tərkibində çıxış etsələr də, Olimpiya oyunlarında ilk medalımızı məhz bu ildə qazanmışıq. Əlbəttə, o dövrdə SSRİ komandasının tərkibinə düşmək və Olimpiya oyunlarında iştirak etmək çox çətin idi. Ümummilli lider Heydər Əliyev müstəqillik illərində Azərbaycan idmanının qədim, tarixi ənənələrindən bəhs edərkən atletlərimizin o zamanlar beynəlxalq miqyasa çıxa bilmədiyini ürək ağrısı ilə xatırlayaraq demişdir: "Keçmiş dövrlərdə də Azərbaycanın nümayəndələri Olimpiya oyunlarında təmsil olunmuşdular. Bəziləri yüksək nailiyyətlər də əldə etmişlər. Ancaq onlar keçmiş Sovetlər İttifaqını təmsil etmişlər. Eyni zamanda, Azərbaycan tam müstəqil olmadığına görə keçmişdə Sovetlər İttifaqının ümumi komandası da Azərbaycanın idman ustaları istənilən qədər, istənilən miqdarda heç vaxt təmsil olunmamışdır".

Azərbaycanda idmanın Olimpiya Hərəkatının inkişaf tarixini müəyyən mərhələlərə bölsək, heç şübhəsiz ki, ötən əsrin altmışıncı illərinin ikinci yarısını və 70-ci illərini respublikamızda idmanın və Olimpiya Hərəkatının çiçəklənmə dövrü kimi qiymətləndirmək olar. Ümumiyyətlə, 1952-2012-ci illər arasında 15 dəfə yay Olimpiya oyunlarında 237 Azərbaycan idmançısı iştirak etmiş və 18 qızıl, 16 gümüş və 23 bürünc olmaqla, 57 medal qazanılmışdır. O cümlədən, Azərbaycan idmançıları Yay Olimpiya Oyunlarında 1952-ci ildən 1988-ci ilədək SSRİ-nin, 1992-ci ildə isə Müstəqil Dövlətlər Birliyinin yığma komandasının tərkibində çıxış etməli olmuşlar. Bu dövr ərzində idmançılarımız on Olimpiadada iştirak etmiş, 12 qızıl, 11 gümüş və 7 bürünc olmaqla, 30 medal qazanmışdır. Müstəqillik illərində isə Azərbaycan idmançıları 5 yay Olimpiya oyunlarında iştirak etmiş, 6 qızıl, 5 gümüş, 15 bürünc olmaqla, 26 medala sahib çıxmışlar.

Bu günə qədər yay Olimpiya oyunlarının hər biri Azərbaycan idmançıları üçün uğurlu olmuşdur. Atlanta oyunlarında ölkəmiz ilk dəfə müstəqil dövlət kimi iştirak etməsinə baxmayaraq, 23 idmançımızın öz qüvvəsini sınadığı bu möhtəşəm yarışda güləşçimiz Namiq Abdullayev gümüş medal qazanmışdır. Azərbaycan komandası bu nəticə ilə medal qazanan ölkəlr arasında 61-ci sırada qərar tutmuşdur. Avstraliyada keçirilən Sidney-2000 Olimpiadasında 31 idmançımız iştirak etmiş, stend atıcılığı yarışlarında Zemfira Meftahətdinova, sərbəst güləş yarışlarında Namiq Abdullayev qızıl, boks yarışlarında isə Vüqar Ələkbərov bürünc medal qazanmış. Azərbaycan bu oyunlara qatılan 199 ölkə arasında 34-cü, Avropa dövlətləri arasında isə 23-ci yerə cıxmışdır. 2004-cü ildə Afinada kecirilən XXVIII Yay Olimpiya Oyunlarında ölkəmiz 38 idmancı ilə təmsil olunmuşdur. Belə ki, yunan-Roma güləşində Fərid Mansurov qızıl, atıcılıq idmanımızın nümayəndələri Zemfira Meftahətdinova və İradə Aşumova, boksçularımız Ağası Məmmədov və Fuad Aslanov bürünc medal qazanmışlar. Bu nəticə ilə ölkəmiz medal qazana bilmiş 75 dövlət arasında 37-ci yeri tutmuşdur. Pekin-2008 Olimpiadasında isə Azərbaycan idmançıları 7 (1 qızıl, 2 gümüş və 4 bürünc)

medal qazanaraq, (cüdo üzrə Elnur Məmmədli - qızıl, yuna-Roma güləşi üzrə- Rövşən Bayramov, Vitali Rəhimov -gümüş, cüdo üzrə Mövlud Mirəliyev -bürünc, qadın güləşi üzrə Mariya Stadnik-bürünc, sərbəst güləş üzrə Xetaq Qazyumov- bürünc, boks üzrə Şahin İmranov -bürünc) oyunlarda medal əldə edən 88 dövlət arasında medalların keyfiyyətinə görə 39-cu, kəmiyyətinə görə 27-ci yerdə qərarlaşmışlar. Azərbaycan Avropa ölkələri arasında medalların keyfiyyətinə görə 19-cu, kəmiyyətinə görə isə 15-ci, MDB təmsilçiləri arasında keyfiyyətə görə 6-cı, kəmiyyətə görə isə 5-ci olmuşdur.

XXX London Yay Olimpiya Oyunlarında 53 idmançı ilə təmsil olunan ölkəmiz bu olimpiadada daha böyük uğur qazanmışdır. İndiyədək iştirak etdiyimiz yay Olimpiya oyunları tarixində ilk dəfə olaraq, daha çox - 10 medal (sərbəst güləş üzrə Toğrul Əsgərov, Şərif Şərifov - qızıl, yuna-Roma üzrə Rövşən Bayramov- gümüş, qadın güləşi üzrə Mariya Stadnik -gümüş, ağırlıqqaldırma üzrə Valentin Xristov -bürünc, yunan-Roma üzrə Emin Əhmədov- bürünc, sərbəst güləş üzrə Xetaq Qazyumov -bürünc,qadın güləşi üzrə Yuliya Ratkeviç- bürünc, boks üzrə Teymur Məmmədov, Məmmədrəsul Məcidov- bürünc) əldə edilmişdir. Bu möhtəşəm bir qələbə idi. Belə ki, Azərbaycan medal qazanan ölkələr sırasında medalların sayına görə 24-cü, Avropa ölkələi arasında 15-ci, müsəlman ölkələri sırasında isə 3-cü yeri tutmuşdur.

**Azərbaycan imdançıları yay Olimpiya oyunlarında (1992-2012)**

| *Şəhər* | *Ölkələrin sayı* | *İdman növü* | *İdmançıların sayı* | *Yer* | *Qızıl* | *Gümüş* | *Bürüc* | *Cəmi* |
|---|---|---|---|---|---|---|---|---|
| *1992 (XXV, Barselona)* | *169* | *4* | *5* | | *2* | | *1* | *3* |
| *1996 (XXVI, Atlanta)* | *197* | *10* | *23* | *61* | | *1* | | *1* |
| *2000 (XXVII, Sidney)* | *199* | *10* | *31* | *34* | *2* | | *1* | *3* |
| *2004 (XXVIII, Afina)* | *202* | *11* | *38* | *37* | *1* | | *4* | *5* |
| *2008 (XXIX, Pekin)* | *204* | *11* | *44* | *39* | *1* | *2* | *4* | *7* |
| *2012 (XXX London)* | *204* | *16* | *53* | *30* | *2* | *2* | *6* | *10* |
| *CƏMİ* | | | *194* | | *8* | *5* | *16* | *29* |

Əlbəttə, bir məqalədə Azərbaycanda xüsusilə son 16 il ərzində çox böyük uğurlar əldə edilən idmanın və Olimpiya Hərəkatının inkişaf tarixini yetərincə araşdırmaq, geniş təhlilini vermək, sadəcə olaraq, mümkün deyildir. Ölkəmizdə sürətlə inkişaf edən idmanın və Olimpiya Hərəkatının aydın mənzərəsini tarixi və elmi müstəvidə əks etdirmək üçün cild-cild kitablar yazmaq lazımdır. Lakin hamıya bəllidir ki, bu sahələrdəki inkişafın nəticəsi olaraq, coxsaylı gələcək uğurlarımız, perspektivlərimiz haqqında daha inamla danışırıq. Çünki bu gün ölkəmiz dünya idman ailəsində, necə deyərlər, söz sahibidir, hörmət və nüfuza malikdir. İlk dəfə olaraq 2015-ci ildə keçiriləcək I Avropa Oyunlarına, 2017-ci ildə kecириləcək İslam Həmrəyliyi Oyunlarına Bakının ev sahibliyi etməsi və digər möhtəşəm beynəlxalq tədbirlərin ölkəmizdə reallaşması, beynəlxalq idman təşkilatları tərəfindən göstərilən etimadın nəticəsidirsə, digər tərəfdən, bu sahədə qazanılmış təcrübənin, Azərbaycanın idman dövləti olmasının qeydsiz-şərtsiz təsdiqidir. Prespektivdə isə atletlərimizin Olimpiya oyunlarında yenə də çoxsaylı uğurlar əldə etməsi, gündən-günə gözəlləşən doğma Bakının yaxın gələcəkdə Olimpiya oyunlarına ev sahibliyi etmək hüququ qazanması var.

Bütün bu uğurların memarı olan Azərbaycan Prezidenti İlham Əliyev demişdir: "Mən əminəm ki, gələcək illərdə biz yüksək templəri saxlayacağıq. Biz əldə edilmiş uğurlarla kifayətlənməyəcəyik. Çünki biz heç bir sahədə əldə edilmiş uğurlarla kifayətlənmirik. Heç bir uğur, heç bir qələbə, heç bir inkişaf bizi sakitləşdirməməlidir və sakitləşdirmir. Biz daim irəliyə, gələcəyə baxmalıyıq”.

## ƏDƏBİYYAT

1.Абийев А., Д.Гулийев. Щелсинкидян башлайан йол. Бакы, 2002.
2.Щцсейнзадя Ч., Рящманов Ъ. Азярбайъан Милли Олимпийа Комитяси 10 ил. Бакы, 2002.
3.Колесов А.И., Ленс Н.А.., Разумовкси Е.А. 2000-ъи ил. ХХВЫЫ Олимпийа ойунлары (Сидней, Австралийа). Йцксяк дяряъяли идманчыларын Сидней шящяринин иглим-ъоьрафи шяраитиня уйьунлашмасы. М.: РОК, 1999.
4.Гулийев Д.Г. Азярбайъанда бядян тярбийяси вя идманын инкишаф тарихи: Бакы: Дярслик, 2004.
5.Гурбанов Ф. Азярбайъан идманчыларынын 2004-ъц ил ХХВЫЫЫ Йай Олимпийа ойунларына щазырлыьынын вя чыхышларынын йекунлары щаггында. Бакы, 2004.

**Д. Кулиев**

### ПУТИ РАЗВИТИЯ СПОРТА И ОЛИМПИЙСКОГО ДВИЖЕНИЯ В АЗЕРБАЙДЖАНЕ

### РЕЗЮМЕ

Политика спорта независимого Азербайджанского государства, меропиятия, проведенные на государственного уровня, направленные на развитие спорта и Олимпийского движения, внимание и забота государства к спортсменам, большие успехи,достигнутые в истории развития спорта и Олимпийского комитета за последние 16 лет в Азербайджане, завоеванные медали Азербайджанскими атлетами на Олимпийских Играх, в Чемпионатах мира, Европы и на разных международных соревнованиях нашли отражение в этой статье.

**D.Gulıyev**

### THE WAYS OF THE DEVOLOPMENT OF SPORT AND OLYMPIC MOVEMENT IN AZERBAIJAN

### SUMMARY

Politics Sports independent state of Azerbaijan, meropiyatiya conducted at the state level aimed at the development of sport and the Olympic movement, attention and care to the athletes of the state, the great successes achieved in the history of sport and the Olympic Committee for the last 16 years in Azerbaijan, Azeri athlete won medals the Olympic Games, world Championships, European and at different international competitions are reflected in this article.

*Redaksiyaya daxil olub: 23.01.2014*

# YENİ NƏŞRLƏR

## PEDAQOQ VƏ TƏLƏBƏLƏR ÜÇÜN DƏYƏRLİ DƏRSLİK: "SOSİAL PEDAQOGİKA"

**Akif Abbasov**,
*pedaqogika üzrə elmlər doktoru, professor,*
*respublikanın Əməkdar müəllimi*

Professor Hikmət Əlizadə və dosent Rəhimə Mahmudovanın "Sosial pedaqogika" dərsliyi işıq üzü görmüşdür. Sosial pedaqogika pedaqogikanın çox mühüm qollarından, sahələrindən biridir. Qeyd olunmalıdır ki, sanballı, səviyyəli və lazımlı dərslik birdən-birə meydana gəlməmişdir. Müəlliflərin əvvəlcə pedaqogika dərslikləri, sosial pedaqogikanın aktual problemlərini özündə birləşdirən dərs vəsaitləri pedaqoji ictimaiyyətin istifadəsinə verilmiş, sonra onlar diqqət mərkəzinə gətirdiyimiz bu dərslik üzərində işləmişlər. Belə ki, pedaqogika üzrə elmlər doktoru, professor Hikmət Əlizadə prof. A.N. Abbasovla "Pedaqogika", ayrıca olaraq "Sosial pedaqogikanın aktual problemləri", Q. Abbasova və R. Mahmudova ilə birğə "Təhsilin sosial-pedaqoji məsələləri"; pedaqogika üzrə fəlsəfə doktoru, dosent Rəhimə Mahmudova da öz növbəsində prof. L.N. Qasımova ilə "Pedaqogika" (mühazirə kursu), H. Əlizadə və Q. Abbasova ilə birgə "Təhsilin sosial-pedaqoji məsələləri" tədris vəsaitlərini yazmışlar.

Göründüyü kimi, "Sosial pedaqogika"nın, müasir pedaqoji tədqiqatların əsasında dəyərli və əhəmiyyətli bir dərslik kimi meydana gəlməsinin obyektiv səbəbləri vardır. O, gərgin zəhmətin bəhrəsidir.

Dərslik "Sosial pedaqogikanın elmi-nəzəri əsasları", "Şəxsiyyətin sosial inkişafı və tərbiyəsi", "Sosial pedaqoji fəaliyyətin əsasları" kimi üç bölmədən ibarətdir. Birinci bölməyə "Sosial pedaqogikanın obyekti, predmeti və vəzifələri", "Sosial-pedaqoji tədqiqatlar", "Sosial pedaqogikanın prinsipləri", "Sosial-pedaqoji proses: mahiyyəti və onun təkmilləşdirilməsi yolları"; ikinsi bölməyə "Şəxsiyyətin sosiallaşması: mikro-,mezo- və makro amillərin sosial pedaqoji məsələləri"; "İnsanın adaptasiyası, dezadaptasiyası və readaptasiyası kimi mühüm fəsillər daxildir.

Dərsliyin üçüncü bölməsi digər bölmələrlə müqayisədə kifayət qədər genişdir. "Təhsilin sosial-pedaqoji məsələləri"; "Tərbiyənin sosial-pedaqoji məsələləri", "Sosial tərbiyə vasitəsi kimi", "Ailə tərbiyəsinin sosial-pedaqoji problemləri", "Sosial pedaqogikada uşaqların tipologiyası məsələsi və diferensial yanaşma", "Kollektivin sosial-pedaqoji məsələləri", "Sosial pedaqoqun şəxsiyyəti və sosial-pedaqoji fəaliyyətinin xüsusiyyətləri" kimi fəsilləri əhatə edir.

Dərslikdə deyilir: "Pedaqogikanın əsas anlayışları tərbiyə, təlim və təhsildir. Sosial pedaqogika da elə bu məsələləri öyrənir. Ancaq bir şərtlə, onu tərifdə göstərilən məsələlər ... sosial baxımdan maraqlandırır". Bu müddəaya əsaslanaraq, müəlliflər belə qənaətə gəlirlər ki, "Sosial pedaqogika bir elm sahəsi kimi öz-özlüyündə sosial və pedaqoji sahələri öyrənmir, onun fenomenologiyasını sosial-pedaqoji hadisələr təşkil edir. Pedaqogika elmi bu mühüm problemi qnoseoloji aspektdə təhlil edir. Sosial pedaqogika isə, müvafiq problemə, ilk növbədə ontoloji baxımdan yanaşır, sosial-pedaqoji faktları xüsusi tədqiqat sahəsi kimi ayırıb, onların mahiyyətini həmin kontekstdə araşdırır".

Dərslik müəllifləri V.İ. Zaqvyazinski və V.D. Semyonovun aşağıdakı fikirlərini əsas götürürlər ki, sosial pedaqogika tərbiyəni ictimai hadisə kimi, mənəvi münasibətlərin növü kimi tədqiq edir; o, təkcə cəmiyyətin tərbiyə potensialını deyil, həm də tərbiyəedici qüvvələrin müxtəlif inreqrasiya formaları əsasında onun aktuallaşdırılması yollarını öyrənir.

Daha sonra aşağıdakı suallara cavab axtarılır: ailənin peşə-təhsil strukturu şagirdlərin təliminə necə təsir göstərir? Sosiallaşma prosesinin başlıca xüsusiyyətləri hansıdır? Qaçqın və məcburu

köçkün uşaqları necə tərbiyə olunmalıdırlar? Uşaq və gənclərin formal və qeyri-formal qrupları sosial pedaqoji baxımdan hansı xüsusiyyətlərlə səciyyələnir? Miqrant uşaqların inkişafı və tərbiyəsi üçün hansı məsələlər seçilməlidir?

Bildiyimiz kimi, sosial pedaqogika sosiologiya və pedaqogika elmlərinin vəhdətindən meydana gəlib, formalaşıb. Sosial pedaqogikanın nəzəri-metodoloji problemlərinin həlli, təbii ki, pedaqogika və sosiologiya ilə əlaqədardır. Sosial pedaqogikanın da obyekti, predmeti, tədqiqat metodları, anlayışlar sistemi mövcuddur. O, pedaqoji elmlər sistemində müstəqil və yeni elm sahəsi kimi özünəməxsus yer almışdır.

Bunun faydalılığını, ali məktəblərdə tədris olunduğunu, müəllim-professor heyətinin və tələbə oğlan və qızların duyulan ehtiyacını nəzərə alaraq, professor Hikmət Əlizadə və dosent Rəhimə Mahmudovanın qələmə aldıqları “Sosial pedaqogika” dərsliyini yalnız və yalnız təqdir etmək olar. Dərsliyə “Bakı Universiteti” nəşriyyatı həyat vermişdir. Elmi redaktoru prof. Əjdər Ağayev; rəyçilər professorlar Fərrux Rüstəmov, Ləzifə Qasımova və Nübar Muxtarovadır.

Dərsliyə daxil olan mövzular qənaətləndirici səviyyədə işlənmişdir. Bu zaman müasir dövrün və pedaqoji təfəkkürün tələbləri nəzərə alınmışdır. Diqqəti cəlb edən mövzulardan biri “Sosial pedaqogikanın əhəmiyyəti və vəzifələri”dir. Burada müəlliflər bu ali məktəb fənninin meydana gəlmə səbəblərinin üzərində dayanırlar. Məlum olduğu üçün, insan amili xüsusi dəyər qazandığından və sosial problemlərin Yer üzünün çox önəmli problemlərindən biri olduğundan həmin problemlərin həllinə yardım etmək baxımından yeni peşə sahiblərinə ehtiyac yaranıb. Ali təhsil müəssisələri onların hazırlıqları ilə məşğul olurlar. İnstitut və universitetlərdə xüsusi sosial pedaqoq ixtisasları üzrə hazırlıq aparılır, təhsillərini başa vurduqdan sonra məzunlar sosial işçilər kimi fəaliyyət göstərirlər. Sosial pedaqoqlar ümumtəhsil məktəblərdə və digər tip məktəblərdə, məktəb mikrorayonunda, mənzil-istismar sahələrində və s. təlim-tərbiyə işinin təşkilatçısı vəzifəsini yerinə yetirirlər.

Onların köməyilə neqativ demoqrafik təsirlərin neytrallaşdırılması, korreksiya edilməsi və aradan qaldırılması mümkün olur. Sosial pedaqoqlar məktəbdə demoqrafik proseslərin – doğum, ölüm, boşanma, təkrar nikah və miqrasiyanın nəticələrini öyrənir, müəllimlər və şagirdlər arasında iş aparırlar. Müəllimlərlə iş bu istiqamətdə onların maarifləndirilməsini nəzərdə tutur ki, bu da məktəblilərlə tərbiyə işlərinin düzgün qurulmasına, onların problemlərini öyrənməyə, çətinliklərini həll etməyə və s. imkan verir. Bu xüsusda dərslik müəllifləri yazırlar: “Təhsil və tərbiyənin sosial pedaqoji məsələlərinin, sosiallaşma prosesinin təhlili və şəxsiyyətin formalaşması prosesinin intensivləşdirilməsi, kollektivin sosial-pedaqoji problemləri, xüsusilə müxtəlif inkişaf mərhələlərində tərbiyə işinin xüsusiyyətləri, ünsiyyət və asudə vaxt məsələləri, uşaqların tipologiyası və diferensial yanaşma, ailə tərbiyəsinin sosial-pedaqoji məsələləri, sosial tərbiyənin nəzəriyyəsi və metodikası kimi bu gün xüsusi aktuallıq kısb edən problemlərin öyrənilməsi onun vəzifələri sırasında xüsusi yer tutur”.

Prof. H.Ə. Əlizadə və dos. R.M. Mahmudova sosial elmlərin pedaqoji problemlərini, sosial-pedaqoji tədqiqatın nəzəri-metodoloji məsələlərini və mərhələlərini; sosial pedaqogikada prinsip anlayışını; pedaqoji prosesin mahiyyətini; sosial-pedaqoji fəaliyyətin əsas elementlərini; insanın adaptasiyasını, sosial inkişaf və sosiallaşmada onun yeri və rolunu; insanın dezadaptasiyası və onun səbəbləri, xəbərdarlıq və ona qalibgəlməni; təhsilin sosiologiyası və sosial pedaqogikada təhsil problemi və təlim motivləri: sosial əməkdaşlıq və qrupda iş üsulu məsələlərini və s. diqqət mərkəzində saxlayırlar. Haqqında söz açdığımız problemlərin hər biri müvafiq fəsillərdə yarımfəsillər kimi verilmişdir və tələbələrdə ayrı-ayrı mövzular barədə aydın təsəvvür yaradır.

Digər məsələlərlə yanaşı bu faydalı dərslikdə şagirdlərin təlimə münasibətinin formalaşmasında sosial-pedaqoji amillərin rolu; ümumi və peşə təhsilinin bəzi sosial-pedaqoji məsələləri; sinfin sosial-pedaqoji xarakteristikası və təlim prosesində pedaqoji korreksiya işinin xüsusiyyətləri; ali təhsilin sosial-pedaqoji məsələləri; tələbə müstəqil işlərinin vacibliyi; tərbiyənin sosiologiyası və sosial pedaqogikada tərbiyə məsələləri; sosial tərbiyənin istiqamətləri: problemlər və vəzifələr; uşaqların tipologiyası; sosial tərbiyə məsələləri və onun idarə olunması; sosial tərbiyə

prosesinin optimallaşdırılması: dolayı təsir vasitələri və s. kimi məsələlərlə də tanış olmaq mümkündür.

Diqqəti cəlb edən yarımfəsillər sırasında ailənin sosioloji, demoqrafik və sosial-pedaqoji məsələləri; ailə münasibətləri: ailənin tərbiyə imkanları; qaçqın, yetim, əlil, miqrant və "çətin" uşaqların tərbiyəsinin sosial-pedaqoji məsələləri; kollektiv tərbiyə nəzəriyyəsi və təcrübəsi; sinif kiçik qrup (kollektiv) kimi və s. mövzular tələbələrdə dərin maraq yaradacaqdır.

Biz əminik ki, bu dərslikdən pedaqoq və psixoloqlar, ali və orta ixtisas məktəbləri tələbələri, magistrlər, müəllimlər, gənc tədqiqatçılar, dissertant və doktorantlar, sosial pedaqoqlar, sosial işçilər və ümumiyyətlə, pedaqoji ictimaiyyət faydalanacaqlar.

*Redaksiyaya daxil olub: 21.02.2014*

# MÜNDƏRİCAT

*Ümumpedaqoji problemlər*

**Arif Bəşirov.** Təhsil fəlsəfəsi ümumi fəlsəfənin tərkib hissəsidir........3
**Mirhəsən Eminov.** Pedaqoji anlamda şəxsiyyət və zamanın tələbləri ........7
**Məmməd Kazımov.** Təhsil menecerlərinin hazırlanmasında təlim keyfiyyətinin yüksəldilməsinə nəzarət........12

*Fənlərin tədrisi metodikası*

**Abdulla Mehrabov, Müdafiə Mahmudov.** Texniki ali məktəblərdə ali riyaziyyat və ümumi fizika kurslarının tədrisində qarşıya çıxan problemlər və onların aradan qaldırılması yolları ........16
**Şəmistan Mikayılov.** Ədəbiyyatda kompozisiya və süjet anlayışları bədii vasitə kimi........28
**İsmət Məmmədova.** Yeni pedaqoji texnologiyalardan istifadə təlimin keyfiyyətinin yüksəldilməsində mühüm vasitə kimi ........34
**Xalidə Həsənova, Natəvan Allahverdiyeva, Növrəstə Abdullayeva.** Riyaziyyat kursunda onluq kəsrlərin öyrədilməsi metodikası ........40
**Asya Bəkirova.** Ədəbiyyat söz sənətidir........45
**Rəhimə Mahmudova.** Seminar məşğələlərində tələbələrin müstəqil fəaliyyətlərinin formalaşması imkanları........51
**Зярювшян Бабайева**. Биолоэийанын тядрисиндя фяргли методика........58
**Xudaşükür Əliyev.** Ümumtəhsil məktəblərində biologiyanın tədrisində İKT-dən istifadənin imkanları........63
**Йусиф Бабанлы.** İbtidai siniflərdə fiziki tərbiyə dərslərinin tədrisi prosesində qarşıya çıxan çətinliklər və onların aradan qaldırılması yolları........67
**Rəhiməxanım Məmmədzadə.** İbtidai siniflərdə Azərbaycan dili dərslərində fonetik anlayışlardan istifadə etməklə şagirdlərin idrak fəaliyyətinin yüksəldilməsi........72

*Yeni pedaqoji texnologiyalar*

**Rəfiq Qəndilov, Zeynal Zeynalov.** Yeni fənn kurikulumlarının tətbiqi nəticələrinin monitorinqi və keyfiyyət göstəriciləri........76

*Tərbiyə məsələləri*

**Oruc Həsənli.** Tarix diyarşünaslıq dərnəyinin mənəvi keyfiyyətlərə təsiri........80
**Бибиханым Агаева.** Формирование научно правового мировоззрения........86
**Xumar Xəlilova, Mərdan Hüseynov.** Uşaq birliyi rəhbərinin şagirdlərlə apardığı tərbiyə işinə dair ........91
**Qaye Arslan.** Uşaqların əxlaq tərbiyəsinin inkişafında Azərbaycan və türk laylalarından istifadənin əhəmiyyəti........95
**Сяадят Щясянова, Вагиф Кяримов.** Мцасир шяраитдя милли яняnялярдян истифадя йоллары ........100
**Mənzilə Rəhimova.** İmadəddin Nəsimi yaradıcılığında tərbiyə problemi ........107
**Şəfəq Məmmədova.** Uşaq şəxsiyyətinin formalaşmasında valideynlərin rolu........110
**Sevda Həsənova.** Dərsdənkənar tədbirlərdə musiqi nümunələrindən istifadə etməklə şagirdlərin ekoloji tərbiyəsinin təşkili yolları........114
**Ruslan Kamilov.** Şagirdlərdə kişiyə və qadına məxsus xüsusiyyətlərin mənimsənilməsi ........118
**Qudsi Faranak.** İnternetdən istifadə edən məktəblilərin iztirabları ........121

**Hamzehbeigi Kohnehshahri Taiebeh Reza qızı.** İnformasiya-kommunikasiya texnologiyaları təlim informasiya vasitəsi kimi ....................126
**Dəniz Məmmədova.** Məktəbəqədər yaşlı uşaqların tərbiyəsi вя тялими haqqında mövcüd elmi nəzəriyyələr və müasir yanaşmalar....................130
**Şərafət Baxışova.** Məktəbəqədər təhsil inkişafetdirici təlim paradiqmasında....................134

### *Pedaqoji kadrların hazırlanması və ixtisasının artırılması*

**Hümeyir Əhmədov, Zahid Məmmədov.** Azərbaycan universitetlərinin ümumavropa təhsil və elm məkanına inteqrasiya prosesləri: modernləşmənin tələbləri kontekstində....................138
**Asif Hacıyev.** Ali məktəb müəllimlərinin tədqiqatçılıq fəaliyyəti təlimin keyfiyyətinə təsir göstərən mühüm amil kimi....................146
**Mahirə İbadova**. Müəllimin kommunikativ mədəniyyətinin peşə fəaliyyətində formalaşması ....................150

### *Əlavə təhsilin problemləri*

**Adilə Məmmədova.** Əlavə təhsilin keyfiyyətinin yüksəldilməsi ....................153
**Arzu Fərzəliyeva.** Pedaqoji təmayüllü orta ixtisas məktəblərində aşağı kurs tələbələrinin təlim prosesinə adaptasiyası üzrə işin xüsusiyyətləri....................158
**Adilə Nəzərova.** Müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması təhsilin modernləşdirilməsinin şərtlərindən biri kimi ....................161

### *Pedaqoji ekspertiza*

**Нигяр Мурадова.** Педагогическая экспертиза в сфере формирования социального имиджа студента высшего учебного заведения в переходный период общества ....................165

### *Psixologiya*

**Talıb Paşayev.** Дефектолоgiya üzrə кадрларын щазырlanması problemləri....................169
**Tünzalə Verdiyeva.** Autist yeniyetmələrin sosial dezadaptasiyası və ona təsir edən amillər....................175
**Rasim Rəhmanov.** Yeniyetmələrin psixofizioloji xüsusiyyətləri....................181
**Ринард Шарифов.** Роль образовательных и социально-психологических факторов в рациональной организации деятельности у работников профсоюза ....................185
**Диларя Достузадя.** Интеллектуал инкишафы проблемли кичикйашлы мяктяблилярин тяфяккцрцнцн тялим просесиндя инкишаф етдирилмяси имканлары....................191
**Xalidə Talıbova, Aidə Əliyeva.** Kiçikyaşli məktəbli şəxsiyyətinin formalaşmasında özünütəsdiqin rolu ....................195
**Çinarə Hüseynova.** Cinsi identifikasiyanın psixoloji xüsusiyyətləri ....................198

### *Müəllimin şəxsi təhsili*

**Hüseyn Əhmədov.** Məşhur maarifçi, publisist, etnoqraf və yazıçı ....................202
**Dilqəm Quliyev.** Azərbaycanda idmanın və olimpiya hərəkatının inkişafı istiqamətləri ....................208

### *Yeni nəşrlər*

**Akif Abbasov.** Pedaqoq və tələbələr üçün dəyərli dərslik: “Sosial pedaqogika” ....................212

***Jurnal "Viaport" MMC-nin sifarişi ilə***
***"Mütərcim" Nəşriyyat-Poliqrafiya Mərkəzində səhifələnmiş və çap edilmişdir.***

Чапа имзаланыб: 20.05.2014
Формат: 60х84 1/8. Гарнитур: Тимес.
Щяъми: 13, 62. Тираж:100. Сифариш №92.

MÜTƏRCİM

**ТЯРЪЦМЯ**
**ВЯ НЯШРИЙЙАТ-ПОЛИГРАФИЙА**
**МЯРКЯЗИ**

**Аз 1014, Бакы, Рясул Рза кцч., 125**
**596 21 44; 497 06 25; (055) 715 63 99**
**e-mail: mutarjim@mail.ru**
www.mutercim.az



Рисунок 1.

***...ınan məqalələrə tələblər***

...ış məqalələr qəbul edilir.

...rini əks etdirməli, yeni ideyalarla zəngin olmalı, elmi ...ilməlidir.

...lmi və praktik dəyəri, irəli sürülən nəzəri ideyalardan ...z əksini tapmalıdır.

...ifə olmalıdır. Azərbaycan, rus və ingilis dillərində məqaləyə aid açar sözlər verilir.

5. Məqalələr üç dildən - Azərbaycan, ingilis və rus dillərindən birində çap olunur. Yazıldığı dildən əlavə digər iki dildə məqalənin xülasəsi təqdim edilir. Xülasədə müəllifin soyadı, adı, atasının adı, məqalənin adı, irəli sürülən başlıca elmi müddəalar, tədqiqatdan alınan nəticələr, problemin nəzəri və praktik əhəmiyyəti öz əksini tapmalıdır.
6. Məqaləyə müəllif haqqında aşağıdakı məlumatlar təqdim olunur: adı, soyadı, iş yeri, vəzifəsi, elmi dərəcəsi və adı, iş və ev telefonları, ünvanı, E-mail.
7. Həmmüəlliflərin üç nəfərdən artıq olması məqsədəuyğun deyildir.
8. Məqalənin mətni Azərbaycan (yaxud ingilis və rus) dilində A4 formatlı ağ kağızda (Times New Roman) yazılmış halda, elektron variantı ilə birlikdə təqdim olunmalıdır. Məqalə aşağıdakı ardıcıllıqla yazılır: birinci sətirdə böyük hərflərlə məqalənin adı; ikinci sətirdə müəllifin adı və soyadı, elmi dərəcəsi və elmi adı; üçüncü sətirdə iş yeri, vəzifəsi, daha sonra elektron poçtu (E-mail).
9. Redaksiya məqalədə zəruri dəyişiklər və ixtisarlar, redaktə aparmaq hüququna malikdir.
10. Məqalələrə iki mütəxəssisin rəyi, şöbə və ya kafedranın, həmçinin ali məktəbin Elmi Şurasının və orta ixtisas təhsili məktəbinin Pedaqoji Şurasının iclas protokollarından çıxarışlar əlavə olunur.
11. Məqalədəki faktların, məlumatların dürüstlüyünə müəlliflər cavabdehdir. İrəli sürülən elmi müddəalar müəllifin özünə məxsus olmalı, istifadə edilmiş nəzəri fikirlərin mənbəyi göstərilməlidir.
12. Məqalədə son 5-10 ildə çap olunan əsərlərə istinadlara üstünlük verilməlidir. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı əlifba ardıcıllığı ilə deyil, istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və məsələn, (1) və ya (1, s. 119) kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.
13. Məqalələrin mətnləri Azərbaycan dilində latın əlifbası, rus dilində kiril əlifbası və ingilis dilində ingilis (ABŞ) əlifbası ilə Times New Roman-14 şrifti ilə, 1,5 intervalla yığılmalıdır.
14. Jurnal öz profilinə uyğun məqalələri dərc edir.
15. Elmi məqalələrin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq aktuallıq əsaslandırılmalı, elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir.
16. Plagiatlıq faktları aşkar edildikdə həmin məqalənin nəşri dayandırılır.
17. Məqalə müəlliflərinin hüquqları qorunur.
18. Jurnalda «ardı növbəti nömrədə» adı altında seriya məqalələr dərc olunmur.
19. Məqalələrin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun gəlməlidir.
20. Məqalələrdə müəllif(lər)in işlədiyi müəssisə və onun ünvanı, müəllifin elektron poçt ünvanı göstərilməlidir.